SAHİB ƏSƏDOV

# ATEİSTLƏRİN MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR ENSİKLOPEDİYASI

## IV CİLD

İSLAMIN MÜDAFİƏSİ

# ATEİSTLƏRİN MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR ENSİKLOPEDİYASI

## IV CİLD

**SAHİB ƏSƏDOV**

*Mərhəmətli və Rəhimli Allahın adı ilə*

# ÖN SÖZ

*Allaha həmd olsun, Onun peyğəmbəri Muhəmmədə Allahın salamı və xeyir-duası olsun!*

Əziz həmvətənlərim! Əlinizdə olan bu kitab "Ateistlərin Məşhur Şübhələrinə cavablar ensiklopediyası"nın dördüncü cildidir. Ensiklopediyanın hazırlanması uzun bir proses olduğu üçün bütün cildlərinin tamamlanmasını gözləmədik; bu mövzuya olan ehtiyacı nəzərə alaraq, hər bir cildi ayrıca bir kitab kimi təqdim etməyi məqsədəuyğun hesab etdik. Ateistlərin şübhələri barədə Azərbaycan cəmiyyətində belə bir irihəcmli çalışmaya ehtiyac olduğunu 9 il əvvəl təsbit edib bu işə başladıq. Çoxsaylı məşğuliyyətlər içində Allahın müvəffəqiyyətilə dördüncü cildi tamamlayaraq bu çalışmanı da oxuculara təqdim etməyimizdən dolayı sevincliyik. Uca Allahdan istəyirik ki, bizi ensiklopediyanın gələcək üçün nəzərdə tutulan beşinci və altıncı cildlərini də yazıb başa vurmağa müvəffəq etsin!

Ensiklopediyanın bu və bundan öncəki

cildləriylə bağlı bəzi qeydləri oxucuların nəzərinə çatdırmaq istərdik:

1 – Kitabın üslubu.

2 – Kitabın çapı.

3 – Kitabın redaktəsi.

**1 - Kitabın üslubu ilə bağlı qeydlər** :

**a) Yazı və tərtib:** Bu kitab ateizm mövzusunda məşhur şübhələri ələ alaraq onu şəriət dəlilləri də daxil olmaqla, elmi, əqli və s. aspektlərdən ətraflı şəkildə cavablandırmaq yoluyla tərtib edilib. Yəni kitabın cildləri şübhələrə cavablar olan məqalələrimizdən ərsəyə gətirilib.

**b) Mənbələr:** Bu ensiklopediyada Azərbaycan, türk və ərəb dillərində olan yüzlərlə kitablara, məqalələrə, elmi araşdırmalara və elektron mənbələrə (video və məqalə) müraciət edilmişdir. Bu sahədə ərəbcə materiallar daha çox və mötəbər olduğundan, məhz bu dildə olan mənbələrdən istifadəyə üstünlük verilmişdir.

**c) Elmi əmanət:** Müəllif elmi əmanəti qorumaq üçün hər bir mövzunu beynəlxalq

akademik araşdırma üslublarına riayət edərək ərsəyə gətirməyə çalışmışdır. Haşiyə və qeydləri mətn daxilində rəqəmlə verdikdən sonra mətnin sonunda qeydlər və istinadlar bölümündə bu bilgilər yerləşdirilmişdir. Onu da qeyd edək ki, bu ensiklopediyada olan məqalələr tərcümələr deyil, sərbəst elmi araşdırmalardır. Yalnız ensiklopediyanın ilk cildinin sonlarında təxminən üç məqalə tərcümədir. O da sırf ateizmlə mübarizə metodları ilə bağlı olub, şübhələrə cavab olmayan nəqllərdir. Kitabın son redaktəsi zamanı bu üç yazının çıxarılması nəzərdə tutulur. Eyni zamanda ensiklopediyanın bütün cildlərinin tamamlanmasından sonra cildlər daxilində mövzuların yenidən kateqoriyalara uyğun bir şəkildə bölünərək sıralanması və tərtib edilməsi nəzərdə tutulmuşdur.

**d) Məşhur şübhələr:** Ensiklopediyada yerləşdirilən məqalələrin böyük əksəriyyəti məşhur şübhələrdir. "Ateistlərin məşhur şübhələrinə cavablar" başlığı da məhz bu məqsədlə seçilmişdir.

**2 – Kitabın çapı ilə bağlı qeydlər:**

Hal-hazırda müəyyən səbəblərdən kitabın nəşri məqsədilə rəsmi müraciət edilmir. Gələcəkdə

isə ensiklopediyanın bütün cildlərinin nəşri nəzərdə tutulur. Hazırda kitab yalnız elektron (pdf) versiyada yayımlanır. Kitabın müəllifdən icazəsiz şəxsi istifadə xaricində nüsxələrinin çap edilməsi və satışı qadağandır, halallıq verilmir.

**3 – Kitabın redaktəsi ilə bağlı qeydlər:** Müəllifin yazdığı kitabların demək olar ki, hamısı xüsusi redaktorlar tərəfindən oxunub, redaktə edildikdən sonra oxuculara təqdim edilib. Bu ensiklopediya isə irihəcmli olması, bütün cildlərinin tamamlanmaması, kitabda toxunulan mövzulara son zamanlarda ehtiyacın artması səbəbilə redaktə olunmadan paylaşılıb. Allahın yardımı ilə nəzərdə tutulan cildlərin tamamlanmasından sonra əsər köklü surətdə redaktə edilərək yenidən paylaşılacaq.

Yazdı: Sahib Əsədov
Səudiyyə Ərəbistanı. Mədinə şəhəri
Tarix: 14 may. 2026-cı il.

## Sevdiklərin cəhənnəmə düşərkən sən cənnətdə necə kef çəkəcəksən?

**Şübhə belədir:** "Tutaq ki, həqiqətən də cənnət var və siz ordasınız. Milyarlarla insanı qoyaq kənara. Sevdiklərinizin cəhənnəmdə yandığını bilərək necə əbədi olaraq kef çəkəcəksiniz orda?"

*Bu şübhəyə cavab bir neçə aspektdən olacaqdır:*

**Birincisi:** Ən birinci insanın özünü cənnətdə təsəvvür etməsi üçün Cənnəti vəd edən Allahın buyurduğu kimi düşünməsi gərəkir. Bu sualı verən Cənnəti inkar edən insanın verdiyi sualdır. Onun Cənnəti vəd edən Allahın cənnətinin necə olacağını düşünməsi, cənnət və cənnətə aparan yollar haqqında bütün təsəvvürləri yanlışdır. Əgər bir insanın cənnətin özü bir yana qalsın, cənnətə aparan yollar haqqında təsəvvürü qərəzlidirsə, ibadətə lağlağı ilə yanaşırsa, Allahı təhqir edirsə, həccə-ümrəyə istehza edirsə, dinin bütün şüarlarına lağ edirsə, cənnətə aparan yaxşı əməlləri başqa cür pisləyirsə, demək onun cənnətdəki durum və hislər haqqında danışmasında da qərəz yüz faiz mümkündür və onun verdiyi sual da, yaratmağa

çalışdığı təsəvvür də yalandır!

**İkincisi:** Əvvəla insan həqiqi mömindirsə, sevdiklərinin cəhənnəmdə yanmaması üçün bu dünyada oturub cənnətə düşməyi gözləmir ki ondan sonra onların dərdini çəksin, o elə bu dünyadaca onları xilas etməyə çalışır. Əgər müvəffəq olsa nə gözəl, əgər müvəffəq olmasa, mömin yoxdan yaradan Allahı qəsdli şəkildə inkar edən bir qohumuna uca Allahın layiqli cəza verəcəyinə inanır. Mömin inanır ki, Allah heç kimə zülm etmir. Çünki uca Allah buyurmuşdur: "Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər". (Yunus. 44).

Həmçinin möminin sevgisi də, qəzəbi də Allah üçündür. Bu təsəvvür ateistdə yoxdur. Ateist küfr yolunda sevir, küfr yolunda qəzəblənir. Möminin sevgisinin Allah üçün olması haqqında Quran ayələrindən birində Uca Allah buyurur: "Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Rəsuluna düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər.

Allah onların qəlbinə iman yerləşdirmiş və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları və qəsrləri altından çaylar axan cənnətlərə daxil edəcək. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidir. Şübhəsiz ki, məhz Allahın firqəsi nicat tapanlardır". (əl-Həşr. 22). Digər ayət isə belədir: "İnsanlardan elələri də var ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da, Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı görəcəkləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini biləydilər". (əl-Bəqərə. 165).

**Üçüncüsü:** Cənnət əhli ilə cəhənnəm əhlinin dialoqunun necəliyi qeyb olsa da bizə bu haqda ateistin təsəvvürünə ehtiyac qalmır. Çünki Qurani-Kərimdə bu dialoqa aid bəzi misallar verilmişdir. Məsələn; Əraf surəsində deyilir: "Cənnət əhli Od sakinlərini səsləyib deyəcəklər: “Biz Rəbbimizin bizə vəd etdiyinin doğru olduğunu gördük. Siz də

Rəbbinizin sizə vəd etdiyinin doğru olduğunu gördünüzmü?” Onlar: “Bəli!”– deyəcəklər. Bu zaman onların arasında bir carçı səsləyib deyəcəkdir: “Allahın lənəti olsun zalımlara! O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və axirəti inkar edirdilər.”". (Əraf. 44-45). Həmçinin cənnət əhli öz aralarında da danışacaqlar, pis dostları da xatırlayacaqlar: "Onlar bir-birilərinə tərəf dönüb soruşacaqlar. Onlardan biri deyəcək: “Mənim bir tanışım var idi. O deyirdi: “Sən də inananlardansan? Məgər biz öldükdən, torpağa çevrilib sür-sümük olduqdan sonra haqq-hesaba çəkilib cəzalandırılacağıq?!” O sözünə davam edib deyəcək: “Siz onun harada olduğunu görmək istəyirsinizmi?” O boylanıb tanışını Cəhənnəmin ortasında görəcək. və deyəcək: “Allaha and olsun ki, sən məni də məhv edəcəkdin. Əgər Rəbbimin lütfü olmasaydı, mən də Cəhənnəmə gətirilənlərdən olardım. (Saffət. 50-57). Cənnət əhli və cəhənnəm əhlinin dialoqunu vəsf edən ayətlərdən biri də budur: "Hər iki tərəfin arasında pərdə və səddin üzərində hər kəsi simasından tanıyan insanlar olacaqdır ki, onlar Cənnət əhlini səsləyib: “Sizə salam olsun!”

deyəcəklər. Halbuki özləri çox istədikləri halda hələ Cənnətə girməyəcəklər. Onların gözləri Od sakinlərinə tərəf çevrildikdə isə deyəcəklər: “Ey Rəbbimiz, bizi zalımlara tay tutma!” (Əraf. 46-47). Bu mövzuda digər ayətlər də var, lakin bu qədərilə kifayətlənirik.

**Dördüncüsü:** Mövzu ilə bağlı ateistin təsəvvür edə bilmədiyi məsələlərdən biri də odur ki, cənnətdə qüssə-kədər yoxdur. Orada ancaq ləzzət və nemət vardır. Əgər cənnət möminin son mənzilidirsə, oranın xoşbəxtliyi dünya xöşbəxtliyinə bənzəməz, əksinə kamil xoşbəxtlik olar. Kamil xoşbəxtlik üçün isə qüssə-kədər təsəvvür oluna bilməz. Ona görə də Allah öz cənnətində möminləri qüssə-kədərdən azad edəcək, onlar orada kədərlənməyəcəklər. Dəlil isə Quranın bu ayəsidir: "Xeyr! Kim yaxşı əməl sahibi olduğu halda özünü Allaha təslim edərsə, Rəbbi yanında onun mükafatı olar. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər". (əl-Bəqərə. 112). Əgər ateist cənnətdə kədər olmadığını bilmirsə, demək yolun əvvəlindən bəri yanlış

təsəvvür içindədir və beləcə bu şübhənin əsassız olduğu aydın olur.

۞ ۞ ۞

## İslamda kərtənkələni öldürmək əmrinə qarşı çıxanlar!

*Mövzumuz üç aspektdən ələ alınacaqdır:*

1 – Kərtənkələ niyə ziyanverici hesab olunur?

2 – Şəriətdə kərtənkələni öldürmək qadağasının hikməti və dəlili nədir?

3 – Ağlı olmayan heyvanı qətl etmək ədalətlidir, ya yox? - şübhəyə cavab .

Birincisi: *Kərtənkələ niyə ziyanverici hesab olunur?*

Şəriətdə kərtənkələnin öldürülməsi əmri və bunun hikmətinin anlaşılması üçün birinci kərtənkələnin zərərləri təsbit olunmalıdır. Əgər bu

zərərlər təsbit olunarsa, məsələyə ağıl çərçivəsindən baxanların əksər əks arqumentləri qüvvədən düşmüş olar. Gəlin baxaq, görək doğrudanmı kərtənkələ zərərli bir heyvandır?

1 – Kərtənkələ insanların şiddətli qorxusuna səbəb olur, xüsusən də isti mövsümlərdə insanların evlərinə girməyi xoşlayan kərtənkələ qadın və uşaqlarda şiddətli qorxuya səbəb olur. Onun evdən xaric edilməsi və ya öldürülməsi ilə bu qorxu aradan qalxır.

2 – Kərtənkələ müxtəlif böcəkləri yediyi üçün virus daşıyıcısı hesab olunur. Bu virus və bakteriyaların çoxluğu onun növündən növünə doğru fərqlənir .

3 – Kərtənkələnin bəzi növlərinin əhilləşdirilə bilməsi onun qətlinə maneə deyildir. Çünki, onun daşıdığı bakteriya, zəhər və s. amillər onu zərərverici olmaqdan çıxarmır. Kərtənkələ daxil olduğu evlərdə insanların yeməyinə tərəf gedir və

yeməyi tapdığı zaman nəfəsindən üfürür və zəhərini yeməyə ixrac edə bilir. Yaxud onun böcəklərlə qidalanması səbəbilə daşıdığı virusları da insanın qidasına və toxunduğu yerlərə daşıya bilir. Həmçinin, kərtənkələ öz nəcisini də insanların istifadə etdiyi qablara tökə bilir, insanların yaşadığı yerlərdə bütün bu hallar baş verə bilir.

4 – Kərtənkələ insanda bağırsaq xəstəliklərinə yol açan bakteriyaların və tükqurdunun daşıyıcısıdır. Bu bakteriya insana birbaşa isabət edir və onun sağlamlığına təsir edir. O həmçinin, bəzi göbələk xəstəliklərinin yaranmasına səbəb olur, həmçinin, tənəffüs yollarının iltihabına səbəb olan bakteriyaları özündə daşıyır, həmçinin salmonella bakteriyaları səbəbilə təhlükəli xəstəliyə səbəb olur(1).

5 – Həmçinin, kərtənkələ insanın içdiyi bardaqdan da su içə bilir və beləcə insanın xəstələnməsinə və çox xoşagəlməz hala düşməsinə

səbəb ola bilir.

6 – Əgər mətbəxdə olan duza daxil olarsa, duzun içində yuvarlanar və xoşagəlməz bir dəri xəstəliyinə (cüzam) səbəb olar (2). Kərtənkələnin cüzam dəri xəstəliyinə səbəb olması bir çox araşdırmaçıların qeyd etdiyi bir məsələdir. Elə ərəbcə kərtənkələ sözü əsas iki ifadə ilə məşhurdur ki, ondan biri də البرص sözüdür, hansı ki, bu dəri xəstəliyinin adı da kərtənkələ sözü ilə eynidir. Digər ifadə isə الوزغ ifadəsidir. Bu dəri xəstəliyi dərinin üzərində ağ-qara dəyişik rənglər əmələ gəlməsilə dəri üzərində xoşagəlməz görünüş əmələ gətirir.

7 – Kərtənkələ insanın evdəki paltarlarına da zərər verir, paltarlar olan yerlər evə daxil olan kərtənkələnin axtardığı əmin, təhlükəsiz yerlərdən sayılır. Kərtənkələ paltarların üzərində gəzir, öz nəcisini və zəhərini paltarlara bulaşdırır, üzərində daşıdığı mikrobların bulaşması isə aydın məsələdir (3). Pambıq paltarlara və iplərə sürətlə zərər verir

(4).

8 – Kərtənkələ evdə pis və çirkin qoxunun əmələ gəlməsinə səbəb olur (5).

9 – Kərtənkələ ağzı vasitəsilə odun sürətlə alışmasına səbəb olan maddə ifraz edir. O, bu maddəni evdə yemək bişirmək üçün od qalanan yerin yağınlığına ifraz edir ki, bu da hansısa yanğının sürətlə yayılmasına səbəb ola bilər (6).

10 – Kərtənkələnin daxil olduğu yemək qazanlarından yemək yeyənlərin zəhərlənməsi və ya ölməsi haqqında real xəbərlər az deyil (7).

11 - Kərtənkələnin bəzi növləri otyeyən olduğu üçün əkinə, bitkilərə zərər verir. Bu sarıdan kərtənkələ kütləvi zərərverici hesab olunmasa da - çəyirtkə və s. kimi olmasa da - onun bitkilərə zərər verməsini araşdırmaçılar təsdiqləyirlər (8). Kərtənkələlər insanların qidalarına şərik olduğu üçün insanlara zərər verərlər. Xüsusilə də bağçalardakı göyərtiləri yedikləri üçün və

evlərdəki saxsı çiçəklərinə zərər verdikləri üçün sevilməzlər (9).

Bir çox növləri də "həşəratları və bitkilərin yaşıl yeni əmələ gələn hissələrini yeyərək hayatda qalırlar (10).

Əslində isə peyğəmbər tərəfindən kərtənkələnin öldürülməsinin əmr edilməsi əsrlər öncə ilahi hikmətlə bilinən bir həqiqətdir ki, bu, insanların kərtənkələnin zərərlərindən qorunmasına hesablanmışdır. Dünyanın müxtəlif məşhur tibbi və araşdırma mərkəzləri də bu təhlükələri bəyan etmişdir, insanların təhlükəli xəstəliklərə yoluxmamaları üçün kərtənkələdən uzaq olmalarına təşviq etmişlər. Bu mərkəzlərdən "Braun" universiteti, Amerikanın Təbiət cəmiyyəti, "Vəba elmi və ümumi sağlamlıq üzrə Afrika ittifaqı", Uşaq təbabəti şöbəsinə aid "Royal" xəstəxanası (Hampişber və Yanşister), Amerika elmləri jurnalı, Amerika həkimlər və baytarlar birliyi, Qüdsdəki "Ərəbistan" universiteti, "Ceyms Kuk" universiteti, "Florida" uşaq hüquqları ittifaqı, Braziliya "Təbii sərvətlər və Ətraf mühit" institutu,

Elektron araşdırmalar (IPECE) institutu və s. (11).

Sonda kərtənkələnin bu qədər zərərlərini bildikdən sonra hətta deyilsə ki, kərtənkələnin zəhərli növləri azdır və s. biz deyəcəyik ki, kərtənkələnin bu qədər zərərlərinin olmasını bilməyimiz bizə bəs edir və bu onun zərərli heyvan olduğunu isbat edir .

**Qeydlər və istinadlar**:

(1) Soranzi.com saytı, Kertenkele insana zarar verirmi? Isırırmı? - adlı türkcə məqalə .

(2) elconsolto.com saytı, məqalə (ərəbcə): Kərtənkələnin 4 zərəri... Zəhərlənməyə kimi zərər
تصل إلى التسمم – ٤ مخاطر الصحية، ٤

(2) Kərtənkələnin zərərləri haqda (ərəbcə). https://youtu.be/MUGJByomJw8

(3) Dallahjeddah.com الوزغ: تعرف على أضرار الوزغ على الإنسان ) Kərtənkələ: Kərtənkələnin insan bədəninə

olan zərərləri ilə tanış ol .

(4) emarat-news saytı, kərtənkələnin zərərləri məqalə تعرف على أضرار هذا النوع من الزواخف :

(5) Eyni mənbə .

(6) Eyni mənbə .

(7) hyatoky.com saytı ərəbcə məqalə أضرار الوزغ في . البيت Kərtənkələnin evdəki zərərləri.

(8) Maxkorzhnn.ru saytı, Azərbaycan dilində məqalə. Kərtənkələ mənzildə nə ediləcək ?

(9) bursaakilaclama.com saytı, türkcə məqalə. Kertenkele (zararlı) - Bursa Ak ilaçlama.

(10) Atlas.muhendislik.com saytı, Kertenkele zarar verirmi? adlı türkcə məqalə.

(11) Quran.m.com saytı. Məqalə (ərəbcə) الإِعْجَاز . العِلمي فِي أحاديثْ الرَسُول صَلى اللهُ عَليهِ وَسَلم عَنِ الوَزَغ

(12) "Sünən ibn Macəh" əsəri. 3087.

**İkincisi: Şəriətdə kərtənkələni öldürmək əmrinin hikməti nədir? (2-ci hissə)**

Artıq kərtənkələnin zərərləri haqda bir çox məsələləri qeyd etdik və kərtənkələnin zərərli bir heyvan olması bizə bəlli oldu. Peyğəmbərin ﷺ mübarək hədislərində bir qism heyvanlar fasiq heyvanlar adlandırılmışdır ki, bu heyvanlar zərərverici hesab olunur və İslam dininə görə bu heyvanların öldürülməsi əmr olunmuşdur.

*Hədisdə deyilir:* "Beş fasiq heyvan var ki, onlar istər müqəddəs yerlərdə, istər də digər yerlərdə olsun öldürülməlidir: ilan, ala qarğa, siçan, vəhşi it və əqrəb" (11). Bu qism öldürülməsi əmr olunan heyvanlar zərəri və əziyyəti ilə digər heyvanları ötüb keçmiş heyvanlardır. Eyni zamanda hədisdə adı keçməyən zərərverici heyvanları da insan həyatına təhlükə yaratdığı zaman və s. hallarda öldürmək icazəlidir. Hədisdə peyğəmbər ﷺ bu qismə daxil olan bəzi heyvanları xüsusi olaraq qeyd etmişdir. Kərtənkələ də başqa bir hədisdə öldürülməsi gərəkən heyvanlardan hesab edilmişdir. Həmçinin, bir başqa hədisdə

peyğəmbər kərtənkələni "kiçik fasiq" adlandırmışdır. (12) hədisdəki "fasiqlik vəsfi" kərtənkələnin faydalı olmaq vəsfindən çıxdığı üçündür, onun bəzi zərərləri haqqında isə mövzunun əvvəlində artıq danışıldı.

Biz müsəlmanlar bütün bu peyğəmbəranə əmrlərin haqq və doğru olmasına inanırıq. Onun Allah Elçisi ﷺ olduğunu təsdiqləyir, insanların xeyrinə olan şeyləri əmr etdiyini, zərərinə olan şeyləri qadağan etdiyinə iman gətiririk.

Heyvanların zərərləri müxtəlif aspektlərdən baş verir, bu o demək deyil ki, hər bəsit zərərə görə hər heyvan öldürülür. Lakin zərərin müxtəlif aspektlərdən baş verməsinə gəlin misallarla nəzərdən keçirək:

**Baxmaqla zərər verənlər:** hamamböcəyi, hörümçək, karabid .

**Eşitməklə zərər verənlər:** İtin hürüməsi, canavarın ulaması, uzunqulağın anqırması .

**Toxunmaqla zərər verənlər:** İlan, əqrəb, arı, eşşəkarısı, dəniz anası (meduzalar, hidroidlər).

**Qoxu vasitəsilə zərər verənlər:** pis qoxu verən gəlincik (sansar).

**Dadmaqla zərər verənlər:** zəhərli heyvanların zəhərinin qidaya qatılması yoluyla və s .(13).

Yuxarıda qeyd etdiyimiz hədisdəki və digər hədislərdəki fasiq heyvanlardan kərtənkələnin öldürülməsinə xüsusi savab vəd edilmişdir. Bu haqda Səid ibn Museyyibin rəvayət etdiyi hədisdə Allahın Elçisi ﷺ Şureykin anasına kərtənkələləri öldürməyi əmr edir". (14). Başqa bir hədisdə peyğəmbər buyurur: "Kim kərtənkələni birinci zərbədən öldürərsə, bu qədər savab qazanar. Hər kim də ikinci zərbədən öldürərsə, birincidən az savab qazanar. Hər kim də üçüncü zərbədən öldürərsə, ikincidən az olmaqla bu qədər savab qazanar" (15). Bu haqda digər sünnə kitablarında da hədislər vardır.

Qaldı ki, İbrahim عليه السلام Peyğəmbərin oda atılması zamanı kərtənkələnin oda üfürməsi haqda hədisə, bu hədis kərtənkələnin əsil öldürülmə səbəbi deyil. Bu hədis kərtənkələnin təbiətinin

xəbis, xislətinin pis olmasını isbat edir. Lakin, kərtənkələnin əsil öldürülmə səbəbi onun zərərli olmasındadır. Daha təfsilatla desək əziyyət verməsi və düşmənçilik etməsidir. Ona görə peyğəmbər kərtənkələni "kiçik fasiq" adlandırmışdır. Artıq bu məsələni yuxarıda izah etdik.

Əgər deyilsə ki, necə ola bilər ki, hədisdə kərtənkələnin oda üfürməsi qeyd olunur, halbuki İbrahimin atıldığı od böyük bir tonqal idi? Cavabında deyərik ki, hədisdə kərtənkələnin üfürməsi ilə odun alışması qeyd olunmayıb, sadəcə kərtənkələnin üfürməsi qeyd olunub, bu üfürmək isə düşmənçilik rəmzidir. Həqiqətdə kərtənkələnin üfürməsinin o böyüklükdə tonqalın alışmasında bir təsiri yoxdur. Bu sadəcə onun təbiətinin xəbisliyini və aşağı xislətli heyvan olmasını göstərir.

Əgər kimsə iddia etsə ki, kərtənkələnin öldürülməsi onun İbrahimin daxil edildiyi tonqala üflədiyi üçündür, onda kərtənkələ soyundan gələn digər kərtənkələlərin günahı nədir? deyərik ki, bu batil bir iddiadır... Çünki, artıq bu qətlin kərtənkələnin zərərlərindən qorunmaq üçün olduğu

bəyan edildi, qətlin məqsədi onu axtarıb tapmaq və intiqam məqsədilə öldürmək deyildir. Necə ki, evdəki hamamböcəklərini və milçəklərin öldürülməsini hər kəs normal qarşılayır, bunun üçün yapışqanlardan və digər vasitələrdən istifadə edirlər.

Bu da evdə bu kimi həşəratların çoxaldığı zaman baş verir.

Biz evində və başqa yerlərdə hamamböcəyi hörümçək, milçək və ya siçovul gördükdə onu tərəddüd etmədən öldürən insanların kərtənkələnin öldürülməsində tərəddüd etdiklərini, hətta dayandıqlarını və bu fikri müdafiə etdiklərini görə bilərik, bu xüsusi bir səbəblə deyil. Yalnız ona görədir ki, onun öldürülməsini Muhəmməd ﷺ peyğəmbər əmr etmişdir.

Həmçinin, biz kərtənkələnin öldürülməsinə vəd edilən savaba, ilk zərbə ilə onu öldürənin ikinci və üçüncü zərbədə öldürəndən daha çox savab qazandığını dediyimiz zaman təəcüblənən və ya bunu məsxərəyə qoyan insanlara deyirik: İzzuddin

AbdusSələm "Ovnul-Məbud" (16) əsərində Kərtənkələni birinci zərbədən öldürməyin hikmətini iki səbəbdən dolayı ola biləcəyini qeyd edir:

1 - Gözəl şəkildə (əziyyət vermədən) öldürmək ki, bu haqda hədisi də qeyd edir .

2 - Xeyirdə yarışmaq haqda əmrə əsasən... Sonra isə xeyir işlərdə savabı artıran amilin çətinlik, yoxsa ixlas amili olması haqda izah verir. Bu məsələni isə məsləhət və zərər anlayışı çərçivəsində izah edir (17). Vəziyyət nə olursa olsun, bir heyvanın zərəri açıq-aşkar ortadadırsa, zərər aradan qaldırılmalıdır. Kimsə deyə bilməz ki, bir Peyğəmbər ﷺ kərtənkələ haqqında danışa bilməz və ya bu haqda danışmaq onun göndərilmə qayəsi ilə uyğun deyil. Əksinə, İslam dini həyatın bütün ictimai, iqtisadi, təbii və reallıqla bağlı sferalarını əhatə edir. "İslam danışa bilməz" demək İslamı və onun peyğəmbərini ﷺ sosial həyatdan təcrid etmək anlamına gəlir. Bu isə mümkün deyildir. İslam peyğəmbəri buyurub ki: "Zərər yoxdur, zərər vermək də yoxdur".(18) Bu hədisə əsasən üsul alimləri "zərər aradan qaldırılmalıdır" mənasında olan məşhur qaydanı həyatın bütün

sahələrinə aid etmişlər. Beləliklə zərər verən şeylər də aradan qaldırılmalıdır. Bütün bunlar isə insanın hüzur içində yaşaması üçündür. Hər bir insan bilməlidir ki, uca Allah nəyi əmr edibsə, o mütləq xeyirdir və ona əməl etmək lazımdır. Uca Allah nəyi qadağan edibsə, o mütləq şərdir və o şərdən uzaq durmaq lazımdır. Kərtənkələnin öldürülməsi əmri də insanların xeyrinədir və bu əmrə tabe olmaq lazımdır .

**Üçüncüsü: Ağlı olmayan heyvanı qətl etmək ədalətlidir, ya yox? (şübhəyə cavab) .**

Bu mövzudan danışarkən "ağlı olmayan" bu heyvanın xəbisliyi və məkrliyinin olması da qeyd olunmalıdır.

Həmçinin, mövzudan danışarkən bilməliyik ki, uca Allah nəinki bütün heyvanları, həmçinin göyləri və yeri insanın xidmətinə vermiş və insana görə yaratmışdır. Necə ki, Qurani-Kərimdə buyurur: **"Göylərdə və yerdə olanların hamısını sizin xidmətinizə verən də Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün dəlillər var".** (Casiyə. 13). Dahi İslam alimi İbn Cərir ət-Təbəri

(Allah ona rəhmət etsin) ayədəki "göylərdə olanlar" sözünü: günəş, ay, ulduzlar olduğunu, "yerdə olanların" isə heyvanlar, ağaclar, dağlar, tərpənməyən yaranmışlar, gəmilər və s. (yerdə insana yararlı olan bütün vəsilələr) olaraq vəsf etmişdir (19). Yəni, heyvanlar da insanın xidmətinə verilmişdir. Heyvanlardan bəzilərindən qida kimi faydalanar, zərərlilərini isə müəyyən şərtlərlə öldürə bilər. Digər ayədə deyilir: **"Yer üzündə olanların hamısını sizə görə xəlq etmişdir".** (əl-Bəqərə. 29) Bu haqda ayətlər çoxdur.

Heyvanların insana görə yaranması və insanların xidmətinə verilməsi anlaşılarsa, bu məsələnin çox hissəsi anlaşılar. Çünki, biz müsəlmanlar vəhyə əsasən etiqadımızı qururuq. Bir fikir "nəfsimizə, havamıza xoş gəldikdə" ona dəlil axtarmırıq, əvvəlcədən mövcud olan və vəhyə tabe olan dəlil üzərində etiqadımızı qururuq. Haqdan uzaqlaşanlar isə birinci yeni bir fikir tapır, sonra o fikri əsaslandırmaq üçün dəlil axtarırlar.

Sonra isə heyvanın vəhyə əsasən öldürülməsi

məsələsindən danışarkən, kərtənkələyə yazığı gələnlər haqda dedik ki, heç ilan və əqrəb öldürəndə bu yazıqlıq onların yadına düşmür. Nədənsə peyğəmbərin ﷺ əmr etdiyi bir məsələ gələn kimi "yazıqlıq" iddiaları ortaya sürülür, hətta həmin heyvanın zərərli və bir çox insanlar üçün qorxunc və iyrənc olması ortada olsa belə bu iddialar yenə edilir. Bu haqda ikinci məsələdə danışmışdıq.

Həmçinin, heyvanlar yaxşı və pis əməllərinə görə cənnətə və cəhənnəmə getmirlər. Çünki, onlar ağılla mükəlləf olmadıqları üçün yaxşı və pis işlər üçün mükəlləf deyillər. Sadəcə verdikləri zərərlərə görə onlarla dünyada bilinən bəsit qaydalarla davranılır. Zərərvericilər öldürülür, zərərsizlərə toxunulmur.

"Ədalət anlayışı" haqqında da düzgün təsəvvür qurmaq lazımdır. Bir iş öz, doğru yerinə qoyularsa, bu hikmətdir. Hikmətli olmaq elə ədalətli olmaqdır. Bir məsələnin öz doğru yerinə qoyulub qoyulmadığını bilmək üçün həmin məsələ düzgün analiz edilməlidir. Yanlış təsəvvürlər qurub bu

təsəvvürlərə əsasən "zülm və ədalət məfhumu"nun müzakirəsi edilə bilməz. Allahın əmri məntiqi səbəbi də aşkar olduğu halda mütləq xeyirdir və ədalətlidir. Allahın qadağası məntiqi səbəbi də aşkar olduğu halda zərərdir, onu tərk etmək bəndələr üçün xeyirlidir, bu xeyir də özü-özlüyündə ədalətdir və ya ədalətlidir. Məsələyə bu prizmadan yanaşmaq lazımdır .

Heyvanların insanlar kimi ağrı hissini duyub duymadığı haqda daha geniş bir yazı oxumaq üçün bu məqaləmizi oxumağı tövsiyə edirik: "Heyvanların ağrı çəkməsi nəyə lazımdır?" (20) Məqalədə heyvanların insanlardan daha az ağrı hiss etməsi və ya ümumiyyətlə ağrı hiss etməməsi haqda məsələlər müzakirə olunur. Bu haqda müxtəlif nəzəriyyə, arqumentlərə toxunulur, bəzi elmi araşdırmalara işarət edilir. Heyvanların sinir sistemi, ağrını çəkmə mahiyyəti haqda bir çox məsələlərə toxunulur. Bəzi heyvanların bir-birini ovlaması zamanı ağrı halı yoxmuş kimi bir prossesin olmasına kimi misallar çəkilir, heyvanların ağrı çəkməsi məfhumu haqda mühüm izahlar verilir. Bütün bu izahlar Allahın heyvanları

insanların xidmətinə verməsi ayəsinə müvafiqdir, zidd deyil. Yazını uzatmamaq üçün bu detallara girmədən işarə olunan məqaləni oxumağı tövsiyə edirik! İnanırıq ki, haqqında danışdığımız məqaləni oxuyan kimsə zərərli heyvanın qətli barədə beynindəki müəmmanı çözəcək və dünyadakı bəzi prosseslərin təbii proseslər olduğunu, ağrı mövzusunda da Allahın qüdrətini görəcəyini və haqqında danışılan mövzunun Allahın ədalətinə zidd olmadığını, əksinə onun qüdrət əlamətlərindən olduğunu anlayacaqdır !

## Qeydlər və istinadlar:

(12) Səhih əl-Buxarinin şərhi, Fəthul Bari. Kitabul-Ənbiya. 1/448. no: 3359; Səhihi Müslim imam Nəvəvinin şərhilə. Salam kitabı. Kərtənkələnin öldürülməsinin bəyənilməsi. 8/3371. No: 5737.

(13) beyanelislam.net saytı (ərəbcə) məqalə. Bəyan ensiklopediyası استنكار أمر النبي بقتل الوزغ . (kiçik əlavələrlə).

(14) Səhih əl-Buxarinin şərhi, Fəthul Bari. Yaradılışın başlanması kitabı. 3306. Səhihi Müslim. Nəvəvinin şərhilə. Salam kitabı. 8/3371. No: 5737.

(15) Səhihi Müslim. İmam Nəvəvinin şərhilə. Salam kitabı. Kərtənkələni öldürməyin bəyənilməsi babı. 8/3371-3372. No: 5738.

" (16) Ovnul-Məbud" əsəri əhli sünnədə Sünən Əbi Davud adlı hədis kitabının şərhidir. Müəllifi: Muhəmməd Şəmsül-Haqq Əzimabadidir (hicri tarixlə yaşayıb: 1273-1329).

(17) Daha ətraflı bax: Sünən Əbi Davudun şərhi "Ovnul Məbud" əsəri. Muhəmməd Şəmsül-Haqq Əzimabadi. 14/116.

(18) əl-Ərbəun ən-Nəvəviyyə. İmam Nəvəvi. No: 32.

(19) Cəmiul Bəyən an Təvili Əy əl-Quran. İbn Cərir ət-Təbəri. 13/143-144. Darul-Fikr. 1984.

(20) Ateistlərin sualına cavab: Heyvanların ağrı çəkməsi nəyə lazımdır? Sahib Əsədov. senxatirlat.com saytı.

## Allah bütün yəhudiləri lənətləyib?

**Sual belədir:** Allah bütün yəhudiləri lənətləyib? Axı onların arasında müsəlman olan və başqa dinlərdə olan insanlar var? Bu lənət təkcə keçmişdəki yəhudilərə, yoxsa müasir yəhudilərə də aiddir?

**Qısa cavab belədir:**

• Quran və hədislərdə bütün qeyri-müsəlmanlara ümumi lənət mövcuddur; "Allah kafirlərə lənət etsin, Allah zalımlara lənət etsin və s. şəklində... Xüsusi lənət isə, səbəbli olaraq qeyd olunan lənətlərdir; Birbaşa "Allah yəhudilərə lənət etsin" şəklində deyil, "yəhudilərdən filan əməli edənlər lənətə düçar oldular" şəklində izahla Qurani-Kərimdə bu cür lənətə rast gəlmək olar; Yəhudilərdən bir qismi asi olmalarına və həddi aşmalarına görə (əl-Maidə. 78), bir qismi özlərinə gələn peyğəmbəri və ona nazil olan kitabı inkar etdiklərinə görə (əl-Bəqərə-89), bir qismi isə peyğəmbərlərin qəbri üzərində məscid tikdiklərinə görə lənətlənləniblər (Buxari 1390. Muslim 529).

Bu qeydlərin hamısı səbəbli lənətlərdir. Lakin bu o demək deyil ki, bu günkü bütün yəhudilərin hamısı burada qeyd olunan və olunmayan səbəbli lənətlərin hamısını haqq edirlər. Şəkk yoxdur ki, yəhudi olub müsəlman olanlar bu mənaya daxil deyillər. "Qeyri-müsəlmanlara ümumi şəkildə lənət etməyin icazəli olması haqqında İslam alimləri eyni rəydə olsalar da, qeyri-müsəlmanlara xüsusi lənət (birbaşa şəxslərə) edilməsi haqqında İslam alimləri iki rəy üzrə ixtilaf etmişlər. Bir qism alimlər bunu icazəli görmüş(1), bir qism alimlər isə icazəli görməmişlər(2). Daha üstün olan isə dilin lənətə öyrəşməməsi üçün, həmçinin Allahın müəyyən əməl sahiblərinə lənəti ilə kifayətlənmək qəsdilə və İslam dəvətini düşünərək bu cür lənəti tərk etməkdir. Çünki hədislərdə peyğəmbər mömininin lənət edən, tənə edən olmadığını bildirmişdir" (3).

• **Bir qədər ətraflı izaha gəldikdə isə...** Gəlin ilk öncə lənət sözünün mənası üzərində bir qədər dayanaq;

- **Lənətin lüğəvi və istilahi mənası nədir?**

İbn Faris demişdir: "Ləm, ayn, nun sağlam

əsldir, uzaqlaşdırmağa və qovmağa dəlalət edir". (4). əl-Cövhəri demişdir: "Lənət: xeyirdən uzaqlaşdırmaq və qovmaq mənasındadır". (5).

Bu sözün şəri və ya istilahi mənası da eynilə lüğəvi məna ətrafında dövr edir və Allahın rəhmətindən qovulmaq və uzaqlaşdırılmaq mənasını ifadə edir. Yəni Allah istədiyi zaman kafirləri və günahkarları öz rəhmətindən uzaqlaşdıra və qova bilər (6).

Lənət o anlamda deyil ki, insan bu dünyada nə isə əldə edə bilməyəcək və ya hər şeydən məhrum olacaq, yaxud lənətin mənası pis bir söyüş də deyil. Bu bir söyüş olsaydı, Quran və hədislərdə lənət sözü istifadə edilməzdi. Lənət Allahın rəhmətindən qovulmaq mənasında bir sözdür.

Quran ayələrində və hədislərdə yəhudilər haqqında olan lənət isə ümumidir. Şəkk yoxdur ki, bu lənəti haqq etməyən xüsusi şəxslər bura daxil deyillər. Amma dəlillər ümumi lənət etməkdə bir problem olmadığını göstərir. Çünki şəriət dəlillərinin mənalarının ümumi və xüsusi tərəfləri var. Bunu başa düşmək üçün bir misal verək; hətta peyğəmbər bu ümmətdən olan bəzi günah

sahiblərinə də ümumi lənət edib (7). Bu o demək deyil ki, peyğəmbər ümmətindən olan bu şəxslərə cəhənnəm vəd edib. Lənət ifadəsi bəzi hədislərdə edilən əməlin *"böyük günah"* olmasına dəlalət edir.

Böyük günahın ən məşhur təriflərindən biri ibn Abbasdan, Səid ibn Cübeyrdən, Həsən əl-Bəsridən və başqalarından bu şəkildə nəql edilmişdir: "Böyük günah, uca Allahın odla, qəzəblə, lənətlə və ya əzabla bitirdiyi hər bir günahdır. İbn Salah demişdir: "Böyük günahın əlamətləri vardır. Bunlardan biri hədd cəzasını gərəkdirən haldır. Bir başqası Quran və sünnədə (hədislərdə) odla əzabın və s. vəd edilməsidir. Daha biri isə ayətlə o əməli edən şəxsin fasiq olaraq vəsf edilməsidir. Bundan biri də bu əməli edənə lənət edilməsidir"(8). Həmçinin bu rəy şafiilərədən Mavərdidən (9), Qazi Əbu Yəlanın nəql etdiyinə görə imam Əhməddən (10) varid olub. əl-Qurtubi də bu rəyi üstün görüb (11), İbn Teymiyyə (12) və Zəhəbi (13) və başqalarından da bu rəy varid olmuşdur.

*Deməli, aydın olur ki Quran ayələrində bir əməlin lənətlə vəsf olunması da böyük günahın əlamətlərindən və ya vəsflərindəndir.*

- Həmçinin bu lənət məsələsində bir çox insanlar xətaya yol verərək bir qism yəhudilərə aid olan lənəti ya bütün milliyyəti yəhudi olanlara edir, ya da bəzi yəhudiləri qəsd etmək əvəzinə İsrailə lənət edirlər.

**• Görəsən bu ümumi lənətə "İsrail" də daxildirmi?**

İsrailə lənət etməyə gəldikdə, bu haqda alimlərdən Saleh əl-Fövzan demişdir:

"Yəhudilərin bilinən bir adı vardır, o da "Yəhud"dur, lakin insanlar "İsrail" deyirlər. Halbuki, İsrail İshaqın oğlu Yəqubdur (Onlara Allahın salamı olsun). Bu da onların haqqa batil donu geyindirmələrindəndir. Bəzi insanların problemi də onların, "Allah İsrailə lənət etsin!" demələridir. Yəni "Allah Yəquba (aleyhis-sələm) lənət etsin". Buna görə insan belə ifadə işlətməkdən çəkinməli, "Allah İsrailə lənət etsin" deməməlidir. Desin ki, "Allahın lənəti Yəhudilərə olsun və yaxud da Allah Yəhudilərə lənət

etsin."(14). Qeyd edək ki, alimin ümumi sözü də bizim etdiyimiz izah daxilindədir, Quran və hədislərdən aşkar olan izah etdiyimiz bu mənadan kənara çıxmır. Bir fətvasında bu alim onların mütləq şəkildə lənətlənməsinin doğru olmadığını, etdikləri pis əməllərə görə səbəbli (qeydli) şəkildə lənət olunmalarının gərəkdiyini bildirmişdir (15).

• ***Quran və sünnədə dəlillər səbəbli olaraq gəlib deyə*** *yəhudilərə ümumi lənət edilməsində bir problem yoxdur. Lakin xüsusi izahda deyilməlidir ki bu lənət yəhudi millətinin hər bir fərdinə aid deyil. Gəlin bu səbəbli lənət formalarına misallar çəkək;*

**1** – Aişədən (رضي الله عنها) nəql olunur ki, Peyğəmbər ﷺ son xəstəlik yatağında olarkən demişdi: **"Allah yəhudi və xaçpərəstlərə lənət etsin. Çünki onlar peyğəmbərlərinin qəbirləri üzərində məscidlər tikdilər**.(16)". *Burada səbəbli lənət peyğəmbərlərin qəbirləri üzərində məscidlər tikməklə bağlıdır.*

**2** – Uca Allahın bu ayəsi: **"İsrail oğullarından**

**kafir olanlar, Davudun və Məryəm oğlu İsanın dilindən lənətlənmişdi. Bu, onların asi olmalarına görə və Allahın qoyduğu həddi aşmalarına görə idi"**. (əl-Maidə. 78). Bu ayətdən də görünür ki, keçmişdəkilərdən kimlər lənətlənib və keçmişdə belə bu lənət həqiqi iman sahibi olan yəhudilərə aid olmamışdır. Ayədə keçən من بني إسرائيل "min bəni İsrail" ifadəsi bu lənətin "onlardan bəzilərinə" aid olduğunu göstərir. *Ayədəki مِنْ hərfu cəri ərəbcə تَبْعِضِيَّة "bəzilərinə aid etmə" mənasındadır.*

**3** – *Həm kafirlərə ümumi olan, həm səbəbli lənətə bir misal;* uca Allahın bu ayəsi: **"Onlar dedilər: "Qəlblərimiz örtülüdür!" Xeyr, Allah onları küfrlərinə görə lənətləmişdir. Odur ki, onlar olduqca az inanırlar".** (əl-Bəqərə. 88). Burada küfrə görə ümumi lənət var. Növbəti ayədə isə peyğəmbərə gələn kitabın və peyğəmbərin özünün inkar edilməsi misal çəkilir və kafirlərə bu çirkin əmələ görə lənət edilir. Ayət belədir: "Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir Kitab gəldikdə onu inkar etdilər. Halbuki əvvəllər kafirlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları peyğəmbər gəldikdə isə onu inkar

etdilər. Allahın lənəti olsun kafirlərə!" (əl-Bəqərə. 89).

*4 – Səbəbli lənətlərin çox mühümlərindən biri də bu ayətdədir:* **"Kitabda insanlara bəyan etdikdən sonra, nazil etdiyimiz açıq-aydın dəlilləri və doğru yol göstərən ayələri gizlədən kəslərə həm Allah lənət edər, həm də, lənət edə bilənlər lənət oxuyarlar!"** ((əl-Bəqərə 159).

**5 -** *Ümumi olaraq bütün kafirlərə lənət ayəsi:* **"Küfr edib kafir olaraq ölən kəslərə Allahın, mələklərin və bütün insanların lənəti olsun!"** (əl-Bəqərə. 161).

**6 –** *Ümumi olaraq bütün zalımlara (axirətdə) lənət ayəsi:* **"Bu zaman onların arasında bir carçı səsləyib deyəcəkdir: "Allahın lənəti olsun zalımlara!"** (Əraf. 44).

**7 –** *Zalımlara səbəbli şəkildə lənət edilən ayət:* **"Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: "Bunlar Rəbbinə iftira yaxanlardır"– deyəcəklər. Allahın lənəti olsun zalımlara!"** (Hud. 18). Fikir versəniz, dində lənət yalnız qeyri-müsəlmanlara deyil, dünyada dindar kimi görünüb dini təhrif edib Allaha qarşı yalan

uyduranlar da ən böyük lənətə düçar olanlardan biridirlər. Artıq bəzi günah sahibləri haqqında da ümumi lənət gəlməsi haqqında danışıldı.

## Qeydlər və istinadlar:

1 – Kafirlərə ümumi deyil, xüsusi (fərdlərə edilən) lənəti icazəli görən alimlər deyiblər ki, peyğəmbər içki içən müsəlmana lənət oxuyana bunu qadağan edib dedi ki: "Ona lənət oxuma, çünki o Allahı və onun elçisini sevir". (Buxari. 4069). Deməli, bu hədis dəlildir ki, Allahı və onun elçisini sevməyən kəsə lənət etmək olar, kafir kimsə Allahı və onun elçisini sevmir.

2 – Kafirlərə ümumi deyil, xüsusi (fərdlərə edilən) lənəti icazəli görməyən alimlər isə deyiblər ki, biz onların sonunun necə olacağını bilmirik. Dəlil olaraq Abdullah ibn Ömərin bu hədisini gətirirlər ki, o, sübh namazının sonuncu rükətinin rükusundan qalxarkən peyğəmbərin "səmiallahu limən həmidəh, rabbənə və ləkəl-həmd dedikdən sonra: Ey Allahım! Filankəsə, filankəsə və filankəsə lənət et!" dediyini eşidir və o zaman uca Allah bu ayəti nazil edir: "Bu işin sənə aidiyyəti

yoxdur, – müsəlman olsalar onların tövbəsini qəbul etsin və ya inkar etsələr onlara əzab versin. Çünki onlar zalımdırlar". (Ali İmran. 128).

3 – Daha ətraflı bax: Böyük bir ixtisarla: "Movsuatul Aqidətu vəl Ədyən". 5/2559.

4 – Məqayisul-Luğa. (2/478). Darul-Kutub əl-İlmiyyə. 1420 hicri).

5 – əs-Sihah (6/2196). Darul-İlm Lil-Mələyin. 4-cü nəşr.

6 – Bax: Sifətullah əl-Varidə fil-Kitəb vəs-Sünnə. Səqqaf. Səh. 305. Həmçinin: Mucəmu Əlfazul-Aqidə. Səh. 363.

7 – Məsələn; səhih və məşhur hədislərdə qaşını alan və aldıranlar, homoseksuallıqla məşğul olanlar, faiz (sələm) yeyənlər, şəkil çəkənlər, yerin sərhədlərini dəyişdirənlər, içki (şərab) içənlər və s. lənətləniblər.

8 – "Şərhu Sahihi Müslim". Nəvəvidən nəqllə. 2/85.

9 – "Fəthul-Bari". İbn Həcərdən nəqllə. 10/410.

10 – Eyni mənbə.

11 – Yenə öncəki mənbədə.

12 – Məcmuul-Fətəva. 11/651-655.

13 – "Şərhu Sahihi Müslim". Nəvəvidən nəqllə.

2/85.

14 - Əl-Müntəqa min Əxbəri Seyyidil-Mürsəlin.

15 – Alimin fətvasının video keçidi: https://youtu.be/xQjQWSyp7rQ?si=uY0VNspAzAoitYHj

16 - Buxari 1390. Muslim 529.

۞ ۞ ۞

**Kafirlərin yaxşı əməllərinə görə savab varmı?**

**Sual belədir:** "Müsəlman olmayan insanlar nə üçün savab qazanmırlar ki? Məsələn Ronaldo və ya Ancelina Coli... Onların da xeyirxah əməlləri var axı. Nə üçün onlar savabdan məhrum olacaqlar ?

Cavab üç aspektdən olacaqdır :

**Birincisi:** Allah qatında din yalnız İslamdır. Bu

Quran ayələri və hədislərlə sabitdir. İslamdan öncəki dinlər təhrif olunub. Muhəmməd ﷺ peyğəmbərin peyğəmbərliyini qəbul etməyənlər - Allaha inansalar belə - küfr üzərindədirlər və etdikləri əməllər onlardan qəbul edilməyəcəkdir. Allaha və onun Elçisinə (ikisindən birinə) imanı inkar etmək haqqında uca Allah buyurur: "İmanı inkar edənin əməlləri boşa çıxar və o, axirətdə ziyana uğrayanlardan olar". (əl-Maidə. 5). Ənəs ibn Malikdən rəvayət olunan hədisdə Muhəmməd peyğəmbər ﷺ buyurmuşdur: **"Kafir insan yaxşı bir əməl edərsə, ona dünya yeməklərindən bir yemək yedizdirilər".** (Səhihi Müslim. 2808). Axirətdə ona bir şey qalmaz. Çünki onun küfrü etdiyi əməli puç edər.

Həmçinin, İmam Müslimin Aişədən rəvayət etdiyi hədisdə Aişə (رضي الله عنها) Muhammməd ﷺ peyğəmbərə deyir: **"Ey Allahın Elçisi! Cədanın (müşrik) oğlu İslamdan əvvəlki (cahiliyyə) zamanlarda qohumlarına yaxşı davranır və kasıbları yedizdirirdi. Bunun ona faydası olacaqmı? Dedi: "Xeyr, bunun ona faydası**

**olmayacaq. Çünki o bir gün (bir dəfə belə) Ey Rəbbim! Axirət günü mənim günahımı bağışla" - demədi". (Səhihi Müslim. 214).**

Bu, istər Allaha inanan Ronaldo olsun, istər də Ancelina Coli olsun, o isə ateistdir və onun bu mövzudakı halı daha ağırdır və bu sualın ziddiyyətləri onun haqqında daha çox ortaya çıxır. Çünki axirəti inkar edənin yaxşı əməl müqabilində axirət savabı umması ümumiyyətlə absurddur. Axirəti inkar etmədən son dini inkar edənin durumu ateistdən fərqli olsa da küfr üzərində olduğu üçün onun da əməli məqbul deyil. Lakin Muhəmməd peyğəmbər gəlmədən öncə istər Musa, istər də İsa (عليهما السلام) peyğəmbərin təhrif edilməmiş şəriətini yaşayan həqiqi möminlərdən olan yəhudi və xristianlar Allah qatında möminlərdən hesab olunacaqlar.

İstər sualda qeyd olunan hər iki şəxs olsun, istər də digər İslamdan uzaq olan küfr əhlinin yaxşı əməllərinin qarşılığının bu dünyada ikən artırılaraq veriləcəyi vəd edilmişdir. Lakin, onların axirət

savabından heç bir payları yoxdur, ayətdə deyildiyi kimi: **"Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Belələrinin axirətdə oddan başqa heç bir payı olmaz. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar".** (Hud. 15-16). Başqa ayədə uca Allah qeyri müsəlmanların etdikləri əməllərin puç olması haqqında buyurur: **"Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları sovrulmuş toz dənəciklərinə çevirərik".** (Furqan. 23).

**İkincisi:** Yaxşı əməli edib axirət savabını istəmək üçün Allahın razılığını qazanmaq niyyəti lazımdır, yəni insan əməli xalis Allah rızası üçün etməlidir. Bir əməldə ki, Allahın razılığını qazanmaq niyyəti yoxdursa, ona savab da yoxdur. Bir hədisdə Peyğəmbərimiz əməllərini Allah üçün deyil, insanlara göstərmək üçün edən riyakar insanlar haqqında demişdir: **"Uca Allah insanların əməllərinin qarşılığını aldığı zaman bu cür (riyakar) insanlara deyəcək: Gedin dünyada özünüzü göstərdiyiniz adamların**

**yanına. Görün onların yanında mükafat tapa bilirsinizmi?"** (Səhihut-Tərğib. 32) .

Əməlin qəbul olmasının isə iki şərti var: ixlas və peyğəmbərin etdiyi əmələ (sünnəyə) uyğunluq. Birincisi insan o savab əməli sırf Allahın razılığını qazanmaq üçün etməlidir, riyakarlıqla etməli deyil. İkincisi isə əməlini peyğəmbərin etdiyinə uyğun bir şəkildə etməsi lazımdır. Əgər birinci olarsa, ikinci olmazsa, qəbul olunmaz. İkinci olar və birincisi olmazsa, yenə qəbul olunmaz. Bu şərtlər bir-birinə bağlıdır və hər biri də mövcud olmalıdır.

**Üçüncüsü:** Əxlaq nisbi və dəyişkən deyil, sabitdir, deist və ateist üçün əxlaq və yaxşılıq mövzusu üzərində dayansaq, onlar üçün əxlaq nisbidir və hər şey mənfəətə bağlıdır, həyat praqmatik bir həyatdır. Yalnız mömin axirət üçün çalışır, dinsizin isə belə dərdi olmadığı halda, o öz yaxşı əməllərindən necə savab uma bilər axı? Onlar öz yaxşı əməllərindən dünyəvi mənfəət güdürlərsə, axirətdə savab niyyəti yoxdursa, onda savab ummaları ziddiyyətdir. Çünki əxlaqi dəyərlərin əsli dindən gəlir. Dünya mənfəətinə

köklənmiş dəyərləri əsas götürənlərin axirət savabını ummaları absurddur.

Gəlin buna bir misal verək; Məsələn, elan verilir ki, hökumət döyüşməyə gedənlərə xüsusi müavinət verəcək, bu zaman bütün döyüşən əsgərlər sevinir, "hərbi xidmətdən yayınmayanlara da xüsusi dövlət yardımı veriləcək" xəbərinə də digər kəsim sevinir, bu arada üçüncü bir kəsim isə nə əsgərliyə getmədən, nə də döyüşmədən müavinət almadıqları üçün dövləti söyməyə başlayırlar. Sizcə onların (üçüncü kəsimin) müavinət almaq haqqı varmı? Əlbəttə yox! Onlar nə vuruşmuş, nə də əsgərliyə getməmişlər, başqa işlər uğrunda vuruşmuş, çaba sərf etmiş, bu işə isə vaxt sərf etməmişlər, buna baxmayaraq hələ bir müavinət də istəyirlər, onların bu müavinəti istəməyə haqları çatmır. Onlar deyirlər ki, biz çətin həyat yaşamışıq, dövlət isə deyir ki, çətin həyatı biz əsgərlikdə və döyüşdə keçirənlərə xüsusi müavinət veririk. Siz hökümətdən əlilliyə və ya yaşlılığa görə və ya digər kateqoriyalara görə müavinət istəyə bilərsiniz. Bu müavinət isə qətiyyən sizə aid deyil. Öz haqqınız olmayan bir şeyi tələb etməyin. Bu

məsələ də belə bir misala bənzəyir. İnsan axirəti inkar edir, amma axirət savabı istəyir, çox qəribədir! Yaxud da bəziləri axirəti inkar edən və ya son dini inkar edənlərin savab qazanıb qazanmayacağını elmsiz şəkildə müzakirə edirlər.

## Təkamül nəzəriyyəsinə münasibət

Bu şübhə ateistlərin ən məşhur və ən mühüm şübhələrindən biridir, hansı ki iman və küfr mövzusunda elə bir mübahisə yoxdur ki az qala bu nəzəriyyə haqqında söhbət açılmasın.

Təkamül nəzəriyyəsi haqda söhbətimiz bir neçə aspektdən olacaqdır :

1 - Təkamül nəzəriyyəsi nədir?
2 – Təkamül nəzəriyyəsinin ateistlər üçün "əhəmiyyəti" nədir?
3 - Təkamül nəzəriyyəsinə İslami baxış.

4 - Təkamül nəzəriyyəsinin ziddiyyətləri.
5 - Təkamül nəzəriyyəsi süqut edibmi?

Araşdırma mövzularımız bəlli olduqdan sonra, gəlin bu verilmiş mövzular haqqında ətraflı söhbətimizə keçək:

**1 - Təkamül nəzəriyyəsi nədir?**

Təkamül nəzəriyyəsi qısa olaraq: Yer üzündə - suda və quruda olan - bütün canlılar, quşlar və həşəratlar, insan da daxil olmaqla bütün varlıqların təməli bir kökə dayanır, o da suda ərsəyə gəlmiş bir hüceyrədir. Sonra isə hüceyrələr çoxalmış və inkişaf etmişdir. Bundan da tədrici olaraq və yavaş-yavaş həyat inkişaf etmişdir. Bu prossesdən də silsiləvi şəkildə müxtəlif canlılar meydana gəlmişdir. Bu canlı varlıqlar arasında həyatda qalmaq uğrunda mübarizə getmiş, bu mübarizə zamanı özlərini inkişaf etdirmişlər. Guya ki bu canlılardan hansı həyata daha yaxşı uyğunlaşmış və özünü daha yaxşı inkişaf etdirmişdilər onun həyatda qalmaq şansı yüksəlmişdir. Canlı aləm suda ikən onlardan bəziləri özlərini inkişaf etdirərək quruda yaşamağa uyğunlaşmışlar.

Buradan da suda-quruda yaşayanlar ortaya çıxmış, sonra isə dənizdən tamamilə azad olmuşlar, indiyə kimi də inkişaf edərək müxtəlif cinslərə və növlərə çevrilməkdə davam edirlərmiş. Bunlardan: məməlilərin, sürünənlərin, quşların və həşəratların müxtəlif növlərini göstərmək olar. Təkamül nəzəriyyəsi müxtəsər olaraq bundan ibarətdir (1).

**2 - Təkamül nəzəriyyəsinin ateistlər üçün "əhəmiyyəti" nədir ?**

Bu nəzəriyyənin banisi Çarlz Darvindir (1809-1882): Onun özü belə hətta bu nəzəriyyənin mütləq doğruluğuna inanmamışdır .

"Təkamül nəzəriyyəsi" elə bir xəyaldır ki, bir əsrdən çoxdur ki, ateistlər bu xəyalın doğru olduğunu isbat etməyə, hər bir yolla onu əsaslandırmağa çalışır, bunun üçün də onlarla təxminlər, fərziyyələr irəli sürürlər. Lakin bu günə kimi bu nəzəriyyə xəyal və təsəvvür olmaqdan o yana keçmir, mübahisələri sonlandıran dəlillər ortaya qoyulmur. Kainat ya ilahi yaradılışla ərsəyə gəlib, ya da təkamül yoluyla, üçüncüsünə yer qoymurlar və onlar təkamülü dəstəkləyirlər(2).

Bu nəzəriyyə əslində ateizm üçün bir üstünlük təmin etmir, lakin bir iddia kimi elmi mühitdə çaşqınlıq yaratmaq üçün daha çox istifadə olunur. Nəzəriyyənin ateistlər üçün əhəmiyyəti isə əsasən iki aspektdə görünür :

1 - Bu nəzəriyyə ilahi yaradılış haqqında yeni seçim təqdim edir.

2 - Yaradılışa səmavi kitablarda gəlmiş məlumatlara müxalif mövqedən yanaşır(3).

**Birinci səbəbə gəldikdə:** Təkamül nəzəriyyəsi - doğru olması mübahisə məqsədilə fərz edilərsə - bu zaman təkamül nəzəriyyəsinin yaradanın inkar edilməsi ilə qətiyyən bir əlaqəsi olmaz. Qarşıda bu məqam ətraflı izah ediləcəkdir.

**İkinci səbəbə gəldikdə isə**: dinə qarşı bu müxalif mövqenin də yanlış olması qarşıda bir neçə aspektdən danışılacaqdır .

**3 - Təkamül nəzəriyyəsinə İslami baxış:**

İslam dini insanların bir atanın soyundan gəldiyini xəbər verir. İnsan Adəmdən yaranmışdır.

"Təkamül" nəzəriyyəsi isə bu mühüm etiqadi baxışa müxalifdir və insanı meymunlarla müştərək soya nisbət edir. İslam dini heyvanların bir-birindən törəyib təkamül etdiyini bildirmir (4). Dəlillər heyvanların hər birinin ayrı-ayrı, xüsusi bir yaradılışla yarandığına dəlalət edir .

Bu nəzəriyyəni müdafiə edənlərin İslama zidd mövqeyini müxtəsər bu aspektlərdən qeyd etmək olar:

1 - Təbiətin öz-özünə kortəbii şəkildə yaratması və insanın yaradıcısının olmaması iddiası Qurani-Kərimdəki bu ayəyə müxalifdir: "Allah hər şeyin xaliqidir. O, hər şeyi qoruyandır". (Zümər. 62). Həmçinin bu ayəyə müxalifdir: "Sizi tək bir candan xəlq edən, ünsiyyət bağlayıb rahatlıq tapsın deyə ondan onun zövcəsini yaradan Odur". (Əraf. 189). Həmçinin əz-Zümər surəsi 6-cı ayə və ən-Nisa surəsi 1-ci ayəyə müxalifdir. Həmçinin Qəmər surəsi 49-cu ayədə deyilir: "Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq". Bu nəzəriyyə ayətdəki "qədərincə" sözünə də müxalifdir.

2 - Həmçinin onların canlıların yer üzündə necə

yaranmasını bilmələrini iddia etmələri də bu ayətə müxalifdir: "Mən onları nə göylərin və yerin yaradılışına, nə də özlərinin yaradılışına şahid etmədim". (Kəhf. 51). Təkamülçülər isə tapdıqları sümüklər haqqında çox rahat şəkildə minlərlə, yüz mimlərlə illərin tarixini deyir və iddialı yazılar yazırlar, özlərini və başqalarını bu minilllik təxminlərin həqiqi olduğuna inandırmağa çalışırlar. Halbuki, Allah bizə insanı müstəqil bir yaradılışla yaratdığını xəbər verir: "Bir zaman Rəbbin mələklərə: “Mən yer üzündə bir xəlifə bərqərar edəcəyəm!”– dedikdə…" (Bəqərə. 30). Hətta uca Allah Qurani-Kərimdə insanın yarandığı maddəni belə qeyd etmiş, insanın ilkin mərhələdə torpaqdan (gildən, palçıqdan) yarandığını, sonra isə onun nəslinin sudan davam etdiyini bildirmişdir.

3 - Təkamülçülərin güclü canlıların qalmasını və fəlakətlərin zəif canlıları aradan götürməsini demələri ölümün zəifə də, güclüyə də gəlməsi həqiqətinə müxalifdir: "Hər bir can ölümü dadacaqdır". (Ali İmran. 185). Həmçinin güclü canlıların qalması iddiasına elə eyni nəzəriyyədə təsəvvür edilən ən güclü canlılar olan dinozavrların

yoxa çıxması, milçək və ağcaqanadların isə qalmasını misal çəkmək olar. Əgər desələr ki, biz bununla eyni növdən olanları qəsd edirik, o zaman deyəcəyik ki, zəif də, güclü də ölür, ola bilsin biri digərindən çox yaşasın, amma ölümdən öncə yeni heyvan növü də əmələ gəlmir.

4 - Uca Allah insanı hörmətli etmişdir. Onu canlılar içində fərqli yaratmış və ona üstünlük vermişdir. İnsanın meymunla müştərək bir nəsildən olmasını iddia etmək digər ayələrə müxalif olduğu kimi, insanın hörmətli yaradılmasına da müxalifdir. Uca Allah buyurur: "Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə minik üstündə daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik". (İsra. 70).

5 - Qurani-Kərimdə İblis belə insanın torpaqdan (gildən, palçıqdan) yarandığını təsdiqləyir, müstəqil bir canlı olduğunu təsdiqləmiş, bu haqda ayət belədir: "İblis dedi: “Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!” (Əraf. 12). İblis insana düşmən

olduğu halda təkamüldən danışmır, sadəcə iki iddia edir: insanın müstəqil yaradılışını təsdiqləyir və onun palçıqdan (gildən) yarandığını təsdiqləyir .

İslam mənsubları, İslam alimləri haqlı olaraq "təkamül" nəzəriyyəsinin İslam etiqadına müxalif olduğunu bildirmişlər. Bu məsələ ictihadi məsələ olmayıb Quran və sünnətlə sabit olan bir məsələdir.

Sonradan gələn azsaylı İslam mənsubları, mütəfəkkir və filosoflar isə bu nəzəriyyənin İslamla ziddiyyət təşkil etmədiyini demiş və hətta bu nəzəriyyəni İslamla uyğunlaşdırmağa çalışmış, həmçinin izah etməyə çalışıblar ki, bu nəzəriyyə özü-özlüyündə Allahın inkarına dəlil ola bilməz. Belə şəxslərin ən müasirlərinin gətirdikləri bəzi arqumentlərə qarşıda çox qısa şəkildə cavab vermək mümkündür.

Darvindən əsrlərlə öncə müsəlmanlardan İbn Xaldun, Cahiz, əl-Biruni, İxvan əs-Səfa, Məskveyh (5) və başqaları yaradanı inkar etmədən təkamül haqqında bəzi fərziyyələr söyləmişlər. Lakin bu

fikirlərin heç biri nəzəriyyə formasında olmamış və mütləq bir fikir kimi deyilməmişdir. Bu fikirlərdən sitatların gətirilməsi və təhlili mövzumuzu çox uzadacaq deyə, bu mövzunu başqa, xüsusi bir araşdırmada ələ almaq daha məqsədəuyğun olardı.

Həmçinin, bilmək lazımdır ki, Darvinin nəzəriyyəsi bəşər ağlının nəticəsidir deyə mütləq bir düstur, qanun deyil və tənqidə açıqdır. Bu nəzəriyyəni qəbul etməyi insanlara məcbur etdirmək doğru deyil. Baxmayaraq ki, Avropanın bir sıra elmi dairələri bu yolu tutmuşlar və bu mövzuda tənqidləri qəbullanmaq istəmirlər. Onlar bu nəzəriyyəni mütləq qəbul edilmiş bir qanun kimi insanlığa yeritmək istəyirlər.

Bununla yanaşı - nəzəriyyənin özü İslama uyğun gəlməsə də - təkamül fikrini ilk dəfə ortaya çıxaran heç də Çarlz Darvin olmamışdır. Darvindən əsrlərlə öncə bəzi mütəfəkkirlər belə bir nəzəriyyə haqqında xəbər vermişlər. Bunlardan ilk dəfə Melitosdan olan Tales xəbər vermişdir. Bu şəxs Sokratdan öncə yaşamış filosoflardan biri

olmuşdur (6). O iddia edirdi ki, ilk heyvanlar suda əmələ gəliblər və insanın nəsli balıqlardan gəlir. Elə bu fəlsəfədən təkamül düşüncəsi yaranmışdı. Lakin ən məşhur yunan fəlsəfəçiləri Aristotel, Platon və Roma fəlsəfəçiləri varlıqların ilahi bir yaradılışla yarandığını bildirirdilər (7). Xristianlıq dinində də insanın Allah tərəfindən yaranması fikri müdafiə olunurdu. Darvindən öncə Avropada elmin inkişafa başladığı bir dönəmdə George De Buffon təkamül haqqında "Təbiətin tarixi" (Historie naturelle) kitabında danışmışdı. Hansı ki, 1749-1788-ci illər arasında 36 cilddə ortaya çıxmışdı. Ondan sonra Çarlz Darvinin babası İrasimus Darvin 1794-1796-cı illərdə "Üzvü həyatın qanunları" adlı kitabnda təkamül haqqında bəzi fikirlər irəli sürmüşdü.

Bir qədər öncə qeyd etdiyim bəzi müsəlmanların (8) "təkamül" nəzəriyyəsini İslama uyğunlaşdırmaq üçün gətirdikləri bəzi arqumentlərə qısa cavab verməklə bu mövzunu yekunlaşdırmaq mümkündür. Onlar deyirlər ki:

1 - Quranda: "O sizi mərhələlərlə yaratdı". (Nuh.

14) - ayəsi insan təkamülünün mərhələlərinə işarədir. Buna cavab olaraq deyilir ki, burada insanın təkamülündən deyil, ana bətnində keçdiyi yaranma mərhələləri (nütfə, sonra ələq, sonra mudğa) qəsd olunur (9). Təfsir alimləri də yekdilliklə bu rəyi önə sürmüşlər.

2 - Həmçinin deyirlər ki, Allah insanı başqa canlılarla da, asanlıqla dəyişdirə bilər, ayədə deyilir: "Ey insanlar! Əgər Allah istəsə, sizi yox edib yerinizə başqalarını gətirər. Allah buna qadirdir". (Nisa. 133). Bəli, şəkk yoxdur ki, Allah buna qadirdir və istərsə, bunu edə bilər. Lakin, əvvəla bu ayət təkamül nəzəriyyəsi üçün dəlil sayılmır, çünki bu ayətdə insanın özünəməxsus şəkildə yaranmasının inkarına aid heç bir hərf belə yoxdur. İkincisi isə bu ayətdə təkamülün özünə aid bir dəlil yoxdur. Yəni Allah insanı yox edib başqa canlı yaratsa, insanı özünəməxsus xüsusi bir görkəmdə təkamülsüz yaratdığı kimi yeni yaradacağı canlıları da təkamülsüz yaradacaqdır.

3 - Təkamülçülər həmçinin Qurandakı bu ayəni misal çəkirlər: "De: “Yer üzünü gəzib dolaşın və

Allahın məxluqatı ilk dəfə necə yaratdığına baxın. Sonra Allah ölüləri dirildəcək. Allah hər şeyə qadirdir". (Ənkəbut. 20). Bu ayətdə də təkamülə aid bir məlumat yoxdur. Sual yarana bilər ki, məxluqatın ilk dəfə necə yarandığını yer üzünü gəzməklə necə bilmək olar? Cavab odur ki, bu ayətdə də təkamüldən söhbət getmir. Allah axirəti inkar edənlərə məxluqatın ölülərinə baxmağı tövsiyə edir, keçmişlərin ölülərini yenidən dirildə biləcəyini bildirir. Ayəti tam oxuduğumuz zaman bizə verilən bu məna aydın olur.

Bunlar müsəlman təkamülçülərin bəzi arqumentləri idi və qısa cavablar verildi.

**Mühüm qeyd:** *Təkamül barədə digər məqalələrimiz ensiklopediyanın növbəti cildlərində veriləcəkdir!*

## Qeydlər və istinadlar:


(1) Hivarul-Mulhidin va Şubuhətur-Ruhubiyyin. Dr. Raşid əl-Qalib. səh. 34.

(2) Nazariyyətut-Tətavvur, Dəava… var-Radd. əl-Kitəb əl-Muvassaq bil-Məracil-İlmiyyə əl-Musavvara. Heysəm Talat. səh. səh. 7.

(3) Hivarul-Mulhidin va Şubuhətur-Ruhubiyyin. Dr. Raşid əl-Qalib. səh. 34.

(4) Kitab: Darviniyyə əl-Mutə'əslimə الداروينية المتأسلمة Amr Əbdüləziz. səh. 170.

(5) Məqalə كيف رأى فلاسفة الإسلام نظرية التطور في الكون قبل داروين؟ : məqaləyə keçmək üçün:

https://www.arageek.com/evolution-and-philosophers-of-islam

(6) Rudud uləmə əl-Ğarb Alə əl-İlhad əl-Muasir. Abdullah əs-Suveydi. Johans Kolmnek. 3/901.

(7) Eyni mənbə. 3/900.

(8) Müsəlman təkamülçülər haqqında ərəbcə yazılmış ən gözəl kitablardan biri "الداروينية المتأسلمة" kitabıdır. Müəllif. Amr Əbdüləzizdir .

(9) Bax ibn Cərir ət-Təbərinin təfsiri. Eyni ayənin təfsiri, ibn Abbas və başqalarından nəql olunub.

## Nəhəng insanlar, Adəmin uca boyu, insanların kiçilməsi

**Şübhə belədir:** "Hədisdə gəlir ki, Adəmin boyu 60 dirsək olub, elə o vaxtdan (həmçinin, İslam dini gələndən) indiyə kimi də insanlar kiçilməyə davam edirlər. Sual yaranır ki, antropologiya və arxeologiya elmində yer qabığını bütün araşdırıblar, baxıblar, bizdən milyonlarla il öncə yaşamış dinozavrların, hətta xırda həşəratların belə daşların üzərində izləri var və belə tapıntılar çoxdur. Həmçinin, bizdən əvvəl yaşamış neandertalların az da olsa qalıqları var. Digər heyvanların da bunun kimi... Amma mən bildiyim qədərilə bir dənə 25 metr və ya 12 metr və ya 5 metr boyu olan insanın skeletinə rast gəlinməyib. Yəni hədisdən (anlaşılır ki) insan 30 metrdən balacalaşıb, 29, 28, 27, 26, belə gəlib (balacalaşıb). Nə üçün bu skeletlər tapılmır? Bunu necə cavablandırmaq olar"?

*Cavab aşağıda verilmiş yönlərdən olacaq:*

1 - Tarix boyu canlıların həcminin dəyişilməsi xurafatdır, yoxsa bu məsələ elmi cəhətdən məqbul

sayılır ?

2 - Görəsən, indiyə kimi bugünkü insanlardan daha uzun insan qalıqlarının olduğunu isbat edən arxeoloji tapıntıların olmaması iddiası doğrudurmu ?

3 - Əgər fərz etsək ki, belə bir arxeoloji tapıntılar yoxdur, məgər bu, haqqında danışılan hədisin səhv olduğunu sübut edir?

4 - Neandertal insan nədir və var olubmu ?

• *İndi isə, gəlin cavabın təfsilatı ilə tanış olaq:*

**Birincisi:** Tarix boyu canlıların həcminin dəyişilməsi xurafatdır, yoxsa bu məsələ elmi cəhətdən məqbul sayılır?

Əgər müasir elm heyvanların müxtəlif növlərinin, müxtəlif canlıların həçminin dəyişməsini normal qəbul edirsə, nə üçün mövzu insan olduqda bunu xurafat kimi qələmə verirlər? Bu verilmiş keçid Britaniyanın "Telegraph" qəzetinə aid olan məqalənin keçididir. Bu yazıda araşdırma qrupu 60 milyon il əvvələ aid həcmi dovşan həcmində olan filin qalıqlarını tapdıqlarını

iddia edirlər(1).

Vikipediyada olan bu məqalədə isə atın tarix boyu etdiyi təkamüldən bəhs edilir (2). Məqalədə iddia edildiyinə görə 52 milyon il əvvəl olan atın həcmi tülkü boyda olmuşdur və onun adı Eohippusdur. Əgər iddia olunan dəyişikliklər heyvanlarda mümkündürsə, bunun insanlarda baş verməsinə maneə olan nədir? Təkamül nəzəriyyəsi başdan axıra kimi canlılardakı dəyişiklikləri öyrənir, bu nəzəriyyəni müdafiə edənlərin belə bir sual verməsi daha qəribə görünə bilər.

Nəhəng insanların vaxtilə mövcudluğu Qurani-Kərimdə və peyğəmbərin səhih hədislərində sabitdir. Quranın Əraf surəsi 69-cu ayə və əl-Maidə surəsinin 22-ci ayəsi və s. ayələr, sualda mənası qeyd olunan hədis və s. bura daxildir.

**İkincisi:** Görəsən, indiyə kimi bu günkü insanlardan daha uzun (daha nəhəng) insan qalıqlarının olduğunu isbat edən arxeoloji tapıntıların olmaması iddiası doğrudurmu?

Xeyr. Bu iddia da doğru deyil. İri, nəhəng insanların skeletlərinin tapılması haqqında çoxlu tarixi faktlar mövcuddur. Gəlin bunlardan bəzilərini sadalayaq:

1 - Antropoloq George Faşier Fransada uzunluğu 3 metr yarım olan insanların sümüklərini tapmış və bu tapıntıya Giant of Castelnau (və ya Kastelnau nəhəngi) adını vermişdir (3). Bu isə Bosforun "Boston Kimyası" qəzetinin 1890-ci ildə həmin nəhəng haqqında nəşr etdiyi məqalənin keçididir (4).

2 - Başqa bir nəhəng insan skeleti (Meganthropus A) İkincisi Dünya müharibəsi illərində tapılmışdır və bu tapıntı insan sülaləsinə aid olan Homo erectus-a aid olduğu iddia edilir. Onun hündürlüyü 2 metr 44 santimetr təşkil edir (5).

3 - Amerikanın Texas ştatında yerləşən "Mt. Blanco" muzeyində hündürlüyü 5 metrə kimi çatan insanın ayaq sümüyünün bir hissəsi mövcuddur(6).

4 - Nəhənglərin varlığının aşkar sübutu kimi onların ayaq izlərini göstərmək olar. Onlardan ən məşhuru isə Cənubi Afrikadadır. Onu keçən əsrin əvvəllərində yerli fermer Stoffel Ketci tapıb. Ayaq izinin uzunluğu 1 metr 28 sm idi (7). (bu isə hündürlüyü 4 və ya 5 metrlik bir insan deməkdir).

5 - Min il bundan əvvəl yaşamış ərəb səyahətçisi İbn Fadalan 6 metr uzunluğu olan skelet görüb. Həmin ölçüdə olan skeleti İsveçrədə rus yazıçıları Turgenyev və Korolenko görüblər. Onlar bildirmişdilər ki, bu nəhəng sümüklər 1577-ci ildə həkim Feliks Platernon tərəfindən aşkar edilib) (8).

6 – Həmçinin, 1950-ci ildə Cənubi Afrikada almaz çıxarılarkən hündürlüyü 45 sm olan böyük kəllənin hissələrini tapıblar. Alimlərin fikrinə görə, bu tapıntının təxminən 9 milyon yaşı var (9).

7 - İvan Sanderson, dünyaca məşhur zooloq, bir gün Alan Makşirdan adli bir şəxsdən aldığı məktubla bağlı maraqlı əhvalat bölüşüb. Məktubun müəllifi 1950-ci ildə Alyaskada tikilən yolda

buldozerlə işləyirmiş. O, bildirirdi ki, işçilər qəbir təpələrində iki böyük daşlaşmış kəllə, onurğa və ayaq sümükləri aşkar edibləri. Kəllənin uzunluğu 58 sm, eni 30 sm idi. Qədim nəhənglərin dişləri iki sıradan ibarət idi və proporsional olmayan yastı başları var idi. Onurğalarının uzunluğu kəllə sümükləri kimi müasir insandan üç dəfə böyük idi. Baldır sümüklərinin uzunluğu isə 150-180 sm idi (10).

8 - Bolqarıstanın Varna şəhərinin mərkəzində aparılan təmir işləri zamanı arxeoloqlar nəhəng insan skeleti tapıblar. Eyni zamanda, Odesos qalasının, IV-VI əsrə aid yaşayış evinin qalıqları da aşkar edilib. Alimlər Odesos qalasına girişin tapılması üçün Müqəddəs Nikolay kilsəsinin önündə qazıntılar aparmaq üçün icazə almaq fikrindədirlər(11).

9 - Bolqarıstanda 10 metrlik insan skeletinin tapılması xəbəri; mənbədə xəbər verilir ki, mütəxəssislər qalıqların yaşının təxminən 100 min ilə yaxın olduğunu müəyyənləşdiriblər. Basdırılmış insan skeleti 30 metr dərinlikdə aşkarlanıb (12).

10 - Sront çayının dibindən uzunluğu 5.5 metrə çatan insan skeletinin çıxarılması barədə tarixi məhz Pavsaniya yazıb. Orta əsrlərə aid “Tarix və tamahkarlıq” kitabında isə 4 metrlik insan skeleti barədə məlumat var. Bu skelet Kamberlenddə tapılıb. Maraqlısı odur ki, skelet hərbi libasda olub. Onun yaxınlığında isə nəhəng balta və qılınc tapılıb (13).

11 - XIX əsrdə yaşamış amerikalı hakim Uest arxeoloji qazıntılarla maraqlanırdı. O, Missuri meşələrində qəbir kurqanları tapmışdı. Qəbirlərin içində nəhəng insan sümükləri var idi. Məsələn, bu skeletlərdən birinin alt çənə sümüyü adi insan çənə sümüyündən iki dəfə böyük idi.

İrlandiyada isə XIX əsrin sonlarına doğru hündürlüyü 4 metrə çatan mumiya tapılıb. Bu tapıntı hər kəsə məlum oldu və Mançester, Dublin və Liverpulda təşkil edilən sərgilərdə bir çox insan 4 metrlik insan skeletini gördü (14).

12 - Qədim Roma alimi Pliniy təpənin

uçurulduğu zaman boyu 20 metrə çatan nəhəng insan skeleti görüldüyünü yazıb. O, bu nəhəngi Orion adlandırıb (15).

13 - Filostrat adlı qədim filosof da Efiopiyada boyu 16 metrə çatan insan skeleti gördüyü barədə yazıb (16).

14-2008 - ci ildə Avstraliyada antropoloqlar 67 mm uzunluğu, 42 mm eni olan diş tapıblar. Alimlərin rəyinə görə, bu diş hündürlüyü 7.5 metr, çəkisi 370 kq olan insana məxsusdur. Karbon analizi isə dişin 9 milyon il əvvələ aid olduğunu aşkar edir(17).

15 - Suriyaya təşkil edilən ekspedisiyanın rəhbəri Ernest Muldaşev tərk edilmiş qədim məbəddə iri insan ləpirinin izini tapıb. Ləpirin uzunluğu 90 sm, eni 45 sm-dir. Böyük barmağın uzunluğu 20, çeçələ barmağın uzunluğu isə 15 sm-dir. Bu ölçülərə əsasən, bu ləpir, boyu 10 metr olan insana məxsusdur(18).

16 - Ötən əsrdə bir çox nəhəng qalıq tapılmışdır

Qafqazda, 2000-ci ildə Şərqi Gürcüstanda bir dağ mağarasında arxeoloqlar dörd metrlik nəhənglərin skeletlərini aşkar etmişdilər(19).

17 - Dağ vadilərindən birində bir çox nəhəng fosil sümüyü aşkar edilmişdir. Türkiyədə tapılan insan ayağının fosilləşmiş sümüyü 120 santimetr uzunluğa malik idi. Bu ölçüyə görə, həmin insanın boyu təxminən 5 metr olmalı idi (20).

18 - Avstraliyanın Basarsta Jasper mədənlərində tapılan nəhənglərin qalıntıları: 1985 -ci ildə ərazini xüsusi olaraq meqanthropus qalıqlarının olması ilə əlaqədar araşdıran bir antropoloji ekspedisiya, yerin səthindən üç metr dərinlikdə qazıntılar apardı. Avstraliyalı tədqiqatçılar, başqa şeylərin yanında, 67 mm -lik fosilləşmiş bir molar tapdılar. O, Hündür və eni 42 mm idi. Diş sahibinin boyu ən az 7,5 metr və çəkisi 370 kiloqram olmalı idi! Karbohidrogen analizi, tapıntıların yaşının doqquz milyon il olduğunu təyin etdi (21). 1930-cu illərdə bu ərazidə tez-tez boyunun hündürlüyü 2 metr yarımdan 3 metr yarıma qədər dəyişən nəhəng insan ayaqlarının fosil izləri tapılırdı.

19 - Həmçinin, 1971-ci ildə Kvinslend tarlasını şumlayan fermer Stephen Walker, 5 sm yüksəkliyində dişləri olan böyük bir çənə parçası ilə qarşılaşdı. 1979 -cu ildə Megalong Vadisi Mavi Dağlarda, yerli sakinlər, dərənin səthinin üstündə uzanan nəhəng bir daş tapdılar, üzərində beş barmağı olan nəhəng bir ayağın bir hissəsinin izi görünürdü. Barmaqların eninə ölçüsü 17 santimetr idi. Tapıntı tamamilə sağlam qalsaydı, 60 santimetr uzunluğunda olardı. Buradan belə çıxır ki, həmin izi 6 metr hündürlükdə bir adam qoyub.

20 - Yer üzündə nəhəng insanların olmasının ən mühüm arqumentlərindən biri kimi bu haqda olan araşdırmalarda dünyanın müxtəlif yerlərində tikinti zamanı istifadə edilən iri həcmli qaya daşlarıdır ki, bu daşların müxtəlif yüksəkliklərə ancaq nəhəng insanlar tərəfindən daşınmasının mümkünlüyü təsəvvür edilir. Həmçinin iri qaya daşlarından böyük su çəlləklərinin oyulduğu, bu daşların ən yaxın 70 km məsafədən 2000 yüksəkliklərə kimi daşındığı ərazilər var (23).

• ***İddia:*** *Bu məqamda iddia edilə bilər ki, əgər bu qədər nəhəng insanlar haqqında isbatlar varsa, nə üçün məşhur muzey və mərkəzlərdə bu ekspanatlar nümayiş olunmur?*

**Cavab çox sadədir.** Bu dəlil və sübutlar dinin və dinlərin xeyrinə olan arqumentlərdir. Ona görə də arxeoloji və antropoloji araşdırmalara nəzarət edən böyük mərkəzlər bu cür araşdırma və faktları gizlətməyə çalışırlar:

21 - Okeaniyanın yerli sakinləri Nan Madolu inşa edən nəhənglərdən bəhs edirlər. Alimlər bu məsələyə şübhə ilə yanaşsalar da, azman insanların qalıqları tapılıb. Məşhur arxeoloq Erirx fon Deniken XX əsrin 60-cı illərində arxeoloqlardan ibarət ekspedisiya tərəfindən adalarda çox nəhəng insan sümükləri tapıldığını yazırdı. Arxeoloji qazıntılar çox qısa müddətə dayandırıldı. Müəllifin iddiasına əsasən, sümüklər torpağa basdırıldı və araşdırmalara son verildi. Eyni hadisə Qafqaz dağlarında da baş verdi(24).

22 - Gelencik rayon sakini Pavelin sözlərinə

görə, Xruşşov dönəmində arxeoloqlar onun yaşadığı kənddə iri sümüklər tapıblar. Alimlər orta əsrlərə aid qəbiristanlıqda qazıntı apardıqları zaman bu sümüklərə rast gəliblər. Bu hadisədən dərhal sonra ekspedisiya Moskvaya qayıtdı. Tapılan sümüklər məhv edildi və arxeoloqlar bir daha kəndə qayıtmadılar. Bu, Nan Madolda baş verən hadisə ilə çox oxşardır (25).

Bu mövzu daha geniş araşdırılması gərəkən və alimlərin diqqətində olması gərəkən mühüm mövzulardan biridir. Onu da qeyd edim ki, yazının və nəqllərin uzanmaması üçün onlarla bu cür nəqlləri qeyd etmədən tərk etdim. Təkidlə vurğulayıram ki, kimsə çıxıb deməsin ki, nəhəng insanların heç bir əsər-əlaməti yoxdur. Bəzi faktlar isə nəhəng insanların sümüklərinin dünya ictimaiyyətindən qəsdli şəkildə gizlədildiyini və məhv edildiyini göstərir. O ki, qaldı kimsə bu qədər çoxsaylı fakt və tapıntıların olduğunu bilə-bilə hamısını inkar etsə, ona deyəcəyik ki, bu tapıntıların darvinistlər tərəfindən məhv edilməsi haqqında əlimizdə faktlar var. Amma darvinistlər tərəfindən bu sahəyə maraq olmasını göstərən

faktlar yoxdur.

**Üçüncüsü:** Əgər fərz etsək ki, belə bir arxeoloji tapıntılar yoxdur, məgər bu, haqqında danışılan hədisin səhv olduğunu sübut edir?

Əlbəttə yox. Hətta biz bəşər övladı bu gün daha nəhəng insanların qalıqlarını aşkarlaya bilməsək belə, bu nəhəng insanların olmaması anlamına gəlmir. Ola bilsin ki, gələcəkdə yeni-yeni faktlar ortaya çıxacaqdır, antropologiya elminin mütəxəssisləri bütün faktları açmış ola bilməzlər. Dünya böyükdür və araşdırma ediləsi çox yerlər var. Hər il yeni-yeni qazıntılar olur və bəşər övladı yeni bilgilərlə tanış olur. Həmçinin ola bilər ki, nəhəng insanların cismləri çürüyüb getmiş və onların qalıntıları qalmamışdır .

Peyğəmbərlərin cəsədləri Allahın bir kəraməti olaraq çürümür. Həmçinin də o cəsədlər qorunur və tapılması mümkün deyil.

**Dördüncüsü:** Neandertal insan nədir və var olubmu?

Dr. Heysəm Talat deyir ki: "Neandertal insan təbii bəşər cinsindən olan insandır. Nəsli tükənmiş müxtəlif insan irqlərindən biridir .

Bizimlə neandertal insan arasında olan bəsit fərqlər kimi fərqlər elə bu gün də yer üzündə yaşayan müxtəlif irqlər arasında mövcuddur ."

Bu, arxeologiya alimi Riçard Lekinin sözləridir: "Bu (neandertalla insanın) fərqləri müasir insanın ayrı-ayrı coğrafi irqlərində gördüyümüz fərqlərdən daha azdır (26).

## Qeydlər və istinadlar:


1 - Telegraf qəzetindəki məqalənin keçidi:

https://www.telegraph.co.uk/news/sci...-a-rabbit.html

2 - Atın təkamülü haqqında keçid:

https://en.wikipedia.org/wiki/Evolution_of_the_horse

3 - Kastelnau nəhəngi haqqında olan keçid:

https://en.wikipedia.org/wiki/Giant_of_Castelnau

4 - Həmin nəhəng haqqında digər məqalə:

https://books.google.com.eg/books?id...page&q

&f=false

5 - Meganthropus A tapıntısı haqqında keçid:

https://en.wikipedia.org/wiki/Megant...s_A/Sangiran_6

6 - Beş metr hündürlüyü olan insanın ayaq sümüyü haqda keçid: http://mtblanco.com/visit/

Bu sümüyük hekayəsi haqqında digər bir keçid:

http://mtblanco.com/2000/12/giant-hu...mur-sculpture/

7 - Cənubi Afrikada tapılmış nəhəng insanın ayaq izi: https://axar.az/news/planet/15087.html

8 - İbn Fadalanın, Turgenyev və Korolenkonun gördükləri 6 metr uzunluğu olan insan skeletləri:

https://axar.az/news/planet/15087.html

9 - Cənubi Afrikada nəhəng insanın kəllə sümüyünün tapılması:

https://axar.az/news/planet/15087.html

10 - Alyaskada tapılmış nəhəng insan sümükləri:

https://axar.az/news/planet/15087.html

11 - Məqalə: Varna şəhərində nəhəng insan skeleti tapılıb. Azərtacın xüsusi müxbiri: İqbal Hacıyev .

https://azertag.az/.../varna_seherinde_neheng_insan...

12 - Avropada 10 metr boyu olan insan skeleti .
https://teleqraf.com/news/dunya/224990.html
13 - Məqalə: Arxeoloji qazıntılarda tapılan nəhənglər hansı qövmə məxsusdur?
https://ikisahil.az/post/88067-news-88067
14 - Bax: Öncəki mənbə.
15 - Bax: Öncəki mənbə .
16 - Bax: öncəki mənbə .
17 - Bax: öncəki mənbə .
18 - Bax: öncəki mənbə.
19 - Məqalə: İnsanlar nəhənglərdir, yerin qədim sakinləridir. Lemuriyalılar nəhənglərdir. Helena Blavatskiyin yazısı. Keçid: https://rozavetrovsibir.ru/.../lyudi-giganty-drevnie/...
20 - Bax: öncəki mənbə .
21 - Bax: öncəki mənbə .
22 - Bax: öncəki mənbə.
23 – Videoçarx من هم العمالقة :
https://youtu.be/niNuMDMvgM8?si=GivT9eGO6tWrK2vZ
24 - Məqalə: Arxeoloji qazıntılarda tapılan nəhənglər hansı qövmə məxsusdur? "Ölkə.az" saytına istinadən.

https://ikisahil.az/post/88067-news-88067

25 - Bax: öncəki mənbə .

26 - Nazariyyətu tətavvur, əd-Dəava vər-Radd. 50 sual, 50 cavab. Heysəm Talat. səh. 138.

## Allah tez-tez peyğəmbər göndəribsə, deməli səhv edib?

**Şübhə:** Bəzi ateistlər iddia edirlər ki, Allahın çoxlu peyğəmbər göndərməsi dinin səhv olduğunu göstərir. Bu qədər peyğəmbərin göndərilməsinə nə ehtiyac var idi ki?

**Cavab:** Bu şübhəyə bir neçə aspektdən cavab veriləcəkdir:

**Birincisi:** Bütün peyğəmbərlər bir dinə, təkallahlıq dininə, tövhidə dəvət ediblər, fərqli bir yola dəvət də etməyiblər. Onların yolları (dinləri) bir, yəni İslam, şəriətləri isə ayrı olmuşdur. Qurani

Kərimdəki bu ayətdə qeyd olunduğu kimi: "Ey ümmətlər, hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Fəqət bu fərqli şəriətlər və yollar, sizə verdikləri ilə sizi imtahan etməsi üçündür". (əl-Maidə. 48). Elə isə aydın olur ki, fərqli peyğəmbərlər fərqli bir dinə dəvət etməyiblər. Yəni onlardan heç biri bütlərə sitayiş etməyə dəvət etməyiblər, əksinə İslam dinində göstərilən haqq yola dəvət etmiş, Allaha şərik qoşmaqdan çəkindirmişlər. Buna da dəlil Qurandakı bu ayətdir: "Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– deyə, peyğəmbər göndərmişik". (ən-Nəhl. 36). Anlaşılan budur ki, bütün peyğəmbərlərin göndərilmə qayəsi eynilə İslamdakı qayə olmuşdur.

**İkincisi:** Başqa-başqa peyğəmbərlərin göndərilmə hikmətlərinin ən mühümlərindən biri də peyğəmbərlərin göndərildiyi cəmiyyət, zaman və məkan fərqlərinin olmasıdır. Əgər Allah müxtəlif peyğəmbərlər göndəribsə, onların hamısı eyni zamanda və ya eyni məkanda olmayıblar. Onların bu haqq dəvətlərinə ehtiyac duyulduğu

üçün onlar peyğəmbər olaraq göndərilmişdilər. Müxtəlif məkanlarda keçmişdə onlara göndərilən peyğəmbərlər və onların dəvətinin unudulması mümkün olduğu kimi, eynilə də müxtəlif zamanlarda bir qövmə göndərilən peyğəmbərlər və onların dəvəti unudulmuşdur. Bu halda müxtəlif peyğəmbərlərin göndərilməsinə ehtiyac yaranırdı. Üstəlik də əgər Allah ateistlərin bu şübhəsinə əsasən minilliklər boyu ömrü olan bəşər övladına cəmi "üç-beş peyğəmbər" göndərsəydi, o zaman da ateistlər yeni bir etiraz edəcək və deyəcəkdilər ki, nə üçün minlərlə insanlara cəmi üç-beş peyğəmbər göndərilib? Bu zaman çoxsaylı peyğəmbərlərin göndərilmə hikməti bizlərə daha yaxşı şəkildə aydın olur.

**Üçüncüsü:** Göndərilmiş müxtəlif peyğəmbərlərin inkar olunması ateistlərin və digər dinsizlərin əleyhinə olan arqumentdir, bunu din əleyhinə arqument kimi istifadə etmək absurddur; Çünki, peyğəmbər göndərildikcə onları inkar edənlər də olurdu. Həmin inkar edənlərin içində bütpərəstlərdən tutmuş, axirətə inanmayan, ölümdən sonrakı həyatı inkar edən keçmiş ateist

təfəkkülü insanlar da olmuşdur. Onlar keçmişdə öz sələflərinin inkar etdikləri peyğəmbərlərin ardıcıllıqla göndərilməsini deyil, öz inkarçılıqlarını müzakirə etməlidirlər. Müxtəlif peyğəmbərlərin göndərilməsi müşrikliyin, kafirliyin, münafiqliyin, dinsizliyin əleyhinə arqument ola bilər. Çünki ayətlərdə də inkarçıların nə üçün inkar etdikləri və peyğəmbərlərin göndərilmə səbəbi qeyd olunur. Məsələn, uca Allah buyurur: "Biz İsrail oğullarından əhd-peyman aldıq və onlara elçilər göndərdik. Hər dəfə bir elçi onlara könüllərinə yatmayan bir şey gətirdikdə, o elçilərin bir qismini yalançı hesab edər, bir qismini də öldürərdilər". (əl-Maidə. 70). Başqa bir ayədə isə belə buyurur: "Əykə əhli və Tubba qövmü – bunların hamısı elçiləri yalançı saydı və Mənim təhdidim gerçəkləşdi". (Qaf. 14). Həmçinin, buyurmuşdur: "Həmçinin Səmud tayfası, Lut qövmü və Əykə əhli də. Bunlar əlbir dəstələr idi. Hər biri elçiləri yalançı hesab etdi və Mənim cəzam da gerçəkləşdi". (Sad. 13-14). Həmçinin buyurmuşdur: "Hər dəfə sizə göndərilən elçi ürəyinizə yatmayan bir şey gətirəndə, siz təkəbbür göstərmədinizmi?! Siz onların bir qismini yalançı

hesab etdiniz, bir qismini isə öldürdünüz". (əl-Bəqərə. 87). Bu haqda ayətlər çoxdur. Ayətlərdən anlaşılır ki, uca Allah nə üçün yenidən peyğəmbərlər göndərirsə, onun da səbəbini də ayətlərdə qeyd etmişdir. Uca Allah tövhidi (təkAllahlıq inancını) yaymaq üçün peyğəmbərlər göndərir, elçilər inkar olunduğu və ya öldürüldüyü zaman yeni peyğəmbərlər göndərirdi. Deməli, bu iddia din əleyhinə arqument ola bilməz.

**Dördüncüsü:** Sonuncu peyğəmbərin ﷺ göndərilməsi və onun şəriətinin Qiyamətə kimi davam etməsi; Sonuncu peyğəmbərin şəriətinin Qiyamətə kimi qalmasının özü bir möcüzədir. Çünki bu sonuncu din elə bir möhtəşəm şəriət olmalıdır ki, Qiyamətdən öncə gəlib Qiyamətə kimi davam etməli, özünə tabeçiliyin tələb edildiyi bir dinə aid haqq dəlilləri bütün qüvvəsilə özündə qorumalı və ortaya qoymalı idi. Yalnız belə qüvvətli dəlil və arqumentləri olan din sonuncu din ola bilərdi. Bu məsələ də ateistlərin əleyhinə arqumentdir. Çünki burda tarixi bir qırıqlıq yaranır. Yəni, ateistlər gah peyğəmbərlərin niyə davamlı olaraq göndərilməsini, gah da niyə sonuncu

peyğəmbərin şəriətinin Qiyamətə qədər davam edəcəyini və ya peyğəmbərliyin kəsildiyini bildirir, Muhamməd ﷺ peyğəmbərin sonuncu peyğəmbər olmasına etiraz edirlər. Qəribədir, onlar həm peyğəmbərliyin davamlılığına, həm də kəsilməsinə etiraz edirlər. Bunda isə böyük bir məntiqi ziddiyyət var. Çünki peyğəmbərlərin göndərilmə şərtləri, peyğəmbərlərə olan ehtiyac bütün dövrlərdə eyni olmamışdır. Bəzən bu ehtiyac davamlı olmuş, bəzən isə peyğəmbərlik kəsilmişdir. Sonuncu peyğəmbərdən ﷺ sonrakı prosses də buna əyani şahiddir. Lakin peyğəmbərliyin kəsilməsi ilə bizə elə bir şəriət, elə bir din miras qoyulmalı idi ki, bu din və bu şəriət dünyanın sonuna kimi bəs etsin, haqq din və haqq şəriət olması haqqında öz dəlil və arqumentləri ilə insanlara həm kifayət etsin, həm də onları heyrətə gətirsin. Budur, həmin din sonuncu və ilahi mesajı tamamlayan İslam dinidir !

## Nə üçün Allah Quranda bəzən "biz", bəzən "mən" deyə xitab edir?

**Şübhə belədir:** Nə üçün Allah Quranda bəzən "biz", bəzən də "mən" deyə xitab edir? Olmazmı ki, bir xitab seçiləydi?

**Cavab:** Bu şübhəyə cavab bir neçə aspektdən olacaqdır:

**Ümumi izah;** Qurani-Kərimdə Allaha nisbətdə üç şəxs əvəzliyindən istifadə edilmişdir ki bu, Qurani-Kərimin üslubudur. "Ərəb dilinin üslublarındandır ki, bir şəxs özünü "biz" deyə ifadə etməklə əzəmətləndirmək istəyir. Bəzən isə təkliyə dəlalət edən "mən" şəxs əvəzliyi ilə özünü ifadə edir. Bəzən isə qaib olan şəxs əvəzliyi kimi "o" şəxs əvəzliyindən istifadə edilir. Bu üç üslubun üçü də Quranda gəlmişdir və Allah Quranda ərəblərə öz dillərinin qaydalarına uyğun şəkildə xitab etmişdir (1). İndi isə gəlin bu verilmiş ümumi izahı bir qədər də sadələşdirək və bəzi aspektlərdən izah edək:

**Birincisi:** Allah Quranda "Biz" dedikdə bu,

adətən iki mənada işlənir; ya Allahın təzimi (əzəmətli tutulması) mənası, ya da mələklər nəzərdə tutulur. Gəlin hər iki mənaya misallar çəkməyə çalışaq.

*Birinciyə misal;* "Sizi Biz yaratdıq". (Vaqiə. 57). Burada uca Allahın "Biz" deməsi onun bu yaratma məqamında olan təzimi, əzəmətli tutulması anlamındadır. Hansısa hökümət başçısı belə özü haqqında danışarkən "biz" deyərək özünü əzəmətli göstərmək istəyir. Baxmayaraq ki, onun özünün tək bir şəxs olması heç kəsə gizli deyil.

*İkinciyə misal;* Qurani-Kərimdə "biz" deyildikdə mələklərin nəzərdə tutulmasına gəldikdə isə, buna "Qaf surəsi"nin 16-cı ayəsi dəlildir: "Biz ona şah damarından da yaxınıq". (Vaqiə. 16) Növbəti 17-ci və 18-ci ayələr də söhbətin mələklərin yaxın olmasından getdiyini bildirir: "Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın". (Qaf. 17-18).

**İkincisi:** Allah ibadət məqamında "mən" deyir. Gəlin buna misal verək. Uca Allah buyurur:

"Həqiqətən, bu, vahid bir din olaraq sizin hamınızın dininizdir. Mən də sizin Rəbbinizəm. Elə isə Mənə ibadət edin!" (Ənbiya. 92). Fikir versəniz, bu ayədə ibadətdən söhbət gedir. Bu məqamda "biz" deyilməsi bütpərəstliyə qarşı mübarizə aparan bir dinin Rəbbinin xitabı ola bilməz. Bu məqamda ən doğru, ahəngə və bəlağətə uyğun xitab "mən" deyə xitab edilməsidir. Bu da Quranın bəlağətinin, ecazkarlığının, dəqiq üslubunun göstəricisidir. Əgər bu həssas məqamda "biz" desəydi təktallahlıq, tövhid dininin xitabına uyğun olmazdı. Bu din tək olan Allaha ibadətə çağırır. Başqa ayətlərdə də də bu incə məqam dəqiqliyi ilə gözlənilib. Məsələn, əl-Bəqərə surəsinin 186-cı ayəsində uca Allah buyurur: "Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən onlara yaxınam, Mənə dua edənin duasını dua etdiyi vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər". (əl-Bəqərə. 186).

**Üçüncüsü:** Uca Allah bəzən də özünü "o" deyə ifadə etmişdir. Yuxarıda Qurani-Kərimdə Ərəb dilində olan üç üslubun üçünün də istifadə

edildiyini qeyd etmişdik. "O" işarə əvəzliyinə Qurandan çox misal çəkmək olar, xüsusən də Allahın ism və sifətləri haqqında bəhs edən ayətləri buraya daxildir. Ən məşhur ayətlərdən biri: "Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir". (Şura. 11). Bu üç xitab forması Quranın ecazkarlığını ifadə edir və bəşər övladının daha yaxşı qavrayacağı, anlayacağı tərzdə edilən xitab formalarıdır.

Fikir versək ərəb dilində "iki şəxsi" ifadə edən "təsniyə" (ikilik) üslubu olsa da "Allah özü haqqında bu üslubdan qətiyyən istifadə etməmişdir. Üstəlik, bu üslub (həqiqi mənada şərikliyə) xüsusi çərçivəli saya dəlalət edir (2)" və təkallahlıq dininin Rəbbinin öz müqəddəs kitabında etdiyi xitabının bu üslubla edilməsi təbii ki, doğru olmazdı. Zatən Quranda bu şərikliyi bildirən üslubdan istifadə edilməmişdir. Ona görə də bu cür məsələləri başa düşmək üçün Ərəb dili və onun incəliklərini bilməkdə böyük fayda var. Çünki bilmədiyi bir dil haqqında danışan insanın xəta etməsi ehtimalı böyükdür.

**Dördüncüsü:** Azərbaycan dilində belə bu cür üslublardan geniş istifadə edildiyini müşahidə edirik; İkinci şəxsin təkini bildirən "sən" əvəzliyinin yerinə bəzən müxtəlif situasiyalardan asılı olaraq, "siz" işlədilir:

**a)** özündən böyüyə hörmət əlaməti kimi: Mən sizi yüksək qiymətləndirirəm. Bu gün siz mənim əlimdən tutdunuz.

**b)** tanışlıq olmadığı məqamda rəsmi müraciət forması kimi: Siz yolu mənə göstərə bilərsinizmi? Mən Sizi tanımıram. Göründüyü kimi, rəsmiyyət və hörmət mənasında işləndikdə Siz əvəzliyi, əsasən, böyük hərflə yazılır.

**Qeyd:** Bəzən birinci şəxs təvazökarlıq əlaməti olaraq özünə mən yerinə "biz" də deyə bilir. Məsələn: Biz bir az başqa cür fikirləşirik(3).

## Qeydlər və istinadlar:

1 - Daimi araşdırmalar və fətvalar komitəsi. (ərəbcə). 4/143.

2 - əl-Aqidə ət-Tədmuriyyə. İbn Teymiyyə. səh. 75 .

3 - TQDK-nın 2012-ci il buraxılışı.

Morfologiya.

## İslamdakı "Amin" sözü "Amon" tanrısının adıyla bağlıdır?

**Şübhə belədir:** "Siz hər duadan sonra "Amin" deyirsiniz. Xaçpərəst və yəhudilər də bunu edir. Qədim misirlilər hər duanın sonunda günəş Allahı olan amonranı çağırmaq üçün "Amon" deyirdilər. Xaçpərəst və müsəlmanlara isə "Amin" sözü yəhudilikdən gəlib".

*Şübhəyə cavab bir neçə aspektdən olacaq:*

**Birincisi: Ümumi cavab;** bütün səmavi dinlərdə "amin" sözü "duanın qəbul edilməsini istəmək" və buna yaxın mənalarda işlənir. İslamda da bu söz "Allahım, duamı qəbul et" anlamında istifadə olunur. Səmavi dinlərin kökü Allah

tərəfindən olduğu üçün bu dinlər arasında bənzər azsaylı söz və hərəkətlərin olması mümkündür. Bu mövzu dinləri inkar etməyə deyil, bəzi böyük dinlərin təhrif olunmamışdan öncə Allah tərəfindən göndərilməsinin dəlilidir. Bundan öncəki məqalələrimizdən birinin adı "Dinlərin oxşarlığı bir haqq dinə ziddir?" (1) adındadır və internet üzərindən də bu adda məqaləmizi daha ətraflı oxuya bilərsiniz. Çünki giriş üçün bu bilgiləri öyrənmək şiddətlə tövsiyə olunur. Bundan sonra isə mövzuya daha yaxından keçid etmək olar.

Dinlərdə olan bənzərliklərin həqiqi mahiyyəti elmi cəhətdən aydın olduqdan sonra bu mövzu çox bəsit şəkildə anlaşılacaqdır. Dinlərin kökünün bir, şəriətlərinin isə fərqli olmasını İslam dininin müqəddəs kitabı bu ayətlə təsdiqləyir: "Ey ümmətlər, hər biriniz üçün bir şəriət və bir yol təyin etdik". (əl-Maidə. 48). Alimlər buyururlar ki, ayədə keçən şəriətlər müxtəlif olsa da, yol birdir, səmavi dinlərin (2) kökü təkallahlılıq (tövhid) inancıdır. İbn Cərir ət-Təbəri və ibn Kəsir bu ayədəki "yol və şəriət" sözlərinin izahını iki ifadə

ilə "سبيلاً وسُنَّة" : səbilən və sünnətən" (yol və sünnət olaraq) olaraq ifadə etmişlər (3). "Yol" təkallahlıq inancı olaraq birdir, "sünnətlər" (şəriətlər) isə hər peyğəmbərin şəriətinin fərqli olmasından dolayı bir qədər fərqlilik ərz edə bilir. Kökü, təməli bir olan dinlərin, hər peyğəmbərin tək bir Allaha ibadət etməyə çağırması din əleyhinə arqument deyil, əksinə dinin lehinə arqumentdir. Yəni, bir Allaha çağıran müxtəlif peyğəmbərlərin cəmiyyətləri fərqli olduğu üçün şəriətləri fərqli olsa da, dinlərinin təməli eyni olmuşdur. Bunu anladığımız zaman din əleyhinə gətirilən bir çox qəribə yanaşma və arqumentlər bəsit bir şəkildə çözülmüş olacaqdır.

İbn Cərir ət-Təbəri deyir: "yol: peyğəmbərlərin gətirdiyi tövhid və ixlasdır, hansı ki bundan başqası qəbul olunmur", sünnətlər (şəriətlər) haqqında isə belə deyir" والسنن مختلفة : sünnətlər (şəriətlər) isə müxtəlifdir". Sonra isə tövratın, incilin və quranın ayrı-ayrı şəriətlər olmasını misal çəkir (4). Həmçinin deyir: "Din birdir. Şəriət isə müxtəlifdir" (5). Bu məsələ anlaşılarsa, yolları bir

olan müxtəlif dinlərdə eyni və ya oxşar ifadələrin nadir hallarda işlədilməsinin çox bəsit bir şey olması aydın olar. Əgər yol bir ola bilirsə, bu yola əsasən ibadət edilən Allah birdirsə, o zaman azsaylı ifadələrin bir olmasında da heç bir problem ola bilməz və isbat olunmamış nəzəriyyələr bu həqiqəti dəyişə bilməz.

**İkincisi: Lüğəvi izah ;**

a) Bu iddia ilk dəfə Misir arxeoloji araşdırmaları üzrə mütəxəssis olan alman arxeoloqu Jan Asman tərəfindən irəli sürülmüşdür və iddia, nəzəriyyə olmaqdan o yana keçmir (6). "Amin" (Əmin) sözü qədim sami dilinə aid bir sözdür və mənası "Allahım, duamı qəbul et!" anlamındadır. İbrahimi dinlərin (xristianlıq, yəhudilik və İslam) mənsubları bu sözü istifadə etmiş və bu söz günümüzə kimi gəlib çıxmışdır. Bu söz elan və təkidlə vurğulamaq kimidir. "Tanax" və "Əhdi Cədid" kitablarında da mövcuddur (7). Müştərək tarixi keçmişi və eyni dil qrupundan olan xalqların müştərək sözlərini nəzəriyyə və şübhə kimi istifadə etmək ümumiyyətlə elmilikdən deyil. Bu cür nəzəriyyələrin din əleyhinə arqument kimi istifadə

edilməsi doğru deyil və isbata ehtiyacı var.

b) Bənzər sözlərin müxtəlif dillərdə olduğunu hər kəs bilir. Hətta Azərbaycan dilində elə sözlər var ki, ləhcəmizə ən yaxın olan türkcədə fərqli məna verir. Dilimizdə "düşmək" sözü "enmək" mənasını verdiyi halda, türk dilində "yıxılmaq" mənasını verir. Daha uzaq dillərdə mənası kəskin fərqlənsə də, zahirdə bənzər olduğu hesab edilən sözlər də az deyil. Məsələn, rus dilindəki "kravat" sözü dilimizdə "çarpayı" mənasını versə də, eyni söz türk dilində "qalstuk" mənasını verir və s.

Bəzən isə eyni məna verən alınma sözlər də olur. Buna bənzər misallar müxtəlif dillərdə çoxdur və bunu dilçilər, ələxsus da poliqlotlar daha yaxşı bilirlər. Lakin konkret sual qoyulsa ki, səmavi dinlərdə istifadə edilən "Amin" sözü ilə misirlilərin çağırdığı "Amon" tanrısı eyni kökdənmi gəlir? Qısa cavab budur ki, xeyr. İlk öncə bilmək lazımdır ki, hər bir dildə olan sözlərin mənasını yalnız onun əhli başa düşür. Nə məntiqi, nə də icazəli deyil ki, iki fərqli dil arasında olan iki sözü mücərrəd olaraq zahirində olan ləfzi oxşarlıqdan

dolayı eyni hökmdə, eyni mənada hesab edək. Ağıllı bir insan bunu qəbul etməz. Məsələn, ərəb dilində كان (idi-, kənə) sözünü bir ərəb tələffüz edərsə, məlum bir mənanı ifadə edər, eyni tələffüz olunan sözü (can-, kən) ingiliscə danışan və ərəbcə anlamayan bir kimsə eşidərsə, bu sözün "o bacarır" mənasını başa düşəcək. Bu məna isə həmin sözün ərəbcə anlaşılan mənasına tamamilə müxalifdir. Bunun kimi də (آمين) (Əmin) sözünün ərəbcə mənası məlumdur. Bu söz ismi-fel olub mənası: "Allahım, duamı qəbul et" - anlamındadır. Həmçinin, ibnül Əsirin dediyi kimi: "həmçinin deyilmişdir: mənası: "qoy olsun", yəni duadır (8). Qısacası: "Amin" və "Amon" sözlərinin həm mənası, həm də ləfzi (yazılışı və deyilişi) müxtəlifdir. Bu sözün Misir tanrısı "Amon" ilə bir əlaqəsi yoxdur. Sözün ərəbcə kökündə "yə" və "vav" hərflərinin, dilimizdə isə "i" və "o" hərflərinin fərqi açıq-aydındır.

**Üçüncüsü: hədislərdə "Amin" sözü ;**

Digər bir sual isə budur ki, bu sözü İslam peyğəmbəri istifadə etmişdirmi? Bəli, istifadə

etmişdir. Müsəlmanlar da bu sözü ittifaqla istifadə edirlər. Firqələr arasında da bu məsələdə ixtilaf bilinmir (9). Bu haqda Muhəmməd peyğəmbərdən ﷺ bəzi hədislər də rəvayət edilmişdir. Əbu Hüreyrədən rəvayət olunur ki, peyğəmbər ﷺ buyurmuşdur: "Sizdən biri namazda "amin" deyərsə, mələklər də səmada "amin" deyər və bu zaman birinin sözü digərinin sözünə müvafiq olar. Beləcə, onun etdiyi (kiçik) günahı bağışlanar"(10).

Başqa bir hədisdə isə deyilir: "Əgər imam" ğeyril-məğdubi aleyhim vələd-dallin" deyərsə, siz də "amin" (əmin) deyin. Hər kimin ki sözü mələklərin sözünə uyğun gələrsə, onun etdiyi (kiçik) günahı bağışlanar" (11). Bu hədislərdən anlayırıq ki, nəinki insanlar, həmçinin mələklər də "amin" deyirlər. Beləcə bu şübhənin və ya iddianın batil olduğu anlaşılır.

## Qeydlər və istifadə edilmiş ədəbiyyat:

1 - Məqalə: "Dinlərin oxşarlığı bir haqq dinə ziddir?" Sahib Əsədov. sunna.az saytı.

2 - Təfsir kitabları bizə bu mənanı verirlər.

3 - Bax ibn Kəsir və İbn Cərir ət-Təbərinin

təfsirlərinə.

4 - İbn Cəririn təfsiri. 10/384. Həmçinin bax: Qatadədən gələn (Bişr ibn Muaz və Həsən ibn Yəhya vaditəsilə) iki ayrı rəqəmli nəqllərə: 12126 və 12127.

5 - Bu da Qətadədən gələn ikinci rəvayətdir. Mənbələri verildi.

6 - Jan Asmanın "Misirli Musa" kitabı. 1988.

7 - Catholic Encyclopedia. "Amen" sözünün mənası.

8 - ərəbcə məqalə : كلمة: (آمين) تخالف كلمة: (آمون) " لفظا ومعنى Əmin" və "Amon" sözləri həm ləfz, həm də məna olaraq fərqlidir - başlıqlı (ərəbcə) məqalə. http://xn--islamweb-o0e.net/ saytı.

9 - Yalnız bəzi cəfərilərin "amin" sözünün Quran ayəsi olmamasına əsaslanaraq namaz daxilində rədd etdikləri, namaz xaricində isə qəbul etdikləri nəql olunur. Şiələrin elmi mərkəzləri isə demək olar ittifaqla "amin" sözünün İslami əslinin olmasını qəbul edir və buna dair imamlardan rəvayətlər nəql edirlər.

10 - Səhihi Müslim. 410; Səhih əl-Buxari. 781

11 - Səhih əl-Buxari. 4475.

## Kəbənin içi boşdur, orada Allahı görmədik! – iddiası.

**İddia belədir:** "Kəbənin içi boşdur, orada Allahı görmədik!"

İddianın cavabı bir neçə aspektdən olacaqdır:

**Birincisi:** Kəbəyə "beytullah" (Allahın evi) deyilərkən həqiqi məna qəsd edilmir.

**İkincisi:** Məkkə müşriklərinin Kəbədə maddi ilah axtardığı kimi müsəlmanlar da orada maddi ilah axtarmırlar. Bu iddia islam əqidəsindən xəbərsiz olmaq deməkdir.

**Üçüncüsü:** Allah Kəbəni müsəlmanlar üçün qiblə etmiş, dünyanın hər yanında olan müsəlmanların ibadət zamanı ora tərəf yönəlməsini əmr etmişdir.

**Dördüncüsü:** Əgər bu dünyada Allahı görmək mümkün olsaydı, o zaman hər kəs Allaha ibadət edərdi, yaxşını və pisi ayırd etmək mümkün olmaz, cənnətə və cəhənnəmə də ehtiyac qalmazdı. Halbuki, Allahı görmədən ona inanmaq həqiqi iman meyarıdır.

İndi isə keçək bu şübhələrə daha ətraflı cavabımıza:

**Birincisi:** Kəbəyə "beytullah" (Allahın evi) deyilərkən həqiqi məna qəsd edilmir; bu söz simvolik məna daşıyıb digər məscidlər haqqında da işlədilir. Məscidlər Allaha ibadət olunan, Allahın təzim edildiyi, uca tutulduğu xüsusi yerlər olduğu üçün həmin yerlər Allaha məxsusluğu bildirmək məqsədilə "beytullah" (Allah evi və ya Allahın evi) olaraq adlandırılır. Qurani Kərimdə "Allahın məscidləri" sözü kimi "ev" sözü işlədilməyən ibarə də keçib. Ayə belədir: "Allahın məscidlərində Onun adının zikr edilməsinə maneçilik törədənlərdən və onların viranə qalmasına çalışanlardan daha zalım kim ola bilər?!" (əl-Bəqərə. 114). Digər ayədə isə sadəcə "ev" mənasında işlədilmişdir: "Bir zaman biz (müqəddəs) Evi insanlar üçün ziyarətgah və əminaman bir yer etdik". (əl-Bəqərə. 125). Başqa bir ayədə də ərəbcə qarşılığı البيت (əl-beyt) olan, eyni mənada olub sadəcə "Ev" mənası verən sözdən istifadə edilir. Eyni ayənin sonunda isə "Evimi təvaf edənlər" ifadəsi keçir. Burada "Ev"

sözünün Allaha nisbəti təşrif (şərəfləndirmə) və təzim (ucaltma) mənasındadır. Kəbə məscidi burada qəsd etdiyimiz "Allahın evi" mənasında işlədilmişdir.

**İkincisi:** Məkkə müşriklərinin Kəbədə maddi ilah axtardığı kimi müsəlmanlar da orada maddi ilah axtarmırlar. Bu iddia islam əqidəsindən xəbərsiz olmaq deməkdir; Kəbə və ətrafı digər məscidlər kimi Allaha ibadət edilən yerdir. Ora maddi və mənəvi bütün bütlərdən təmizlənmiş və Allahın ibadət edilmək istədiyi şəkildə ona ibadət edilən bir yerə çevrilmişdir. Ateistlərin "orada Allahı görmədik" iddiası çox cahilcəsinə deyilmiş bir sözdür. Bu sözlə bütləri Allah kimi qəbul edən Məkkə müşriklərinin axtardığı maddi ilahı ibadət mənasında deyil, görüntü mənasında məhz Kəbədə təsəvvür etməklə İslamın vəsf etmədiyi bir mənanı yanlış olaraq İslama nisbət etmək var. Həmçinin bu iddiada incə bir hiylə də var. Sanki bütün müsəlmanlar Kəbədə Allahı görməyə gəlirlərmiş kimi bir təsəvvür yaratmaq istəyirlər. Təbii ki, bu iddia batil bir iddiadır.

**Üçüncüsü:** Allah Kəbəni müsəlmanlar üçün qiblə etmiş, dünyanın hər yanında olan müsəlmanların ibadət zamanı ora tərəf yönəlməsini əmr etmişdir. Bu qədim bina insanlar üçün qurulmuş ilk ev olaraq Qurani Kərimdə vəsf edilmişdir. Uca Allah bu haqda mübarək kitabında belə buyurmuşdur: "Həqiqətən, aləmlərə bərəkət və hidayət qaynağı kimi insanlar üçün ilk qurulan ev Bəkkədədir". (Ali İmran. 96). Bir ayədə isə Kəbə başqa bir ibarə ilə ifadə edilmişdir. Həmin ayədə isə belə deyilir: "Hara səfərə çıxsan, namaz qıldıqda üzünü Məscidülharama tərəf çevir! Harada olursunuzsa olun, üzünüzü ona tərəf çevirin ki, insanlar arasındakı zalımlardan başqa heç kəsin sizə qarşı bir dəlili olmasın". (əl-Bəqərə. 150). Yuxarıdakı və az öncə qeyd etdiyimiz Quran ayələrindən olan sitatlardan da açıq-aydın görünür ki, Kəbəyə bir neçə cür xitab olunur və "Allahın evi" xitabı bu xitablardan yalnız biridir. Bu xitab isə yalnız bu mübarək yerin Allaha nisbət edilməklə şərəfləndirilməsi və əzəmətli olmasına bir eyham vermək anlamındadır. Bizim dilimizdə də "o, mənim ürəyimdir" və ya "filankəs mənim canımın içidir" deyildiyi zaman yaxınlıq və

dəyərvermə nisbəti qəsd edilir. Hansı ki bu dəyərvermə nisbətləri müxtəlif sözlərlə ifadə edilə bilər. Necə ki, Kəbə də Allahın məscidlərindən biri olduğu üçün gah "Allahın məscidləri" anlamına daxil olur, gah "Allahın evi" anlamına daxil olur, gah da "Məscidülharam" (toxunulmaz məscid) olaraq vəsf edilir. Deməli, yerin müqəddəsliyini, mübarəkliyini ifadə etmək üçün Allah bu yeri özünə nisbət etməklə şərəfləndirmiş və bu yerin şanını əzəmətli etmişdir.

**Dördüncüsü:** Əgər bu dünyada Allahı görmək mümkün olsaydı, o zaman hər kəs Allaha ibadət edərdi, yaxşını və pisi ayırd etmək mümkün olmaz, cənnətə və cəhənnəmə də ehtiyac qalmazdı. Halbuki, Allahı görmədən ona inanmaq həqiqi iman meyarıdır. Bu səbəbdən də müsəlmanlar Kəbəyə Allahı görmək niyyətilə deyil, Allahın vacib etdiyi İslamın beş təməlindən bir ayini icra etmək üçün gəlirlər.

Üstəlik də bu iddia Allaha "cism" və "məkan" nisbət etməkdir. Sanki ateist demək istəyir ki, orada həqiqi Allahı görsə, guya iman gətirəcəkmiş.

Bilmək lazımdır ki, Allahı bu dünyada görmək mümkün deyil, lakin Cənnətdə Allahı möminlər görəcəklər (Bax: Qiyamət. 22-23) və bu cənnətdəki ən böyük ləzzət olacaqdır. Bu dünyada isə Allahı görmək mümkün deyil. Musa peyğəmbərin görmək istəyib görə bilmədiyi kimi. (Bax: Əraf. 143). Sonda bir daha aydın oldu ki, insanın dini biliyi olmadan dində olmayan batil iddialar etməsi yalan danışmaq qəsdi olmasa belə onu yalançı durumuna salır! Çünki, savadsız danışan insan mənaları təhrif etmiş hesab edilir.

## Oğlana iki, qıza bir qurban kəsmək haqqında

**Şübhə:** Nə üçün İslamda əqiq qurbanı oğlan uşağı üçün iki, qız uşağı üçün isə bir dənədir? Qız uşağı adam deyil?

**Şübhənin cavabı:**

**Birincisi:** Biz etiqad edirik ki, şəriətin hökmlərinin hər birində uca Allahın bir hikməti var. Bu hikmətlər bəzən bizə aydın olur, bəzən olmaya bilir. Şəriət kişinin fitrətinə və qadının fitrətinə, yaradılışına uyğun hökmlər təyin edib. Məsələn kişi güclü qadın zərifdir deyə işləmək, ailəni saxlamaq öhdəliyini qadına verməyib. Amma bu gün qadınlar kişi kimi olmaq istəyir. Bunu sorğulaya bilərsiniz. Kişilər ailəsini saxlamasa günah qazanır, qadın isə yox. Deməli, maddi məsələlərdə oğlan uşağının qız uşağından önə çəkilməsi şəriətdə fitri bir məsələdir. Allah gözəlliyi qadına, gücü isə kişiyə verib. Qadın və kişi arasında fərqlə bağlı hökmlər də buna görə tənzimlənir. Əslində iki qurban kəsmək daha çox xərc tələb edir, qız uşağı üçün bir qurban kəsmək xərci az olan bir haldır. Bu zaman ailə büdcəsindən daha az pul çıxmış olur. Siz şəriəti bu cür ittiham edib deyirsiz ki, qız övladı adam deyil? Siz ən azından oğlan uşağına və qız uşağına görə kəsilməli olan qurbanın sayının eyni olmasını deyirsiniz ki, bu sadəcə bir rəydir. Başqa bir dinsiz də deyə bilər ki, əslində qız uşağına çəkilən xərc daha çox olmalı idi, (bu da bir rəy) qıza cehiz

verirsən, ay belə edirsən, elə edirsən və s...(Biz isə deyirik ki, elə İslamdakı kimi olmalıdır, qız uşağına bir qurban, oğlan uşağına isə iki qurban) bunu ona görə deyirəm ki, hər etiraz haqlı etiraz demək deyil. İki əks qütbdən, bəzən üç və daha çox fərqli istiqamətdən etiraz ola bilər. Ağıllar müxtəlifdir. Amma vəhy və şəriət birdir. Biz bir məsələdə sizin ağlınıza, yoxsa sizə qarşı əks arqument deyənin ağlına etibar edək? Ona görə ən salamatı sizi və bütün insanları yaradıb qullarını ən gözəl tanıyan Allahın şəriətinə tabe oluruq. Uca Allah buyurur: "Məgər Allah öz yaratdığını (daha yaxşı) bilməzmi?" (Mülk. 14).

**İkincisi:** ədalət prinsipi heç də hər işdə say bərabərliyi ilə olmur. Ədalət prinsipi bəzən fitrəti, yaradılışı nəzərə almaqdır. Bir misal verək; sən evində cücə saxlayırsansa, bəsit yem ilə onları böyüdəcəksən, burada ədalət cücənin dənciyinə kifayət edəcək miqdarda olan qidadır. Amma həyətində eyni zamanda dovşan saxlasan, onun qida dəyəri ayrı olacaq, qoruyucu it saxlasan, onun da qida dəyəri və xərci ayrı olacaq. Ola bilər ki, ətyeyən bir heyvan saxlayasan, bu

sadaladıqlarımın on qatının xərcini və qida dəyərini ödəməli olasan. Deməli, bəzi məqamlarda ədalət prinsipi fitrətə və yaradılışa görədir. Əgər sevimli pişiyinin xərci digər sevimli ətyeyən heyvandan azdırsa, o demək deyil ki, sən evindəki gözəl, sevimli pişiyini sevmirsən!

Elə misal kimi götürək adətimizdə olan cehiz məsələsini; biz etiraz edib desək ki, nə üçün atalar qızlara cehiz verir, oğlanlara da cehiz verilsin, ay bu ədalətsizlikdir falan...bu zaman bizə gülə bilərsiniz. Siz burada çox rahat şəkildə fizioloji (fitri, yaradılışla bağlı) və ictimai yükümlülüklə bağlı fərqlərin nəzərə alındığını deyə bilərsiniz və bunun ədalətli bir qərar olduğunu təkidlə vurğulaya bilərsiniz. Bu nöqtəni anlaya bilsəniz, İslamdakı maddi bölgülərin də fitri və ictimai öhdəlik fərqlərinə görə təyin edildiyinin şahidi ola bilərsiniz .

Başqa bir misal verək, bir dövlətin büdcədən pul ayırdığı sahələr müxtəlif olur, bəzən büdcədən daha az pul ayrılan sahələr daha çox pul ayrılan sahələrdən daha çox gəlir gətirir. Yaxud da məsələ gəlir məsələsi olmur, sadəcə hər sahəyə uyğun olaraq büdcədən müxtəlif miqdarda pul ayırmaq

kifayət edir. Kimsə buna etiraz edib məbləğ fərqlərinin ədalətsiz olmasını müzakirə etmir. Misalları çoxalda bilərik!

❀ ❀ ❀

## Adəm peyğəmbər olubmu?

**Şübhə:** 1 – Nə üçün Quranda Adəmin peyğəmbər olması yazılmayıb? 2 – Adəm insan olmayan dünyada kimə peyğəmbər olaraq göndərildi? 3 – Adəm 7.000 il öncə gəlibsə, 13.000 il öncə "Göbəklitəpədə" olanlar kimlər idi?

**Birinci şübhəyə cavab:** Quranda Adəmin (əleyhissalam) peyğəmbər olmasına açıq-aydın işarə edilib. Buna az sonra toxunacağıq. Hətta Quranda yazılmasa belə mötəbər hədislər bunu təsdiqləyir və bir müsəlman üçün bu kifayət edir.

Amma Quranda Adəm عليه السلام haqqında gələn ayə belədir: "Həqiqətən də Allah Adəmi, Nuhu, İbrahim nəslini və İmran ailəsini seçib aləmlərdən üstün etdi". (1). Digər peyğəmbərlərlə birgə Adəmin seçilməsi və üstün edilməsinin yalnız bir izahı var: o bir peyğəmbər idi.

**İkinci şübhəyə cavab:** deyilir ki, Adəm insan olmayan dünyada kimə peyğəmbər göndərildi? Cavab odur ki, Adəm öz nəslinə və övladlarına doğru yolu göstərən bir peyğəmbər idi. Amma onun peyğəmbər olması üçün yer üzündə Həvvadan başqa insanın olmadığı zaman kəsimi şərt deyil. Muhəmməd ﷺ Peyğəmbər ömrünün yarıdan çoxunu yaşadıqdan sonra peyğəmbər olduğu kimi ömrü ən uzun insanlardan olan Adəm عليه السلام də nəslinin çoxaldığı bir vaxtda peyğəmbər funksiyasını öz nəsli üçün yerinə yetirmişdi. Amma doğru olan odur ki, Adəmin üstünlüyü, Allah ilə danışması onun nəslinin çoxalmadığı vaxtda da olmuşdur. Allahın onu ucaltması üçün yer üzündə çoxlu insanların olması da bir şərt deyildir.

Onu da qeyd edək ki, Adəm ilk peyğəmbər olub, amma ilk rəsul olmayıb. Nəbi ilə rəsulun fərqini bilməyənlər bu gün bu şübhəni gətirirlər. Hədislərdə gəlir ki "İnsanlar Nuhun yanına gedir və sən Allahın yer üzünə göndərdiyi ilk rəsulsan" (2) deyib onun şəfaətini istəyirlər. Peyğəmbər (nəbi) olmaq öz nəslinə doğru yolu göstərən rəhbər olaraq Adəmə kifayət edirdi. Onun peyğəmbər olmasını təsdiqləyən rəvayətlərdən biri də İbn Hibbanın "Səhih" əsərində etdiyi nəqldir; Peyğəmbərdən (Sallallahu aleyhi və səlləm) soruşurlar ki, Adəm bir peyğəmbər olubmu? Deyir: "Bəli, Allahın özüylə danışdığı bir peyğəmbərdir "(3).

**Üçüncü şübhəyə cavab:** Deyirlər ki, əgər Adəm 7.000 il öncə gəlibsə, 13.000 il öncə "Göbəklitəpədə" olanlar kimlər idi? Cavabında deyirik: Adəmin 7.000 il öncə yaşadığını təsdqiləyən heç bir mötəbər mənbə yoxdur. Bu say barədə müxtəlif rəqəmlər və israiliyyat rəvayətləri qəbilindən olan rəvayətlər var. Bu say məsələsinə biz bundan öncəki şübhələr cavablarımızda ətraflı

şəkildə toxunmuşuq. Daha ətraflı oxumaq üçün "İslam dini Şumerlərdən götürülüb?" (4) adlı məqaləmizi internet üzərindən oxuya bilərsiniz. Qaldı ki, "Göbəklitəpə" sakinlərinin neçə min il öncə mövcud olmasına bunun özü də arxeoloqlar tərəfindən irəli sürülən ehtimaldır. Hətta qeyd olunan tarixin doğru və ya doğruya yaxın olmasını fərz etsək, o zaman bunun əksini deyən dini mənbə olmadığı üçün belə gülünc iddialarla dini "səhv çıxarmağa" girişməyin sadəcə savadsızlıq olduğu anlaşılar.

**İstifadə olunmuş ədəbiyyat:**

1 – Ali İmran surəsi. 33-cü ayə.
2 – Səhihul-Buxari. 4712; Səhihu Muslim. 194. Şəfaət hədisi.
3 – Səhih ibn Hibban. 2085; "Səhih Hədislər Toplusu". Albani. 6/358 .
4 – Bax: "İslam dini Şumerlərdən götürülüb?" adlı araşdırma. Sunna.az saytı.

## Qadın və kişi geyiminin fərqinə aid şübhəyə cavab

**Şübhə belədir:** "Kişi qullarının nə geyinəcəyi və necə geyinəcəyi haqqında bir kəlmə belə etməyən tanrı iş qadına gəldikdə söyləyə bildiyi qədər sıralamışdır. Eyni dindən olan bir kişinin bu qədər rahat, qadının isə təzyiq altında tutulması tanrının deyil, oyanıq ərəb kişisinin fikrindən başqa bir şey deyil".

**Şübhənin cavabı:** Bu şübhəni gətirənlər kənardan kiməsə "cürətli" şübhə sahibləri kimi görünsələr də içi boş, dinin mahiyyətinə, Quranın özündə və peyğəmbərin hədislərində qəsd olunan "geyim" barədə bilgisiz, qeyri-obyektiv söz danışırlar. Baxmayaraq ki, bu cür danışanların çox vaxt mötəbər hədislərdən xəbərləri olmur, ona görə də yanlış, birtərəfli müqayisələrə yol verirlər. Çünki, dindən azdıqları zaman hədis mövzusundakı şübhələri adətən hədis inkarçılarının şübhələri ilə bağlı olur və şəriət dəlillərinin Quran və mötəbər hədislərə əsaslandığını qəbullana bilmirlər. Onlar "Qurani-

Kərimdəki libas, geyim ifadəsinin mənası və mahiyyəti nədir?" – sualının cavabını bilmirlər. Məşhur deyimdə ifadə olunduğu kimi "insan bilmədiyi bir şeyin düşmənidir". Bu cür insanlar şəriət dəlillərinə tam şəkildə qaynaq olaraq baxa bilsələr görərlər ki, İslam şəriəti həm kişinin, həm də qadının geyiminə çəki-düzən verib. Dində guya ancaq qadının geyiminin qabardılması məsələsi dinə qərəzli yanaşmadır.

İndi isə gələk Qurandakı libas anlayışına; Quranın bir ayəsində "Təqva libası isə daha xeyirlidir" (Əraf. 27) deyilir. Yəni Allah qorxusu örtüyü...Qərəzli yanaşanlar üçün libasın bu mənası əhəmiyyətli deyil. Bədəni örtən libas isə cinsi fərqlərə, fizioloji fərqlərə görədir. Qadınların örtülü geyimi yad kişiləri cəlb etməmək, qadını əziyyətlərdən qorumaq üçündür. Əgər məqsəd qadınların azadlığını əlindən almaq olsaydı, o zaman evlərinin içində də onlara hicablı olmaları əmr edilərdi. Lakin belə deyil. Hicabın hikməti günəş kimi aydındır. Əhzab surəsinin 59-cu ayəsi hicabın iki hikmətini qeyd edir: "Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha

münasibdir". Qadının fizioloji fərqləri tarix boyu kişilər tərəfindən onlara müxtəlif əziyyətlər verilməsi ilə nəticələnmişdir. Ona görə əslində hicab qadını qoruyan, onu cəmiyyətin bir incisi kimi himayə edən amildir. İndi isə gəlin keçək digər aspektlərin və unudulmuş məqamların xatırladılmasına:

**Birincisi:** Şübhəni gətirən elə "cürətlə" danışır ki, az qalsın oxucu qadının geyimi haqqında çoxsaylı əmr və qadağaların məhz Quranda olduğu haqqında düşünsün, hələ bəlkə də elə ayələrin axtarışına çıxsın. Halbuki Quranda qadınlara yalnız hicab (çarşab) örtmək əmri var. Quranda xüsusi geyimlərdən və tərzlərdən danışılmır. Yəni bircə mövzu bu qədər şişirdilir.

**İkincisi:** Uca Allah libası kişinin və qadının fiziologiyasına görə təyin etmişdir. Əgər qadının geyimi "oyanıq" ərəb kişisinin fikrinə qalsaydı, o zaman qadının geyimi qapalı deyil, açıq olmalı, kişilərin şəhvət tələbatına uyğun olmalı idi. Lakin biz Quranda bunun əksini görürük, qadının vücuduna baxıb onu öz şəhvani məqsədləri üçün

istifadə edən "oyanıq ərəbin" gizli xitabını deyil, aləmlərin Rəbbi olan Allahın rəbbani xitabını görürük. O xitab ki, qadını yad nəzərlərdən qorumağa, himayə etməyə dəvət edir. Bəsirət gözü haqqı görmədikdə isə təəssüflər olsun ki, insanın nəfsi ortaya girir.

**Üçüncüsü:** Bu sözü danışanların deyəsən heç tarixi bilgiləri də yoxdur. Dini bilmədikləri aydındır, heç olmasa, tarixi oxuyub İslamdan öncə çarşabdan uzaq olan ərəb qadınları haqqında bir qənaətə gəlib sonra bu uydurma cümlələri yazardılar. Doğurdan da "oyanıq" ərəb kişisinin qapalı qadınlara deyil, açıq geyimli qadınlara ehtiyacı ola bilərdi.

**Dördüncüsü:** İslamda kişi və qadınların geyimi arasında olan bir fərqi də biz deyək, bu məqaləni oxuyan ateistlər öyrənsinlər. Görək qeyd olunan məqam üçün olan geyim tərzi qadın üçün, yoxsa kişi üçün daha rahatdır? Qeyd etmək istədiyim məqam həcc və ümrə ibadətidir. Bəli, bu ibadət həcc və ya ümrədirsə, kişi iki parçadan ibarət ehram paltarı geyinir, ibadəti bitirməmiş bu paltarı

üzərindən çıxarmır, həmin paltarla yatır-durur. Məlum olduğu kimi ehram paltarını ancaq kişilər geyinir, bu, təbiri caizsə "bir qədər narahat geyimdir", amma qadınların geyimi həcc və ümrə zamanı çox rahatdır və dəyişilməz olaraq qalır. Bəs nə üçün bu ibadət zamanı məhz kişilərin deyil qadınların rahatlığı nəzərə alınıb!?

**Beşincisi:** Gəlin, kişi və qadının geyimi ilə bağlı daha mühüm bir fərqi bu şübhəyə düşənlərə bildirək; İpək paltarın bu dünyada kişilərə haram edilməsi, qadınlara isə halal edilməsi İslam şəriətində məlum bir məsələdir. Bəli, nəticədə kişilər ipək geyinməyin rahatlığından bu dünyada məhrum olurlar, yalnız cənnət ipəyi geyinənə kimi ipək paltar geyinməyəcəklər. Burada da şübhədə qeyd olunan "rahatlıq" kişilərə deyil, qadınlara verilmişdir. Şəkk yoxdur ki, şəriətin hökmləri qullarını ən yaxşı şəkildə tanıyan Allah tərəfindən təyin edilmişdir.

**Altıncısı:** Həcc və ümrə ziyarəti zamanı qadınların saçını qırxma ayini kişilərin saç kəsmə ayinindən çox sadə və rahat bir prossesdir. Kişilər

iki seçim arasında qalıb çox zaman salonlara getmək məcburiyyətində qaldıqları halda qadınlar bu məsələni bir neçə saniyə içində həll edir, saçlarının qurtaran yerindən təxminən iki-üç barmaq miqdarında kəsməklə məsələni həll edirlər. Kişilər isə ya saçı dibindən qırxdırmalı, ya da saçlarının hər tərəfindən eyni miqdarda götürməlidirlər. Nəticə etibarilə yenə kişilər deyil, qadınlar daha "rahat" şəkildə bu ayini də yerinə yetirmiş olurlar.

**Yeddincisi:** Kişi və qadının fərqi mövzusunda geyim məsələsini qabardıb digər ictimai fərqlərdəki hikmətlərdən yayınmaq dinsizlər üçün əlverişli deyil. Qadın kişi kimi işləyib pul qazanmaq yükündən azaddır. İslam bu görəvi kişiyə verir. İslam kişinin sərt və mübariz təbiətinə uyğun olaraq bu görəvi kişiyə verir, zərif, incə qadını isə cəmiyyətin çətin və ağır işlərindən xilas edir, onu qoruyur. İslam qadını müharibədə ölməkdən də qoruyur və yenə ateistlərin ifadəsi ilə desək "kişini ölümə göndərir". Məsləhət edirik ki, bəzilərinin fikri-zikri paltar mövzusunda qalmasın, qadının himayə edildiyi məsələləri də görə bilsinlər, İslama qarşı insafsız, qeyri-obyektiv və

qərəzli olmasınlar.

**Səkkizincisi:** Qadının hicabından narahat olanların halını tülkünün toyuqların azadlığı haqqında dediyi söz necə də gözəl ifadə edir. Tülkü haqqında bir təmsildə deyilir: Bir gün tülküyə deyilir ki, bir söz də sən de, tülkü deyir: "Məhv olsun hinlər, toyuqlara azadlıq!" – bununla o toyuqların hindən çıxmasını istədiyini göstərir. Əslində isə o hinlərindən çıxacaq toyuqların "azadlıq" adı altında yemək istədiyini gizlədir. Çünki hiyləgərlik onun xislətidir. Hicaba qarşı şiddətli sözlər danışanların istəyi də qadınları çılpaq görüb onlardan ləzzət almaqdır. Çünki onlar qadınları ancaq bir seks obyekti olaraq gördükləri üçün onların açıq-saçıq, çılpaq olmasını, abırsız-həyasız bir şəkildə gəzib-dolaşmasını, milli və dini dəyərlərin tapdalanmasını istəyirlər.

**Doqquzuncusu:** Ziynət və bəzənmə məsələsi: Doğurdan da bu mövzuya toxunmağımız dinsizləri məyus edəcək. Bu şübhəni alt-üst edən ən qüvvətli arqumentlərdən biri də bu mövzudur. Çünki İslam dini qadın fiziologiyasını, qadın fitrətini nəzərə

alaraq onun bəzənməsində maneələr qoymayıb, kişiləri isə bəzənmə mövzusunda qadınlara oxşamaqdan çəkindirib. Yəni bu mövzuda da İslamda genişlik və daha çox rahatlıq ateistin dilində desək "qadınlara verilib". Qadın öz əri və məhrəmləri yanında istədiyi kimi bəzənə bilir. Sadəcə müsəlman qadın naməhrəmlərə vücudunu göstərmir deyə İslamın bu əmrinə qarşı etiraz edirlər. Məsələ bu qədər bəsitdir. Etirazın əsas səbəbi budur. Amma ateistin ancaq geyim mövzusundan yapışması (onu da səhv anladığı üçün etməsi) və bu həqiqətləri görməməsi, gördüyü zaman isə görməzdən gəlməsi haqqı istəyən biri üçün böyük bir dəlildir.

**Onuncusu:** Kişinin geyimində topuqdan uzun geyinmək İslam şəriətində icazəli deyil. Qadın isə topuqdan uzun geyinməlidir. Kişinin bu geyimi də mötəbər hədislərlə sabitdir. Həmçinin kişinin saçının "qazəa" formasında qırxması icazəli deyil. Yəni saçın bir hissəsini dibindən qırxıb bir hissəsini saxlamaq qadağası – bunu daha çox kişilər edir – daha çox kişilərə aiddir. Zatən bunu qadınlar etmirlər. Etsələr, onlar üçün də icazəli

deyil.

**Nəticə:** göründüyü kimi libas və görünüşlə bağlı bütün mövzular İslam dininə görə qadın və kişinin fizioloji, cinsi, fitri fərqlərinə görə təyin edilmişdir. Uca Allah Öz yaratdıqlarını çox gözəl tanıyır və ona görə də bu haqda buyurmuşdur: "O Öz yaratdığını bilməzmi?" (Mülk. 14). Bu səbəbdən də Allah kişilərə və qadınlara uyğun geyimləri əmr etmişdir. Bunun əksini iddia etmək, qadını bütün məsələlərdə kişilərlə eyni tutmaq, eyni görmək istəmək, yaxud kişini qadın kimi görmək istəmək nə elmə, nə təcrübəyə, nə məntiqə, nə dinə, nə də sağlam ağıla uyğun deyil.

## Minlərlə insan acından ölür axı!

**Şübhə belədir:** "Minlərlə insan acından ölür. Bu da Allahın ruzi verən olması məsələsinə müxalifdir".

**Cavab:** Buradakı yanlış anlaşılmanın səbəbi ruzinin ancaq yedizdirmə və pul olmasını düşünməkdədir. Bunu deyənlər ruzi məfhumunun pul və yemək anlamından daha geniş və daha şamil olduğundan xəbərsizdirlər. Uca Allahın öz qullarına lütf etdiyi – pul, yemək, sağlamlıq, evlilik, övladlar, yaxşı tanınma, insanların sevgisi, gözəl əxlaq, zəka, ağıl, uğur və s. – ətaların hamısı ruzidir. Bütün bunların hamısı Allahdan olan ruzidir. Ateist öz fərziyyəsində və təsəvvüründə davamlı olsa da :

- Belə olsaydı o zaman Allaha vacib olardı ki, hər bir acı doyuzdursun, heç bir ac insan qalmasın və heç kimsə acından ölməsin.
- Belə olsaydı o zaman Allaha vacib olardı ki, bütün qullarına mal-mülk versin, onların içində heç bir kasıb qalmasın.
- Belə olsaydı o zaman Allaha vacib olardı ki,

hər – kişi və qadın olan – bir qulunu evləndirsin və yer üzündə evlənməmiş heç kim qalmasın.

- Belə olsaydı o zaman Allaha vacib olardı ki, bütün qullarını övlad və zürriyyət ilə ruziləndirsin, qulları arasında heç bir sonsuz olmasın.
- Belə olsaydı o zaman Allaha vacib olardı ki, bütün qullarını sağlamlıq və afiyət ilə ruziləndirsin, onlardan heç kim xəstələnməsin.

Yoxsa əgər – bu məntiqlə - Allah onun ruzisinə mane olsaydı və ya bu məsələlərdə bəzi qullarına sıxıntı yaşatsaydı, buradan belə çıxacaqdı ki, Allah onların ruzisini öz üzərinə götüməyib. Bu nə məntiqdir belə !?

Əgər Allah "bütün qullarına" "hər şeyi" versə, onları bəzi şeylərdən məhrum edib və ya sıxıntısız cənnət həyatı kimi bir yaşayış versə, o zaman Allahın qulları göndərdiyi imtahan sünnəsi (qayəsi) aradan qalxardı. Hətta əslində bu dünyanın olmasına belə ehtiyac qalmazdı. Ardı-arası kəsilməyən, bitmək-tükənmək bilməyən bolluq, geniş ruzi yalnız cənnətdə mümkündür.

Belə ki, Uca Allah bütün qullarının qədərində olan ruzinin qorunmasını və onlara çatmasını

üzərinə götürmüşdür. O baxımdan ki, - ruzisinin çox və ya az olmasından, ömrünün də uzun və ya qısa olmasından aslı olmayaraq – hər bir nəfs ölmədən öncə öz ruzisinə kamil şəkildə çatsın; Allahın elçisi ﷺ buyurmuşdur: "Həqiqətən də Müqəddəs Ruh (yəni, Cəbrayıl) mənə bildirdi ki, heç bir can öz əcəlini tamamlamamış, ruzisinin tam şəkildə əldə etməmiş ölməz. Elə isə Allahdan qorxun və gözəl şəkildə istəyin. Sizlərdən birinə ruzisinin az olması onu Allaha asilik edərək istəməsinə sürükləməsin. Çünki Allah qatında olana yalnız ona itaət etməklə nail olunur"(1).

Ona görə də ateistə sonuncu sualı veririk: "Məgər aclıq zamanı və ya buna bənzər müsibətlər zamanı vəfat edən kimsələr öz ruzilərini və əcəllərini tam şəkildə əldə ediblər? Yoxsa, ruzilərini və əcəllərini tam əldə etməyiblər?

Əgər ateist desə ki: "Bəli, onlar öz ruzilərini və əcəllərini tam şəkildə əldə ediblər" – o zaman özləri öz şübhələrinə son qoymuş olacaq, Quran və sünnədə gələn cavaba müvafiq olacaqlar.

Yox əgər ateist desə ki: "Xeyr. Onlar öz ruzilərini və əcəllərini tamamlamayıblar, onlar Allahın ruzi vermədiyi və ya təzyiq edilmiş şəkildə vəfat ediblər". – ona belə bir sual ver və bu sual bütün ağıl və insaf sahiblərinə verilir: "Məgər bol ruzi verilənlər bu ruzi vasitəsilə özlərini ölməkdən xilas edə bildilərmi? Bu ruziləri onların ölməsinin qarşısını aldımı? Böyük mal-mülk sahibləri olan varlılar da ölürlər, ya yox? Sağlam kimsələr tam sağlamlıq içində ölürlər, ya yox? Yoxsa aclıq hadisələrində ölən kimsələr ateistin elminin çatdığı yerdir !? (2).

Bu dünyada müsibətə düçür olanlar cənnətə mücərrəd olaraq girməklə bütün ağrı-acılarını unudacaqlar .

Həmçinin, Muhəmməd ﷺ ümmətindən olanlardan bütün ağrılı-acılı şəkildə vəfat edənlər – günahlarından təmizlənmə və ya dərəcələrinin artırılması olaraq - şəhidlərin dərəcəsini qazanacaqlar.

Qurani-Kərimdəki "Həqiqətən də insan öz

Rəbbinə qarşı çox nankordur" (Adiyət. 6) ayəsi haqqında Həsən əl-Bəsri demişdir: "Bu o nankor insandır ki, müsibətləri sayır, amma Rəbbinin verdiyi çoxsaylı nemətləri unudur"(3).

## İstifadə edilmiş ədəbiyyat:


1 – Albani "Səhihut-Tərğib". 1702 (həsən səhihdir) və "Səhihul-Cami" 2085. (səhihdir).

2 - "əl-Ovdətu iləl-İmən". (İmana qayıdış). Heysəm Talat. Səh. 95.

3 – İbn Cərir ət-Təbərinin təfsiri. Adiyət surəsi. 6.

## Kafirlərin etdiyi kəşfləri istifadə edirsiniz!

**Şübhə:** "Siz müsəlmanlar kafirlərin etdikləri kəşfləri istifadə edirsiniz, amma onları bəyənmirsiniz"!

**Cavab:** Bütün insanlar tarix boyu bir-birinin kəşflərindən istifadə ediblər. Tarixdə nə müsəlmanlar, nə də başqa dində olanlar belə arqumentlərə ehtiyac duymayıblar. Bütün insanlar, bütün xalqlar bir-birinin mədəniyyətindən, elmindən və s. istifadə ediblər. Vilyam Durant "Tarixdən dərslər" kitabında deyirdi: "Tarixin öyrənilməsi zamanı bunu da öyrənirik ki, mədəniyyət elə bir məhsuldur ki, onun ərsəyə gəlməsi üçün hər kəsin yardımlaşması lazımdır. Demək olar ki, bəşər mədəniyyətinin formalaşması üçün təqribən bütün insanlar (və ya xalqlar) səy göstərmişdir. Bu baxımdan da mədəniyyət bizim (bütün insanların) müştərək irsi və əmanətidir!"(1). Vilyam Durant eyni kitabda deyir: "(Sonrakı əsrlərdə) Muhəmmədin tərəfdarlarından olan görkəmli siyasət adamları, sənət xadimləri, şairlər, mütəfəkkirlər və s. kimsələr Bağdaddan (İraqdan)

Qurtubaya (İspaniyaya) kimi ağ insanın həyat cövhərinin tərkib hissəsi kimi öz çalışmalarını və əl izlərini qoyub getmişlər. Həmin zamanlar Avropanın Qərb mədəniyyəti orta əsrlərin qaranlıq çağlarında müsəlmanların yolunu tutub gedirdilər"(2).

"Kafirlərin ixtiraları" deyə danışılanlar dünyəvi elmin nəticəsidir. Dünyəvi elmin isə xüsusi vətəni yoxdur. Bu elmin inkişafı çoxsaylı mərhələlər keçir, mədəniyyətlərin ağuşunda yoğrulur, elmin övladları müxtəlif millətlərin, mədəniyyətlərin içində doğulur, bu mədəniyyətlərdən biri də tarixə öz imzasını atmış böyük İslam mədəniyyətidir. O mədəniyyət ki, əgər o olmasaydı Qərb dünyası bu mədəniyyət üzərindən istifadə edib öz elmini inkişaf etdirə bilməz və elmdə bu günkü səviyyəyə gələ bilməzdi, nə də bəzilərinin öyündüyü "ixtiralar" da olmazdı.

Ateistlər etiraf etməsələr də avropalılardan obyektiv olanlar müsəlmanların dünya elminə verdikləri töhfələri unutmurlar və bu haqda onların etiraf mahiyyətli sözləri az deyil. Onlardan biri də

Amerikalı yazar Mark Grahamdır. O özünün "İslam Müasir dünyanı necə qurdu?" adlı kitabında deyir: "Həqiqətdə Avropa minilliyin yarısı qədər bir müddətdə müsəlmanlardan öyrənmiş və müsəlmanlara tələbəlik etmişdilər. Buna əlavə olaraq, müsəlmanlar elmi qoruyan və elmə himayə edən xalqları formalaşdırdılar. (Qərblilərin) Metodiki kitablarının inkar etdiyi həqiqətləri müsəlmanlar təmsil etmişlər. Müsəlmanlar sənət sahibləri, şairlər, düşüncə adamları, riyaziyyat, kimya, astronomiya, fizika və s. elmlər üzrə alimlər idilər. Qısacası: Avropanın xaos içində yuvarlandığı vaxtlarda müsəlmanlar mədəni insanlar idilər. (Həmin zamanlarda) İslam mədəniyyəti həcm və texnika baxımından ən böyük mədəniyyət idi və başqa heç bir yerdə onun tayı-bərabəri yox idi"(3).

Müsəlmanlar tarix boyu etdikləri kəşf və ixtiralar haqqında eyni sözləri qeyri-müsəlmanlara deyiblərmi? Deyiblərmi ki, bizim etdiyimiz ixtira və kəşfləri istifadə etməyin? Mənə bir qaynaq göstərilməsini istəyirəm ki, tarixdə müsəlmanlar belə bir söz deyiblər. Lakin ateistlər başqa din

sahiblərindən fərqli olaraq bu cür şübhələri müsəlmanların əleyhinə gətirməyə çalışırlar. Ateistlər bəzən az qala xristian və bütpərəstlərin etdiyi kəşf və ixtiraları da öz adlarına nisbət etsinlər. Bu mövzunun qabardılması zamanı biz əcaib misalların da şahidi oluruq.

Bununla sanki ateist belə bir sual verir və bu sualı verirlər də: Müsəlmanları inkişafda geridə qoymuş, dünyəvi elmlərdə inkişaf etmiş, irəli getmiş qeyri-müsəlmanları necə tənqid edə bilirsiniz?

Məgər inkişaf etmiş, elmi-texniki inkişafda irəli getmiş qeyri-müsəlmanları tənqid etmək bu səbəbdən icazəli deyil? Məgər onların irəli getməsi, biz müsəlmanların isə bu sahədə geri qalmağımız onların haqq üzərində, bizim isə batil üzərində olmağımız anlamına gəlir? Bu şübhə qədim bir şübhədir. Qurani-Kərimdə uca Allah buna cavab verilmişdir: "Onlara açıq-aydın ayələrimiz oxunduğu zaman kafirlər möminlərə deyərlər: "Bu iki firqədən hansının məqamı daha yaxşı, məclisi daha gözəldir?" (Məryəm. 73).

Onlara görə üstünlük meyarı iqtisadi durum və rifahın yaxşı olmasıdır. Bu sözü bizim qərb aşiqləri desələr də elmdə obyektivlik tərəfdarı olan biri üçün heç kim məsum və xətasız deyil. Böyük kəşflər böyük cinayət vasitələri də ola bilir. Bu səbəbdən də bütün bəşər övladları tənqidə layiqdirlər. Qeyri-müsəlmanlara olan bu cür vurğunluq öz kimliyini itirmiş bir qövm üçün zəhər misalında ola bilər. Ona görə inkişaf edənlərə bağlanmaq deyil, özünü inkişaf etdirmək üçün çalışmaq lazımdır.

Tarixdə bir çox böyük kəşflərin, ixtiraların təməlini müsəlmanlar qoyublar. Onlar bəşər övladına özlərindən sonra müxtəlif dünyəvi elm sahələrində çıraq tutan cığırları açıblar. Hansı ki, sonradan gələn dünyəvi elm üzrə çalışan alimlər müsəlman alimlərin yol göstərdiyi, açdığı cığırlar üzərindən hərəkət edərək böyük uğurlar qazanmışlar. Tibb, riyaziyyat, həndəsə, astronomiya, coğrafiya, biologiya və s. bir çox elmlərdə müsəlman alimləri tarix böyük uğurlar qazanmışlar. Bu günkü kompüterlərin əsasını müsəlman alim Muhəmməd ibn Musə əl-

Xəvarəzmi (780-850) qoymuşdur. O üç hissədən ibarət olan (silsiləvilik, seçim və təkrar) alqoritmləri kəşf etmişdir. Bu gün onun elmdə açdığı cığır sayəsində kompüter kəşf edilmişdir. İbnil-Heysəmin (965-1040) isə riyaziyyata, astronomiyaya, optika və mexanikaya aid 89 əsəri olmuşdur. Onu bəzən "optikanın atası" adlandırırlar. Əbül-Qasim Xaləf əz-Zəhravi (936-1013) isə "Cərrahiyyə elminin atası" hesab edilir. Qərb dünyası onu "Abulcasis" deyə tanıyır. O cərrahiyyə elminə böyük töhfələr vermiş və bu elmə çox dəqiq yeniliklər gətirərək öz bilgilərini yazdığı kitablara köçürmüşdür. İbn Xaldunun (1332-1401) ictimai, iqtisadi, tarixi və siyasi məsələlər üzrə fikirləri Qərbin araşdırma mərkəzlərinin diqqətini dərindən cəlb etmiş və öz etiraflarına görə onun zəkasının məhsulu olan fikirlərindən çox yararlanmışlar. İbnil-Firnas (810-887) isə təyyarənin kəşfindən təxminən on əsr öncə təyyarəni kəşf etməyə cəhd etmiş ilk müsəlman şəxs hesab edilir.

Bu alimlər kimi onlarla müsəlman alimləri var ki, onlar dünya elminə böyük töhfələr

vermişlər və onlar haqqında bu kiçik yazıda ətraflı danışmaq mümkün deyil. Bu və digər çoxsaylı müsəlman alimlərin açdığı cığır üzərindən Qərb alimləri yararlanmış, öz elmlərini inkişaf etdirmişlər. İndi biz müsəlmanlar İslama bağlı elm adamlarından istifadə etdikləri üçün Qərb dünyasını aşağılasaq bu necə anlaşılar? Ən azından bəzi ateistlər heç olmasa "kafirin düzəltdiyi kompüter" sözünü işlədəndə bir də onun düzəlməsi üçün elmi ilə yolları açan Muhəmməd əl-Xavərizmini gərək unutmasınlar!

## İstifadə edilmiş Ədəbiyyat:


1 – Vilyam Dürantın "Tarixdən Dərslər" kitabı.

2 – Öncəki mənbə.

3 – "İslam müasir dünyanı necə qurdu?" Mark Graham.

## İslam dünyəvi elmə mane olurmu?

**Şübhə:** Ateist deyir ki, "din elmə mane olur. Dinlə elm bir-birinə ziddir. Din həqiqət deyil, elm isə həqiqətdir. Din təxmin və ehtimallardır, elm isə dəqiqlikdir".

**Birincisi: İslamın dünyəvi elmə yönləndirən dəlilləri:**

İslam dininin müqəddəs kitabı "oxu" əmri ilə (1) başlayır. Bu da bu dində elmə necə böyük dəyər verilməsi anlamını daşıyır. Quran ayələrində alimlərin üstünlüyünü göstərən(2) ayələr, bilmədiyin zaman alimlərdən soruşmağa təşviq edən(3) ayələr, bilənlə bilməyənlərin fərqinə fikirləri cəmləyən(4) ayələr, dünyəvi elmə ehtiyacı olan ruzi qazanmağa təşviq edən(5) ayələr, dövrün texnikasının istehsalına təşviq edən(6) ayələr, hərb elmini öyrənməyə təşviq edən(7) ayələr, mədənçilik və sənayenin(8) əkinçiliyin(9), şəhərsalmanın, inşaat və memarlığın(10) əhəmiyyətinə dəlalət edən ayələr, ictimai islahın əsası olan məsələləri öyrənməyin əhəmiyyətini

göstərən ayələri, astronomiya elminin, ulduzların funksiyası və mahiyyəti, riyaziyyat elminin Qurandakı tətbiqi(11) haqqında Qurandakı dəqiq vəsfləri verən ayələri, bəşər övladının daim ehtiyacı olan əxlaq-ədəb məsələlərini(12) və s. çoxsaylı mövzularda olan ayələri yazıb tədqiq etsək, mövzumuz çox uzanar. Baxmayaraq ki, Qurani Kərim kitabı dini bir kitabdır və onun əsas hədəfi bizlərə Allahın hökmlərinə uyğun bir həyat yaşamağı bildirmək və öyrətməkdir. Bununla yanaşı Qurani-Kərim bizə dünyadan olan nəsini də unutmamağı öyrədir, istər dünyəvi elm, istər dünya ruzisi olsun müsəlmana dünyasına biganə qalmamağı öyrədərək buyurur: "Dünyadakı nəsibini də unutma". (Qasas. 77).

*Peyğəmbərin ﷺ hədislərində də dünyəvi elmə böyük dəyər verildiyini müşahidə edirik ;*

**Tibb elmi** haqqında onun mühüm tövsiyələri var, müalicə olunmaq üçün bir çox vasitələri, şəfalı bitki və digər vasitələri öz mübarək dilindən tövsiyə etmişdir. Bu vasitələr haqqındakı çoxsaylı hədisləri yazıb mövzunu uzatmadan onun sadəcə müalicə olunmağa rəğbətləndirdiyi iki hədisi qeyd

etməklə kifayətlənəcəyik. Abdullah ibn Məsuddan rəvayət edilən bir hədisdə peyğəmbər demişdir: "Allah elə bir xəstəlik göndərməyib ki, onun şəfasını (dərmanını) da göndərməsin. Onu bilən bilir, bilməyən isə ondan xəbərsiz qalır"(13). Başqa bir hədisdə isə onun yanına gələn bədəvi ərəb müalicə olunmaq haqqında soruşduğu zaman demişdir: "Bəli, ey Allahın qulları, müalicə olunun.(14)"...

Böyük İslam alimi imam Şafi (Allah ona rəhmət etsin) tibb elminə böyük əhəmiyyət verir və bəzi müsəlmanların bu elmi ehmal etdiklərinə görə təəssüflənirdi.(15)

**Əkinçilik** haqqında isə bir hədisində peyğəmbər o dövrün xurma bağbanlarına "Siz öz dünyəvi işlərinizi daha yaxşı bilirsiniz"(16) deməklə onları öymüşdür. Bu hədis bir çox təcrübə və sınaq yolu ilə əldə edilən dünyəvi elmləri öyrənməyə də təşviq edən hədislərdəndir.

**Sənaye** sahəsinə dəstək və buna təşviq; Səhih əl-Buxaridə sənaye, istehsal sahələrinə dəstək olmaq haqqında peyğəmbərin mübarək ağzından

çıxan kəlmələr qeyd olunub. Əbu Zərdən rəvayət olunur ki, dedim: ey Allahın elçisi, hansı əməl daha üstündür? Dedi: "Allaha iman gətirmək və onun yolunda vuruşmaq". Dedim: "Hansı köləni azad etmək daha üstündür? – Dedi: "Əhli yanında ən dəyərli və daha çox qiymətli olanı". – Dedim: "Əgər bunu edə bilməsəm?" Dedi: "o zaman bir (sənayeçiyə) istehsalçıya yardım etməyin və ya istehsalı bacarmayan üçün istehsal etməyin". (Səhih əl-Buxari. 2518; Səhihu Muslim. 84). Bu hədis də peyğəmbərin müxtəlif dünyəvi elmləri, texniki bilgiləri tələb edən sənaye, istehsal sahələrini öyrənməyə təşviq etməsidir. Hədisin mötəbərlik dərəcəsi də ən üstün yerlərdən birini tutur. Ən mötəbər iki hədis kitabında qeyd edilmişdir. Hədisin mötəbərliyi də müzakirə mövzusu deyil.

**Xarici dil** öyrənməyə təşviq; Dünyəvi elm sahələrindən biri də xarici dillərin öyrənilməsidir. Peyğəmbər ﷺ bu məsələyə də diqqət yetirmiş, səhabələrindən birinə xüsusi dil öyrənmə təlimatı vermişdir; Şərafətli səhabə Zeyd ibn Sabitdən rəvayət edilir ki, o dedi: "Allahın elçisi (Allahın

ona salavatı və salamı olsun) mənə əmr etdi ki, yəhudi dilində yazmağı öyrənim – bir rəvayətdə isə siryani dilini öyrənməyimi əmr etdi deyilir. Sonra deyir: "Üzərindən yarım ay keçdi ki, mən (bu dili) öyrəndim və çox yaxşı mənimsədim. Mən peyğəmbərin adından onlara yazır və onların yazdıqlarını peyğəmbərə oxuyurdum (17)".

**Hərb texnikası** mövzusunda xəndək qazılması və onun tətbiqi; müxtəlif ictimai sahələrdə edilən dünyəvi yeniliklərə peyğəmbər ﷺ heç də pis baxmamış, əksinə bu yenilikləri dünyəvi sahələrdə dəstəkləmiş, hətta tətbiq etmişdir. Bunlardan biri də Əhzab döyüşü zamanı istifadə edilmiş xəndək haqqındadır. O zaman üçün hərb elmində böyük bir yeniliklərdən hesab edilirdi. Ərəb dünyasında xəndək qazılması ilk dəfə Muhəmməd ﷺ peyğəmbərin zamanında baş vermişdir. Peyğəmbər bütün dünyəvi sahələrdə yeniliklərə müsbət yanaşır və buna təşviq edirdi. Əhzab döyüşündə xəndək qazılmasında birbaşa özü də iştirak etmişdi. Bəra ibn Azibdən(18) və digər səhabələrdən bu haqda rəvayətlər varid olmuşdur. Orada qeyd olunur ki, xəndəyin qazılması təklifini

peyğəmbərə ﷺ şərafətli səhabə Salman Farisi təklif etmişdi. Peyğəmbər ﷺ də bu təklifi yüksək qiymətləndirmiş, birbaşa tətbiq etmiş və uğurlu nəticə də əldə etmişdi.

**İnsan anatomiyası**, sağ çiyin üzərində yatmaq haqqında hədis; İmam Müslimin Bəra ibn Azibdən rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ bir kişiyə gecə yatarkən sağ çiyini üzərində yatmasını tövsiyə etmişdir(19). Bu yatış formasının insanın ürəyi üçün necə faydalı olmasını tibb elmi də təsdiqləyir. Üstəlik də bu cür yatmaq hədis şərhçilərinin bildirdiyinə görə insanın namaza yatıb qalmadan oyanması, az yatmasına kömək edən amillərdəndir.

**Dünya işləri üçün** Peyğəmbərin ﷺ **dua etməsi**: Bir hədisində belə dua etmişdi: "va əslih li dünyayəlləti fiyhə məaşi" Yəni: "Üzərində yaşayışım olan dünya həyatımı mənim üçün qaydasına sal"(20). Bu dünya həyatının qaydasına düşməsi isə həm dünyəvi elmin, həm də ruzinin lazımlı səbəblərindən tutunmağı gərəkli edir. Peyğəmbər dua edərkən səbəblərdən tutunmağı da

öyrədərdi.

Bu mövzuda çoxsaylı hədislər qeyd etmək mümkündür. Lakin yazının uzanmaması və digər mövzulara keçid etmək üçün bu qədərilə kifayətlənirik.

**İkincisi: Peyğəmbərdən ﷺ sonrakı dövrlərdə dünyəvi elm.**

Peyğəmbərdən ﷺ sonra raşidi xəlifələrin dövründə (21) dünyəvi elm daha da inkişaf etməyə başladı, əməvilərin dövründə müsəlmanlar artıq dünyəvi elmlər üzrə dünyada liderlik edən iki böyük qüvvədən biri idilər. Abbasilərin və sonrakı müsəlman dövlətlərin zamanında da dünyəvi elmlərə böyük diqqət göstərilmiş, alimlərin ehtiyacları dövlət tərəfindən qarşılanmış və onlar cəmiyyətdə böyük nüfuz sahibi olmuşdular. Təkcə Əməvi və Abbasilərin dövründəki elmi tərəqqi haqqında cildlərlə kitabların yazılması mümkündür. Hələ biz Əndəlüs (indiki İspaniya ərazisi) dövlətində elmin hansı inkişaf həddinə çatmasından danışsaq, qərblilərin müsəlmanların elm ocaqlarında öyrəndiyi dünyəvi elmlərdən

danışsaq mövzu çox uzanar. Osmanlıların zamanında da dünyəvi elm mövzusu yüzlərlə səhifələrə sığmayacaq dərəcədə geniş mövzulardır. Bunların hansından danışasan? Haradan başlayıb haradan bitirəsən? Bu müsəlman dövlətlərinin dünyəvi elmi praktikada tətbiq etmələri haqda bu kiçik yazıda yalnız kiçik bir qeyd etməklə kifayətlənirik.

**Üçüncüsü: Müsəlmanlar dini ideologiya ilə dünyəvi elmlərdə irəli getmişdilər:**

Müsəlmanların orta əsrlərdə dünyəvi elmlərdə öndər olmaları, qərblilərin dünyəvi bilikləri öyrənmək üçün müsəlmanların ayağına gəlmələri məhz dinin dünyəvi elmə cığır açmasından, dünyəvi elmi qadağan etməməsindən, əksinə ona təşviq etməsindən qaynaqlanır! Bu mövzuda sözümüzü Əndəlüs elmi mərkəzlərinə gəlib müsəlmanlardan elm öyrənən, müsəlmanlara heyran qalan bir qərblinin tarixi sözləri ilə yekunlaşdırıram:

"Mənim din qardaşlarım ərəb şeiri və

hekayələrini oxumaqdan böyük bir ləzzət duyurlar. Onlar müsəlmanlardan din əhli olanların və fəlsəfəçilərin məzhəblərini öyrənməyə üz tuturlar. Onlar bunu onlara cavab və rədd vermək üçün deyil, yalnız doğru və gözəl ərəb metodu öyrənmək üçün edirlər. Hal-hazırda müqəddəs incillərə latınca yazılmış şərhləri din xadimlərindən başqa kim oxuyur? Din xadimlərindən başqa kim peyğəmbər və elçilərdən qalan irs ilə maraqlanır və ya həvarilərin yazdılarını öyrənməklə məşğuldur? Nə xoşdur ki, bacarıqlı xristian gəncləri bu gün yalnız ərəb dili və onun ədəblərini bilir, buna inanır və həvəslə yönəlirlər. Onlar ərəbcə kitabları toplamaq üçün küllü miqdarda pullar ödəyir, hər yerdə yüksək səslə deyirlər ki, bu ədəblər həqiqətən də təqdirə layiqdir. Əgər onlara xristian kitabları haqqında danışsan, sənə aşağılayıcı tərzdə cavab verib deyərlər ki, bu kitablar diqqət göstərilməyə layiq deyillər. Bu necə də ağrılı bir haldır ki, xristianlar artıq öz dillərini də unudublar. Onlardan minlərlə adamın içindən az qala öz dostuna düzgün şəkildə, səhvsiz məktub yazmağı bacaran adam tapılmasın, amma ərəb dilində yazmağa gəldikdə sən onların

içində çoxsaylı adamları düzgün, səriştəli şəkildə yazmağı bacardıqlarını görərsən, hətta (onlardan bəzilərini) ərəb dilində ərəblərin özlərindən – gözəl və səriştəli - daha yaxşı şeir yazmağı bacardıqlarını görərsən (22) ". Bəli, bu yazı orta əsrlərdə deyilmiş bir etirafdır. Bu etiraf dövrün elmi yenilikləri ilə tanış olmaq üçün, dünyəvi elm öyrənmək üçün ərəbcə öyrənməyə məcbur olan şəxslərdən birinin tarixi etirafıdır. Bu nəqlin özü İslam ideologiyası nəticəsində müsəlmanların elmi inkişafda necə ön sıralarda olmasını göstərir. Təbii ki, bu həqiqətləri bilməyənlər "din elmə mane olurmuş" kimi gərəksiz ifadələr işlədə bilərlər.

Həqiqətdə Allah üçün yaşayan neçə-neçə şəxsiyyətlər olub ki, nümunəvi örnəklər və böyük mədəniyyətlər qurublar. Bəşər tarixinin bütün qurucuları qədərə inanan şəxsiyyətlər olublar. Hətta Avropada Orta əsrlərin qaranlığının aradan qalxması İslamın əliylə baş vermişdir.

Necə ki, bunu Peter Obrien deyir. Belə ki, antropologiya, ilahiyyat, ictimaiyyət, tarix və fəlsəfə elmlərində rəyinə etibar edilən alimlərin

icması ilə müasir mədəniyyətin əsası dindən qaynaqlanır. Ona görə də Çarlz Darvin demişdir: "Kainatın bir hökmdarının olması rəyi mütləq bir şəkildə çoxsaylı böyük ağılların üzərində ittifaq etdiyi bir məsələdir(23)".

İnsan DNT-si mövzusunda ateistlərin elmi araşdırmadan yayınmaları haqqında bir faktı müşahidə etmiş misirli həkim Heysəm Talat belə deyir: "İslam heç zaman ateizm və bütpərəstlik kimi elmə maneə olmamışdır. Əksinə, biz iddia edirik ki, ateizm elm qarşısında qəti bir maneədir; Sən ilk öncə ateizmin varlıqlar haqqında kor-koranə müstəvidə olan təsəvvürünə bax, sonra isə dinin varlıqların dizaynı, planlanması haqqında təsəvvürünə bax, sonra isə hər iki təsəvvürün insan DNT-sinin kiçik hissəsiyi haqqında təsəvvürünə bax. Burada birinci təsəvvür sahiblərinin (ateistlərin) araşdırma etməkdə dayandığını görəcəksən. Onlara görə bu hissəcik həyat boyu davam edəcək, çünki onlar yaradılışın xaosdan əmələ gəldiyini ehtimal edirlər. İkinci təsəvvür sahibləri isə araşdırmada DNT hissəciyini qidalandıran səbəbi tapmadan dayanmırlar, çünki

Allah heç bir şeyi boşuna yaratmamışdır. Doğurdan da son zamanlarda edilən elmi araşdırmalar ikinci təsəvvür sahiblərinin xeyrinə olmuşdur və bəyan etmişdir ki, insanın həyatı DNT hissəciyi olmadan mümkün deyil, çünki, o birbaşa genlərin fəaliyyətinin yönləndirilməsindən məsuliyyət daşıyır. Hətta son illərdə DNT-nin bu sarıdan öyrənilməsi üçün "junk DNA" müstəqil bir elm ərsəyə gəlmişdir və bu elm Epigenetics "Genlərin idarə edilməsi elmi" adlanır. Bu da ona dəlalət edir ki, din elmə və tədqiqata yönəldir, ateizm isə cəhalətə, geriliyə və elmi araşdırmadan dayanmağa yönəldir. Həqiqətən də müasir ateizm bizi iki seçim qarşısında qoyur; ya Allaha inanaraq kainatı anlamaq, ya da ki, imandan sıyrılıb bunla birgə kainatı anlamaqdan da sıyrılmaq. Əgər ağıl maddənin nəticəsi kimi bunu iddia edirsə, biz onun göstərişlərinə necə etibar edə bilərik?"(24).

**Dördüncüsü: Qərbli alimlər də dinin elmə zidd olmadığını təsdiqləyirlər!**

Bu məqamda elmlə dinin bir-birinə zidd olmaması barədə bəzi qərbli elm adamlarının

sözlərini oxumaq yerinə düşər:

Sir Con Fridrik Vilyam Herşel demişdir: "Görünür ki, bəşər övladının bütün kəşfləri yalnız səmadan gələn həqiqətləri daha qüvvətli bir şəkildə təsdiqləmək üçün edilmişdir. Bu müqəddəs kitablarda da qorunmuşdur (25)".

Francis Collins demişdir: "Elm Allahın əsrarəngiz, möhtəşəm yaratmasını kəşf etdikdən sonra elmin ibadətə aparan bir yol olması mümükündür(26)".

Max Planck demişdir: "Heç təsadüfi deyildir ki, bütün əsrlər boyunca böyük mütəfəkkirlər çox dərindən dindar olmuşlar, baxmayaraq ki, onlar öz hislərini aşkardan ortaya çıxarmamışlar"(27).

Robert A. Naumann demişdir: "Elm və dinin bir-birinə zidd olduğunu hesab etmirəm. Onlardan hər biri imanın fellərindən qaynaqlanır. Şiddətlə dəstəkləyirəm ki, hazırkı suallar kainat elmindən və ilkin Fizika cismlərindən başlayır, bakteriyalar elminin isə aydın bir qeybi və ya dini ehtivası var(28)".

Con G. Filips demişdir: "Elm və din arasında heç bir ziddiyyət görmürəm. Hər biri müxtəlif suallar verir. Elm "necə" sualını soruşur, din isə "nə üçün" sualını soruşur  (29)".

Charles H. Townes demişdir: "Elm Kainatın mexanizmini öyrənmək istəyir. Dinin isə buna cavabı var. Ona görə də bu ikisini bir-birindən ayırmaq olmaz (30)".

Vera Kistiakovski demişdir: "Hesab edirəm ki, elm və din müxtəlif və iki yaxın şeylərdir. Heç birinin öyrəndiyi sahələr tamamilə bir-birinə aid deyil (31)".

Artur H. Compton demişdir: "Elm və din arasında heç bir köklü ziddiyyət yoxdur. Elm bilgini öyrənmək üçün olan etibarlı bir yoldur. Din isə həyatın təməlini qaydasına salmaq üçün bir araşdırmadır.(32)".

Joseph Taylor demişdir: "elmi kəşf həm də dini kəşf deməkdir. O baxımdan ki, elmlə din arasında bir ziddiyyət yoxdur. Hər bir elmi kəşf edildiyi

zaman Allahı daha yaxşı tanımış oluruq.(33)"

Werner Heisenberg demişdir: "Təsdiqləməyim vacibdir ki, elm və din arasında edilən bu ayrı-seçkilik mənə heç də xoş deyil! Bəşər övladının cəmiyyətlərində bilgi və iman arasında kəskin ayrı-seçkilik olduğu halda yaşayışın ola bilməsinə şübhə edirəm.(34)"!

İsidor İsaac Rabi demişdir: "Fizika məni ehtiram ilə doldurmuş və məni orjinal səbəblərlə təmas qurmağa yönəltmişdir. Fizika məni Allaha yaxınlaşdırmışdır.(35)".

**Beşincisi: Din və elmin uyğunluğu haqqında bəzi suallara cavablar:**

**Sual (1):** İnsan dünyəvi elm öyrənməklə də savab qazanırmı? Cavab: Bəli. İnsan dünyəvi elm öyrənməklə də savab qazanır. Bu onun niyyətinə qayıdan bir məsələdir. Dünyəvi elmi öyrənib öz ixtisası üzrə xalqına, insanlara faydalı olmaq istəyən kimsə buna görə savab qazanır.

**Sual (2):** Bəs nə üçün müsəlmanlar dünyəvi elmdə qeyri-müsəlmanlardan geri qaldılar?! Cavab: Bunun bir çox səbəbləri var. Bu səbəblərdən:

1 – Əksər müsəlman ölkələrinin qeyri-müsəlmanlar tərəfindən amansız işğala məruz qalması və müstəmləkəyə çevrilməsi. Bu da öz növbəsində onların inkişafdan geri qalmasının başlıca amillərindən olmuşdur.

2 – Müsəlman ölkələrinin işğalından sonra onların bir daha dirçələ bilməməsi, inkişaf edə bilməməsi üçün onlar arasında "parçala, hökm et" siyasətinin qurulması.

3 – "Qeyd etməsək olmaz" deyilə biləcək səbəblərdən - əsas səbəb olmasa da – bəzi müsəlmanların tamamilə tərki-dünyalıq edib peyğəmbərin gətirdiyi əzəmətli ideologiyadan uzaq düşməsi, təriqət təəssübkeşliyi çəkib dünyəvi elmlərə dırnaqarası baxması. Bu amil ilk qeyd etdiyimiz amildən sonra gəlsə də müsəlmanların dünyəvi elmə yanaşmasında təsiri var .

4 – Dünyəvi elm və müasir texnologiya sürətlə inkişaf edir; Müasir dünyəvi elm sahələri və texnologiya o qədər sürətlə inkişaf edir ki, -

çətinliklərə və maneələrə baxmayaraq – müsəlmanların bir sıra elm sahələrində əldə etdikləri uğurlar bəzi insanlara görünmür(36). Bir sıra müsəlman ölkələri təkcə son əlli ildə o qədər yüksək inkişaf ediblər ki, müstəmləkə durumuna düşdükləri dövrlərdə inkişaf paradiqmasından geri qalmaları və elmi inkişaf meydanında rəqabətin yüksək olmasına görə o ölkələrin inkişafına lazımi dəyər verilmir.

**Sual (3):** Bəziləri deyirlər ki, müsəlmanlar son beş əsrə kimi dünyəvi elmlərdə öndə olsalar da, sonrakı əsrlərdə bu öncüllüyü Qərb ölkələri ələ keçiriblər. Son beş əsrdə müsəlman alimlərin elə də böyük elmi uğurları olmayıb. Bu nə dərəcədə doğrudur?

**Birincisi:** Bu sual və ya şübhə heç bir vəhclə dinin elmə mane olması anlamına gələ bilməz. Biz əvvəldə İslam dininin iki qaynağı olan Quran və hədislərdən dünyəvi elmə işıq tutacaq bəzi dəlilləri qeyd etmişdik. Deməli, bu cür proseslərin dinlə bir əlaqəsi yoxdur.

**İkincisi:** Sualda açıq şəkildə etiraf edilir ki, son

beş əsrdə müsəlmanlar zəifləyib və ya geri qalıb. O zaman belə bir məsələ ortaya çıxır. Bəs on dörd əsrlik tarixi olan bir dinin mənsubları bu din göndəriləndən bəri doqquz əsr ərzində necə dünyəvi elmlərdə və dünya hakimliyində öndə olublar? Əgər bir ideologiya elmə qarşıdırsa, o ideologiya öz ümmətini doqquz əsr necə ən üstün sıralarda saxlaya bilir? Düşünürəm ki, bu sualın cavabı barədə düşünmək bizə kifayət etməlidir.

**Sual (4):** Axı biz orta əsrlərdə kilsənin dünyəvi elmə və bu elmi daşıyan alimlərə qarşı necə divan tutduğunu görmüşük. İslamda isə dinə qarşı danışanların cəzası verilirdi. Buna necə izah verə bilərsiniz?

**Cavab:** Kilsənin orta əsrlərdə dünyəvi elmin daşıyıcılarına divan tutması məşhur və məlum bir məsələdir. Nəzərə alsaq ki, İncil kitabı təhriflərə məruz qalmış, İncilə zidd olan dünyəvi fikirlərə qarşı şiddətli mübarizə aparılmış, din xadimləri xristianlığın nüfuzunu qorumaq üçün elm xadimlərinə, alimlərə çox əziyyət və işgəncələr vermişdilər. Amma İslamın dünyəvi elmlərə və

elm xadimlərinə qarşı yanaşması belə olmamışdır. Müsəlmanların tarix boyu ən sərt mövqe göstərdikləri şəxslər insanların əqidəsini korlayan, dinsizliyi təbliğ edən zındıqlar, mülhidlər olmuşlar. Dünyəvi elmləri öyrənən və öyrədən İbn Sina, əl-Xəvarəzmi, İbn Xaldun, ibnil-Heysəm və s. yüzlərlə alimlərə heç bir cəza verilməmiş, əksinə onlara müsəlmanların ölkəsində rəsmi səviyyədə yüksək dəyər verilmişdir. Hətta onlardan bir çoxlarının etiqadi məsələlərdə ciddi xətaları olsa da onlar ağır cəzalara tuş gəlməmiş, Avropadakı dünyəvi elm adamlarının ağır aqibətini yaşamaq əvəzinə, hələ dövlət tərəfindən rəsmi dəstək də almışdılar.

**Sual (5):** Dünyəvi elmlərin hamısı eyni hökmdədir?

**Cavab:** Qeyd etdik ki, dünyəvi elmlər cəmiyyətə nə qədər faydalı olar və millətin problemlərinin aradan qalxmasına, ehtiyacların ödənməsinə xidmət edərsə, o qədər onun dindəki dəyəri də yüksək olar. Bəzi elm sahələri var ki, insanlar onu faydalı olmaq üçün deyil, sadəcə

hobbi kimi öyrənirlər. Məsələn gözəllik və ya dizayn məsələlərini daha çox pul qazanmaq üçün öyrənənlər olur. Həmin ölkədə tibb elminə və ya daha çox elminin öyrənilməsinə ehtiyac olan sahələr ola bilər. Yaxud bir ölkədə yaxşı memarlara, yaxşı mühəndislərə, yaxşı həkimlərə ehtiyac olduğu halda insanların əyləncə tipli az elm tələb edən sahələrə yönəlməsi şəriətin məqsədinə müxalifdir. Allahın elçisi ﷺ buyurmuşdur: **"Ən xeyirliniz insanlar üçün ən faydalı olanınızdır"**(37). Deməli, cəmiyyətdə daha çox ehtiyac olan dünyəvi elm sahələrini seçmək şəriətin məqsədinə daha uyğundur.

**Sual (6):** Əgər din elmə mane deyilsə, nə üçün bəzi müsəlmanlar öz övladlarını məktəblərdə və universitetlərdə oxumasına mane olurlar?

**Cavab:** Sualda bəzi müsəlmanlar sözünü siz özünüz işlətdiniz. Bu da onu göstərir ki, bu xüsusi bir qənaətə gəlmiş müsəlmanların rəyidir, bütün müsəlmanların rəyi deyil. Təbii ki, öz övladlarını məktəbə göndərməmək mövzusunun geniş təfsilatı

var, ən çox da ədəb əxlaq baxımından və ya İslam inancına zidd təlimlərə görə bəzi valideynlər şəxsi seçimlər edir, bəzi valideynlər isə övladı təhsilsiz qalmasın deyə buna səbir etməli olur. Nəticə isə budur ki, o valideynlərdən hətta İslama ədəb və inanc yönündən zidd olan təhsil sisteminə qarşı çıxdıqları üçün bunu edirlər, elmin özünə isə qarşı çıxmır, hətta bir çoxları övladlarına müəllimlər tutur və savadsız qalmamaları üçün əllərindən gələni əsirgəmirlər. Deməli, bu mövqe elmə qarşı deyil, təhsil sisteminə qarşı bəzi valideynlərdə əmələ gəlmiş mövqedir. Hansı ki, biz fərdlərin mövqeyi üzərindən İslama hökm verə bilmərik.

## İstifadə edilmiş ədəbiyyat:


1 – Ələq surəsinin ilk ayəsi.
2 – Fatir surəsinin 28-ci ayəsi.
3 – Nəhl surəsinin 43-cü ayəsi.
4 – Zümər surəsinin 9-cu ayəsi.
5 – Cümə surəsinin 10-cu ayəsi.
6 – Hud. 37-38; Fatir. 12. Nəhl. 8.
7 – Ənfal. 60. Ənbiya. 80. Səba 10-11.
8 – Hədid. 25. Səba. 12. Kəhf 96-97.

9 – Əbəsə. 24-dən 32-yə kimi. Yasin. 33-35.
10 – Əraf 74. Fəcr. 7-8. Fəcr. 9. Səba. 13 .
11 – Qeyd: bu mövzuya toxunarkən biz riyazi rəqəmlərlə bağlı bəzi araşdırmaçıların ifrat çıxış və təqdimatlarını qəsd etmirik.
12 – Halbuki bu psixologiyanın çox mühüm bir hissəsi hesab edilir.
13 – Əhməd. 1/377; Əhməd Şakir səhih hesab edib 5/201. No: 3578.Humeydinin "Müsnəd" əsəri. 1/50. No: 90. Əbu Yəlanın "Müsnəd" əsəri. 9/113. No: 5183. İbn Macəh. "Tibb" kitabında no: 3438 və 3439. Hakim isə 4/196-197. Albani isə "Səhihul-Cami" əsərində "səhih" hesab etmişdir. No: 5558-5559.
14 – Əbu Davud. 3855; Tirmizi. 2038; İbn Macəh. 3436. "Səhihul-Cami" Albani. No: 2930.
15 – əs-Siyər. 10/56.
16 – Səhihu Muslim. 2363.
17 – Əbu Davud. 3645; Tirmizi. 2716.
18 – Səhih əl-Buxari. 3034; Səhihu Muslim. 1803.
19 – Səhihu Muslim. 2710.
20 – Səhihu Muslim. 2720. "Ədəbul-Mufrad" Buxari. 668.
21 – Raşidi xəlifələr deyildikdə Peyğəmbərin

dörd yaxın dostu, silahdaşı olan İslam xəlifələri nəzərdə tutulur. Onlar Əbu Bəkir, Ömər, Osman və Əlidir – Allah onların hamısından razı olsun.

22 – Dr. Əhməd İsmayıloviç. Şərqşünaslığın fəlsəfəsi. Səh. 67.
23 – Darwin, Charles (1902), "The Descent Of Man", p131.
24 – əl-Ovdətu iləl-İmən. (İmana qayıdış). Heysəm Talat. Səh. 120-121.
25 – The Living Age. Eliakim. 5/383.
26 – əl-İman bil-Xaliq vəl-Elm. Dələil mərkəzinin tərcüməsi. səh. 41.
27 – Where it Science Going? Max Planck. 1977.
28 – əl-İman bil-Xaliq vəl-Elm. Dələil mərkəzinin tərcüməsi. səh. 49.
29 – Science asks what and how, while religion asks why. 1991.
30 – Elm və Allah. Lazer və Dua haqqında. (ingiliscə) 1997. 890-93 – 277.Səh. 51. (ingiliscə).
32 – The Cosmos of Artur Holly Compton. P. 374. Faynfar Buşun müqəddiməsi ilə. New York.
33 – əl-İman bil-Xaliq vəl-Elm. Dələil mərkəzinin tərcüməsi. səh. 57.
34 – Physics and Beyond. Werner Heisenberg. p.

82-83. 1971.
35 – Physics Today. Rabi İsidor İsaac. P. 38.1999.
36 – Müsəlman alimlərin müasir dövrdə əldə etdikləri elmi nəaliyyətlər haqqında keçiddə verilmiş videomuza baxmağı tövsiyə edirik: https://www.youtube.com/watch?v=i8iJhZBYSts.
37 – Səhihul-Cami. Albani. 3289.

## Din yer üzündəki müharibələrin səbəbidirmi?

**Sual:** Ateistlər deyirlər ki, din yer üzündəki müharibələrin əsas səbəbidir. Bu nə dərəcədə doğrudur?

**Cavab:** Bəşər övladı tövhid (təkallahlıq) inancı üzərində min illər boyunca yaşamış, təxminən dörd min il isə İbrahimi dinlərdən olan üç böyük şəriətin davamçısı olmuşlar. Bu zaman kəsimi ərzində din bəşər övladı üçün heç zaman birbaşa təhlükə olmamışdır. Əksinə, din insanlara yüksək əxlaqi dəyərlər bəxş etmiş və köklü mədəniyyətlər qurmuşdur ki, bu məsələdə inanclı və ateist olan hər kəs ittifaq edir. Hətta biz deyə bilərik ki, yer üzündə olan bütün xeyirlər bu keçmiş peyğəmbərlərin şəriətlərindən qaynaqlanır!

Din sayəsində məhkəmələrin bir çox problemli məsələləri həll olmuş, işi yüngülləşmişdir. Bundan daha mühüm olanı isə dinin insanın yer üzündəki var olma qayəsi haqqında təməl elmi, əxlaqi və mənəvi dəyərlərin əsasını qoymasıdır. Təkallahlı

dinlərə mənsub olan dövlətlər bu gün də mədəni müxtəlifliyə malik olmaqla yanaşı həmin müxtəlifliklə özlərinə müxalif olanlara toxunmamış və elə təkallahlı şəriətlərin gərəyi olaraq onları himayə etmişlər.

Lakin bir əsr olar ki, bəzi ölkələr ateizmə tərəf yaxınlışmışdır və az qala bütün bəşəriyyət həlak olsun! Buna baxmayaraq bəzən hansısa ateistin çıxıb dinin bəşəriyyət üçün təhlükəsindən danışmağa cəhd etdiyini görürsən!

Bəşər tarixində ateizmdən daha təhlükəli bir yol görülməmişdir. Ateist Leninin zamanından başlayaraq Sibir həbsxanalarında, sürgünlərdə ən bəsit bəhanələrlə həbs edilib azadlığı əlindən alınmış, ölənə kimi işləməyə məcbur olanlardan tutmuş soyuqdan donaraq ölən minlərlə insanlar var idi. İllər ərzində ölənlərin sayı yüzminləri keçmişdi. Faşist Almaniyasında etnik azlıqları təşkil edən xalqlar məhv edilmişdi. Ateist Kamboca lideri Pol Pot isə öz xalqının 1/4 hissəsini qətl etmişdi. Çin lideri ateist Mao Zedong isə "Böyük Mədəni İnqilab" zamanı 52 milyon

insanın qətlinə səbəb olmuşdu. Avropada isə "League Militant Atheists" (Ateist Qüvvələrin Birliyi) tərəfindən 42.000 dini müəssisə (kilsə və məscid) qapadılmış, minlərlə dindar qətlə yetirilmişdi(1).

Bəşəri irqlərə ateizm baxışı ilə baxan hər iki dünya müharibəsində – hansı ki, bu təsəvvür "irqi təmizlənmə" ideologiyasını ateizmdən götürmüşdü – bu müharibələr zamanı yer üzündə yaşayan əhalinin 5 ٪- i tamamilə məhv edilmişdi. Dünya müharibələri qalib və məğlub tərəfləri bir əsrin üçdə biri qədər geridə qalmasına səbəb olmuşdu. Paris şəhərinin ortasında filosoflar mədəniyyətin sonunun gəlməsinə işarə etmək üçün ayaqyolu qoymuşdular.

Ateizm ideologiyası üzərində baş qaldırmış müharibələr özündən sonraya bəşər övladının nəslini dəfələrlə yox etməyə qadir olan nüvə silahları qoyub getdi. XX-ci əsrin müharibələri haqqında bəsit bir mütaliə bəs edir ki, ateizmin bəşər övladına verdiyi zərər anlaşılsın.

Ateizm özündən sonra "hər hansısa bir müharibədə bəşər nəslinin məhv olacağı" fikrinin real olmasını müdafiə edir. Ateizmin insanlığa göstərdiyi töhfə budur(2).

Bu məqamda bu qeyd yerinə düşür: "Muhəmməd ﷺ peyğəmbərin zamanında baş vermiş müharibələrdə 23 ildə hər iki tərəfdən cəmi 1000 nəfərə yaxın insan qətl edilib"(3). Sonrakı dövrlərin məhz dini məğzdə olan müharibələri zamanı ölənlərin sayı yenə dünyəvi, siyasi məqsədlər, işğalçılıq, müstəmləkəçilik uğrunda edilən müharibələrdən qat-qat azdır. Buna hətta başqa dinləri də əlavə etdikdə reallıq dəyişmir.

Digər dinlərin isə böyük müharibələri və insan tələfatına səbəb olmaları müsəlmanlardan nisbətən çox olsa da yenə də ateistlərdən azdır. Hətta Son əsrlərdə dini müharibələrdə vəfat etmiş insanların sayını toplasaq, son bir əsrdə ateizm ideologiyası uğrunda ölmüş milyonlarla insanların sayı ilə müqayisəyə gəlməz!

Bu haqda edilmiş mötəbər araşdırmalardan birində 1648-ci ildən 1989-cu ilə qədər olan

müharibələr araşdırılmışdır. Bu araşdırma beynəlxalq əlaqələr üzrə alim Kalevi Holstinin araşdırmasıdır. Onun qənaətinə görə qeyd olunan təxminən üç əsr yarımlıq müddət ərzində edilən müharibələrin 62٪-i işğalçılıq, strateji məqsədlərlə torpaq əldə etmək və ya həmin ərazilərdə nüfuz əldə etmək üçün edilmişdi. Ticarət amili və beynəlxalq ticari yollara hücum məqsədilə edilən müharibələr isə təxminən 15 ٪- i ehtiva edir. Bu müharibələrin 12٪-i isə (xüsusən də Avropada) taxt-tac, hakimiyyətə gəlmək uğrunda edilmiş müharibələrdir (xüsusən də 1648-ci ildən 1814-cü ilə kimi olan zaman kəsimində). 7.5 ٪ müharibələr isə dövləti və onun dayaqlarını qorumaq üçün edilən müharibələrdir ki, bu daha çox anlaşılandır. İdeoloji müharibələr isə bu statistikada olan müharibələrin yalnız 3 ٪ - ini təşkil edir(4).

**Nəticə:** Yer üzündəki müharibələrin səbəbi din deyil. Tarixdə dini müharibələr olsa da əsas çoxluq təşkil edən və daha çox insan qətlinə səbəb olan müharibələrin hədəfi, mahiyyəti din yönümlü olmamışdır.

## İstifadə edilmiş ədəbiyyat:

1 - Məqaləni bu keçiddən oxumaq mümkündür: https://en.wikipedia/org/wiki/League_of_Militant_Atheists
2 – əl-İsləm vəl-İlhad vachən li-Vach. Səh. 94.
3 – Daha ətraflı baxmaq üçün: "Əxlaqiyyət əl-Hurub fis-Siratin-Nəbəviyyə". Humeyd əs-Sağir. Səh. 33.
4 – "Din müharibələrin səbəbidirmi?" – başlıqlı ərəbcə məqalə. Mu`təz billəh Əbdülfəttahın yazısına istinadən هل الدين سبب الحروب؟ .
www.alarabiyya.net saytı. Məqaləyə keçid: https://ara.tv/wwpf7

## İslamda cizyə vergisi haqqında şübhəyə cavab

**Şübhə belədir:** "Təsəvvür elə ki, yeddinci və ya səkkizinci əsrdəsən, evində oturmusan, birdən gəlib deyirlər ki, ya cizyə verməlisən, ya da ki İslamı qəbul etməsən edam olunacaqsan. Bunu necə qəbul etmək olar? Yaxud o dövrün insanları ideoloji cəhətdən bu qədərmi zəif olublar ki, bunu qəbul ediblər"!?

**Şübhənin cavabı:** Bu şübhənin cavabı bir neçə aspektdən olacaqdır. Çünki mövzunun dəqiq təfsilatları var. Həmin təfsilatlar bunlardır:

- Cizyə götürmək və qeyri-müsəlmanları müsəlman olmağa məcbur etməmək arasında bir ziddiyyət yoxdur. Elə düşünmək lazım deyil ki, cizyə almaqla müsəlman olmayanlar dinə gəlməyə məcbur edilirlər. Buna şəriətdən dəlil bu ayədir: **"Dində heç bir məcburiyyət yoxdur".** (əl-Bəqərə. 256). Praktiki dəlil isə odur ki, bir çox yəhudi və xristianlar müsəlmanların fəth etdikləri ərazilərdə öz dinlərində qalmış, kilsə və

sinaqoqlarında ibadətləri ilə məşğul idilər. Onlar müsəlmanların hakimiyyəti altında əminamanlıq içində yaşayırdılar. Dinlərindən dönmələri üçün onlara təziqlər edilmirdi. Sadəcə onlara İslam təklif edilmişdi, qəbul etməyənlər isə sadəcə cizyə vergisi ödəməli idilər. Bununla da öz dinlərində sərbəst qalırdılar. Onlar cizyə ödəməklə bəzi güzəştləri və xidmətləri əldə edirdilər; müsəlmanlar əsgərliyə getdikləri halda onlar getmirdilər, polis onların da haqlarını qoruyur, qazi onlara ədalətsizlik edilməsinə mane olur, problemlərini ədalətlə həll edir, canları, malları, irzləri isə birbaşa dövlət tərəfindən qorunur, müsəlman cəmiyyyətində əminamanlıq içində yaşayır, özlərinə qarşı bir təhlükə hiss etmirdilər. Peyğəmbər onlarla gözəl davranmağı əmr etdiyi kimi, raşidi xəlifələr də onların haqlarının qorunmasını xüsusi şəkildə tövsiyə edirdilər; Ömər ibn Xəttab (رضي الله عنه) demişdi: **"Zimmə əhlindən muğayət olun, onlar peyğəmbərinizin ﷺ himayə etdiyi kəslərdir..."**(1).

- Buradan aydın olur ki, cizyədən məqsəd

zimmə əhli olan qeyri müsəlmanların müsəlmanlar tərəfindən himayəsidir. Cizyə zatən elə "zimmə" əhlindən alınır ki, bunun da mənası "himayə altında olan, hüquqları qorunan, özünə aman verilən" kimsə deməkdir. Cizyə heç də İslamı qəbul etməmək müqabilində alınan vergi deyil. Bu sadəcə bir seçimdir. İslam dini müsəlman olmaq istəməyən, həmçinin müsəlmanlarla vuruşmayan qeyri-müsəlmanlara yaxşılıq etməyi qadağan etmir. Əksinə Qurani-Kərimdə uca Allah buyurur: **"Allah din uğrunda sizinlə vurşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir".** (Mumtəhinə. 8). Zimmi olan qeyri müsəlmanlar müsəlmanların himayəsinə keçdikdən sonra onlardan kimisə öldürmək İslamda ən böyük günahlardan sayılır. Bu haqda peyğəmbər (Allahın ona salavatı və salamı olsun) belə buyurmuşdur: **"Kim özünə aman verilmiş bir qeyri-müsəlmanı öldürərsə, o kimsə cənnətin qoxusunu duymaz. O cənnət ki onun qoxusu qırx illik məsafədən gələr**"(2).

O zaman ki, müsəlmanlar "Yərmuk" döyüşündən əvvəl fəth etdikləri Şam diyarını tərk etmək zorunda qaldılar, onlar ölkə əhalisindən götürdükləri cizyələri onlara geri qaytardılar. Xalid ibn Vəlid (رضي الله عنه) Hıms şəhərinin əhalisinə cizyəni geri qaytardı. Əbu Ubeydə isə götürdükləri cizyəni Dəməşq əhalisinə qaytardı. Başqa müsəlman liderləri də bu cür etdilər. Müsəlman liderlərin həmin yerlərin əhalisinə dedikləri sözlərdən biri də belə idi: "Biz sizi qorumaq və himayə etməq məqsədilə sizdən cizyə vergisi almışdıq. İndi biz sizi himayə etməkdən aciz qalmışıq. Bu da sizin pullarınızdır, onları sizə geri qaytarırıq(3)".

Adil şəxsiyyət Ömər ibn ƏbdülƏziz (Allah ona rəhmət etsin) xilafətə gəldikdə Səmərqənd şəhərindən bir qrup şəxs gələrək Quteybənin onların şəhərinə gəlib haqsızcasına onları aldadıb müsəlmanları orada məskunlaşdırması haqqında ona şikayət etdilər. Ömər ibn ƏbdülƏziz öz işçisinə məktub yazıb bu məsələnin həllin üçün qazi təyin edilməsini, əgər qazi hökm versə ki, müsəlmanlar

oradan çıxmalıdırlar, çıxarılmalarını istəyir. Beləcə, şikayətə baxılması üçün onlara Cəmi ibn Hadir əl-Baci adlı şəxs qazi olaraq təyin edilir. Qazi (özü müsəlman olsa da) müsəlmanların oradan çıxarılması gərəkdiyi barədə hökm verir. Bundan sonra İslam ordusu oraya gəlmək istəyərsə, öncədən xəbərdarlıq etməli, İslami döyüş qaydalarına uyğun olaraq onlara bildiriş etməlidir. Beləcə Səmərqənd əhli müsəlmanlara qarşı vuruşmağa hazırlıqlı olsun və qəfildən yaxalanmasınlar. Lakin (bundan sonra) Səmərqənd əhalisi döyüşmək istəmədilər, müsəlmanları təsdiqlədilər və onların arasında qalmaq istədilər"(4). Bu baş vermiş hekayə müsəlmanların tarxidə nə qədər adil olduqları haqqında şanlı bir səlnamədir.

• Tarixdə qalib xalqların məğlub xalqlardan vergi alması halı məşhurdur. Bunu yalnız İslam ilə əlaqələndirmək də doğru deyil; O zaman İslam əleyhinə bunu müazkirə edənlərə vacib olur ki, tarixdəki bütün cizyə, vergi məsələlərini müzakirə etsinlər. Bu yazıda bizanslıların və başqa qədim cəmiyyətlərin istər öz xalqlarına, istər də döyüşdə

qalib gəldikləri xalqlara hansı böyük, ağır vergiləri təyin etmələrini yazıb mövzunu uzatmaq istəmirəm. Müsəlmanların bu məsələdə digər xalqlardan daha rəhimli və daha müdrik olmasını qeyri-müsəlmanların özləri də təsdiqləmişlər. Onlardan bir də Qustav Le Bundur. O belə deyirdi: "Keçmiş xəlifələr elə nadir bir siyasi dühaya malik idilər ki, yeni dinlərin təbliğatçılarında bunun olmasını biz bilmirik. Dinlər və qanunlar zor gücü ilə qəbul etdirilmir, (bu İslam xəlifələri də) ələ keçirdikləri hər ölkənin əhalisi ilə böyük lütfkarlıqla davranmış, onların qayda-qanunlarına, inanclarına toxunmamış, çox zaman az bir miqdarda cizyə vergisindən başqa bir şey tələb etməmişdilər. Keçmişdə məğlub olmuş xalqlardan toxunulmazlıq müqabilində götürülən miqdarla müqayisədə bu ortaya çıxır. Doğurdan da digər xalqlar ərəblər kimi tolerant fatehləri, nə də onların dini kimi tolerant bir dini görməmişdir"(5).

Müsəlmanların digər xalqlarla insaflı, ədalətli rəftarına aid çoxsaylı nəqlləri elə qeyri-müsəlmanların dilindən etmək mümkündür. Gəlin daha bir nəql edək. Leyn Pul deyirdi: "(Əndəlüs

xilafətində) ispanların öz qanunlarına riayət etmək hüququ var idi. Onların öz (hökm verən) qaziləri və ərazilərdə onları idarə edən özlərindən olan rəhbərləri var idi. Onlar (ispan rəhbərlər) ispanlardan vergiləri toplayır və aralarında olan problemlər barədə hökm verirdilər. Orada şəhərlərin əhalisi - əgər əkin sahələri var idisə - yalnız cizyə və xərac vergisi verirdilər. Qutların zamanında isə onlar cizyədən əlavə dövlətə bir çox vergilər və pullar verməklə yüklənmişdilər".... Sonra isə deyir: "Dini tolerantlığa gəldikdə isə bu ispanlar arasında heç bir şikayətə yer buraxmırdı. Ərəblər onlara əziyyət vermədən istədikləri kimi ibadət etmək hüququ vermişdilər. Onlar qutların yəhudilərə etdiyi kimi öz xüsusi inanclarını onlara məcburi qəbul etdirmirdilər(6)".

• "Cizyə" sözünün müqabili "vergi" deməkdir. Bu gün müxtəlif və növbənöv vergilər var ki, dünyanın müxtəlif yerlərində insanların çoxusu "uf" belə demədən o vergiləri verirlər. Bəzi ölkələrdə yerli vətəndaşlar islamın cizyə aldığı qeyri-müsəlmanlardan qat-qat pis yaşadıqları halda bu məsləələri gündəm etmirlər. İndi deyəcəyimiz

həqiqət isə bu mövzuya yekun olmalıdır deyə düşünürəm; o da bir çoxlarının qeyri-müsəlmanların verdiyi cizyədən qat-qat artığını imkanlı müsəlmanların zəkat olaraq İslam dövlətinə və ya onun müəssisələrinə və ya dolayısı yolla kasıblara zəkat olaraq vermələrini bilməməsidir. Zimmə əhlinin gücü çatanları, təyin olunmuşları cizyə veridiyi kimi, müsəlmanların da varlıları zəkat verirlər. Yəni söhbət cibdən pul çıxarmaqdan gedirsə, bunu müsəlmanlar artıqlaması ilə edirlər. Cizyə verən hər kəs ildə bir dəfə bir dinar verirsə, imkanlı müsəlmanın var-dövləti artdıqca o hər dəfə, yəni hər il öz malının 2.5 faizini zəkat olaraq verdiyi üçün bu məbləğ çox yüksək də ola bilir. Hər bir halda zəkat verən müsəlmanlar zimmə əhli olan qeyri-müsəlmanlardan daha çox pulu zəkat olaraq öz mallarından çıxarmış olurlar. Üstəlik də İslam şəriətinə görə qeyri-müsəlmanlardan qadınlar, uşaqlar, döyüşə yararlı olmayanlar, yaşlılar, kasıblar, döyüşə rəğbətləndirməyən din xadilməri və s. bunların heç birindən cizyə alınmır.

- **Sualda deyilir ki: "Yaxud o dövrün**

**insanları ideoloji cəhətdən bu qədərmi zəif olublar ki, bunu qəbul ediblər "!?**

**a)** Buna cavab olaraq deyirik ki, Allahın hökmünü hansısa zamana, məkana bağlamaq doğru deyil, o dövrün insanları müasir insanlardan daha çox etiqadlarına bağlı ola bilərlər, əksi də ola bilər. İdeologiya qəlbdə yer tutur. Bu başqa mövzudur. İndiki insanın görmədiyi, tam təsəvvür etmədiyi bir cəmiyyət haqqında fikir yürütməsi qəbuledilməzdir.

**b)** Son əsrdə qərbdən gələn bəzi dinsiz cərəyanların təsiri ilə "ifrat azadlıq" şüarları səsləndirilir. Lakin biz bu günkü dünyada həmin şüarları yayan böyük ölkələrin başqa xalqların kölə edilməsi, elə böyük ölkələr tərəfindən istismar edilməsi, torpaqlarının müstəmləkəyə çevrilməsi, daxili iğtişaşların yaradılması, İslama hücum edilməsi üçün istifadə edildiyini görürük. Bunun müqabilində isə həmin güclər təsirə saldıqları xalqların ən bəsit azadlıq haqlarını belə əllərindən alırlar. Təəssüflər olsun ki, son əsrdə Allaha qarşı tüğyan və asilik halları çoxalıb, insanlar onları

yoxdan yaradan Allaha asilik edir, onu lazımınca qiymətləndirmir, ona lazımınca şükür etmirlər. Hər kəsin Allaha ibadət ehtiyacı olduğu halda, onun bəndələrin ibdətinə ehtiyacı yoxdur. Ona görə də bu "ifrat azadlıq" şüarları bəzən insanları bəsit məsələləri başa düşməyə mane olur. İnsan bilməlidir ki, müsəlman qanunları ilə idarə olunan bir ölkədə - söhbət indi mövcud olmayan xilafətdən gedir - onun "küfr" adında bir azadlığı yoxdur. Küfr azadlıq deyil, seçimdir. Bu azadlıq istənildiyi zaman bunun bir bədəli İslam qanunları ilə idarə olunan dövlətə vergi verməkdir. Bu vergi ilə yenə o başqa hüquqları qazanmış olur ki, bu haqda əvvəldə ətraflı danışdıq. Artıq bəyan edildi ki, bu cizyə vergisi yalnız İslam şəriəti ilə idarə olunan xilafət sistemində tətbiq oluna bilər. Çünki ölkələrin fəthi kimi prosses müsəlmanlar tərəfindən əsasən xilafət sistemində baş verir. Dünyəvi, sekulyar sistemlərdə müsəlmanların zatən belə bir tətbiqi yerinə yetirməsi hikmətsizlik və ya özbaşınalıq kimi dəyərləndirilir(7). Çünki bütün ölkələrdə qanunlar rəsmi şəkildə nizamlanır. Hər ölkədə yaşayan insan o ölkənin qanunlarına maksimum hörmətlə yanaşır ki, əks təqdirdə

qanuni məsuliyyətə cəlb edilib cəzalanmasın. Gözümüzdə "Avropa" kimi görünən, lakin müxtəlif ölkələrdən ibarət olan bir qitənin hər ölkəsinin özünün ayrıca qanunları var. Orada yaşayan kimsələr ölkənin qanunlarına hörmətlə yanaşacaqları haqda sənəd imzalayır, qanunlarla tanış olur, qanunları pozacaqları təqdirdə onları gözləyən məsuliyyəti yaxşı bilirlər (8). Bu müqayisə dünyanın başqa qitələrində olan ölkələr haqqında da keçərlidir. Eləcə də İslam ölkəsində olan qeyri-müsəlmanlar da müsəlman qanunlarına hörmətlə yanaşmalıdırlar. Məsələnin belə bir bəsit müqayisəli tərəfi də var. Zaman, məkan, hətta təsəvvür fərqini nəzərə almadan bəzi insanlar absurd müqayisələrə yol verirlər. Nəticədə isə mövzular ya təhrif olunur, ya da kontekstdən kənara çıxarılır. Cizyə mövzusunun təsəvvüründə də təəssüflər olsun ki, belə hallar baş verir.

## Qeydlər və istinadlar:

1 – Səhih əl-Buxari. 2991.
2 – Səhih-əl-Buxari. 6914.
3 – Mənbə: "əl-Xərac". Əbu Yusuf. Səh. 146; "əl-

Umm". İmam Şafi. 4/97-98.
4 – Fütuhul-Büldan. Bəlazuri. 428.
5 – Hadaratul-Arab. Qustav Le Bon. ərəbcəyə tərcümə: Adil Zueyter. Səh. 10.
6 – Qissatul-Arab fi İspaniya. Stenli Leyn Pul. Əli əl-Carimin ərəbcəyə tərcüməsi. Səh. 41.
7 – Lakin günümüzdə əksəriyyəti müsəlmanlar olan, müsəlman ölkəsi hesab edilən ölkələrdə bu cizyə tətbiq olunmur. Çünki ortada xilafət sistemi və onun gördüyü işlər yoxdur. Bizim bu cavabımız ümumiyətlə İslamda olmuş cizyə vergisini həzm edə bilməyib özləri onlarla vergi növlərini bəh-bəhlə ödəyən insanlara cavab vermək, cizyənin hikmətini başa salmaqdır.
8 - Ən demokratik ölkələr kimi təqdim olunan bəzi ölkələrdə belə ən ağır cəzalardan tutmuş ən ağır cərimələrə kimi mövcuddur.

## "Allah istəsəydi, onlar müşrik olmazdılar!" şübhəsi

**Şübhə:** Allah Ənam surəsi 107-ci ayədə deyir ki, "Allah istəsəydi, onlar şərik qoşmazdılar". Görürsünüzmü yəni "müşriki müşrik edən mənəm" - deyir. Tövbə surəsi 5-ci ayədə isə deyir ki: "müşrikləri harda görsəniz öldürün". Uzun sözün qısası: "Allah deyir ki, mən istəməsəm, sən müşrik ola bilməzsən. Yəni, sən öz xoşuna müşrik olmayıbsan. Müşriksənsə, mən səni müşrik eləmişəm. Sonra da deyir ki, müşrikləri harda görsəniz, öldürün". Bunu necə başa düşək?

**Şübhənin cavabı:** Bu şübhəyə bir neçə aspektdən cavab verəcəyik:

**Birincisi:** Şübhədə qeyd olunan hər iki ayənin nazil olma səbəbi fərqlidir və şübhəni gətirən ayələrin mənasını təhrif edib və mənaları kontekstindən kənara çıxarıb. Gəlin hər iki ayəni tam şəkildə oxuyaq, üzərindən keçməyək, sonra isə ayələrin nazil olma səbəbləri ilə tanış olaq. Sonra ayələrin həqiqi mənalarına baxaq, o zaman mənaların necə təhrif edildiyi və kontekstindən

kənara çıxarıldığının şahidi olacağıq;

Ənam surəsinin 107-ci ayəsi belədir: *"Əgər Allah istəsəydi, onlar şərik qoşmazdılar. Biz səni onların üzərində gözətçi qoymamışıq və sən onları qoruyan da deyilsən"*. Bu ayədən iki ayə öncə (1) Allahın ayələrindən bəhs edilərkən "Kim onları görsə, xeyri onun özünə, kim kor olsa, zərəri onun öz əleyhinə olar" deyilir ki, burada müşriklərin özlərinin şirk yolunu seçməsinə işarə edilib. Həmçinin növbəti ayədə insanın iman və şirk yolunu seçməsində özünün ixtiyarı olmasına işarə edilib. Ayələrin ahəngini gözləmədən onu götürmək uzun bir mətndən bir cümləni yerli-yersiz kəsib götürmək və mənanı təhrif etməklə eynidir. Sonrakı ayədə yenə uca Allahın vəhyinə tabe olmağa və müşriklərdən üz çevirməyə çağırış edilir. Məhz bundan sonra uca Allah Ənam surəsinin 107-ci ayəsində buyurur: *"Allah istəsəydi, onlar şərik qoşmazdılar"*. Yəni, Allah onların şərik qoşmasına mane ola bilərdi, lakin onlar bu yolu özləri şəxsi istəkləri ilə seçdilər. Allahın buna qadir olmasına şəkk etmə. Lakin onlar özləri bu yolu seçdilər. Şübhə əhlinin başa düşdüyü məna ona görə doğru deyil ki, əgər Allah

heç bir çətinlik və ya seçim olmadan müşrikləri müsəlman edəcəkdisə, o zaman peyğəmbərin ﷺ göndərilməsinə ehtiyac qalmazdı. Deməli, ayəni əvvəlki və sonrakı ayələrə, həmçinin Quranın digər ayələrinə uyğun bir şəkildə başa düşmək lazımdır. Ənam surəsinin nazil olma tarixi məşhur olana görə peyğəmbərin Məkkədən Mədinəyə hicrətindən öncə, yəni Məkkədə olmuşdur. Həmin vaxtı müşriklərdən olmazın işkəncə və əziyyətlər görürdülər, müsəlmanların zəif, gücsüz dövrləri idi. Tövbə surəsi isə Məkkədən Mədinəyə hicrətdən sonra peyğəmbərə nazil olmuşdur. Səhih olana görə Tövbə surəsi hicrətin 9-cu ilində (Təbuk döyüşü zamanı) nazil olmuşdur. Yəni bu tarix təxminən peyğəmbərin vəfatına yaxın bir tarixdir. Bu tarixdə demək olar ki, müsəlmanların Mədinədə güclü bir dövləti var idi. Tövbə surəsinin 5-ci ayəsi müsəlmanların fərqli bir cəmiyyətdə fərqli bir ictimai durumlarında, güclü bir cəmiyyət qurduqları zaman "onlarla əhdləri pozmuş müşriklərlə vuruşmaq haqqında onlara edilmiş bir xitabdır"(2). Həmin ayə çərçivəli bir zamanı ehtiva edir. Haram aylarda onlarla vuruşmaq icazəli olmadığı üçün ayənin əvvəlində

haram ayların bitməsindən sonra müşriklərlə vuruşmağa təşviq edilir. Yəni, ayə birbaşa müşrikləri öldürməkdən danışmır. Şübhədə qeyd edilən ayələrdən birincisi peyğəmbərliyin əvvəlinə, ikincisi isə sonlarına aiddir. İki surə iki fərqli şəhərdə, təxminən 15 il zaman fərqi ilə nazil olduğu halda, hər iki ayənin fərqli mənaları, fərqli ahəngi olduğu halda, fərqli izahları birləşdirib bir məna vermək ayələri yalnız kontekstindən, məğzindən çıxarmaqdan və ya mənaları təhrif etməkdən başqa bir şey deyil.

**İkincisi:** Bəzi ayələr də var ki, bizlərə bu məsələni başa düşməkdə yardımçı olur. Məsələn: *"Küfr etsəniz, bilin ki, Allah sizə möhtac deyil. O, qullarının kafirlik etməsinə razı olmaz"*. (Zümər. 7). Bu ayədən anlayırıq ki, uca Allah qullarının azmasını, kafir olmasını istəmir. Deməli, küfr və şirk yolunu qulların özləri seçirlər və Allah onları buna məcbur etmir. Ona görə də buyurmuşdur: *"Kim istəyir mömin olsun, kim də istəyir kafir olsun"* (Kəhf. 29). Başqa bir ayə yenə bizə göstərir ki, Allah qullarını kafirliyə məcbur etmir, onların özləri küfrə, şirkə və ya ateizmə meyl etdikləri,

yəni buna layiq olduqları zaman onları azdırır. Gəlin növbəti ayəni diqqətlə oxuyaq: *"Onlar doğru yoldan sapdıqları zaman Allah da onların qəlbini sapdırdı"*. (Saff. 5). Bu ayələri başa düşdükdən sonra uca Allahın elə eyni surədə olan bu ayəsini də başa düşəcəyik: *"Əgər Allah istəsəydi sizin hamınızı doğru yola yönəldərdi"*. (Ənam. 149). Başqa bir ayədə isə "Əgər Allah istəsəydi" deyildikdən sonra dünyada imtahan qayəsi olduğu üçün Allahın bir istədiyini etmədiyi vurğulanır. Yəni Allah bütün insanları vahid ümmət edə bilərdi, lakin bu dünyada insanlar vahid bir ümmət olsalar bu dünyanın imtahan yeri olmasının heç bir mənası qalmazdı. Gəlin həmin ayəni diqqətlə oxuyaq: *"Hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Fəqət bu fərqli şəriətlər və fərqli yollar sizə verdikləri ilə sizi imtahan etməsi üçündür". (Maidə. 48).*

**Üçüncüsü:** Ayədə keçən "Allah istəsəydi" ləfzinin mənasına gəldikdə isə bilmək lazımdır ki, şəriət dəlillərinə əsasən "Allahın istəyi" mənası iki qismə bölünür (3) və bu barədə əqidə kitablarında

təfsilatlı şəkildə danışılmışdır. Müxtəsər olaraq deyək ki bu iki qisim: kövni iradə və şəri iradədir.

**1 - Kövni iradə (istək):** Allahın kainatda yaratdıqlarında baş verən istəyi, iradəsidir. O, hər şeyi istədiyi kimi yaradır və idarə edir. Onun istədiyi olur, istəmədiyi olmur. Deməli, kövni iradədə ancaq Allahın istədiyi olur. Buna misal uca Allahın bu ayəsidir: "İstədiyini edəndir". (Buruc. 16).

**2 - Şəri (dini) iradə (istək):** bu şəri (dini) iradəyə (istəyə) gəldikdə isə buraya Allahın həm sevdiyi, həm də sevmədiyi əməllər daxildir. Sevdiyi əməllərə aid qulların namaz qılması, oruc tutması, həcc etməsi, tövbə etməsi, bütün saleh əməlləri etməsi və s. daxildir. Sevmədiklərinə isə şirk, küfr, günahlar, qətl, zülm və s. daxildir. Şübhədə verilən şirk məsələsi şəri (dini) iradəyə daxildir. Yəni Allah qullarının şirk etməsini sevmir, lakin qullarının şirk etməsi qullarının öz seçimi ilə olduğu üçün bundan razı olmasa da bu baş verir. Ona görə də uca Allah buyurub ki: " O, qullarının kafirlik etməsinə razı olmaz". (Zümər. 7). Deməli şəri (dini) iradəyə (istəyə) əsasən qullar küfr və şirk edir. Küfr və şirk feli edildiyi zaman

deyilmir ki, bu feli Allah etdi, nə də deyilmir ki, bu Allahdan olan sifətdir. Deyilir ki, küfr qulda olan sifət və ya vəsfdir. Küfr felini qul özü etdi (4). Allah isə bu feli sevməsə də qulda yaratdı. Çünki o yaradandır. Qulların əməllərinin yaradıcısı da Allah olduğu üçün belə deyilir. Amma bilmək lazımdır ki, şərr Allaha nisbət edilmir.

Şəri (dini) iradə (istək) haqda olan ayələrdən birində uca Allah buyurur: "Allah sizin tövbələrinizi qəbul etmək istəyir. Ehtiraslarına uyanlar isə sizin haqq yoldan tamamilə çıxmağınızı istəyirlər". (Nisa. 27). Məgər Allah bütün insanların tövbəsini istədiyi halda qulların hamısı tövbə edirmi? Xeyr. Əgər insanlar düzgün tövbə etsələr və hamısı tövbə etsə, əlbəttə ki Allah onların tövbəsini qəbul edər. Lakin insanların hamısı tövbə etmirlər, deməli, Allahın şəri iradəsində (istəyində) olan hər şey Allahın sevdiyinə uyğun şəkildə baş vermir.

**Dördüncüsü:** *Bu kontekstdən çıxarılmanın nəyə bənzəməsini gəlin bir məntiqi misalla ifadə edək:*

Müəllim və tələbələr haqqında yazılmış uzun

bir məqalənin əvvəlindən və sonundan yalnız iki cümlə seçilir. Birinci cümlədə belə yazılıb: "Əslində müəllim istəsəydi, o tələbələr pis oxumazdı". Məqalənin sonundan seçilən yeganə cümlədə isə deyilir: "müəllim dedi: imtahandan kəsilənlərə heç bir güzəşt edilməyəcək". Uzun məqalədən seçilmiş iki cümlə ilə müəllimin qəddar olduğu, bəzi tələbələri qəsdli şəkildə imtahandan kəsdiyi iddia edilir. Sonra isə digər cümlələrdən aydın olur ki, sən demə həmin müəllim tələbələrin yaxşı oxuması və qavraması üçün əlindən gələni edir, çox səy göstərir, lakin qeydlə verilmiş "bəzi tələbələr" bəzi pis vərdişlərdən dolayı müəllimin ümidlərini doğrultmurlar. Sonda "müəllimin imatahandan kəsilənlərə heç bir güzəşt etməməsi" isə müəllimin çox asan imtahan gətirməsi, imtahan suallarını onlara əvvəlcədən yazdırması ilə əlaqadardır. Yəni tələbələr müəllimin imtahanda gətirəcəyi sualları belə öncədən bilirdilər. Belə çox asan imtahandan kəsilənlərə güzəştin edilməməsi qəddarlıq ola bilməz. Bu asan imtahandan kəsilmək özü müəllimə qarşı (həm də özünə qarşı) hörmətsizlik sayılmalıdır. Çünki, o sənin işini asanlaşdırır, sən isə ona qarşı hörmətsizlik edirsən.

Bəzi mətnlərdən, yaxud Quran ayələrindən kor-koranə bir şəkildə sözlərin ahəngi, deyilmə zamanı, deyilmə qayəsi və üslubuna nəzər yetirmədən seçilməsi də sonda bu müəllimin və tələbələrin imtahanı haqqında hekayənin təhrif edilməsi kimi bir yanlış nəticəyə gətirib çıxarır.

## Qeydlər və istinadlar:

1 – Bax: Ənam surəsi 104-dən 106-ya kimi.
2 – Beydavi, Alusi və başqa təfsirçilərin qeydi.
3 – Daha ətraflı bax: "Movsuatul-Aqidə vəl-Ədyən vəl-Firaq vəl-Məzəhib əl—Muasırah. 1/122.
4 – "Qədər mövzusunda əhli sünnənin müxtəsər əqidəsi" kitabının şərhi.

## "Xəlifələr Qureyşdən olmalıdır" hədisi irqçilik sayılır?

**Sual:** *Salam aleykum. Belə bir sual verirlər ki, islam irqçiliyə qarşıdırsa, bəs nə üçün Qüreyş qəbiləsinə ayrıcalıq tanıyırlar və xəlifə oradan olmalıdır? (Sualda bu haqda hədis qəsd olunur) .*

**Cavab:** Va aleykumus sələm va rahmətullahi və bərakətuhu. Suala görə təşəkkür edirəm. İslam irqçiliyə qarşıdır, bəli, bu həqiqətdir. Şəkk yoxdur ki, "Təqva istisna olmaqla ərəbin əcəm üzərində heç bir üstünlüyü yoxdur"(1) hədisi də səhihdir və irqçiliyə qarşıdır. Quran ayəsi də deyir ki, "Allah qatında ən hörmətli olanınız təqvalı olanınızdır.(2)"!

Xəlifəlikdə imamın Qureyşdən olması gərəkməsinin öz təfsilatı var. İlk öncə bilməliyik ki, bu haqda hədislər mötəbərdir(3), elm əhlinin böyük əksəriyyəti də xəlifənin, müsəlmanların rəhbərinin Qureyşdən olması gərəkdiyini deyiblər. Lakin səhih olana görə əgər xəlifə birdən ərəblərdən olmazsa, bu zaman əcəmin (əcnəbinin)

xəlifəliyi də keçərlidir. Bu haqda olan hədislər xəlifənin Qureyşdən seçilməsinin məsləhətli olmasına dəlalət edir(4), amma Qureyşdən olmasa, xəlifəliyin batil olması anlamında deyil. İslam tarixi də buna sübutdur. Osmanlılar nəinki Qureyşdən olmayıblar, heç ərəb də olmayıblar, amma onların xilafətini bütün müsəlmanlar yekdilliklə qəbul ediblər. Bu mövzuda irqçilik şübhəsini gətirənlərin xilafətin nə olmasını bilmələri də sual altındadır. Xəlifəlik: Peyğəmbərdən ﷺ sonra şəriət əhkamlarının tətbiq edən, - dini və dünyəvi işlərdə - müsəlmanlara liderlik etmək öhdəçiliyini üzərinə götürən bir vəzifənin adıdır (5). Sonralar xilafət məfhumuna "müsəlman ölkələrin himayəsini üzərinə götürən İslami bir sistem" mənası da əlavə edilmişdir .

Hər bir halda əlavə olaraq deyim ki, bu hədislərdə heç bir təəssübkeşlik və ya insanlar arasında bərabərliyi ləğv etmək deyə bir hal yoxdur. Əksinə, bu, Allahın istədiyi bir hikmətə görədir. Bəzi alimlər ehtimal edirlər ki, bunun hikməti vaxtilə ərəblər arasında ağalığın, üstünlüyün Qureyş qəbiləsində olmasına, onlardan

başqasından qəbul edilməməsinə, dinin qeyrətini çəkmək, Kəbənin açarları, xidmətləri onlarda olduğu üçündür. Bu o demək deyil ki, kimsə Qureyşdən olmazsa onun xilafəti məqbul deyil. Qureyş ərəb qəbilələrinin içində ən üstün olanıdır və böyük bir məqama seçim edildiyi zaman insanlar ancaq onların ətrafında toplana bilərdi, ixtilafı və cahilliyi daha tez tərk edib Peyğəmbərin ﷺ özünün də nisbət olunduğu Qureyşə sevgidən dolayı ittifaq edə biləcəkləri bir fikirə - onlardan xəlifə seçildikdə - gələ bilərdilər, hansı ki bu, ümmətdə yarana biləcək ixtilafı tərk etmək üçün çox faydalıdır. Bəzi alimlər mötəbər rəvayətlərə əsasən deyiblər ki, Qureyş qövmündə doğru rəyə isabət və ağıl gücü var(6)(7).

Buradan aydın olur ki, ortada heç bir təəssübkeşlikdən söhbət gedə bilməz. Çünki Qureyşdən olmayan şəxsin imamlığı, xəlifəliyi sabitdir və inkar edilmir. Həm də bu mövzuda Peyğəmbərin bütün hədislərinə baxmaq lazımdır. Bir hədisdə isə peyğəmbər bir şərtlə, qeydlə imamlığın qureyşlilərdə olduğunu deyib, o da həmin hədisdə keçən "onların dini yaşatdıqları

müddətdə"(8) ləfzidir. Bu da əvvəldə dediklərimizi təsdiqləyir. Bu xəlifəliyin ancaq Qureyşdən olması kimi mütləq bir məna yoxdur. Deməli, dini yaşatmadıqları zaman onlar bu xəlifəlik işində daha haqlı deyillər. Beləcə anlaşılır ki, burada irqçilikdən söhbət gedə bilməz.

## İstifadə edilmiş ədəbiyyat:

1 - Səhih hədislər toplusu. Albani. 6/199.
2 - Hucurat. 13.
3" - İmamlar Qureyşdəndir". Səhuhul-Cami. Albani. 2758.
4 - Bu hədislərdən biri belədir: "Şübhəsiz ki, Allah İsmayıl oğullarından Kinanəni seçmişdir. Qureyşi isə Kinanə əhlinin içindən seçmişdir. Qureyşin içindən isə Haşim oğullarını seçmişdir. Məni isə Haşim oğullarının içindən seçmişdir". (Səhihu Muslim. 2276) .
5 – Mucəm Mətnil-Luğa. Əhməd Rza. 2/323 خلف . maddəsi. əl-Movsua əl-Fiqhiyyə. (Fiqhi Ensiklopediya). 2/216 الإمامة الكبرى fəsli.
6 – İmam Əhməd "Müsnəd" əsərində səhih isnadla

Cubeyr ibn Mutimdən rəvayət etmişdir ki, Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurdu: "Qureyşli olan kimsə mənim kimi güclüdür". Zühriyə deyildi: bununla nəyi qəsd edir? Dedi: Ağıl gücünü". İsnadı Səhihdir. İmam Əhmədin "Müsnəd" əsəri. 16788. Tədqiqatçı alim Şüeyb əl-Arnavut demişdir: isnadı səhihdir.
7 - əl-İmamətul-Uzma ində Əhli Sünnə vəl-Camaat. Dr. Abdullah Ömər əd-Dumeyci. Səh. 294-295.
8 – Səhih əl-Buxari. 3501.

## Quranın versiyaları haqda şübhəyə cavab

**Şübhə belədir:** *Quran bir versiyada mövcuddur. Heç bir hərf dəyişdirilməyib. Əslində Quranın 20 variantı var ki, mətndə kiçik fərqlər var, bəzi ayələrdə isə məna dəyişir və bu, kitabın aləmlərin Rəbbinin bəyan etdiyi tələblərə cavab verməməsi üçün kifayətdir!*

**Şübhənin cavabı:** Quran haqqında iddialı danışmaq asandır. Lakin Quran elmlərini, ərəb dilinin incəliklərini, Quranda istifadə olunan dil qaydalarını, Quranın ərəbləri heyran qoyan bəlağətini bilmədən, Quranın cəm olunma mərhələlərini, Qurana hərəkələrin, nöqtələrin nə üçün və nə zaman qoyulduğunu bilməyən, ləhcələrin nə məna ifadə etdiyini, qiraətlərin nə olduğunu bilməyən insanın bu mövzularda danışması düzgün deyil. Kənardan bəsit görünsə də, bu məsələ tibb elmini bilmədən, oxumadan, ixtisası olmadan tibdən danışanın halına bənzəyir. Çünki hər elmin xırdalıqlarını, incəliklərini onun əhli bilir. Bu zaman ixtisas əhli həqiqətini bilmədiyi bir mövzuda elmsiz danışanın necə

səhvlərə yol verdiyini gülərək izləyəcək, onun halına təəssüflənəcəklər. Bu şübhədə yazılan iddia da eyni qəbildəndir.

• Öncə gəlin, baxaq görək Quran nə deməkdir? "Quran Allahın elçisi Muhəmmədə ﷺ endirilmiş, ecazkar, tilavəti ilə ibadət edilən, mütəvatir (1) yolla nəql edilmiş, kitablarda əvvəli Fatihədən başlayan sonu Nəs surəsində bitən Allah kəlamıdır "(2).

• Şübhədə deyilir ki, "Quran bir versiyada gəlib. Heç bir hərf dəyişdirilməyib". Sonra isə şübhə sahibi "əslində" deyib anlamadığı iddiaları edir. Bəli, Quran Allah tərəfindən bir versiyada gəlib və elə də yazılıb. Lakin bu bir versiyanı müxtəlif ərəb qəbilələri necə oxuyublar, uzatmalar, hərəkələr, ləhcələrlə bağlı məsələləri düzgün öyrənmək lazımdır ki, yanlış anlaşılma olmasın. Şəkk yoxdur ki, Allah elçisinin ﷺ vəhy katiblərinə yazdırdığı Quran bir nüsxə olmuşdur. Vəhy katibləri də bəzi səhabələrdən seçilmişdi. Peyğəmbər onlara surələrin, ayələrin sırasını yerini də öyrətmişdi.

Quranın ilkin yazıldığı nüsxə nöqtəsiz və

hərəkəsiz idi. Hərflərin orijinalı isə olduğu kimi yerində idi. O səbəbdən də oxunuş zamanı müxtəlif ləhcəli qəbilələrin bəzi sözlərin hərflərini bir az fərqli oxuması halları müşahidə edilirdi. Allahın elçisi ﷺ Qurani-Kərimin enməyə başladığı vaxtdan vəhyin tamamlanmasına kimi – iyirmi üç il ərzində - namazlarında, dərslərində və moizələrində Quranı müxtəlif qiraətlər və ləhcələrlə oxumuşdur. Bu da müsəlmanlar üçün rahatlıq və genişlikdir. Bundan sonra da səhabələr öz dillərinə hansı qiraət rahat gələrdisə, onunla Quranı oxuyardılar. Bəzi hallarda isə bəzi səhabələr bəzi qiraətlər barəsində məlumatsız və elmsiz olduğu üçün Allah elçisinin yanına gəlib o qiraət haqqında soruşduğu zaman Allah elçisi ﷺ həmin qiraətin Quran olduğunu təsdiqləmiş və demişdir: **"Belə də nazil olmuşdur**"(3). Yəni hər dəfə bir səhabə fərqli ləhcə və ya qiraətlə oxuyanda onlara "Belə də nazil olmuşdur" deyirdi(4). Bir daha qeyd edim ki, qiraətlərin mənbəsi elə peyğəmbərin özüdür. Bu qiraətlərin hər birini peyğəmbər ﷺ şəxsən özü oxumuş, səhabələr də bu qiraətləri ondan öyrənmişdilər. Səhabələr də namazlarda öz ləhcələrinə uyğun

şəkildə oxuyublar və bəzən xəstəlik, cihad və ya başqa üzürlü səbəbdən peyğəmbərdən bir ləhcəni eşitməyən bəzi səhabələr gəlib peyğəmbərdən düşdükləri kiçik çaşqınlıqlar haqqında soruşurdular. Mühakimə üçün peyğəmbərin yanına gələn iki səhabəni də peyğəmbər bu səbəbdən təsdiqləmişdi. Bununla da Allah elçisi oxunuş (qiraət) və ləhcə fərqlərinin ayələrdə ziddiyyət olmadığını, narahatlığa ehtiyac olmadığını başa salmışdı. Bununla da bütün ümmətə - ərəbə və qeyri-ərəbə - asanlıq olması üçün mövcud olan müxtəlif ləhcələrdən istifadə edilmişdir. Bu da ümmət üçün asanlaşdırma və genişlikdir. Çünki, bəzilərinin dili o sözlərə yatmaya bilər.

Bu məsələ peyğəmbərdən ﷺ sonra olsaydı, peyğəmbər bu məsələyə bir istiqamət verməsəydi, bəziləri bundan daha çox istifadə edə bilərdilər. Lakin Allahın müvəffəqiyyətindəndir ki, peyğəmbər ﷺ sağ ikən bu məsələ ilə qarşılaşmış və bu bu məsələyə münasibət bildirmişdir. Bu mövzuda olan bir hədis belədir:

Ömər ibnil-Xəttab deyir ki, Hişam ibn Həkimin "Furqan" surəsini oxuduğunu eşitdim. Mən onun

Allah peyğəmbərinin bizə oxutmadığı hərfləri oxuduğunu eşitdim. Ona dedim :
Sənə bu surəni kim oxudub ?
- Dedi: Allahın elçisi ﷺ –
- Dedim: Yalan deyirsən. Peyğəmbər ﷺ sənə belə oxutmayıb! Sonra onun əlindən tutub Peyğəmbərin ﷺ yanına apardım.
– Dedim: Ey Allahın elçisi! Sən mənə "Furqan" surəsini oxutdurmusan və mən bu adamın sənin mənə oxutdurmadığın hərfləri oxuduğunu eşitdim.
– Allahın elçisi ﷺ buyurdu: "Oxu, ey Hişam".
– O yenə öncə oxuduğu kimi oxudu.
– Allahın elçisi ﷺ dedi: "Belə də nazil olmuşdur".
Sonra Peyğəmbər ﷺ dedi: "Oxu, ey Ömər".
– Ömər dedi: Mən də oxudum. O dedi: "Belə də nazil olmuşdur". Sonra isə Allahın elçisi belə dedi: "Həqiqətən də Quran yeddi hərf üzərində nazil edilmişdir"(5).

Quran ilk dəfə Əbu Bəkrin zamanında "yeddi hərf" üzərində cəm edilmişdir. "Yeddi hərf" sözünün mənası haqqında müxtəlif rəylər olsa da bu rəylərin ən məşhuru yeddi ərəb dili və ya ləhcəsidir. Bu haqda İbn Atiyyə demişdir:

"Peyğəmbərin "Quran yeddi hərf üzərində nazil edilmişdir" sözünün mənası: yəni, Quran yeddi ərəb qəbiləsinin dilində nazil edilmişdir. Bəzən bir məna Qureyş ibarəsi ilə ifadə edilir, bəzən Huzeyl ibarəsi ilə, bəzən də başqa qəbilənin – daha müxtəsər, daha bəlağətli – sözü ilə ifadə edilir"(6). əl-Beyhəqi demişdir: "Yeddi hərf ifadəsinin doğru mənası, Quranda yayılmış yeddi dildir"(7). Əbu Ubeydin də buna bənzər sözü var(8).

Əslində fərqli hərflərin yaranma səbəbləri geniş mövzudur və bizim hərəkələr, nöqtələr, qiraətlər və ərəb ləhcələri haqqında geniş danışmağımıza ehtiyac ola bilər. Amma biz çalışıb məşhur səbəblərdən biri olan ləhcələr və qiraətlər mövzusu üzərində bir qədər dayanmaq istəyirik. İlk öncə gəlin ləhcələrdən danışaq;

• **Ləhcələr**: Bura qədər olan qeydlərdən aydın olur ki, Peyğəmbərin ﷺ və səhabələrinin vaxtında da müxtəlif ərəb ləhcələri olub və bu Quranın cəm edilməsində də nəzərə alınıb. Məsələn; xəlifə Osman ibn Əffanın vaxtında Quran kitab nüsxələrinə köçürülərkən Osman dörd nəfər vəhy

katibinə deyir: "Əgər siz və Zeyd ibn Sabit Quranın ərəb dili və ərəbcə (ləhcələr) üzərində nədəsə ixtilaf etsəniz, o zaman Qureyş dili (ləhcəsi) üzərində yazın. Çünki, Quran onların dilində nazil olmuşdur" (9).

Sual verilə bilər ki, ləhcə fərqləri necə bir fərq olub? Qısa olaraq deyək ki, adətən Azərbaycan dilində olan ləhcələrin fərqinə bənzər fərqlər olub. Bu, ümumi bənzətmə və asan izahdır. Necə ki, başqa millətlərin də dillərində ləhcələr var. Azərbaycan ləhcələrinə Bakı, Şəki, Naxçıvan, Səlyan və s. ləhcələrini misal çəkmək olar. Bir azərbaycanlı bu ləhcələrdə danışanların hamısını başa düşür. Bu ləhcələrdə bəzi sözlərin uzatmaları fərqlidir, bəzi sözlərin vurğuları fərqlidir.

Bəzən eyni mənanı verən fərqli sözlər də olur. Ərəb ləhcələrində də təxmini belə fərqlər olur. əl-Bəqərə surəsinin 10-cu ayəsinin "بما كَانوُا يَكْذِبُونَ" ifadəsi "yəkzibun" oxunur, bir ləhcədə qoşa samitlə şəddəli" "يُكَذِّبُونَ" yukəzzibun" oxunur. Burada mənaya bir sözlə təsir olsa da yekun məna bir arada cəm olur və ziddiyyət baş vermir. Çünki

"yəkzibun" deyildikdə münafiqlərin peyğəmbər ﷺ haqqında yalan danışması, "yukəzzibun" deyildikdə isə onların peyğəmbəri yalanlaması və inkar etməsi anlaşılır. Hər iki məna da doğrudur. Bunun kimi daha kiçik hərəkə fərqləri, sözlərin yerində qalması ilə yanaşı "ə" hərəkəsi əvəzinə "u" hərəkəsinin oxunması və ya bir "hu" əvəzlik hərfinin silinməsi (yenə məna sağlam qalır) عملته əvəzinə عملت kimi (Yasin. 35) oxunması və ya bir ləhcədə fəthə (ə) əvəzinə sözdə kəsrənin (i) oxunması və ya təcvid qaydalarında kiçik fərqlər kimi fərqləri misal çəkmək olar. Bəzi ayələrin bəzi sözlərində yaranan məna fərqlərinin ziddiyyət olmamasının izahını isə qiraətlərdən danışarkən verəcəyik.

• **Qiraətlər**: Mötəbər qiraətlər günümüzə mütəvatir (10) yolla gəlib çatmışdır. Bu yolla gələn mətnlər çoxsaylı səhabələr tərəfindən rəvayət edilir və onların yalan üzərində ittifaq etməsi mümkünsüzdür. Bu mövzuda hədis inkarçılarına da cavab var. Çünki, onlar Quranın mütəvatir yolla dövrümüzə gəlib çatdığını qəbul edir, hədislərin mütəvatir yolla gələnlərini isə inkar edirlər.

Mövzuya qayıdaraq deyim ki, Şübhədə qeyd edilən 20 sayın hamısı mötəbər qiraətlər deyil. Cəmi 10 qiraət var ki, bu qiraətlər mötəbər qiraətlər hesab edilir. On qiraətdən başqaları şaz (11) qiraətlər hesab edilir. Bu şaz qiraətləri şübhə kimi gətirmək, mötəbər qiraətlərə əlavə etmək ayrı vaxt elmi dəqiqlikdən danışanlar üçün yaxşı göstərici deyil. On qiraətin hamısı peyğəmbərdən sabitdir və peyğəmbər bu qiraətlərin hər biri ilə oxumuşdur, bunlar nazil olmuş Qurandan sayılır, heç kim buna əlavə edə və ya artıra bilməz(12). Qiraətlərin fərqləri vurğu və uzatmaların (hərəkələrin) bəzi ayələrdə fərqli deyilməsində izhar olur. Bəzən də bəzi sözləri müqayisə etdikdə kiçik məna fərqləri də olur. Yuxarıda qeyd etdiyimiz kimi bu ziddiyyət hesab edilmir. Qarilər (qiraətçi alimlər) bəzi sözlərdəki "mədlərin" (uzatmaların) miqdarında da ixtilaf ediblər ki, bu cüzi, kiçik fərqlər oxunuşun gözəlliyinə və ya Allahın kəlamında olan məqsədin, muradın çatdırılmasında bir dəyişikliyə səbəb olmur. Qiraətlərdə məna dəyişikliyi əksər ayələrdə yoxdur. Bəzi azsaylı ayələrdə məna dəyişikliyi olan sözlər də olur. Lakin bu da ziddiyyət sayılmır.

Çünki Quranda olan ixtilafdan danışarkən ixtilafın iki növünü bilməliyik. Növ ixtilafı ki bu, ziddiyyət sayılmır. Ziddiyyət ixtilafı ki, bu Qurani-Kərimdə yoxdur.

- **Növ ixtilafına gəldikdə isə bu üç cürdür:**

**Birincisi:** sözlər fərqli olsa da mənanın eyni olması; məsələn, Fatihə surəsində "əs-Sırat" sözü Nafi və onun rəyində olan qarilərə görə "sad ص " hərfi ilə الصِّرَاط yazılır, Həmzəyə görə isə "zeyn" hərfinə keçid edilərək" الزِّرَاط zirat" olaraq oxunur. Sözlər fərqli olsa da məna eynidir.(13)

**İkincisi**: Söz və mənanın fərqli olması, eyni mənada cəm olması ehtimalı ilə; Nafi və onun rəyində olanlara görə" مَلِكِ يَوْمِ الدِّينِ məliki yəvmiddin" əlifin silinməsi ilə verilir. Asim, Kisəi, Yəqub və Xaləfə görə əlif silinmirمالِكِ يَوْمِ الدِّينِ "məəliki yəvmiddin" olur. "məliki" (hökmdar) və "məəliki" (yiyə, sahib) fərqli sözlər olsa da hər ikisində də Allah qəsd edilir. Hər iki vəsf də Allah üçün keçərlidir. Allah həm din gününün hökmdarı, həm də sahibidir.(14)

**Üçüncüsü**: Söz və mənanın fərqli olması, söz

və mənanın bir arada cəm olmasının icazəli olmadığı, lakin ziddiyyəti lazımlı etməyən bir aspektdə ittifaq etmələri; Buna "Yusuf" surəsi 110-cu ayədəki قَدْ كُذِبُوا "qad kuzibuu" sözünü misal çəkmək olar. Nafi isə ayədəki bu sözü qoşa samitlə قَدْ كُذِّبُوا"qad kuzzibuu" olaraq oxumuşdur. Birinci qiraət ayədəki digər "zənn" sözünü şəkk mənasına salır, ikinci qiraətdəki sözü isə "yəqin" mənasına salır حَتَّى إذا اسْتَيْئَسَ الرُّسُلُ وظَنُّوا أَنَّهُمْ قَدْ كُذِبُوا . Yəni: Biri: "Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin yalançı sayıldıqları haqda şəkk etdikdə..." olur, digəri isə: "Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və özlərinin yalançı sayıldıqlarını yəqin etdikdə..." olur. Lakin ayə hər iki qiraətdə tam oxunduğu zaman hər iki qiraətin yekun mənasında heç bir ziddiyyət olmur(15).

• **Qiraətlərin müxtəlifliyinin faydasına gəldikdə isə,** bu qiraətlərin bir çox faydaları var. Bunlardan biri:

- Ümmət üçün qiraətin asanlığı və yüngülləşdirmədir.
- Bir başqa faydası isə Qurani-Kərimin Allahın kəlamı olmasına açıq-aydın dəlil olmasıdır. Çünki

bu qiraətlər sonda ziddiyyətə aparıb çıxarmır.

- Bu qiraətlərin bir başqa faydası isə iki müxtəlif hökmün bir arada cəm edilməsidir; Buna misal olaraq əl-Bəqərə surəsinin 222-ci ayəsindəki يَطْهُرْنَ sözüdür. Digər qiraətdə "yəthurnə" sözünün "ta" və "hə" hərfləri qoşa samitlə verilib və "يَطَّهَّرْنَ" olaraq oxunur. İki qiraət birlikdə iki məsələyə dəlalət edir: "Heyzli qadına onun əri təmizliyin əslinə çatana kimi yaxın gəlməli deyil. Bu təmizlik isə heyzin (aybaşının) kəsilməsi ilə baş verir. İkinci məsələ isə əri ona kamil təmizlənmədən, yəni qüsul almadan yaxınlaşa bilməz, çünki qadına ərinin yaxınlaşması üçün bu iki təmizliyin olması labüddür(16). Bu iki qiraətin ikisi də doğrudur və sanki bir-birini mənaca tamamlayır və məsələni daha aydın başa düşməyə yardım edirlər.

- **Bu faydalardan biri də** iki müxtəlif halda iki şəri hökmün dəlalət etdiyi mənanın ifadə edilməsidir; əl-Maidə surəsinin 6-cı ayəsindəki bir qiraətdə" أَرْجُلَكُمْ ərculəkum" ifadəsi ayağı yumağa, digər qiraətdə isə" أَرْجُلِكُمْ ərculikum" ifadəsinə görə isə ayağa məsh çəkmək lazımdır. Beləcə aydın olur ki, bir qiraət ilə peyğəmbər ayağına xüff

geyinənlər üçün ayaqlarına məsh çəkməyin icazəli olmasını, ayağında bu və digər tipli geyim olmayanlara isə onları yumağın gərəkdiyini öyrətmiş olur.

- **Qiraət fərqlərinin faydalarından biri də** mübhəm olan sözün izahının verilməsi; əl-Qariə surəsinin 5-ci ayəsindəki الْعِهْنِ sözünün mənası digər qiraətdən aydın olur ki, "yun" deməkdir. Yəni, "Dağlar isə didilmiş yun görkəmi alacaq". (əl-Qariə. 5).

- Bu faydalardan biri də diqqətləri dil üslublarının müxtəlifliklərinə yönəltməkdir.(17).

**•Qiraətlər üç qismə bölünür :**

**Birinci qisim:** Məşhur qiraətlər; o qiraətlər ki, ümmət bunları qəbulla qarşılamışdır və alimlər bu qiraətlərə mütəvatir (18) hökmünü vermişdir.

**İkinci qisim:** Səhih qiraətlər olsa da məşhurluq və qəbul səviyyəsinə çatmayan qiraətlər; bu qiraətlər tərk edilmişdir.

**Üçüncü qisim:** Bu iki qisimdən xaric olan qiraətlər, hansı ki, bəzi qarilərə sadəcə nisbət olunur və ya sənədi yoxdur. Bu qiraətlər ikinci qismə daxil olan qiraətlərə belə çatmır .(19).

• **Qiraətlərin qəbul edilmə şərtləri:**

Qiraətlərin qəbul edilməsi üçün əsas üç şərt var. Bu şərtlərdən biri olmazsa, həmin qiraət qəbul edilmir:

1 - İsnadı səhih (mötəbər, sağlam) olmalıdır.

2 – Qiraət ərəb dilinə müvafiq olmalıdır.

3 - Ümmətin üzərində icma etdiyi Osmani rəsminə uyğun olmalıdır.(20).

• **Qiraətlərin adlarına gəldikdə isə:**

Nafi əl-Mədəni, Abdullah İbn Kəsir, Əbu Amr ibnil-Alə əl-Bəsri, İbn Amir əş-Şami, Asim əl-Kufi, Həmzə əl-Kufi, Kisəi əl-Kufi, Əbu Cəfər əl-Mədəni, Yaqub əl-Hadrami, Xaləf əl-Bəzzar (Əbu Muhəmməd)(21). Bu on imamın on qiraəti üzərində müsəlmanlar ittifaq etmişlər.

**Nəticə:** Qurani-Kərimdə 20 mötəbər qiraət yoxdur. Əksinə, 10 mötəbər qiraət var. Qurani-Kərim Allahdan göndərildiyi kimi insanlara çatmış və qorunmuşdur. Nazil olmuş ayələrdə Allahın muradının, istəyinin olduğu kimi insanlara çatdırılmasında heç bir tərəddüd, şəkk və şübhə yoxdur və ola da bilməz! Qeyd etdiyimiz qiraət

fərqliliklərinin faydalarından göründüyü kimi qiraətlərin olması və bu zaman ziddiyyətin yaranmaması özü ilə Qurani-Kərimin Allahın kəlamı olmasının açıq-aydın bir dəlilidir.

## Qeydlər və istinadlar:

1- Hədis elmində mütəvatir sözünün izahı: bir çox səhabələrin ittifaqla rəvayət etdiyi hədislərdir. İstilahi cəhətdən ən aydın təriflərdən biri belədir: "Mütəvatir hədis: Özləri kimi (etibarlı) insanların yalan üzərində razılığa gəlmələri və ittifaq etmələri mümkün olmayan bir toplum (çoxsaylı insan və ya səhabə) tərəfindən rədd edilən hədislərdir. Xəbərlərinin isnadı hissdir". Yəni eşitmək və ya görmək yoluyladır. (Bax: Teysiru Mustalah əl-Hədis. Dr. Mahmud ət-Tahhan. Səh. 21-22. Misir nəşri. 1415 hicri).

2 - Cəm`ul-Quran – Mədxəl fi Sual və Cavab. Əhməd Səlim. Səh. 17. İkinci Nəşr. Mərkəzut-Təfəkkur lil-Buhus vəd-Dirasət. "əl-Asriyyə" nəşriyyatı. 2016.

3 - Səhih ən-Nəsai. 935. Ömər ibnil-Xəttabın rəvayət etdiyi hədis.

4 - Alimlər qeyd edirlər ki, bu müxtəlif ərəb qəbilələrində olan fərqli ləhcə və qiraətlərin Ərəb dilinin inkişafı prossesində nəzərə alınması, Quranın yeddi hərf üzərində göndərilməsi Qurani-Kərimin ilahi bir kitab olmasının bəsit sübutlarından biridir. Çünki, müxtəlif ləhcəli qəbilələrin ancaq Qureyş ədəbi dilində Quran oxumağa məcbur edilməmələri bu qiraət, oxunuş azadlığının Ərəb dilinin inkişafına verdiyi töhfəni bizə göstərir. Bu faydanı dilçilər daha dərindən başa düşürlər. Çünki bütün dillərin müəyyən inkişaf mərhələləri olmuşdur. Qurani-Kərim də ərəb dilinin ən inkişaf edən çağlarında gəlmişdir deyə, hətta ləhcələrin və qiraətlərin qorunması, kitablara yazılması Peyğəmbərin səhabələrə bu mövzuda sərgilədiyi mövqe sayəsində baş vermişdir.

5 - Səhih əl-Buxari. 2419; Səhihu Müslim. 818.

6 – əl-Muharrar əl-Vaciz. 1/46.

7 – Şuabul-İman. əl-Beyhəqi. 2/421.

8 – Fədailul-Quran. Səh. 203.

9 – Səhih əl-Buxari. 4984. Ənəs ibn Malikin rəvayəti.

10 – Mənası ilk qeyddə izah edilmişdir.

11 – Şazz: Lüğəvi cəhətdən cumhura və ya camaata müxalif olan, tək qalan deməkdir. İstilahi cəhətdən isə müxtəlif İslami elmlərdə (hədis, fiqh, təfsir və s.) lüğəvi mənaya yaxın mənalar verilmişdir. (Daha ətraflı bax: əl-Mustalahat əl-Hədisə beynəl-İttifaq vəl-İftiraq. Səh. 288 və sonrası).

12 – Cəm`ul-Quran – Mədxəl fi Sual və Cavab. Əhməd Səlim. Səh. 64.

13 – ən-Nəşru fil-Qiraət əl-Aşr. 1/50.

14 - Öncəki mənbə.

15 - Öncəki mənbə.

16- Ulum əl-Quran. Fəvaidu İxtiləful-Qiraəət fil-Quranil-Kərim. (Ərəbcə məqalə). .

17 – Öncəki mənbə.

18 - Əvvəldə mənası verilmişdir.

19- Cəm`ul-Quran – Mədxəl fi Sual və Cavab. Əhməd Səlim. Səh. 64.

20 - əl-Mənar fi Ulumil-Quran. 1/125.

21 - Şurutul-Qiraət əs-Sahiha və Əsəruhə fi ixtiləfil-Fuqaha. Abdur-Razzaq əs-Sadiqi. (Ərəbcə elmi məqalə). Məqalənin əvvəli, qarilərin adları və onlar haqqında məlumatlar hissəsi.

## Cariyəni cinsi münasibətə məcbur etmək haqda ateist şübhəsinə cavab!

**Sual:** "Ateistlər deyirlər ki, müsəlmanlar qeyri-müsəlmanların ailəsini döyüşdə ələ keçirib onlarla istədiyi kimi davranırlar. "Bu keçmişdə baş verib" deyirlər. Amma keçmişdə də olsa bunu etmək, onları hətta ərlərindən ayrı düşdükdən sonra cinsi münasibətə cəlb etmək nə dərəcədə düzgün, nə qədər insani hesab edilir"!?

**Sualın cavabı:** Bu mövzuda biz müsəlmanların deyəcək sözlərimiz çoxdur. O sözlər ki, İslami döyüş mədəniyyətini, insafı və ədaləti tərənnüm edir. O mədəniyyət ki, bütün bəşəri ideologiyaların fövqündə olan yüksək bəşəri dəyərləri, ali mədəniyyəti təcəssüm etdirir. Lakin mövzunun qoyuluşu belə bir həssas şübhə şəklində olduğu üçün birbaşa mövzuya keçid edirik. İslami döyüş qaydalarına uyğun bir şəkildə döyüş əsnasında ələ keçirilmiş qeyri-müsəlman qadınlarının cariyə hökmü alması və onlarla müamilə haqda ətraflı yazımız olsa da (1), bu xüsusi suala daha xüsusi bir cavab veririk; İslam fiqhinə görə alimlərin bu

haqda görüşlərinə baxmazdan öncə bu mövzuya dəxli olan dörd Qurani-Kərim ayəsini oxumaq, sonra mövzuya davam etmək daha doğru olardı.

**Birinci məsələ:** bu mövzumuz dörd ayə üzərindən mövzuya yanaşma ilə olacaq;

**Birinci ayə:** Uca Allah Qurani-Kərimdə buyurur: "O kəslər ki, övrət yerlərini həmişə qoruyurlar, zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar buna görə heç qınanmazlar". (Muminun. 5-6).

**İkinci ayə:** "Sahib olduğunuz cariyələr istisna olmaqla, evli qadınları almaq da sizə haram edildi. Allahın sizə buyurduğu hökmü belədir". (Nisa. 24).

**Üçüncü ayə:** "Sahib olduğunuz kölələrdən özünün azad olmasına dair sizdən yazılı məktub istəyənlərə, – əgər onlarda bir xeyir görürsünüzsə – istədikləri məktubu yazıb verin. Allahın sizə verdiyi maldan onlara da verin. Əgər kənizləriniz ismətlərini qorumaq istəsələr, fani dünya malı əldə

edəcəksiniz deyə onları zinakarlığa məcbur etməyin. Kim onları bu işə məcbur etsə, bilsin ki, onlar məcbur edildikdən sonra Allah onları bağışlayar və onlara rəhm edər". (Nur. 33) .

Dördüncü ayə: "Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək kafirlərlə belə rəftar edin". (Muhamməd. 4).

***Qeyd olunan ayələrdən mövzu ilə əlaqədar olaraq çıxarılan faydalar:***

**1 -** Aydın olur ki, kişi öz həyat yoldaşı ilə yaxınlıq etdiyi kimi əsir olaraq ələ keçən cariyəsi ilə də yaxınlıq edə, cinsi münasibətdə ola bilər. Bu Allahın hökmünə görə halaldır, icazəlidir .

**2 -** Ərli azad qadınlarla cinsi münasibət icazəli deyil, lakin cariyə hökmünü alan, əvvəllər müsəlmanlara qarşı döyüşən, cinayət işlədən şəxsə aid olan bir qadın döyüş zamanı müsəlmanların əlinə keçərsə, o qadınla yaxınlığı hər müsəlman kişinin etməsi haramdır, bu, yalnız o qadını alıb öz

mülkünə çevirən müsəlman kişiyə halaldır.

**3 -** Aydın olur ki, döyüş zamanı müsəlmanların əlinə keçən qeyri müsəlman evli qadınlar müsəlmanlar üçün halal olur. Səbəb isə budur; Yer üzündə olan bütün nemətləri uca Allah onun həqiqi qulları üçün vəd etmişdir. Küfr edənlərdən Allaha və Rəsuluna qarşı vuruşanlara verilən nemətlər əllərindən çıxa bilir. Bu dünyada onlara verilən əzabın bir hissəsidir. Çünki həqiqi neməti, yer üzünün həqiqi sahibləri olmağı uca Allah əsl mömin bəndələrinə vəd edərək buyurmuşdur: "Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra əminliklə əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir". (Nur. 55).

Buradan da aydın olur ki, küfr edənlərin əlindən bütün nemətlər çıxır, torpaq, qadın və digər mülklər və ruzilər də bu itkiyə daxildir. Bu

məsələni başa düşmək mövzunun yarısını başa düşməyə bərabərdir. Kafirlər bu nemətlərə layiq olmadıqları üçün Allah möminləri izzətləndirib bu nemətləri onlara verir. Fikir versəniz, cariyə götürmək hökmü İslamın izzətli, dünyaya yayıldığı zamanları ilə çərçivəlidir.

**4 -** Cariyə olan kəslər (Nur. 33-ə əsasən) bir yazı yazaraq, müqavilə ilə azad ola bilirlər. Fikir versək, Qurani-Kərimdə kənizləri, cariyələri, kölələri azad etməyə təşviq də var. Hədislərdə də qul azad etməyə təşviq var. Bu haqda "İslam dinində quldarlıq ləğv edilməyib?" adlı məqaləmizdə ətraflı bəhs etmişik.

**5 -** Düşmən tərəfindən əsir götürülənlər ya fidyə (2) verilərək, ya da fidyəsiz bir şəkildə azad edilirlər. Bu müamiləyə cariyələr də daxildirlər. Deməli, mövzu xüsusi bir hal üzərində qabardılır, İslamın bu rəhmət müamiləsi barədə şübhə əhlinin danışdığını görməzsiniz .

**İkinci məsələ:** Elm əhlinin mövzu barədə ümumi yanaşmasını bəyan etməklə aydın

olacaqdır;

Müasir alimlərin fətvalarına baxdıqda da görürük ki, onlar da bu həqiqəti təsdiqləyib deyirlər: "Hal-hazırda cariyənin olmasını bilmirik". (3). Keçmişdə bütün mədəniyyətlərdə olmuş bir hal kimi İslamda da cariyə faktoru olub.

Müşrik cariyələrə gəldikdə onlarla yaxınlıq etmək İslam alimlərinin cümhuruna görə icazəli deyil. Yalnız İslamı qəbul etdikdən sonra bu mümkündür. Kitab əhlindən (xristian və yəhudi) olanlara gəldikdə isə bu yaxınlıq mümkündür .

İbn Qudamə demişdir: "Kitab əhlindən başqa kafirlərin və məcusilərin (yəni, müşriklərin) azad qadınları ilə evlənmək haramdır. Əksər alimlərin rəyinə görə onlardan olan mülkə çevrilmiş cariyələrlə yaxınlıq etmək icazəli deyil; Onlardan Murrə əl-Həmədani, əz-Zühri, Səid ibn Cübeyr, əl-Əvzai, əs-Sövri, Əbu Hənifə, Malik, Şafi və s. demək olar. İbn Əbdül-Bərr isə demişdir: "Ölkələrin fəqihlərinin camaatı və alimlərin cumhuru bu rəy üzərindədir. Buna müxalif olan şaz (istisna) hesab olunur"(4).

Həmçinin fayda üçün deyək ki, elm əhli belə buyurur: "Öz mülkündə olmayan cariyələrə baxmaq, gözlə nəzər yetirmək də digər naməhrəm müsəlman qadınlara baxmaq kimi haramdır. Çünki kişi və qadının təbiəti fərqlidir. Bu cür məsələlərdə güzəşt yoxdur. Bəzi ateistlərin iddia etdikləri kimi cariyələrə baxmaq icazəli deyil. Kişi yalnız öz mülkündə, ixtiyarında olan cariyəyə baxa, nəzər yetirə bilər" (5).

Alimlər buyururlar ki, kişiyə öz həyat yoldaşının yataqda şəri bir üzür olmadan etiraz etməsi icazəli olmadığı kimi, mülkü olan cariyəsinin də (keçmiş zamanlarda olan hökm olsa da) etiraz etməsi doğru deyildi. Üzrü olmadığı zaman zövcəsini və ya cariyəsini bu yaxınlığa məcbur etməsi bir qəbahət hesab edilmir. Üzür olduğu zaman isə məcbur etmək hikmətsizlik hesab edilir. Lakin, alimlər həm həyat yoldaşını, həm də cariyəni cinsi münasibətə məcbur etmədən, yumşaq və gözəl davranaraq qadının psixoloji durumunu nəzərə almağı, bu üsulla onu yola gətirməyi tövsiyə etmiş, peyğəmbərin bu hədisini

bütün hallarda tətbiq etməyə təşviq etmişlər: **"Yumşaqlığı olan elə bir şey yoxdur ki, bu ona bəzək olmasın. Əgər yumşaqlıq bir şeydən gedərsə, onu (o şeyi) çirkinləşdirər** "(6).

Müştərək mülk olan cariyə ilə cinsi münasibətə girmək isə haramdır. İbn Qudamə "əl-Muğni" əsərində demişdir: "Elm əhli arasında müştərək (mülk) olan cariyə ilə cinsi münasibətə girməyin haram olması barədə bir ixtilafın olduğunu bilmirik (7)".

Həmçinin Peyğəmbər ﷺ cariyələrdən yaxınlıq edilməsinə icazə verilənlərin hamilə olduqları təqdirdə o qadınların övladlarını dünyaya gətirib təmizlənmələri, ərindən ayrılanların isə üç dəfə ardıcıl heyz (menustrasiya) halına yaşamayana kimi onlara yaxın durmağı qadağan etmişdi. Bu haqda da Əbu Davudun rəvayət etdiyi hədis belədir: **"Hamilə qadın körpəsini dünyaya gətirənə kimi onunla yaxınlıq etməyin. Nə də heyz (aybaşı) olmayan qadınla o heyz olana kimi yaxınlıq etməyin"** (8). Hamilə qadına

yaxınlaşmamaqda tibbi və ilahi bir hikmət var. Köhnə ərindən ayrı düşmüş cariyələrin üç ardıcıl heyz müddəti tamam olmasını gözləməklə də onun övladının atasının kimliyinin məlum olması, nəsli qorunması, nəslin qarışmaması hədəfi var .

O cümlədən də, qadınlar və uşaqlar döyüş zamanı öldürülməzlər, bunu etmək haramdır. Bunun haram olması haqda alimlərdən icma nəql edilib. Bu icmanı nəql edənlərdən İbn Həzmi (9), Nəvəvini (10), İbn Teymiyyəni (11) və İbn Həcəri (12) qeyd etmək olar.

**Nəticə**: İstər həyat yoldaşı olsun, istər də (keçmişdə) cariyə olsun, əgər şəri cəhətdən yaxınlıq etməyə mane olacaq heç bir səbəb yoxdursa, cinsi münasibətə məcbur etmədən qadını yola gətirmək üçün daha hikmətli, yumşaq və qadının hisslərini, psixoloji durumunu nəzərə alan yollara baş vurulması peyğəmbərin bütün hallarda yumşaqlıq haqqında tövsiyəsinə daha uyğun gəlir. Təbii ki, kişinin bunu qətiyyətlə tələb etməsi də şəriətə müxalif deyil, nə də buna görə günah qazanmır. Məsələnin emosional tərəfi olduğu üçün

insan birinci şəriətin cariyə haqqında hökmünün əslini bilərsə, o zaman digər şübhələrdə də önə çəkilən "emosional şübhə təsiri" olmayacaqdır! Şübhəni gətirənlərin özləri müharibə vaxtı qadınları, uşaq və qocaları öldürürlər, müsəlmanların rəhm etdiyi zəif insanlara rəhm etmirlər, sonra isə müsəlmanlar haqqında bu cür şübhələr gətirirlər.

*Sonda Allahın elçisi Muhəmmədə, onun əhli beytinə və səhabələrinə Allahın salavatı və salamı olsun!*

## Qeydlər və istinadlar:

1 - Cariyələr haqqında ateist şübhəsinə cavab, (Sahib Əsədov). Məqalənin linki:
https://sunna.az/content?cid=950
2 - Fidyə: lüğəvi cəhətdən əsirlərin azad edilməsi üçün ödənilən məbləğdir. Şəri bir termin olaraq isə ibadətlə bağlı daha fərqli bir məna ifadə edir.
3 - Şeyx Saleh əl-Fövzanın (Allah onu qorusun) fətvası:

https://youtu.be/W3qBFzLJtu8?si=YfrLZ6m1Vdn-NbPb
4 - İbn Qudamə. "əl-Muğni.(134/7) ".
5 - Heysəm Talatın mövzuyla bağlı çıxışından alıntı:
https://youtu.be/BqM3AyNZjL0?si=salt6Jej328rWkSF
6 - Səhihi Müslim, 2594.
7 - əl-Muğni. 14/371-372.
8 - Səhih Əbu Davud. Albani. 2157.
9 - İbn Həzm. "Məratibul-İcma". səh. 2011.
10 - Nəvəvi "Şərhu Sahih Muslim", 12/48.
11 - İbn Teymiyyə. "əs-Sarim əl-Məslul". 2/253.
12 - İbn Həcər "Fəthul-Bari". 6/147.

## Həsən, Hüseyn və cənnət yaşı barədə şübhəyə cavab!

**Şübhə belədir:** "Sünnü və şiələrin mötəbər hədislərinə əsasən bildirilir ki, Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır. O zaman necə ola bilər ki, digər hədislərdə cənnətdə hər kəsin 33 yaşında gənc olacağı qeyd olunub? Burada bir ziddiyyət yoxdurmu"?

**Şübhənin cavabı belədir :**

Birincisi: Hədisin mötəbərlik dərəcəsi və isnadı:" Həsən və Hüseynin (رضي الله عنهما) cənnət cavanlarının ağası olması" kimi dilimizə tərcümə olunan hədis səhihdir, Əbu Səid əl-Xudri və Hüzeyfə yoluyla rəvayət edilmişdir, mötəbərdir. Əhli Sünnə mənbələrində ət-Tirmizi (3768), Əhməd (11636), Nəsai (8113) və başqaları bu hədisi rəvayət etmiş, imam Zəhəbi və başqaları hədisi mötəbər hesab etmişlər. Şeyx Albani də bu hədisi "Səhih ibn Hibban" əsərində (6959) "səhih", mötəbər olduğunu bildirmişdir. Həmçinin bu hədis "Səhih əl-Cami" əsərində (3181) də səhih yolla

nəql edilmişdir.

**İkincisi:** Hədisin mənası nədir? Bunun mənası haqqında danışılan zamana aiddir və peyğəmbərlərlə raşidi xəlifələr kimi ümumi üstünlüyü haqqında dəlil gəlmiş şəxslər istisna olmaqla digər şəxslərin cənnətdə ağasıdırlar, yaxud da onlar igidlik, mərdlik, qonaqpərpərlik, şücaət kimi sifətləri ehtiva edən cənnət gənclərinin ağasıdırlar.

Bu haqda alimlərdən əl-Mubarəkfuri belə demişdir: "Yəni, Həsən və Hüseyn Cənnət əhlindən gənc olaraq ölən ən üstün şəxsiyyətlərdir. Lakin bu sözlə (hərfi mənada) gənclik yaşı qəsd edilməmişdir, çünki onlar orta yaşlarını haqladıqdan sonra ölmüşdülər. Bu söz gənclərin üzərində olduğu "igidlik, kişilik" mənasındadır. Necə ki, deyilir: Filankəs qoca olsa da gəncdir. Bununla onun gənclik gücünə və igidliyinə işarə edir. Yaxud da o ikisi (Həsən və Hüseyn) peyğəmbərlər və raşidi xəlifələr istisna olmaqla cənnət əhlinin ağasıdırlar. Bu ona görədir ki, Cənnət əhlinin hamısı eyni yaşdadır ki, bu da

gənclik yaşıdır (33 yaş). Onların arasında qocalıq və orta yaşda olan kimsə olmayacaq". Ət-Tiybi demişdir: "Ola bilsin ki, bu qəsd olunur: "O ikisi hal-hazırda bu zamanda yaşayan Cənnət əhlindən olanların ağasıdırlar". (Töhfətül-Əhvazi. 10/180).

## Qohumla evlilik, yeni qanuna münasibət

Bu mövzunu beş aspektdən bəhs etmək olar:

**Birincisi:** Qohum evliliyinə şəri cəhətdən baxış; Qohum evliliyinə şəri cəhətdən bir maneə yoxdur. Alimlər qohum evliliyini icazəli görmüşlər və bu haqda görüşlər əsasən üç rəy əhatəsində olmuşdur. Məkruh. Mübah və bəyənilən. Şafiilər və malikilər qohum evliliyinin məkruh olduğunu, yəni bəyənilmədiyini bildiriblər. Malikilər isə qohum evliliyinin mübah, yəni icazəli və ya normal bir şey olduğunu bildirmişlər. Zahirilər isə qohum evliliyinin məndub olduğunu, bir növ

müstəhəb yəni bəyənilən olduğunu bildirmişlər. Yəni bunu edən savab qazanır, tərk edən isə günah qazanmır.

• **Birinci rəyi deyənlər** zəif hədislərə əsaslanıblar .

لا تنكحوا القرابة القريبة فإن الولد يخلق ضاويا

**"Yaxın qohumlarla evlənməyin, çünki (doğulan) uşaq zəif olar".**

İbn Salah demişdir: bu rəvayətin mötəbər bir əslini tapa bilmədim. Bu hədisə əsasən deyiblər ki evlilikdə düşmənçiliyin yaranıb yaranmamasına qaranti yoxdur. Bunun nəticəsi boşanmaya da gedib çıxa bilər. Qohumluq əlaqələrinin kəsilməsinə gətirib çıxara bilər.

• **İkinci rəyi deyənlər** isə deyiblər ki, uca Allah buyurur: **"xoşunuza gələn sizə halal olan başqa qadınlardan ikisi, üçü və dördü ilə evlənin"** (Nisa. 3). Peyğəmbərin ﷺ bibisi qızı Zeynəblə evlənməsini, öz qızları Ümmü Gülsüm və Ruqiyyəni əmioğulları (Utbə və Uteybə) ilə evləndirməsi... Qızı Fatiməni Əli ilə evləndirməsi,

Zeynəbi xalası oğlu ilə evləndirmələrini misal çəkiblər.

• **Üçüncü rəyi deyənlər** də ikinci rəyi deyənlərin dəlillərini gətiriblər. Sadəcə olaraq onlar peyğəmbərin felini müstəhəbliyə yozublar. Üstün rəy ikinci görüşü deyənlərin görüşüdür .

Ümumiyyətlə, uca Allah Qurani-Kərimdə ən yaxın qohumlarla evliliyi, xüsusən də "məhrəm" adı verilən şəxsləri bəyan edib ki, onsuz da onlarla evlənmək dinimizdə haramdır. Ana, bacı, xala, bibi, süd vermə yolu ilə məhrəm olanlar və s. Nur surəsi 31-ci ayədə bu şəxslər ətraflı şəkildə bəyan olunmuşdur.

**İkincisi: Bu evliliklərdə xəstəliklərin baş verməsinə şəriətin yanaşması necədir ?**

**Cavab:** Bu evliliklərdə xəstəliyin olması qədimdən bu yana bilinən bir haldır. Hətta zəif bir hədisdə belə qohumluq evliliyindən doğulan uşağın zəif olacağı qeyd olunub. Lakin bu cür evliliklərdə irsi, genetik xəstəlik nisbəti və heç də bəzi araşdırmalarda şişirdildiyi kimi də deyil. Son

tibbi araşdırmalarda göstərilir ki, uşaqlarda olan genetik, irsi və ya şikəstlik kimi xəstəliklərə əgər qohum evliliyi 7 və ya 8 faiz səbəb olursa, normal evliliklərdə bu faiz nisbəti 5 faizdir. Fərq elə də böyük deyil. Fərq həddindən artıq şişirdiləsi bir durumda deyil. Çünki qohum olmayan evliliklərdə də bu cür problemlər baş verir. Bu haqda araşdırmaları həkimlər təqdim etsələr daha doğru olar. Təbii ki, biz bəzi müsəlman həkimlərin araşdırmalarına əsaslanırıq.

**Üçüncüsü: Bu haqda yeni qanuna münasibət necə olmalıdır?**

**Cavab:** Bu haqda yeni qanuna münasibətə gəldikdə isə, biz deyə bilmərik ki, qanun məhz dinə qarşı qoyulub. Mövzunun bu cür qoyulması qanunun mahiyyətini kontekstindən çıxarmaq olardı. Bu qanun dövlətin vətəndaşın qeydinə qalması kimi də dəyərləndirilə bilər. "Qanun qoyulubsa, indiki durumda insanlar çalışıb problemə düşməmək üçün hər şeyi öncədən düşünməlidirlər" deyirik. Ola bilsin bu cür qanunlar sonradan dəyişilsin. Yəni kimsə deyə

bilməz ki bu qanun dəyişə bilməz. Bir çox ölkələrdə də bu cür qanun yoxdur. Məsələyə tamamilə elmi prizmadan yanaşmağın tərəfdarıyıq.

**Dördüncüsü: Qohum eviliyi və insest şübhəsi;** bildiyimiz kimi ateistlər Qohum evliliyi və insest şübhəsinin dində olduğunu irəli sürür və bunun qeyri əxlaqi olduğunu iddia edirlər. Buna necə cavab vermək olar?

**1** – "Ateistlər bu mövzuda danışacaq axırıncı adamlardır" desək yanılmarıq, çünki onlara görə xeyir də, şər də, əxlaq da nisbi bir anlayışlardır. Bir ateistə görə nəyin əxlaqi, nəyin qeyri əxlaqi olmasını mənfəətlər müəyyənləşdirir, əxlaqi dəyərlər deyil. Çünki onlara görə oturuşmuş əxlaqlar dindən gəlir. Belə olan halda ateistin əxlaqi dəyərlər barədə ürəkdolusu danışmağa ən azından bir ateist kimi haqqı çatmır.

**2** – Dinsizlər dində insest var deyərkən, ilk öncə Adəmin nəslinin çoxalması mövzunu şübhə kimi gətirirlər. Dahi İslam alimi İbn Cərir ət-Tabəri Suddidən rəvayət edir:

"Əbu Malikdən, o da Əbu Salehdən, o da ibn Abbasdan, o da Murrədən, o da ibn Məsuddan və peyğəmbərin bəzi səhabələrindən rəvayət olunur ki: «Hər oğlan uşağı doğulanda onunla birgə bir qız uşağı da doğulurdu. Beləcə, bir qarından (doğuşdan) olan oğlan digər qarından (doğuşdan) olan qızla evlənirdi. Həmçinin, bir qarından (doğuşdan) olan qız digər qarından (doğuşdan) olan oğlanla evlənirdi…". (İbn Cərir ət-Təbəri təfsiri, 8/322).

İbn Allən isə demişdir: "Həvva hər dəfə doğuş etdikdə eyni doğuşdan olan uşaqlarla digər doğuşlardan olan uşaqlar bir-birinə uzaq qohum sayılırdılar. Bunun hikməti də onların evlənməsinin üzürlü (zəruri) olması idi. Beləcə, (insan) nəslinin davam etməsi zərurəti bunu icazəli etmişdi". (Dəlilul-Fəlihin, 2/448).

Bu günkü gündə insan nəslinin say azlığından dolayı davam etməməsi təhlükəsi mövcud deyildir. Ona görə də ateizmdəki İnsest (yaxın qohumların evliliyi) tərəfdarlarının Adəmlə Həvvanın nəslinin artması halını bəhanə gətirmələri əslində onların

əleyhinə dəlildir. Çünki, bugünki gündə bacı və qardaşın evliliyinin mümkünlüyünü irəli sürən ateistləri nə din dəstəkləyir, nə adət, nə də sağlam ağıl.

**Beşincisi: Bəs ateistləri insest yanlışına salan nədir?**

Əvvəla deyək ki, "insest" yaxın (qan) qohumlarının evliliyi və ya cinsi münasibətinə deyilir.

Ateistləri insest bataqlığına salan onların bitmək tükənmək bilməyən ifrat azadlıq şüarlarıdır ki, bu şüar onları ifrat ehtiras yollarına sürükləyir, beləcə bir ateist (bütün ateistlər bunu qəbul etməsələr də) öz bacısı və s. yaxın qohumlarıyla, hətta, nəfsi çəkəndə heyvanlarla da evlənmək və ya yaxınlıq etməklə öz çılğın nəfsinə xidmət etməkdə problem görmürlər. İş bununla da qurtarmır. Ateist üçün əxlaq nisbi olduğu üçün o cəmiyyətdəki əxlaq normalarını asanlıqla poza bilir, bir ateist ifrat azadlıq şüarlarına meyilli olduğundan dolayı onun üçün kişi ilə kişinin evlənməsi, yaxınlıq etməsi də çox normal bir hal hesab olunur. Hansısa ateist əgər etiraz edib desə ki, "şəxsən mən bu

fikirlə razı deyiləm” biz ona deyəcəyik ki, ateizm inancı sənin dediyinin əksini deyir, deməli sən tam mənada ateist deyilsən. Çünki, bu gün dünyada ateizmin böyük təbliğatçıları hesab olunan “ateist alimləri” bacı qardaş evliliyini və cinsi əlaqəsini normal görür, kişinin kişiylə yaxınlıq etməsini, hətta heyvanla yaxınlıq etməsini normal görürlər. Bu barədə onların öz sözlərindən olan nəqlləri gətirib nə dindarların, nə də oxucuların ürəyini bulandırmaq istəmirik. Biz bu nəqlləri ayrıca bir yazıda qeyd edəcəyik. Ona görərə də deyirik ki, ateistlərin Adəm və Həvvanın nəslinin çoxalmasını sitat gətirmələri dəlil deyil, bəhanədir. Ateizmin həqiqi üzü ilə tanış olan insan çox asanlıqla onların fikirlərindəki ziddiyyətlərin şahidi ola bilər.

## Dində nəyinsə hikməti haqqında soruşmaq olarmı?

**Sual:** Dində bir şəriət hökmünün hikmətini soruşmaq olarmı?

**Cavab:** Dində hansısa bir məsələdə şəriət hökmünün hikmətini soruşmaq qadağan deyil. Bəzi insanlar hökmlərin hikmətini soruşmaqla qeybi məsələlər haqqında sual verməyi qarışdırırlar. Yəqin ki qeybi məsələlər haqqında sual vermək barədə də danışarıq. Amma şəri hökmlərin hikmətlərinə gəldikdə, şəkk yoxdur ki biz bir müsəlman kimi etiqad etmişik ki, şəriət hökmlərinin mütləq bir hikməti var, o hikmət bizə ya aydın olur, ya gizli qalır. Bu məsələləri öyrənənlər, daha çox bilənlər isə insanlar arasında alimlərdir.

Bu kimi mövzularda dini hökmlərin hikmətini öyrənmək insanın imanının və yəqinliyinin artmasına, insanın dini başa düşməsinə, hökmləri başa düşməklə yanaşı insanın bu mövzularda meydana çıxan şübhələri dəf etməsinə səbəb olur.

Allahın elçisi Muhamməd ﷺ də səhabələrinə əhkamların hikmətini öyrədirdi, onlar soruşurdular, peyğəmbər də cavab verirdi. Burada problemli məsələ hökmlərin hikmətini araşdırmaqda olan problemli metoda qayıdır. Bu problemli metodların təzahürlərindən bəziləri bunlardır:

• Bir hökmün hikmətini başa düşmədikdə o hökmü qəbul etməmək.

• Hikməti axtarmaqda yol verilən xəta; oola bilsin ki kimsə desin ki bu hökmün hikməti filan cürdür, amma əslində elə deyil. Yaxud da elə bilsin ki, bir hökmün cəmi bir hikməti var, amma əslində həmin hökmün bir neçə hikməti olsun.

• Doğru olmayan hikmətləri şəriətə nisbət etmək; Bu da şəriətə Quran və sünnədən götürülməyən, nə də İslam fəqihlərinin sözlərindən yararlanmadan deyilən hikmətləri nisbət etmək yoluyla edilir. Hansı ki, hikmət olduğu iddia edilən izahları o dövründə yayıldığı üçün öz nəfsinin istəyinə görə seçmişdir.

• Bu məsələdə mühüm qayda odur ki, insan bir hökmün hikmətini başa düşmədikdə də tam bir təslimiyyətlə hökmə tabe olmalıdır. Uca Allah buyurur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى ٱللَّهُ وَرَسُولُهُۥٓ أَمْرًا أَن يَكُونَ لَهُمُ ٱلْخِيَرَةُ مِنْ أَمْرِهِمْ

"Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər". (Əhzab. 36).

Amma hikməti axtarmaqda da deyildiyi kimi bir sıxıntı yoxdur. Çünki Allahın bütün hökmləri ya insanların dini və dünyası haqda hansısa bir məsləhəti yerinə yetirir, ya da hansısa bir zərəri aradan qaldırır.

**<u>Bu hikmətlərin isə üç halı olur:</u>**

**Birinci hal:** Hökmdə olan hikmətin mənası anlaşılan olur, açıq-aşkar bir şəkildə bilinir: Məsələn, oğurluğun haram olması, insanların mallarını haqsız yerə ələ keçirməyin haram olması kimi, valideynlərə yaxşılığın vacib olması kimi, yemək və içməyin mübah (icazəli) olması kimi. Bu kimi hikmətlər açıq aşkardır, heç kəsə gizlin deyil.

**İkinci hal:** Hökmdə olan hikmət ibadətlə bağlı olur: O mənadakı hökmdəki hikmət ibadətlə bağlıdır, mənası anlaşılmır. Yəni, ağıl müstəqil olaraq o hökmdəki mənanın təfsilatlarını anlaya bilmir. Baxmayaraq ki, ümumi bir şəkildə o hökmün səmərəsini başa düşür. İnsanın ağlı namazların müəyyən bir sayda olmasının və ya müəyyən bir vaxtlarda olmasının hikmətini müstəqil bir şəkildə anlaya bilmir. Lakin anlayır ki, bu məsələ insanın dini üçün uyğun bir məsələdir və bu məsələdə şəriətə tabeçiliklə o savab qazanır. Zəkatın nisab miqdarının təyini, nədən nə qədər zəkat çıxarılır, mirasın bölünmə qaydaları, nigahın hökmləri, boşanma qaydaları və s. Əgər bu hökmlərdə müəyyən məsələlər dəqiq təyin olunmasaydı, o zaman tətbiqdə xaos baş verərdi.

**Üçüncü hal:** Hökmdə olan hikmətin mənası gizli olur; Bu isə belə baş verir, zahirdə olan bir hökm olur, amma hikməti barədə alimlər qəti bir söz deməyiblər, ola bilsin ki, bu hökmün çoxlu faydaları var, şəriətin çoxlu məsləhətləri var bu hökmdə, ola bilsin ki hikmətləri çox insana gizli

qalsın. Bu zaman – müsəlmana hökmün bəzi faydaları və ya hikmətləri gizli qalsa belə - müsəlman bu hökmə tam bir təslimiyyətlə tabe olmalıdır. Buna misal olaraq peyğəmbərin hər bir kəsici dişi olan yırtıcı heyvanın ətinin yeyilməsini və ya quşlardan pəncəsi olanların ətinin yeyilməsini qadağan etməsi daxildir.

Bəzən də elə hallar olur ki, elm onun hikmətini açıqlayır, məsələn əvvəllər peyğəmbərin ﷺ yeməyə və ya suya üfürməyi qadağan etməsi ilə bağlı hədisin hikmətini çox insan bilmirdi. Amma illərin elmi araşdırmalarına görə isbat edilib ki, insanın yeməyə və ya içməyə üfürməsi bakteriyaların qidaya ötürülməsi deməkdir.

## Dində dini mövzuların sorğulanması qadağandırmı?

**Cavab:** Dində bir çox məsələlər var ki, əslində soruşulması icazəlidir. Amma konkret olaraq soruşulması qadağan olunan məsələlər var ki, o mövzularda sual vermək icazəli deyil. Xüsusən də bəzi etiqadi və qeybi məsələlər var ki, o mövzuda elmimiz olmadığı üçün sual vermək doğru deyil; Bu mövzunu bir neçə aspektdən ələ ala bilərik:

**Birincisi: Elmsiz mühakimə yürütmək problemi;** Əlbəttə ki, dindən anlayışı olmayan kəslərin, ancaq bu mövzulara maddi nəzərlə yanaşan insanların bu məsələləri başa düşməsi çətindir. Çünki bu zaman sən özünü bir vadidə, o isə başqa bir vadidə hiss edəcək. Sən bir prizmadan yanaşacaqsan, o isə başqa düşmədiyi mövzuya başqa bir pizmadan yanaşmış olacaq. Ümumiyyətlə qeybi məsələlərə rasional yanaşmaq mümkün deyil. Çünki sənin qeybi məsələlər haqqında kifayət qədər təsəvvürün yoxdursa, sənin o mövzularda mühakimə yürütməyin doğru deyil. Xüsusən də ortastatistik, ağlı yerində olan hər bir

insan bilir ki, hər kəs öz ixtisasından danışmalıdır. Hər kəs öz bildiyi məsələləri müzakirə etməlidir. Bəzən edilən irad, mühakimə məntiqi görünə bilir, amma yerində olmur. Bu da məlum bir məsələdir. Ona görə deyilib ki, kim öz ixtisası olmayan bir mövzudan danışarsa, səhvlərə yol verər. Səhvə deyil, səhvlərə yol verər. Maşın sürmək üçün yol hərəkəti qaydalarını öyrənirsən, yoxsa necə gəldi sürsən, qəza törədəcəksən. Hansısa elmi yaxşı bilmək istəyirsənsə, onu mütəxəssislərindən öyrənməlisən. Təsəvvür edin, adi bir iş yerinə gedib işləmək istəyirsən, səndən CV-lər istəyirlər, təcrübə istəyirlər. Nə üçün hər kəsi qəbul etmirlər? Cavab sadədir, o sahədə bacarıqlı, bilikli mütəxəssis istəyirlər, amma dinə gələndə, nədənsə hər kəs danışır. Ona görə də biz deyirik ki, dindən savadsız danışanların özlərini sorğulamaq lazımdır ki, sən hansı əsasla bilmədiyin mövzulardan danışırsan? Uca Allah buyurur" :Haqqında elmin olmadığı bir şeyin dalınca getmə!" (İsra.36).

**İkincisi: Sualların növləri var;** Elə suallar var ki, yersiz sualdır. Hətta dünyəvi məsələlərdə belə uyğun olmayan yersiz suallar var. Məsələn, inşaat

mühəndisinə desən ki, sən prezident olsan dünyada müharibələri necə dayandırardın? Bu sual əslində siyasətdən başı çıxmayan biri üçün çox ağır sualdır, hətta yersiz sualdır. Yaxud da kimsə şimaldakı bir məktəb direktoruna desə ki, cənubdakı uşaqlar sizin ucbatınızdan dərs oxuya bilmirlər, elə deyil? O bu suala cavab verməyə də bilər. İstəsə gülüb keçər. Çünki o bilir ki ona böhtan atılır və o şimalda olduğu halda cənubdan məsul deyil.

Həmçinin, kimsə desə ki, cənnətdə afrikalılar suyu nədə içəcəklər? Deyəcəyik ki bu sual yersiz sualdır. Yaxud da kimsə desə ki, cənnətdə qızıl oyuncaqlar olacaqmı? Deyəcəyik ki, mümkün ola bilər, amma sual faydasız sualdır. Yaxud kimsə desə ki, cənnət mars planetində olacaq? Deyəcəyik ki Allah bilir harada olacaq, bu suala cavab verə bilmərik. Yaxud kimsə desə ki, özünü zinadan qoruyanlar cənnətdə qızıldan yoxsa gümüşdən olan taxtlarda oturacaqlar? Deyəcəyik ki, bu sual da mənasız sualdır. Bunun kimi misalları çoxalda bilərik.

Deməli, yersiz suallar həm dində, həm də dünyəvi məsələlərdə mövcuddur. Bu həqiqət anlaşıldısa, deməli, qeybi məsələlərdə və bəzi etiqadi mövzularda da yersiz suallar ola bilər. Yersiz suala isə bəzən gülüb keçir, çox vaxt isə cavab verməmək normal bir hal hesab olunur. Bəs necə ola bilər ki, yersiz bir dini suala cavab verməmək qəribə qarşılansın?! Görünür ki, məsələ əqli olmaqdan daha çox emosional yanaşma ilə üzbəüzdür.

**Üçüncüsü:** Dini hökmlərin hikməti haqda sual vermək olar; Öncə də qeyd etdiyimiz kimi bir insanın dindəki hökmlərin hikmətini soruşmasında bir problem yoxdur. Əksinə, bunun bəzi faydaları var. Amma qeybi məsələlər haqqında verilən sualları əlalxüsus da dinsizlər verirsə, onlar bu məsələlərə dini elm aspektindən deyil, maddi elm aspektindən yanaşırlar. Bu zaman isə həmin suallardan fayda deyil, zərər hasil olur. Çünki nə o verilmiş suallar doğru deyil, nə də o suallar düzgün məqsədlə verilməmişdir.

Amma dini hökmlərin hikmətləri ilə bağlı

verilən sualların faydaları olur. Məsələn; dini başa düşməkdə ona kömək olur, imanı artır, qəlbindəki yəqinliyi güclənir, əhkamları başa düşüb bu hökmlər barədə şübhələri dəf etməkdə köməkçi olur. Peyğəmbər (ﷺ) də səhabələrinə hökmlərin hikmətlərini bəyan edirdi, onlar özləri də peyğəmbərdən bu barədə soruşurdular və o da onlara bu hikmətləri öyrədirdi.

**Dördüncüsü:** Şər probleminə dini yanaşmanı öyrənmək; Əgər bir insan dində "şərr problemi" ilə bağlı məsələni anlayarsa, o kimsə artıq din haqqında verilən sual və şübhələrin yarıdan çoxunun cavabını elə öz beynində tapmış olacaqdır. Mən bunu çox böyük əminliklə deyirəm! Bu da çox mühüm bir məsələdir. Bizim də bu haqda "Ateizmdə şər probleminə münasibət" adlı məqaləmiz var. Tövsiyə edərdim ki, həmin yazını internet üzərindən endirib oxusunlar! Bu sualların yaranmasında ən böyük amillərdən biri "Şər problemi"ni başa düşməməkdir. Görüntülü istəsələr, Youtube üzərindən "Ateizmdə Şər problemi" adlı videomuza da baxa bilərlər.

**Beşincisi:** Allahın feli haqqında sual icazəli deyil; Dində sorğulamağın mütləq şəkildə qadağan olduğunu irəli sürənlər Qurani-Kərimdəki bu ayəni misal çəkirlər لا يُسْأَلُ عمَّا يَفْعَلُ وهم يُسْأَلُون : Yəni: "Allah gördüyü işlər barəsindəsə soruşulmaz; onlar isə soruşulacaqlar". (Ənbiya. 23). Allahın feli haqqında sual iki aspektdən icazəli deyil:

**a)** Yaradanın ucalığına və əzəmətinə, mülkünün qüdrətinin genişliyinə və məxluqatı üzərində böyük bir haqqının olmasına görə bu cür sualların verilməsi icazəli deyil.

**b)** Yaradanın hikmətinin, elminin və ədalətinin kamilliyinə görə; Bu da onu gərəkli edir ki, bunu bilək, onun bütün felləri kamillik üzərindədir. Ona görə də nə sınamaq üçün, nə də şəkk olaraq sual verilməli deyil. Burada biz deyəndə ki, onun feli barədə sual verilməz, bunu onun gücü-qüdrəti və bizi nəyəsə məcbur etməsi kimi yox, bunu onun hikmətinin, rəhmətinin və ədalətinin kamilliyi baxımından başa düşməliyik(1). Yəni sanki sual verilir ki, sən özünü Allahdan daha hikmətli, daha

ədalətli və daha mərhəmətlimi hesab edirsən? Bəlkə sən Allahın fellərini düzgün başa düşmürsən? Allahın felləri barədə sual vermək olmaz dedikdə, bu o demək deyil ki, burada bir hikmət yoxdur və ya qüsurlu bir hikmət var və ya Allahın fellərinin bir səbəbi yoxdur. Əksinə bu o deməkdir ki o hər şeyin sahibidir və onun hökmü rədd olunmaz. Rəbbi qarşısında zəif bir qulun belə bir üslubda Rəbbinin felləri barədə sual verməsindən daha ucadır onun rəbbi, bu sual bu aspektdən yerində deyil. Halbuki bu fellərin hikməti ortadadır, izləri görünür və ağıl bu hikmətlərin bir çoxunu anlayır. Əksinə, Allah Özü qullarını sorğulayacaq, imtahana tabe edəcəkdir. Çünki o hər şeyin yaradanıdır. Allahın bütün fellərinin bir hikməti, səbəbi var, lakin qullar bunun hamısını anlaya bilmir. İnsan ağlı məhdud olduğu üçün bütün hikmətləri anlamır, anlamırsa, hikmətləri inkar etməli deyil. Sonra bir ağıllı bir insan etiraf edir ki, onun öz elmi Allahın elmini əhatə edə bilmir. Bəs necə ola bilər ki, o Allahın bütün fellərinin hikmətini bilmək istəyir? Ona görə də mələklərə uca Allahın Adəmi nə üçün yaratmasının hikməti gizli qalmışdı və onlar belə

demişdilər: **"Biz səni həmdü-səna ilə təriflədiyimiz və səni müqəddəs tutduğumuz halda, Sən Orada fəsad törədib qan tökəcək kəsmi bərqərar edəcəksən?" Allah isə onlara demişdi ki: "Şübhəsiz ki Mən sizin bilmədiklərinizi bilirəm".** (Bəqərə. 30). Beləcə, uca Allah onlara bu məsələdə bilmədikləri əzəmətli hikmətlərin olduğuna işarə etmişdir. Deməli, Bu məsələni başa düşmək bizə belə məsələlərdə çox böyük bir təməli öyrətmiş olur. Hansı ki bu təməl vasitəsilə biz bir çox şübhələrdən qorunmuş ola bilərik .

## İstifadə edilmiş ədəbiyyat:

1 - əl-Avasim əl-Məqulət-Əddaminət minəl İnhirafət əl-Fikriyyə əl-Muasırah. Dr. Fəhd əl-Aclən. səh. 112.

## Dinin yenilənməsi mümkündürmü?

**Cavab:** Dində yenilənmə التَّجْدِيدُ dedikdə çox zaman yanlış mənalar başa düşülür. Lakin bu yenilənmənin bəzi halları var:(1)

**Birinci qism:** o yenilənmə ki, dini öz saf əslinə qaytarmaq və nöqsanlardan təmizləməklə və ondan bütün növləri ilə bərabər əlavə edilmiş bidətləri təmizləməklə və dini Allahdan gəldiyi kimi izhar etməklə baş verir. Ərəb dilində də التجديد sözünün mənalarından biri budur"تكرار الشيء إعادته كما كان" : *Yəni, bir şeyi olduğu kimi təkrar etmək və geriyə qaytarmaq"*. (İbn Mənzurun "Lisanul-Arab" əsəri).

**"Təcdid"** (yenilənmə) termini bu mənada dini öz əsl mənbəsinə qaytarmaqla və dini öyrənilmədən öncə olan ilk halına qaytarmaqla baş verir. Bu da dini Quran və Sünnəyə görə öyrənməkdir. Bunlara الثوابت الدينية(Dinin dəyişilməz sütunları) deyilir. Bu mənada dini öz sabit təməllərinə qaytarmaqla bu mövzuya yanaşmaq bir növ çoxsaylı dəyişikliklər, təhriflər

meyilləri ilə təqdim olunan İslamı əslində zahirində əmələ gəlmiş səhv görünüşdən qurtarıb yeniləmək mənasını verir. Çünki həqiqi siması dəyişilməyə çalışılan çoxsaylı cəhdlərin içində dini öz kökünə, təməlinə qaytarmaq bu məqamda dini yeniləmək statusunu almış olur.

**İkinci qism:** İctihadi məsələlər vasitəsilə dinin yenilənməsidir; bu ictihad da vəhyə söykənir və dini terminlərdən "istidlal" və "istinbat" əsasında olur. "İstidlal" dəlilgətirməyə deyilir. "İstinbat" isə elm əhlinin dəlillərə baxıb mənalar çıxarmasıdır. Bu da dinin yenilənməsinin yollarından biridir. Çünki, İslam alimləri bu metodla zaman və məkanla əlaqədar olaraq yeni çıxan məsələlərə dinin sağlam, mötəbər mənbələrinə əsaslanaraq mövqe ortaya qoyurlar. Bu da İslam alimlərinin yekdilliklə qəbul etdiyi, dinin sağlam bir şəkildə, təhrif edilmədən yenilənməsi prossesidir!

**Üçüncü qism** isə, həyata aid məsələlərdə olan yeniliklərdir; buna dünyəvi məsələlər də deyə bilərik. İslam əhli etiqad edir ki, istehsal olunan şeylər, dərmanlar, qidalar sələflə bağlı bir şey

deyil. Əksinə, bu məsələlər hər bir zaman əhlinin öz halına uyğun şeylərlə olur. Elə isə ilk zamanlarda insanların müalicə olunduğu şeylər bu zamanda yaşayan insanlara vacib deyil. Bu mövzuda sələf xələfdən üstün deyil. Deyilmir ki, sələf bu işdə xələfdən üstün olub. Əksinə, bu məsələrdə nəyinsə nədənsə daha üstün olması, seçimimizin olması halı mövcuddur. Bu kimi məsələlərdə təcrübə və etibarlı zənlər, sağlam ağılların üstün gördüyü mötəbər zənlər və ortaya çıxan gözəl faydalar əsas götürülür. Hansısa konkret geyimi geyinməkdə, yaxud miniyə minməkdə, yaxud dərmanı içməkdə məcburiyyət yoxdur, yaxud deyilə bilməz ki, bundan yaxşı geyim, minik, dərman və s. yoxdur. Əksinə, bu mövzu geniş bir mövzudur. Bu cür mövzular yeniliyə və yenilənmə üçün açıqdır. Qiyamətə kimi də bu qapı yenilik üçün açıqdır. Ona görə də Allah elçisi Muhəmməd ﷺ buyurmuşdur:

"ما أنزل الله داءً إلا أنزل له دواءً، علمه من علمه، وجهله من جهله".

**"Allahın göndərdiyi elə bir xəstəlik yoxdur ki, onun şəfasını da göndərməsin. (Onun şəfasını) bilən bilər, bilməyən isə bilməz".** (2).

Yuxarıda qeyd olunan aspektlərlə dinin yenilənməsi mümkündür. Ancaq dinin əslinə zidd olan fikirlər, xurafatlar, mövhumatlar, başqa dinlərdən götürülmüş sapıq düşüncələr, yaxud dinə siyasi müdaxilələr vasitəsilə edilmiş "yenilik" adı altında dinə daxil edilmiş fikirlər dində sağlam yenilənmə ola bilməz və İslam uləması tərəfindən ittifaqla rədd edilir. Peyğəmbərimiz ﷺ öz mübarək dili ilə bu cür "bidət" adı verdiyi dində edilən yenilikləri rədd edərək buyurmuşdur: **"Hər bir bidət zəlalətdir, hər bir zəlalət də atəşdədir".** (3). Burada "hər bir bidət" deyildikdə, dini əsası olmayan, sağlam, mötəbər dini qaynaqlara zidd olan bidətlər nəzərdə tutulur. Başqa bir kəlamında isə İslam Peyğəmbəri (صلى الله عليه وسلم) belə buyurmuşdur: **"Kim bizim dinimizin üzərində olmadığı bir yeniliyi gətirərsə o, ondan rədd olunar".** (4). Göründüyü kimi, bu cür yeniliklər İslamın təməl prinsiplərinə ziddir deyə və dini təhrif etdiyi üçün, onu öz saf, pak köklərindən ayırdığı üçün qəbul edilmir!

## İstifadə edilmiş ədəbiyyat

1 – Məzallə fi Mu`tərakil-Avasif – Keyfə nətəaməlu mə movcətiş-Şubuhət əl-Muasırah? Ammar Əazam və İbrahim Siddiq. Səh. 370.
2 – Əhməd. 3922; İbn Hibban səhih demişdir. 6062.
3 - Səhihu Müslim. 867.
4 - Səhih əl-Buxari. 2697; Səhihu Müslim. 1718.

## Kim daha çox Nobel mükafatı alıb, yəhudilər, yoxsa müsəlmanlar!?

**Şübhə belədir:** Yəhudilər indiyə kimi 114 Nobel mükafatı alıblar. Amma müsəlmanlar cəmi iki-üç Nobel mükafatı alıblar. Bu amil müsəlmanların elmdə nə qədər geri qaldığını göstərmirmi?

**Cavab:** bu şübhəyə cavabımız iki aspektdən

ibarət olacaqdır:

**Birincisi:** Nobel mükafatının təsis edilmə hədəfi və eyibləri, haqqında edilən tənqidlər .

**İkincisi:** Müsəlmanların elmdəki həqiqi yerinin bəyanı və yanlış müqayisə.

**Birinci aspektə gəldikdə:** Müsəlmanlardan Nobel mükafatı almış iki-üç nəfər yox, on iki nəfər var. Təbii ki bu rəqəm mükafatı təsis edənlərin üstünlük verdikləri milliyyətlərlə müqayisə edildikdə az bir rəqəm ola bilər. Amma, sualda qeyd edildiyi kimi iki-üç sayda deyil və bu rəqəmdən yaxşıdır .

"Nobel" mükafatının təsis edilməsinin səbəbi də qəribə bir faktla bağlıdır. Mənbələrdə qeyd olunur ki, Alfred Nobel özü haqqında qəzetlərdən birində "Ölüm taciri vəfat etdi. Dünən gecə Alfred Nobel vəfat etmişdir. O, qısa müddət ərzində çoxlu insanları qətl etməyi təmin edən kəşfinə görə çox böyük var-dövlət qazanmışdı" başlıqlı bir yazını oxuyur. Hansı ki, bu yazı onunla vəfat etmiş qardaşını səhv salanlar tərəfindən yazılmışdı və

(dinamiti kəşf edən şəxs olması və 90 silah zavodunun sahibi olmasından dolayı) gələcək nəsillərin onu bəşəriyyətə ölüm gətirən pis bir şəxsiyyət olaraq xatırlamaması üçün qərara gəlir ki, var-dövlətinin böyük bir qismini bəşəriyyətə faydalı olacaq bir mükafatı təsis etməyə həsr etsin (1).

Sonra isə qeyd edək ki, Nobel mükafatı Kimya, Fizika, Tibb, Ədəbiyyat və Beynəlxalq Sülh kimi sahələri əhatə edir. Mükafatın əhatə etdiyi sahələr belə beynəlxalq ictimaiyyət tərəfindən tənqidə məruz qalmışdır. Məsələn, riyaziyyat kimi ciddi bir elmi sahə bu mükafatda nəzərə alınmamışdır. Çünki mükafatı vəsiyyət edən Alfred Nobel riyaziyyat elmini ciddi praktiki (təcrübi) elmlərdən hesab etmirdi (2). Elmin digər bir çox sahələri də bu mükafatda nəzərə alınmamışdır. Onilliklər sonra iqtisadiyyat elmi üzrə də (1969-cu ildə) Nobel mükafatı təsis edilmişdir. Mükafatın tənqid edildiyi məsələlərdən biri də onun siyasi çalarlar daşıması, siyasi məqsədlər üçün istifadə edilməsidir. Sülh mükafatı alan rəsmilər arasında əli ya öz xalqının, ya da başqa xalqların qanına

batmış şəxslər də var. Azərbaycan xalqına qarşı qanlı yanvar qətliamını törətmiş Mixail Qorbaçov (1931-2022) da Nobel mükafatçısıdır. Misirin keçmiş prezidentlərindən olan Ənvər Sədət (1918-1981) də bu mükafata layiq görülmüşdür. O, İsraillə münasibətləri normallaşdırdığı, sülh əldə etdiyi, həqiqətdə isə ərəblərin və müsəlmanların bəzi mühüm maraqlarından əl çəkdiyi üçün bu mükafata layiq görülmüşdü. İsrailin keçmiş prezidentlərindən olan, əlləri Fələstin xalqının qanına bulaşmış Şimon Peres (1923-2016) də "Nobel Sülh" mükafatına layiq görülmüş şəxslərdəndir. Bunda da təəccüblü bir şey yoxdur. Nobel Sülh mükafatı almış şəxslərdən biri də dünyada neçə-neçə müharibələrdə, iğtişaş və fitnələrdə əli olan keçmiş ABŞ prezidenti Barak Obamadır (3). Nobel sülh mükafatı verilmiş şəxslərdən biri də böyük xristian təbliğatçısı Tereza Anadır (1910-1997) . O, Hindistan və başqa yerlər bütün ömrünü müsəlmanların xristianlaşdırılması prossesinə həsr etmiş və "insani çalışmalar" adı altında öz təbliğat fəaliyyətini davam etdirmişdir(4).

Çox uzağa getməyək, elə türk yazıçısı Orhan Pamukun 2006-cı ildə Nobel mükafatına layiq görülməsini onun səsləndirdiyi siyasi fikirlərlə bağlı olduğunu düşünənlər kifayət qədərdir(5).

Mükafatın ilk təsis olunduğu zamandan bəri böyük ədiblərə bu mükafatın verilməməsi bu mükafatın mütləq bir meyar olmadığını göstərir. Müsəlman ərəb dünyasında isə çoxsaylı böyük ədiblər olmasına baxmayaraq, Qərbin maraqlarına və planlarına xidmət edən, qərbçilik ideologiyasını Şərqdə yayan Nəcib Məhfuz (1911-2006) kimi yazılarında Qərb mədəniyyətini ağız dolusu öyən, əxlaqi dəyərləri heçə sayan, gənclərin tərbiyəsini pozan yazıları əxlaqsız filmlər üçün arxivə çevrilən bir adamın Ədəbiyyat üzrə Nobel mükafatı alması sizcə təsadüfi bir haldırmı? (6) Halbuki, müsəlman dünyasında daha həyalı, tərbiyəli, dəyərlərinə sadiq olan böyük yazıçılar olmuşdur. Onlara isə bu mükafat verilməmişdir. Bu aspektdən deyə bilərik ki, yer üzündə fəsadın yayılmasına xidmət edənlər tərəfindən (nisbi də olsa) çoxlu sayda Nobel mükafatının əldə edilməsi heç də qəribə bir hal deyil! Nobel mükafatının bir

evdən bir neçə nəfərə verilməsi halı olduğu kimi, eyni şəxsə iki dəfə verilməsi kimi hallar da baş vermişdir. Nobel mükafatı nə həqiqət etalonu deyil, nə də həqiqət meyarı deyil!

Məşhur rus yazıçısı Lev Tolstoy (1828-1910) "Nobel" mükafatından imtina etmiş şəxslərdəndir.

Onu da qeyd edək ki, bu mükafat Qərbdə yarandığı və təsis edildiyi üçün ilkin dövrlərdə Qərbdə məşhur olmuşdur. Bundan dolayı da Qərbdə olan elmi dairələrlə əlaqəsi olanların bu mükafata daha çox əli çatmışdır. Elmi olsa belə Qərbin elmi dairələrilə bağlılığı olmayan şərqlilərin bu mükafatdan məhrum olma halları da az olmamışdır. Bu mükafatdan imtina edənlərin də ayrıca siyahıları sosial şəbəkələrdə paylaşılmışdır! Bu mükafatdan imtina edənlər arasında bu mükafatı ciddiyə almayan Bernard Şou (1856-1950) da var. Mənbələrdə qeyd olunur ki, o bu mükafatın əsl həqiqətini bildiyi üçün o, Nobel mükafatını almaqdan imtina etmişdi. Amerika yazıçısı Bernard Şou yumşaq desək, “Nobel”ə nifrət edib. Hətta onun fikrincə, Nobel mükafatı

bəşəriyyət üçün elə həmin Nobelin kəşf etdiyi barıtdan da pisdir. Çünki o, insanların beynini, zehnini əsir alıb.

1925-ci ildə Nobel komitəsi Bernard Şounu "yaradıcılığında yer alan idealizm və humanizmə, poetik gözəlliklə çulğanmış parlaq satiraya görə" Nobel mükafatına layiq görsə də, o, mükafatdan birmənalı şəkildə imtina edib(7).

Nobel mükafatının verilməsində başqa bir ağlasığmaz tərəf də budur ki, mükafatın münsifləri ömürlük seçiliblər. Yəni yeni bir münsifin qəbul olması üçün üzvlərdən biri vəfat eləməlidir. Əks halda, heyət dəyişə bilməz. Burda xırda psixoloji nüanslar var. Məsələn, necə olur ki, bu beş nəfərin ədəbi zövqü, həyata baxışı bütün dövrlərə uyğunlaşa bilir? Bu uyğunsuzluq artıq illər öncə yaşandı. 2004-cü ildə Elfrida Yelinkenə Nobel verilməsi akademiyanın daxilində fikir ayrılıqlarına səbəb oldu. Akademik Knut Ahnlund xanım yazarın əsərlərini pornoqrafiya kimi qiymətləndirdi və mükafatın onun qazanmasını İsveç Akademiyasının nüfuzuna ciddi zərbə vuracağını dedi. Hətta öz etirazını qətiləşdirmək üçün üzvlükdən imtina etdi. Lakin İsveç

Akademiyasında istefa mexanizmi olmadığı üçün onun bu addımı qəbul olunmadı. Hazırda Knut Ahnlund akademiyanın üzvü olsa da, iclaslarda iştirak etmir.(8) .

Nobel mükafatının qərbli mütəfəkkirlər tərəfindən tənqid olunan cəhətlərindən biri də odur ki, bu mükafat soyuq müharibə dövründə Qərbin Sovet İttifaqına qarşı istifadə etdiyi mədəni təzyiq metodu və media vasitəsilə edilən təsirlərdən biri idi (9).

Laxlayan sütunlar üzərində qurulmuş Nobel mükafatının təməlinə növbəti zərbə 1974-cü ildə vuruldu. Siyasi proseslərin davam etdiyi və "Uotorgeyt əhvalatı" adlı hadisənin baş verdiyi ildə bir saxtakarlıq da ədəbiyyatda baş verdi. İsveç Akademiyasının üzvləri mükafatı kartof biznesinin gəliri kimi öz aralarında böldülər. 1974-cü ilin oktyabrında İsveç Akademiyası Nobel mükafatı laureatlarını açıqladı. Qərara görə, akademiya üzvləri Eyvind Yunson və Harri Martinson ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldülər. Bu rüsvayçılıq həm mükafatın, həm də tandem

yazıçıların imicinə Bakı neftinin qara ləkəsi kimi yaxıldı. Onların özlərinə mükafat verməsi bütün dünya mədəniyyətində şok effekti yaratdı. Hətta münsiflərin mükafatı öz adamlarına deyil, sıradan bir futbolçuya verməsi belə bu qədər təəccüb və biabırçılıq doğurmazdı. Bunun nəticəsi kimi Eyvind Yunsonun yaradıcılığı və şəxsiyyəti ilə bağlı xoşagəlməz söz-söhbətlər gəzməyə başladı. Ağır mənəvi sarsıntılar keçirən yazıçı 1976-cı ildə Karolinska İnstitutunda intihar etdi.

Bundan başqa ədəbi dünyada elə də ciddi çəkisi olmayan İsveç ədəbiyyatının altı nümayəndəsinin bu mükafata layiq görülməsi Nobelin, onsuz da sarsılmış ciddiyyətini zədələdi. Mükafat lap əzəldən qohum-qardaşlıq prinsipləri əsasında verilirdi. Təsis olunduqdan sonrakı on il ərzində mükafatın ədəbiyyata elə də aidiyyəti olmayan alman müəlliflərə - tarixçi Teodor Mommzenə, filosof Rudolf Eykenə, yazıçı Paul Hayzenə və dramaturq Gerhard Hauptmana verilməsi heç də təsadüfü hal deyil. İsveç Akademiyasının katibi Karl Virsenin almansevər olmasının bu nəticə ilə bağlığı danılmazdır(10).

Bütün burada qeyd edilənlər bir daha bu mükafatın siyasi, mədəni və irqi ayrı-seçkiliklərə yol verdiyinin aşkar nümunəsidir. Belə bir vəziyyətdə yəhudinin, yoxsa müsəlmanın daha çox bu mükafatı əldə etməsinin elə də bir əhəmiyyəti qalmır.

İslam dünyasında "Nobel" mükafatını çoxsaylı elmi fakt və sübutlarla tənqid edən ən irihəcmli araşdırmalardan biri jurnalist yazar Məhəmməd Əbdüssəlamın "İrqçilikdən bir hissə (شيء من العنصورية) " adlı araşdırmasıdır. Araşdırmanın kitab formasını dükanlarda tapa bilmədim. Yəqin ki, kitab yarmarkalarında əldə etmək mümkün olar.

**İkincisi: Müsəlmanların elmdəki həqiqi yerinin bəyanı və yanlış müqayisə.**

Bu məsələyə bir neçə nahiyədən yanaşmaq mümkündür:

**1 -** Nobel mükafatı təxminən 20-ci əsrin

əvvəllərindən verilməyə başlayıb. Bu illər müsəlmanların dünyəvi elmə diqqətinin kəskin azaldığı vaxtlar hesab edilir. Hətta Osmanlı xilafətinin dağılması da bu ərəfələrdə dünyəvi-elmi-texniki yeniliklərə az əhəmiyyət verildiyi bir zaman kəsiminə təsadüf edirdi. Əbəs yerə deyildi ki bu yenilikləri izləməyən Osmanlı xilafəti Nobel mükafatının təsis edilməsindən təxminən 22 il sonra dağılır.

**2 -** Müsəlmanların qazandığı Nobel mükafatlarının çoxusu son onilliklərə aiddir. Deməli - bu mükafat bizim üçün mütləq bir meyar olmasa da - vəziyyət nisbətən yüksələn şkala üzrə gedir. Osmanlının dağılmasından öncə və sonra müsəlman dünyasında baş verən sarsıntı bütün sahələrə təsir etdiyi kimi elm sahəsinə də təsirsiz ötüşməmişdi. Nəzərə alsaq ki, müsəlman ölkələri uzun illər boyu elm sahələri də daxil olmaqla böyük ölkələrin təzyiqi və təsiri altında yaşamalı olmuş və bir çox məhdudiyyətlərlə üzləşməli olmuşdular. Biz ayrıca bir məqalədə ola bilsin ki, son onilliklərdə dünyəvi elmdə böyük uğurlar əldə etmiş müsəlman alimlərin gizli və planlı şəkildə

qətlə yetirilməsi haqqında məqalə hazırladıq. Çünki əlimizdə olan çoxsaylı faktlara əsasən bir çox müsəlman dünyəvi alimləri gizli və məxfi şəkildə qətlə yetrilmişlər. Görəsən, bu amil ortaya bu cür statistikaların çıxarılması məsələsində bir rol oynayırmı? Bu sual çox mühüm bir sualdır. Yazacağımız məqalədə həmin faktları mənbələri ilə birgə qeyd edəcəyik.

**3 -** Yəhudilərin dünyəvi elmdə öndə olmaq üçün xüsusi bir maraq və hədəfləri var. Bu maraqlar onların zəiflikdən qurtulmaq, dünyada hegemonluq etmək şövqündən qidalanan xüsusi bir maraqdır. Azsaylı xalq olmaları onların özlərini təhlükədə hiss etmələri, üstəlik də irsi qorunma refleksi olaraq onlarda dünyəvi elmə şiddətli maraq yaratmışdır. Müsəlmanlar da aşağıda bəhs edəcəyimiz kimi uzun əsrlər boyu dünyəvi elmə böyük töhfələr vermişlər. Bu amil isə nədənsə unudulur.

**4 -** Dünyəvi elmdə öndə olmaq və ya geridə olmaq, Allah qatında öndə olmaq və ya geridə olmaq, cənnəti və ya cəhənnəmi qazanmaq

anlamında deyil. Ən əsası isə, dünyəvi elmdə öndə və ya geridə olmaq, sahibinin dininin haqq və ya batil olması anlamına gəlmir. Din elmi inkişafa bir maneə deyil. Nə də bu arqument dinsizlərin xeyrinə olan bir arqument də deyil. Çünki yəhudilərin özləri belə Allaha, Yaradana inanırlar. Hətta yəhudilər öz dinlərinə çox bağlı və mühafizəkardırlar. O zaman sual verilə bilər ki, bəs yəhudilərin dünyəvi elmə çox önəm vermələri onların dininin haqq olması anlamındadır? Cavab olaraq deyirik ki, xeyir. Dünyəvi elmə önəm vermək haqqın meyarı deyil. Bu gün dünyanın bir çox xalqları dünyəvi elmə önəm verirlər. Ateist Koreya kimi, dindar yəhudilər də elmə önəm verir.

Bütpərəst hindistanlılar arasından da elmə önəm verən və hətta Nobel mükafatı alanlar var. Deməli, elmə önəm vermək və ya hansısa mükafatı almaq haqqın, həqiqətin meyarı deyil.

**5 -** Allah Rəsulunun ﷺ zamanında belə yəhudilər elmə önəm verirdilər. Buna baxmayaraq, onlar əsrlər boyu yer üzündə sərgərdan vəziyyətdə

qaldılar. Qurani-Kərim (Casiyə surəsinin 23-cü ayəsində) bizə elmli olduğu halda haqq yoldan sapan bir şəxs və ya qövm haqqında xəbər verir. Bu vəsf təfsirlərdə yəhudilərdən olan bir alimə də nisbət edilmişdir. Təfsir kitablarında həmin alim və qövm haqqında ətraflı bilgi verilmişdir. Bu ayədən məlum olur ki, dünyəvi elm həqiqətin, haqqın meyarı deyil. Dünyəvi elm insanda təkəbbür yaradan xislətlərdən birinə də çevrilə bilir. Bu gün elmi ilə öyünən bu qövm yer üzündə fəsad törətməkdə həddini aşmışdır. Bir vaxtlar nasist almaniyası, Sovet imperiyası da elmin batil qüruruna və təkəbbürünə bürünmüşdülər. Öz xalqını qırmaqla tarixə düşən Çin lideri Mao Tsi və Kamboca lideri Pol Pott və başqaları da elmin qüruruna, təkəbbürlüyünə qapılmışdılar.

**6 -** Müsəlmanlar XV-XVI əsrlərə kimi dünyəvi elmlərdə qərbdən öndə olublar. Əgər hesablasaq, ən azından səkkiz əsrlik bir zaman kəsimində müsəlmanlar dünyada öz elmləri ilə böyük bir güc sahibinə çevrilmiş, onlar tərəfindən hər dünyəvi sahədə kəşflər və ixtiralar bir-birinin ardınca gəlmiş, müsəlmanlar bir çox dünyəvi elmlərin

təməlini qoymuşdular. Eyni vaxtda bu zaman kəsimində müsəlman alimlər bir çox elmlərin inkişafında müstəsna xidmətlər göstərmişdilər. Onda belə çıxır ki, əgər həmin səkkiz əsrdə elmə xüsusi xidmətə görə hansısa mükafat olsaydı, müsəlmanlar bütün dinlərdən - dinsizlikdən isə söhbət gedə bilməzdi - daha çox elmə görə mükafat əldə edəcəkdilər. Bu bəsit izah bizim üçün bu sualın düyünlərini çözür və bir daha bizlərə öyrədir ki, inkişaf din və ya dinsizliklə deyil, inkişaf məhz elmə verilən dəyəri aşılayan ideologiya ilə bağlıdır. İndi son bir əsrdə müsəlmanların dünyada təklənməsi və zəifləməsi nəticəsində elmdə zəiflədiyi bir əsri meyar olaraq götürək? Yoxsa azı səkkiz əsr dinə daha çox əməl etdikləri zaman səkkiz əsr boyunca dünyəvi elmdə irəlidə olduqları zamanlarımı meyar olaraq götürək? Bu müqayisəli sual çox mühüm və yerindədir. Diqqətlə bu sual barədə düşünməyimiz lazımdır. Bu haqda düşünsək bizə aydın olar ki, din elmə mane deyil. Əgər mane olsaydı, müsəlmanlar dinə əməl etdikləri ən yaxşı çağlarda dünəvi elmlərdə də öndə olmazdılar !

## **Qeydlər və istinadlar**:

1 - Ərəbcə məqalə .جائزة.نوبل... وصية مخترع الديناميت :(Nobel mükafatı - Dinamiti ixtira edənin vəsiyyəti). Aljazeera.net saytı .

2 - Telegraf.az saytında yayımlanan "Niyə riyaziyyata Nobel verilmir?" Konsul və ekspertin mübahisəsi - adlı məqalə .

3 - Obamanın böyük siyasi xətaları haqqında bu yazıdan daha ətraflı oxumaq mümkündür :
https://qafqazinfo.az/news/detail/obamanin-qan-udduran-siyaseti-106145
Qafqazinfo.az saytında yayımlanan "Obamanın qan udduran siyasəti" başlıqlı yazı.

4 - Nobel Mükafatı - gizlini və aşkarı) ərəbcə məqalə .(جائزة نوبل... الظاهر والخفي :

5 - news.milli.az saytında yayımlanmış məqalə. "Ən məşhur mükafatın rüsvayçılıqları". Keçid:
https://news.milli.az/interest/267260.html

6 - Nobel Mükafatı - gizlini və aşkarı) ərəbcə məqalə .(جائزة نوبل... الظاهر والخفي) :

7 - Moderator.az saytında yayımlanan "Nobel mükafatından imtina edən məşhur yazıçılar" adlı məqalə:
https://modern.az/nobel-mukafatindan-imtina-eden-meshur-yazicilar-maraqli/81850

8 - news.milli.az saytında yayımlanmış məqalə. "Ən məşhur mükafatın rüsvayçılıqları". Keçid: https://news.milli.az/interest/267260.html

9 - bax شيء من العنصورية :məqaləsi. "İrqçilikdən bir hissə" adlı məqalə, Muhəmməd Abdus-Sələm adlı yazarın kitabından müxtəsər bilgi. Masrawy.com saytı.
أول دراسة عربية عن جائزة نوبل في معرض الكتب 2016.
10" - Ən məşhur mükafatın rüsvayçılıqları" adlı məqalə. (ARAŞDIRMA). Bax: News.milli.az saytı.

## İnsan ən gözəl biçimdə yaranıbsa, niyə tələskən yaradılıb?

**Şübhə belədir:** İnsan ən gözəl biçimdə yaranıbsa, bəs niyə Qurani-Kərimdə onun tələskən olaraq yaradıldığı bildirilib? ət-Tin surəsinin 4-cü ayəsində "Biz insanı ən gözəl surətdə yaratdıq" deyilir. Başqa bir ayədə isə "İnsan tələskən yaradılmışdır" (Ənbiya. 37) deyilir. Bu iki ayəni necə cəm etmək olar və ya necə anlamaq lazımdır?

**Cavab:** Bu suala ümumi şəkildə cavab verib, sonra isə aşağıdakı iki aspektdən bir qədər təfsilatla cavab vermək mümkündür:

**1 –** İnsanın ən gözəl biçimdə yaranması dedikdə uca Allah nəyi qəsd etmişdir?

**2 –** Tələskənliyin mahiyyəti nədir və insanda onun yaradılması dinə qarşı bir arqument sayıla bilərmi?

**Ümumi cavab:** İlk öncə bilmək lazımdır ki, uca Allahın *"Biz insanı ən gözəl biçimdə yaratdıq" (ət-Tin. 4)* deyə buyurduğu ayədə insanın fizioloji yaradılışı qəsd edilir. Məlumdur ki, insan bədən və

ruhdan ibarət bir varlıqdır. Ayədə insanın fizioloji baxımdan digər məxluqatlardan daha yaxşı, daha üstün yaradılmasından söhbət gedir. Qeyd olunan ayədə insanın ayaq üstə gəzən, digər canlılara nisbətdə qaməti düz, daha çox ağıla sahib olması qəsd olunur. Bəzi canlılarda da nisbi ağıl var və ya onlar əhilləşdirilə bilirlər. Deməli insan digər məxluqlara, heyvanlara nisbətdə daha ağıllıdır və bu cəhətlərilə digər məxluqlardan üstündür. Məsələn; qarğa, tutuquşu, siçan, şimpanze, fil, balina və s. heyvanlarda müxtəlif ağıllı hərəkətlər müşahidə olunur. Lakin onların ağıllı hərəkətləri insandakı kimi onları kamilliyə doğru apara bilmir, bu ağıllı hərəkətlər nisbi ağıllı hərəkətlər hesab olunur. İnsandakı "tələskənlik" isə fizioloji olmaqdan daha çox insanın ruhu, mənəviyyatı ilə bağlı bir durumdur. Bu vəsf, bu tələskənlik xisləti (maddi bədən prizmasından) fizioloji anlama daxil deyil.

- **İnsanda nəfs var və bu nəfsin nöqsanlarından biri də onun tələskən olmasıdır;** Lakin insan tələskənliyini cilovlamaqla, onu idarə etməklə, hislərinə sahib

çıxmaq yoluyla tələskənliyini təmkinlə, səbirlə əvəz edir, zamanla öz tələskənliyinə qalib gəlməyi, tələsməməyi öyrənir. Deməli, insanda tələskənliyin olmasının faydalarından biri də tələsməyin onu hərəkət etməyə vadar etməsidir. Çünki tələsməyin əsli, təməli hərəkətlə bağlıdır. İnsanın hərəkətli olması fizioloji cəhətdən faydalıdır. Bununla yanaşı, insan tələsməyin zərərlərindən özünü qoruyub işlərini tənzimləyə bildiyi üçün tələsərək etdiyi xətalar da onun öz seçimi ilə olur. Bu mənada insanın nəfsində olan şeylərlə insanın sınanması onun imtahan olunmasıdır. Əgər insan bu kimi şeylərdən (qəzəb, şəhvət, tamah bəyənilməyən tələskənlik və s.) nəfsini təmizləyərsə, nicat tapar, yox əgər nəfsini təmizləməz və onu günaha salarsa ziyana düşər. Uca Allahın buyurduğu kimi: *"Nəfsini təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır". (Şəms. 9-10).*

• **Tələskənlik" həmişə pis mənada işlənmir;** Qarşıda buna misallar veriləcək. Həmçinin insana şəhvət də verilib, insan şəhvəti ilə ucala da bilir, alçala da bilir. Deməli bu, onun öz şəhvət hissini

cilovlamasından aslıdır. Odur ki, insan istər tələsməyinə görə, istər də şəhvətlərini idarə etməyə görə şəxsən özü məsuliyyət daşıyır. Tələsmək də cilovlanan, idarə olunan bir durumdur. Allahın insanda onu yaratması onu hər əməldə tələsməyə məcbur etməsi anlamında deyil. Bir misalla fikrimizi izah edək bilərik; İki uşaq imtahana hazırlaşarkən biri tələsərək başdan sovdu oxuyur, digəri isə tələsmədən yaxşı oxuyursa, nəticə etibarı ilə hər iki halda da insanın özü burada öz seçiminin məsuliyyətini daşımış olur.

**İndi isə keçək digər iki məsələnin şəri izahına:**

**1 – İnsanın ən gözəl biçimdə yaranması dedikdə uca Allah nəyi qəsd etmişdir?**

Bu haqda ən gözəl izahı iki təfsir kitabından sitatla ifadə etmək yerinə düşərdi;

Böyük təfsir alimi ibn Cərir ət-Təbəri (Allah ona rəhmət etsin) bu ayənin mənası barədə demişdir: "Ayədə and içilən də elə budur. Allah insanı ən yaxşı surətdə və ən yaxşı quruluşda yaratmışdır. (digər canlılarla müqayisədə) qaməti dikəldilmiş,

əzaları mötədil və daha yaxşıdır (1)".

Həmçinin imam Bəğavi (Allah ona rəhmət etsin) də bu mənanı öz təfsirində təsdiqləmişdir. O belə demişdir: "Biz insanı ən gözəl biçimdə yaratdıq", yəni: Qaməti daha düzdür və ən yaxşı şəkildədir. Bu ona görədir ki, hər bir heyvan üzü üstə yeriyən olaraq yaradılmışdır, yalnız insan qaməti düz şəkildə yaradılmışdır, öz qidasını əli ilə qəbul edir, ağıl və (yaxşını pisdən) fərqləndirmək qabiliyyəti ilə bəzədilmişdir (2)".

**2 – Tələskənliyin mahiyyəti nədir və insanda onun yaradılması dinə qarşı bir arqument sayıla bilərmi?**

Artıq qeyd olundu ki, tələskənlik insanda bir vəsf olaraq mövcuddur və bu vəsf yaradılışdan insanda var. Lakin insanın tələskən olmayıb təmkinli olması, öz hislərini cilovlaması onun öz əlindədir. O, dini izaha görə tələskən olmağa məcbur edilmir. İnsanın fizioloji yaradılışında tələskənlik ola bilər, necə ki insan bu vəsfdə yaranmışdır. Mühüm bir qeyd də budur ki, insan fizioloji baxımdan çox hərəkət etdikcə sağlam olur,

hərəkətlilik və dünyəvi məsələlərdə tələsmək normal bir hal kimi də qəbul edilə bilər. Təfsir kitablarında da birinci qeyd olunan ayənin mənası barədə məhz insanın dünyəvi məsələlərdə tələsməsi izahı verilmişdir. Məsələn, İbn Kəsir (Allah ona rəhmət etsin) də təfsirində bu mənaya işarə edir. Yəni insanın öz işlərində tələsməsini bildirir (3). Bura isə həm dini, həm də dünyəvi məsələlər daxildir. Dünyəvi işlərində insanın məsləhət-məşvərət etmədən, araşdırmadan, təmkinlə gözləmədən gördüyü işlər olduğu kimi, dini məsələlərdə də nəyi sorğulamaq olar, nəyi yox, nəyin hikmətini öyrənə bilər, nəyin yox?! Bu kimi məsələlərdə insan tələsir və hər məsələnin cavabını dərhal öyrənmək istəyir. Bu tələskənlikdəndir ki insan araşdırmada təmkinli ola bilmir, nəticə və qərara gəlməkdə tələsir, bununla da yanlışa yol verir. İnsanın öz seçimi ilə baş verən bu yanlışlar dinə qarşı arqument ola bilməz.

**Sonda** onu da qeyd edək ki, uca Allah Qurani-Kərimdə tələsmək haqqında olan ayələrdən birində belə buyurur: *"Doğrusu, insan tələsəndir"*. (əl-İsra. 11). Bu ayənin əvvəli (4) də ona dəlalət edir ki, tələsməyin fəsadı insanın özünə aiddir. Çünki din

insana səbirli olmağı əmr edir və Qurani-Kərimdə haqqında ən çox danışılan mövzulardan biri də elə səbirli olmaq, təmkinli olmaq haqqındadır. Bunun kimi dinimizdə tələsmək Quran ayələri və səhih hədislərdə məzəmmət olunmuşdur. Bəzi azsaylı durumlarda tələsmək isə xeyir hasil etdiyi üçün şəriətdə icazəli görülmüşdür. Bu durumlardan cənazəni dəfn etmək, tövbə etmək, borcu qaytarmaq, qonağa yemək vermək, subayları evləndirmək, başına müsibət gələnlərə yardım etməkdə və s. kimi əməllərdə tələsmək kimi dində bəyənilən işləri misal çəkmək olar.

## Qeydlər və istinadlar:

1 – Bax: İbn Cərir ət-Təbərinin "Təfsiri". Tin surəsi, 4-cü ayə.
2 – Bax: "Məalimut-Tənzil". Bəğavi. Tin surəsi, 4-cü ayənin təfsiri.
3 – Bax: "Təfsirul-Quranil-Azim". İbn Kəsir. Eyni ayənin təfsirinə.
4 – Ayənin əvvəli belədir: "İnsan özünə xeyir dilədiyi kimi, şər də diləyir. Doğrusu, insan tələsəndir". (əl-İsra. 11).

## Kasıbların və varlıların həcci.

**Şübhə belədir:** Sosial şəbəkələrdə belə bir video paylaşılıb; kasıbların həcci ilə varlıların həccinin fərqli olmasını göstərməyə çalışırlar. Varlı bəzi ayinləri oteldə edir və ya həccin mühüm günləri daha çox kamfortda olur, amma kasıb günün altında və ayinləri daha çox çətinlik üzərində edir. Bununla da həccin mahiyyətinə kölgə salmağa çalışırlar. Belə videolara necə yanaşmalıyıq?

**Cavab belədir:** bu şübhəyə bir neçə aspektdən cavab verəcəyik:

1 - İbadətin növləri ilə tanışlıq. Həcc mal və bədən ilə olan ibadətdir.

2 - Həcc varlılara vacibdir.

3 - Ömründə bir dəfə vacib olan həcci edən kimsə başqa yollarla da həcc savabı qazana bilirmi?

4 - Həccə gələn kimsə ibadətini asanlaşdıran vasitələrdən istifadə edə bilərmi?

5 - Çətinliyin nisbətinə görə kimsə daha çox

savab qazanırmı?

**Birincisi**: İbadətin növləri ilə tanışlıq; Həcc mal və bədən ilə olan ibadətdir; ibadətin növləri fərqlidir:

**1 -** Bəzi ibadətlər yalnız bədənlədir, namaz, dua və zikr kimi.

**2 -** Bəzi ibadətlər mal-mülk ilə, pulilədir. Zəkat ibadəti kimi. Çünki varlı olanlar zəkat çıxarmalıdırlar. Kasıba zəkat vermək onsuz da vacib deyil.

**3 -** Bəzi ibadətlər isə həm bədənlə, həm də mal-mülk, pul ilədir; həcc və ümrə ibadəti kimi. Bədəni sağlam olub həcc etməyə maddi imkanı çatmayana həcc etmək vacib olmur.

**İkincisi:** Buradan belə anlaşılır ki, həcc varlılara vacibdir. Bəli, bu məsələni anlamayanlar məhz belə şübhələrə aldanırlar. Ümumiyyətlə, əgər həcc ibadəti kasıba vacib deyilsə, o zaman dinsizlər necə deyə bilərlər ki, kasıbların həcci və varlıların həcci? Hər bir müsəlman bilir ki, həcc ibadəti bir müsəlmana ömründə bir dəfə həcc etməyə gücü çatdığı zaman vacib olur. Bundan

sonra imkanı da olsa ona yenə həcc etmək vacib deyil.

Mühüm bir qeyd də odur ki, həccə getməyə gücü çatanlar arasında şəriətdə heç bir fərq yoxdur. Yaxud da "kasıbın həcci" və ya "varlının həcci" deyilən bir şey şəriətdə yoxdur. Bu fərqi bəzi asanlaşdırmalara (otel və bəzi azsaylı xidmətlər) baxaraq göstərməyə çalışanlar var. Əslində isə ilk öncə şəriətdə bu fərq yoxdursa, bu fərqi süni formada göstərməyə çalışmaq doğru deyil. Lakin bu məqamda Peyğəmbərimiz Muhəmmədin ﷺ bir hədisi yerinə düşür. Bir hədisdə də gəlib ki, kasıb səhabələr Peyğəmbərin ﷺ yanına gəlib ona belə deyirlər: "Varlılar öz mal-mülkü ilə, əllərindəki davamlı nemətlər sayəsində (savab qazanmaqda) ən yüksək dərəcələri qazanmaqda bizi ötüb keçdilər. Onlar bizim namaz qıldığımız kimi namaz qılır, oruc tutduğumuz kimi oruc tutur. Onların artıq pulu-parası var deyə bununla həcc edir, ümrə edir, cihad edir və sədəqə verirlər. Peyğəmbər ﷺ buyurur ki: "Sizə elə bir şey öyrədimmi ki ona əməl etsəniz, sizi ötənlərə çatasınız, onlar da bunun mislində sizin etdiyinizi

etmədikcə sizə çata bilməzlər və siz onların arasında ən xeyirli kəslər olarsınız. O zaman hər (fərz) namazın ardınca 33 dəfə subhənallah, 33 dəfə əlhəmdulilləh, 33 dəfə Allahu əkbər deyin" (1).

Bu hədisdən çıxan faydalardan biri də odur ki, ibadətin mahiyyətində Allahın razılığı, xalis niyyət və səmimiyyət durur. Komfortlu şərait kimi Allahın hüzurunda ucaltmır. Necə ki ibadətin bu gözəl mahiyyətinə az öncə qeyd olunan hədisdə işarə edildiyini görürük.

***İkinci cəhətdən isə***, ola bilər ki, həcc vaxtı bəzi komfort şəraitlərdən istifadə edənlərdən daha varlı olanları daha çətin bir şəraitdə həcc ayinini yerinə yetirsinlər. Bu zaman həcc ayinini yerinə yetirən minlərlə varlı insan kasıblarla birgə, heç bir fərq olmadan həccini edir, lakin onlardan daha kasıbları daha komfort şəraitdə həccini edir. Bunda da bir problem yoxdur. Çünki həccə Ömründə bir dəfə gələn insan bunun üçün pul tədarükü edir və öz komfortu üçün də əlavə pul xərcləmək istəyə bilər. Bu amil dünyanın hər yerində var. Məsələn, insan

ola bilər ki, Ərəfada və ya Minada səhhəti ilə əlaqədar saatlarla dayana bilmir və (ibadət üçün təyin olunmuş ərazini tərk etməmək şərtilə) yaxında yerləşən otellərdə birinə yollanır və orada öz ibadətini edir. Yaxud da oradakı komfort şəraitdən yüksək rütbəli qonaqlar da istifadə edə bilər.

Yəni, bununla demək istəyirik ki, - istər komfort şəraitə meyilli zənginlər olsun, istər də səhhəti imkan verməyən adamlar olsun - ibadət üçün təyin olunmuş ərazini tərk etmədən şəraitli, komfortlu bir yerdə olmaqda problem yoxdur. Amma bu komfort mövzusuna fokuslananlar unudurlar ki, həcc ayinində minlərlə, milyonlarla insan iştirak edir. Onsuz da böyük əksəriyyət üçün komfortlu bir şəraiti təmin etmək mümkün deyil.

Onu da əlavə edək ki, həccin keçmişindən, tarixindən xəbəri olmayanlar əvvəllər insanların qat-qat daha böyük çətinliklər içində həcc ibadətini etdiklərini, günlərlə piyada və ya minik üzərində yol gəldiklərini, istidən daha çox əziyyət çəkdiklərini, bu günkü kasıb kateqoriyasına

salınanların rahat şəraitdə etdiyi həcci heç keçmişdəki varlıların belə edə bilmədiyini unudurlar. Hər bir halda bu günkü bəsit fərqlərə fokuslanıb insanları həccin əzəmətli mahiyyətindən, həcc ayininin əsl ruhundan uzaq bir şəkildə göstərmək və ya təqdim etmək istəyənlər böyük bir yanlışa yol verirlər.

**Üçüncüsü:** Ömründə bir dəfə vacib olan həcci edən kimsə başqa yollarla da həcc savabı qazana bilirmi? Cavab odur ki, bəli! Ömründə həcc etmiş bir kimsə həccə getmədən də həcc etməyin savanını qazana bilir. Ənəs ibn Malik Peyğəmbərdən rəvayət edir ki, o belə buyurdu: "Hər kim fəcri camaatla qılarsa, sonra oturub günəş çıxana kimi Allahı zikr edərsə, (günəş çıxdıqdan) sonra iki rükət namaz qılarsa, o kimsə tam həcc və ümrə savabı qazanar" (2).

Bundan başqa əməllərin də həcc və ya ümrə savabı qazandırması hədislərdə varid olub. Bu əməllərdən gözəl şəkildə dəstəmaz alıb məsciddə camaatla namaz qılmaq, duha namazını qılmaq, Ramazan ayında ümrə etmək, valideynə yaxşılıq

etmək və s. əməlləri qeyd etmək olar.

**Dördüncüsü:** Həccə gedən kimsə ibadətini asanlaşdıran vasitələrdən istifadə edə bilərmi? Cavab budur ki, əlbəttə istifadə edə bilər. Ömründə bir dəfə vacib olan həcci edən kimsə orada komfort olaraq yaradılmış istənilən şəraitlərdən istifadə edə bilər. Bu şəxslərin öz seçiminə qayıdır. Ola bilsin ki, daha varlı kimsə komfortlu ərazilərdən və şəraitlərdən istifadə etməsin. Orta bir şəraitlə kifayətlənsin. Ola bilər ki, ondan daha kasıb kimsə həcc turuna ödədiyi məbləğə görə nisbi olaraq daha komfortlu bir şəraitdə olsun. Bu zaman zahirdə həmin kasıb kimsə varlıdan daha komfortlu ərazidə görünə bilər. Bu isə həqiqəti dəyişmir. Yaxud da varlı nisbi bir komfortlu ərazidə ola bilər. Bu da din əleyhinə arqument ola bilməz. Onsuz da orada hər kəsin məqsədi Allaha ibadətdir. Hər kəs müəyyən müddətdə orada qalmalı və ayinləri yerinə yetirməlidir.

**Beşincisi:** İbadətlərdə daha çox çətinlik çəkən kimsə daha çox savab qazanırmı?

Elm əhli buyururlar ki, nəfsə qəsdli şəkildə əziyyət verməklə deyil, insan hansısa ibadəti o ibadətin özündə olan çətinlikdən dolayı olduğu kimi yerinə yetirərsə, o insan buna görə daha çox savab qazanır. Odur ki, bəzi ibadətlər məşəqqətli olduğu üçün insana daha çox savab qazandırır. Həcc, oruc və s. ibadətlər də bu tipli çətin və savabı böyük olan ibadətlərdən sayılır. Dində olmayan şeylərdə isə insanın daha çox savab qazanması niyyəti ilə özünə əziyyət verməsi isə qadağandır. Məsələn, vacib (fərz) namazlar gündə beş dəfə qılınmalı olduğu halda insanın onu gündə on beş vaxtda daha çox savab qazanmaq üçün qılmaqla özünü məşəqqətə salması nəinki savabdır, əksinə dində arzuolunmaz yenilik olduğu üçün bidət əməldir, yəni nəticəsi günahdır. Amma həcc kimi bir ibadətin ayinləri şəriətə uyğun olduğu üçün onun məşəqqətinə dözən kimsə daha çox savab qazanır. Hətta hədisdə varid olub ki, **"Hər kim ki, Kəbə evinə gəlib cinsi münasibətdən uzaq olar və fasiqlik (günah əməllər) etməzsə, anası onu dünyaya gətirdiyi halındakı kimi günahsız olar** (3). Bu məqamda unutmayaq ki, belə bir həcci etmək asan bir iş deyil. Çünki

Peyğəmbər ﷺ başqa bir hədisində də buyurub ki: "Bilirsinizmi müflis kimdir? Dedilər: Ey Allahın elçisi! Bizim aramızda malı-mülkü, pulu olmayan müflisdir. Dedi: Mənim ümmətimdən müflis olan o kimsə olacaq ki, o Qiyamət günü namazla, orucla, zəkatla gələcək, amma birini söyüb, birini vurub, bir başqasının malını (haqsız yerə) əlindən alıb. Sonra belə birinin yaxşı əməlləri əlindən alınar, yaxşı əməlləri qurtardığı zaman (haqqına girdiyi) o kəslərin pis əməllərindən götürülüb onun üzərinə atılar, sonra isə o (müflis) kimsə cəhənnəmə atılar"(4). Deməli, buradan aydın olur ki, həcc və başqa ibadət əməlləri edib digər əməlləri doğru olmayan, xüsusən də qul haqqına girənlər özlərini böyük bir yükün altına salıblar.

Bu mövzunun sonunda aydın olur ki, ibadətlər Allah üçün olan əməllərdir. İbadəti qəbul edən də Allahdır və yersiz müqayisələr edərək ibadətləri gözdən salmaq istəyənlər doğru məqsədlərə xidmət etmirlər. Yaxşı olardı ki, bu kimi şübhələri yayanlar bu cür əməlləri tərk edib özlərinin ehtiyacları olan ibadətlərə yönəlsinlər. İnsanların haradan və necə qazanc əldə etməsi onların dərdi

olmasın. "Əgər din doğrudursa, o zaman bizim halımız necə olacaq?" sualı barədə düşünsün. Bu kimi şübhələrin dinin təməlinə heç bir zərəri yoxdur, nə də din əleyhinə arqument ola bilməz. Çünki, insanların etdikləri ilə dinin tələb etdiyi əməlləri qarışdırıb ayırd edə bilməyənlərin məntiqi dini başa düşməyə maneədir.

## Qeydlər və istinadlar:

1 – Səhih əl-Buxari. 843; Səhih Müslim. 595.
2 - Albani. Səhih əl-Cami. 6346. (qeyd: hədisin orijinalında üç dəfə "tam" sözü keçir).
3 – Səhih əl-Buxari. 1521; Səhih Müslim. 1350.
4 – Səhih Müslim. 2581.

## Hədis alimləri siyasi təsirlərə düşüb özlərindən hədis yazıblar?

**Şübhə belədir:** Hədis alimləri tarix boyu Əməvilərin və başqa siyasi elitanın rəğbətini qazanmaq üçün özlərindən hədislər icad edib kitaba yazıblar. Bu haqda bir çox arqumentlər var. Əgər dinin bu şeylərə ehtiyacı var idisə, biz nə üçün hədislərə inanmalıyıq !?

**Şübhənin cavabı:** bu şübhəyə cavabımız bir neçə aspektdən olacaqdır:
1 - Mövzunun düzgün təsəvvürü üçün hədis elmi və hədis alimlərinin məqamı ilə tanışlığa ehtiyac var.
2 - Alimlərin siyasi rəhbərliklərlə münasibətlərinin növlərinə baxış.
3 - Siyasi rəhbərliklərin hədis alimləri ilə tarixi əlaqələrinə baxış .
4 - Rəvayətlərdə siyasi izlər varmı?

**Birincisi:** "Hədis elmi" və hədis alimləri ilə qısa tanışlıq; Hədis elmi Allah elçisinin ﷺ söz, hal və hərəkətlərini sənədi, mətni və rəvayətçilərilə

birgə öyrənən böyük bir elmdir. Bu elm səhlənkarlığı, yalanı, tərəddüdü qəbul etmir. Bu elm çox dəqiq elmdir. Bu elm o qədər dəqiqlik tələb edir ki, rəvayətlərin qəbulu üçün, rəvayətçilərin etibarlığı üçün xüsusi, ağır şərtlər qoyulmuşdur. Peyğəmbərin ﷺ adından yalan danışmaq və səhlənkarlıq etmək bu elmdə qəsdli şəkildə çətinləşdirilmişdir ki, bu elmə əhli olmayan, saxtakar insanlar yönəlməsinlər. Bəzilərinin düşündüyü kimi kiminsə özündən hədis uydurması elə də asan bir iş deyil. Kimsə bunu etsə belə o rəvayət hədis alimlərinin sınağından keçməmiş qəbul olunmaz. Odur ki, hədislərin illələrini, problemlərini öyrənən "iləlul-hədis" elmi ərsəyə gəlmişdir. Bu elm o qədər dəqiq bir elmdir ki, rəvayətçisi etibarlı olsa belə hədisdəki gizli məqamları və problemləri öyrənib ortaya çıxarmağa rəvac verir.

Həmçinin hədis alimləri hədis deyən şəxsdən onu qəbul etmək üçün isnad şərtini qoymuşlar. İsnadın tələb edilməsi də saxtakarlığa qarşı mübarizə yollarından biridir .

**Hədisin isnadında saxtakarlığa qarşı mübarizə yollarına gəldikdə isə:**

1 - hədisin gəlmə yollarını cəm etmək və bütün isnadları bir araya toplamaq.

2 - Bu yollardan biri də rəvayətçinin ədalətli olmasına mane olan qüsurların ortaya çıxarılmasıdır.

3 - Bu yollardan biri də rəvayətçinin hədisi qoruyub saxlamasının öyrənilməsidir. Yəni yaddaşı zəif, tez-tez qarışdıran, özündən nə isə uyduran adamların adları hədis alimlərinin cildlərlə yazdıqları kitablarında qeyd edilmişdir və məlumdur.

4 - Buraya rəvayətçinin rəvayəti yaddaşında, yoxsa yazıda saxlaması, onun üslubu, metodu öyrənilir. Alimlərin onun etibarlılıq dərəcəsi haqqında sözlərinə baxılır .

5 - Rəvayətin sənədinin tənqidində sənəddə açıq-aşkar bir qırıqlığın olmasına da baxılır. Bu zaman bir-biri ilə əslində görüşməyən adamların, eyni əsrdə yaşamamış adamların adındann uydurulan rəvayətlər ifşa edilir. Bu işi də məhz mütəxəssis hədis alimləri ediblər .

6 - Hədisin sənədindəki gizli (xafi) qırıqlığı isə

hər alim bilmir. Daha tanınmış, böyük hədis alimləri, bu işin mütəxəssisləri, hədislərin gəlmə yollarını, problemlərini bilən şəriət alimləri bunu bilirlər. Onlar bunları bilməklə kifayətlənməmiş və həmin hədislərin etibarlılıq dərəcəsini öz yazdıqları kitablarda bəyan etmişlər.

**Hədis mətninin tənqidində hədis alimlərinin ən bariz metodları bunlardır:**

**1 -** Hədis alimlərinin qaydalarına, təməl prinsiplərinə müxalif hədislərin tənqid edilməsi; Buna hədisin mətninin Qurana müxalif olması, yaxud başqa bir mətnə müxalif olması, yaxud Quran və sünnədə üzərində icma olunmuş bir məsələyə müxalif olması, yaxud tarixdən bilinən çox mötəbər bir hadisəyə müxalif olması, yaxud peyğəmbərin kəlamına bənzəməyən zəif cümlələrdən ibarət olması, rəvayətçinin sözünün və ya felinin rəvayətə müxalif olması kimi hallar zamanı da o cür mətnlər hədis alimləri tərəfindən tənqid olunur.

**2 -** Hədisin mətnlərində ziddiyyətin görünməsi səbəbilə mətnin tənqidi.

**3 -** Hədisin mətninin hədis elminə görə

(münkər) qeyri məqbulluğa və ya (şaz) daha üstün olan yollardan fərqli bir yolla nəql edilməsinə görə tənqidi .

**4 -** Hədisin mətninin Peyğəmbərin ﷺ sözü olmayan (daxil edilmiş) hansısa bir kəlməyə görə tənqidi, o söz ki o, Peyğəmbərin sözü sayılmır(1).

Bu qədər ağır şərtləri olan bir elmin nümayəndələrini asanlıqla siyasi hakimiyyətlərin mənfəəti üçün hədis uydurmaqda ittiham etmək çox ağır bir iddiadır. Hədis alimləri ən çox yalandan qorxublar. Bu haqda Peyğəmbərin əzəmətli bir hədisi də var. O hədisdə belə buyurur: "Kim mənim adından qəsdli olaraq yalan uydurarsa, qoy o kimsə Cəhənnəmdəki yerini hazır bilsin" (2). Hədis elmində hədislərin mötəbərlik dərəcəsi xüsusi elmi terminlər vasitəsilə ifadə olunur.

Hədis alimlərinin peyğəmbərin ﷺ mirasının, onun sünnəsinin (hədislərinin) günümüzə çatmasında böyük rolu var. Onlar hədisləri rəvayət edən şəxslər haqqında cildlərlə kitablar yazıb həmin rəvayətçilərin həyatını öyrənmiş, hər birinin

etibarlılıq dərəcələri haqqında fikirlərini bildirmişlər.

İmam Zəhəbinin "Təzkiratul-Huffaz" əsəri (4 cilddə), yenə onun "Siyər Əaləmin-Nubələ" əsəri, nəşriyyatından aslı olaraq cildlərinin sayı 20 və 30 cild arasında dəyişir, İbn Sədin "Tabaqatul-Kubra" əsərinin cildlərinin sayı nəşriyyatından aslı olaraq 6 cilddən 11 cildə kimi dəyişir, İbnul Əsirin "Əsədul-Ğabə" əsəri 8 cilddir, ibn Salahın "Müqəddiməsi", Xətib əl-Bağdadinin "Tarixu Bağdad" əsəri (14 cilddən ibarətdir), və yenə Xətib əl-Bağdadinin "əl-Kifayətu fi ilmir-Rivayət" əsəri, İbn Asəkirin "Tarixu Dəməşq" əsəri (37 cilddən başlayır, bəzi nəşr evləri 53 cilddə nəşr etmiş, bəzi nəşr evləri kitabın içini olduğu kimi saxlamaqla cildlərin sayını 80 cildə kimi çatdırmışlar).

Bax bu cür kitablardan onlarla, yüzlərlə yazılıb və İslam dininə belə böyük alimlər xidmət etmişlər. Bu elmə xidmət edən müasir kitablardan Amir əl-Hüseyninin "əl-Kəmilu fi Ruvat əl-Hədis ən-Nəbəvi" və Avvad ər-Ruveysinin "Ruvat əl-Hədis" və s. kitablarını da misal göstərmək olar.

Hədis alimləri rəvayətçilərin etibarlılıq dərəcəsini xüsusi terminlərlə ifadə etmişlər (3), Onlar Peyğəmbərdən ﷺ yalan uyduranları xüsusi qaydalarla ifşa etməyə həris olmuşlar. Hədis alimlərinin peyğəmbərdən gələn hədis rəvayətlərinin, həmçinin səhabələrin sözləri olan rəvayətlərin sənədi və mətninin tənqidində öz xüsusi elmi metodları olmuşdur. Belə ki, bu metodlar elmi meyar və qaydalar üzərində olmuşdur. Onların bu işi görərkən izlədikləri, etimad etdikləri metod bütün rəvayətləri toplamaq və onlara dəqiqliklə nəzər yetirmək, sənədi (xəbəri) nəql edən şəxsin kimliyini araşdırmaq, mətnin özü barədə diqqətli olmaq idi. Onlara kimi bu metodu heç kim tətbiq etməmişdi. Ona görə də onların əldə etdikləri nəticələr doğru və dəqiq olurdu. Bu da uca Allahın bu ümmətin dinini qorumasından idi ki, bu əzəmətli iş üçün onların arasından fəxr ediləsi alimlər çıxarmışdır. Bu alimlərin gördüyü işlər digər qövmləri arxada qoymuşdu. Həmin alimlər elmdə mövzulara uyğunluğu, dəqiq araşdırmaları ilə seçilirdilər .

İngilis şərqşünası David Margelius (1858-1940) belə demişdi: "Müsəlmanlar hədis elmi barədə istədikləri kimi fəxr edə bilərlər(4)" .

Bu gün hədis elminin necə əzəmətli bir elm olmasını bilməyənlərimizə müsəlman olmayanların bu elmin necə böyük elm olması barədə etirafları da kifayət etmirsə, onlara başqa nə demək olar axı? Bu elmi daşıyan alimlərin isə ümmətdə necə böyük dəyərinin olması, onların necə böyük xidmətlər etdiklərini bilməmək də bu mövzuda yanlışlara düşməyin səbəblərindəndir .

**İkincisi: Alimlərin siyasi rəhbərliklərlə münasibətlərinin növlərinə baxış:**

Alimlərin tarix boyu siyasət əhlinə yanaşması həssas mövzulardan olmuşdur. Alimlər peyğəmbərlərin varisləridirlər. Onlar təqvası ilə seçilən şəxslərdirlər və uca Allah Qurani-Kərimdə onları tərifləyərək demişdir: **"Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar".** (Fatir. 28). Deməli, Allahın tərifədiyi bu zümrəni

nədəsə ittiham etmək asan bir məsələ deyil.

Bu ittihamların ən təhlükəli olanlarından biri isə dini siyasi məqsədlər üçün təhrif etməkdir. Əksinə, biz deyə bilərik ki həqiqi alimlərin tarix boyu dinin təhrifə uğramasına qarşı böyük bir mübarizəsi olmuşdur. Belə insanları siyasi təsirlərdə ittiham etmək çox ağır bir ittiham hesab edilir. Xüsusilə hədis alimlərinin siyasi rəhbərliklərə qarşı yanaşması tarixin bütün dönəmlərində eyni olmasa da əhli sünnənin rəhbərlər barədə ittifaq etdiyi qaydalar var. Müsəlman hakimlərə itaət etmək, qarşı çıxmamaq, onlara qarşı insanları təhrik etməmək kimi onlarla məsələlər əhli sünnədə sabit mövzular hesab etdilir.

Hədis alimlərinin siyasətə və əhlinə yanaşmasına ayrıca baxılmalı, siyasət və hökm əhlinin isə hədis əhlinə yanaşması ayrıca incələnməlidir.

Birinciyə gəldikdə, hədis alimlərinin tarix boyunca siyasi rəhbərliklərə qarşı davranış tutumunu bir neçə aspektdən ələ almaq mümkündür:

**1 -** Ümmətin ümumi məsləhətləri üçün yardımlaşma əlaqəsi. Bura qazilik, məzalim (haqların, hüquqların təmin edilməsi), hisbə (əxlaq polisi), müftilik (fətva vermək işi), məscidlərdə imamlıq, əzan vermək, hədis uyduranlara qarşı hakimiyyətin dəstəyini tələb etmək, insanların problemlərinin həlli üçün hakimiyyətin vasitəçiliyindən yararlanmaq və s. kimi məsələlər daxildir.

**2 -** Siyasi rəhbərliklərdən uzaqlaşma metodu; bu da hədis əhlindən bir qisminin rəyi olmuşdur. Onlar hakimiyyətdən uzaq olmağı, onların yanına getməməyi, onların məclislərində görünməməyi üstün hesab edirdilər. Bu qəbildən daha uyğun gördükləri də onlara aid heç bir vəzifəni öhdəliklərinə götürmürdülər.

**3 -** Rəhbərlərə nəsihət etmək və onların pis əməllərini (şəriətə uyğun bir şəkildə) inkar etmək; Hakimin heybətini qorumaq fitrətlərdə olan bir durumdur. Ona görə də hakimin qarşısında ona nəsihət edən olaraq görünmək asan bir iş deyil. Bu cür şərəfli bir addıma müvəffəq olan kəs daha çox imanında və səbrində yüksək dərəcələrə çatmış biri

ola bilərdi. Bu üzdən də hədis alimlərindən bir qismi bu yol üzərində olmuşdular.

**4 -** Hədiyyə və vəzifələri qəbul etməmək; bu əməl həmin alimlərin nəfsində olan izzəti göstərir. Bu cür cəsarətli mövqeyi olan alimləri necə hakimiyyətin siyasətində istifadə edilməsini iddia etmək olar?

Bu davranış sərgiləmələrinin hər biri hədis alimləri tərəfindən baş vermişdir. Bu haqda misallar gətirib mövzunu uzatmağa lüzum görmürəm. Deməli, heç də alimlər bəzilərinin iddia etdiyi kimi siyasi əlaqələrdə elə də yumşaq mövqeləri ilə tanınmayıblar. Nə də onların mövqeləri dini təhrif etməyə açıq bir mövqe olmamışdır. Elə götürək bəzilərinin bu məqamda verə biləcəyi sualı. Onlar deyirlər ki, hədis alimlərindən rəhbərə qarşı çıxmaq yolunu seçənlər heç olmayıbmı? Deyirik ki, bəli olub. Lakin onlar hədis alimlərinin əksəriyyətinin, böyük çoxluğunun yoluna müxalif olublar, tarixdəki bəzi zalım hakimlərə qarşı təvil edərək, yozaraq qarşı çıxıblar ki, onlar buna görə üzürlü sayılırlar. Bu arqumentin özü belə hədis alimlərinin şənini aşağı

salmır, əksinə, yuxarıda çəkdiyimiz (hədis alimlərinin siyasi rəhbərliklərə qarşı münasibətinə aid dörd) misalla birgə bir daha hədis alimlərinin heç də bəzilərinin düşündüyü kimi dünyəvi maraqları önə çəkmədiklərini göstərir.

**Üçüncüsü: Siyasi rəhbərliklərin hədis alimləri ilə tarixi əlaqələrinə baxış.**

Bu əlaqələr əsasən iki aspektdən olmuşdur.

**Birincisi:** Hədis alimlərini hakimiyyətlə uzlaşdırma və idarəetmədə onlardan yardım istəmə metodu.

**İkincisi:** Qarşı çıxma və mübarizə metodu .

Bu mövzuya giriş kimi demək olar ki, bəzi siyasi təfsirə meyilli olanlar bu mövzuda Əməvi və Abbasi hakimiyyətlərini pisləmək, onları İslami mənalardan yoxsun buraxmaq və onların öz hakimiyyətlərini guya dindən istifadə edib insanları özlərinə tabe etdirmək istəyiblər. Bununla da guya öz genişlənmə planlarına çatmaq istəyiblər (5). Bu iddiadan sonra onlara qarşı ittihamları qaldırmaq daha anlaşılan  və daha tez qəbul edilən olur. Bu qısa yazıda bu geniş mövzunu ələ almaq

mümkün olmasa da insaf naminə bunları deyə bilərik: Əməvi və Abbasi hakimiyyətlərində salehlər də olub, adil kimsələr də olub, zalımlar da olub.

Ona görə də bu hakimiyyətləri ifrat dərəcədə pisləyərək onları imanında, dinində ittiham etmək tarixçilərin yazdıqlarına və müasir mötəbər, böyük alimlərin onlar haqqında etdikləri şahidliklərə, dedikləri sözlərə qarşı ziddiyyət təşkil edir. Bu iki dövlət haqqında ən kiçik araşdırma belə bunun isbatı üçün kifayətdir.

Bununla yanaşı bu iki dövlətin zamanında baş vermiş xoşagəlməz siyasi hadisələri incələmək bir araşdırmaçı üçün elə də çətin bir iş deyil. Lakin, ədalətdən və insafdan deyil ki, çoxsaylı xeyirlər görməzdən gəlinərək bu qədər böyük bir tarixi ancaq baş vermiş bəzi xoşagəlməz hadisələrlə məhdudlaşdırıb dar bir kontekstdən yanaşma edilsin.

Əməvi və Abbasi dövlətləri zamanı bəzi rəhbərlərin zamanında etiqadi sapmalar, zülmlər və eqoizm halları olsa da, lakin dinin hakimiyyəti

ayaqda idi, şəriətə qayıtmaq önə çəkilirdi, İslamın xeyrinə dünyada cihad bayrağı qaldırılmışdı, İslami fəthlər davam edirdi, cümə namazları qılınırdı, həccə xüsusi diqqət yetirilirdi, dinin ayinlərinə açıq-aşkar riayət edilirdi. Qısa zamanlar istisna olmaqla - elmə və onun yazılmasına diqqət göstərilməsilə birgə yaxşılığı əmr etməyin, pisliyi qadağan etməyin öz əhli var idi. Məscidlərə, fətvaların nizamlı şəkildə verilməsinə, sünnənin aşkar olmasına, bidətlərin aradan götürülməsinə xüsusi diqqət var idi. Ən böyük İslami fəthlər Əməvilərin zamanına təsadüf edir. Abbasilərin zamanında bu fəthlər davam etsə də, Əməvilərin zamanındakı kimi geniş vüsət almamışdı. Onların səhvlərinin olması da labüddür. Şeyxulislam ibn Teymiyyə رحمه الله demişdir: "İnsanların Bəni Ümeyyəyə (yəni Əməvilərə) qarşı kin-küdurəti əsas iki məsələyə görə olmuşdu: biri: Əli رضي الله عنه haqqında danışmaları, ikincisi isə namazı (ilk) vaxtından gec qılmaları idi" (6). Şəkk yoxdur ki, bu mövqe haqdan sapmaq və dəlillərə müxalif olmaqdır. Ancaq bu müxaliflik onlardan iman vəfsini aradan qaldırmır. Ona görə də hədis, fiqh

və xeyir əhlinin bu rejimlərin siyasi hakimiyyətlərində yardım etmələri ona dəlalət edir ki, bu hakimiyyətlər özlərinin İslami kimliyini, varlığını qoruyurdu. Baxmayaraq ki, bəzi əsrlərdə onların qüsurlu davranışları və ya xətaları olmuşdu.

Bu hakimiyyətləri İslami, imani kimlikdən çıxarmaq üçün yəqinlik üzərində olan dəlillərə və qəti isbatlara ehtiyac var. Bu isə ancaq iki yolla mümkündür: ya həmin haqqında danışılan siyasətçilərin öz sözlərindən, ya da həmin dövrdə yaşayan hədis əhlinin, elm və ədalət əhlinin sözlərindən... Məlumdur ki, hər əsrdə yaşayanların özləri öz reallıqlarını daha yaxşı bilirlər.

Aşağılayıcı rəvayətlərə qarşı elmi yanaşma "təsəbbüt"dür, yəni dəqiqləşdirmədir. Həqiqətən də iki vəhyin dəlilləri ilə təmizə çıxarılmış səhabə nəslinin tarixi belə aşağılanmadan salamat qalmamışdır. Ona görə də elm, mərifət və təhqiq əhli səhabələri pisləyən rəvayətləri dəqiqləşdirməyə çalışıblar. Eynilə də onlardan sonra gələnlər haqqında deyilən tənələr və

ittihamlar məsələsində də bu söz deyilir. Bu cür pisləyici rəvayətləri mütləq incələmək lazımdır. Çünki Əməvi və Abbasi dövlətlərinin tarixi haqqında rəvayətləri bu dövlətlərin düşmənləri rəvayət etmişlər. Bu, çox mühüm bir amildir.

Konkret mövzuya gəldikdə isə, "siyasətçilərin hədis alimləri ilə əlaqələrinin hakimiyyətlə uzlaşdırma və idarəetmədə onlardan yardım istəmə metodu" haqda qısa olaraq bunları demək olar:

Uzlaşma dedikdə hakimiyyətin onlara təzyiq göstərməsi deyil, əksinə, hədis alimlərinə fətva və ya məsləhət üçün müraciət etməsi, bəzən hədis alimlərindən faydalanmaq üçün onların dərslərində oturmaları və s. xeyirli mənalar qəsd edilir. Hətta bu mənaya hədis alimlərinin siyasi hakimiyyətin hansısa bir əməlinə qarşı çıxsa belə siyasi hakimiyyətin bu alimləri despotizmlə qarşılamaması da daxildir. Bu alimlər İslamın məsləhətindən bilərək, həmin şəxslərin zahirində xeyir görərək bəzi siyasi vəzifələrdə belə olmuşlar. Çünki dövlət hər kəsin dövləti idi, nüfuz müsəlmanlarda idi. Bu vəzifələrdən misal olaraq hansısa şəhərin idarəçiliyini, beytül-mala (dövlət

büdcəsinə) nəzarəti, ordu rəhbərliyini, polis idarəçiliyini, xəraca nəzarəti və s. qeyd etmək olar.

Amma, siyasi hakimiyyətin bəzi hədis alimlərinə qarşı çıxması və mübarizə metodu ilə yanaşmasına gəldikdə, onu demək olar ki, raşidi xəlifələrdən sonra idarəçilik xilafətdən səltənət üsuluna keçdiyi və bəzi zülm halları baş verdiyi üçün zaman-zaman insanlarda narazılıqlar yaranırdı və hakimiyyəti qorumaq üçün bəzən gücdən və xoşagəlməz üsullardan istifadə olunurdu. Bu da ümmət arasında fitnələrin yayılmasına və digər problemlərə gətirib çıxarmışdı. Bu cür fitnələr bəzi hədis alimlərinin siyasi hakimiyyətlə üz-üzə gəlməsinə gətirib çıxarmışdı. Baxmayaraq ki, hədis alimlərinin insanlar arasında müəyyən bir nüfuzu var idi. Bu qarşıdurma çox hallarda siyasi hakimiyyətin sapma hallarında hədis alimlərinin elm və din qeyrətindən dolayı onlara güzəştə getməməsindən dolayı yaranırdı. Hədis alimləri iradə nümayiş etdirməyə çalışıb dində güzəştə getmək istəmirdilər. Əsasən də dini cəhətdən pozuntuların şahidi olduğu zaman bu pozuntulara qarşı susmayan bəzi hədis

alimlərinin siyasi hakimiyyətlə qarşıdurması baş vermişdir. Bu qarşıdurmalar bəzən qətl, həbs və saxlanılma, izlənilmə, ölkədən çıxarılma, beytül-maldan (dövlət büdcəsindən) yardımın kəsilməsi kimi hallarla müşayiət olunurdu. Lakin, bütün hədis alimləri ilə belə davranılmayıb. Burada qeyd edilənlər tarixdə baş vermiş halların xatırlanması və təhlil edilməsi üçündür. Hətta bu halların özü belə dəlildir ki, hədis əhli siyasi hakimiyyətə ölkənin məsləhəti olan işlərdə yardım etsələr də, dini təhrif etməkdə yardım etməyib və bir çox sıxıntılarla üzləşiblər. Hədis alimləri bəsit batillərə göz yummadıqları halda necə ola bilər ki, siyasi hakimiyyətlərin xeyrinə Peyğəmbərin ﷺ adından yalanlar uydursunlar!?

- Sonra bilinməlidir ki, bu əlaqələrin əsli sağlam əlaqələr olmuşdur. Qarşıdurma halları isə istisna hallardır.
- Əsli sağlam əlaqələrdən sonra baş vermiş bəzi davamlı fitnələr də bu əlaqələrin korlanmasına və başqa məcraya gəlməsinə xidmət etmişdir .
- Fitnələr səbəbilə siyasi hakimiyyətlərlə hədis alimləri arasındakı əlaqələrdə baş vermiş

dəyişikliklər bütün hədis alimlərini əhatə etməmiş, bu hal onların bəziləri arasında baş vermişdir. Bu o alimlərin ictihadları ilə baş vermişdir, hansı ki səhv və ya doğru olduğu halda bir və ya iki savab qazanırlar.

- Həmçinin, bəzi hədis alimlərinə qarşı yaxşı olmayan siyasi münasibətlər həmin dövlətin sabit bir metodu deyildi. Əksinə, bəzi rəhbərlərin mövqeyi olmuşdur. Nə şəri cəhətdən, nə də əqli cəhətdən icazəli deyil ki, siyasi hakimiyyətlərin xətaları bütün rəhbərlərə aid edilsin. Misal olaraq kifayət edir ki, Məmunun zamanında hədis əhli üçün çətin bir dövr idi, amma Məmundan sonra, əl-Mütəvəkkilin zamanında hədis əhli üçün, əhli sünnə üçün gözəl bir dövr başladı.

- Bu hadisələrin bəziləri iki tərəfin arasında baş verən hadisə və yanaşmanın nəticəsi idi. Bir tərəf bu münasibətləri dövlətin mənafeyinə, digər tərəf isə fərdin (alim münasibət qurmamağı öz) mənafeyinə uyğun görürdü; bəzi rəhbərlər qazilik vəzifəsinə gəlməyi qəbul etməyən (alimləri) cəzalandırmışdı. Sünnənin (hədislərin) rəvayətçilərindən bir qismi hakimiyyətə bu işdə razılıq verməmişdilər. Bunun qarşılığında onlar ya

şallaq cəzası almış, ya da həbs olunmuşdular. Hakimiyyətin bu cür mövqe sərgiləməsi hakimimiyyətə görə deyil, ümmətin ehtiyacı olan mühüm bir (dini) vəzifəyə görə idi. Bu mühüm (dini) vəzifəni qəbul etməyən kimsələrin cəzalandırılması onlar tərəfindən təyin edilən insanların ümumi məsləhətinə görə idi. Bunun müqabilində bəzi hədis alimlərinin ehtiyat və vəra (7) nəticəsi olaraq vəzifələri qəbul etməməsi, rəhbərin hədiyyələrini qəbul etməməsi və rəhbərin hüzuruna daxil olmaqdan çəkinmək halları da var idi ki, bu həmin hədis alimlərinin müvəffəqiyyəti kimi də qiymətləndirilir.

- Bəzi hədis alimləri və rəhbərlərin çəkişmə və qarşıdurmasının səbəbi heç vaxt peyğəmbərin ﷺ adından hədis uydurmaq olmamışdır. Ümumiyyətlə, alimlərin siyasi hakimiyyət tərəfindən cəlb edilməsinin səbəbi hədis yazmaqla əlaqədar olmamışdır. Bu haqda bir tarixi fakt nəql edilməmişdir. Baxmayaraq ki, bu cür arqumentə ehtiyacı olanlar az olmayıb.

Əksinə, bəzi hakimiyyət adamlarının öz şəxsi

mənfəətləri üçün tələbi olduqda alimlər tərəfindən şiddətli bir mövqe ilə qarşılaşıblar. Buna misal olaraq bir rəvayəti qeyd edək; Əbu Muaviyə əd-Darir demişdir: "Hişam ibn Əbdülməlik Aməşin yanına bir elçi göndərərək ondan özü üçün Osmanın hünərli hekayələri, Əlinin pis əməlləri haqda yazmasını istəyir. Bu durumda Aməş ona verilən vərəqi götürüb keçinin ağzına qoyur, o da həmin vərəqi çeynəyir. Sonra Hişamın elçisinə belə deyir: ona de ki, bu sənin cavabındır. Elçi belə deyir: Əgər mən sənin cavabını ona çatdırmasam, o məni öldürməyə niyyətlənib. Ona dedilər: ey Əbu Muhəmməd, onu ölümdən xilas et. O zaman ki, bir yazı yazmasına israr etdilər o belə bir yazı yazdı: "Mərhəmətli və Rəhimli Allahın adı ilə! Sonra: Ey Möminlərin əmiri, əgər Osmanın yer əhlinin hamısının hünəri qədər hünəri olsa, bunun sənə bir faydası olmaz. Əgər Əlinin yer əhlinin hamısının pislikləri qədər pisliyi olsa, bunun da sənə bir zərəri olmaz. Sənə öz şəxsi işin olan nəfsinlə (özünlə) məşğul olmağı tövsiyə edirəm. Vəssalam (8) .

**Dördüncüsü: Rəvayətlərdə siyasi izlər**

**varmı ?**

Bu mövzu da geniş araşdırma tələb edən mövzulardandır. Yazımız çox uzanmasın deyə maksimum sözü ixtisar etməyə çalışacağam. Hədis alimləri bu ümmətin tarixində baş vermiş bir çox siyasi ixtilafların, kəskin siyasi durumların, fitnələrin və ayrılıqların şahidi olmuşlar. Eyni zamanda hədis alimlərinin qarşısına din elminə (ələlxüsus hədis mətnlərinə) yalan qatmaq istəyənlər də çıxmışdır. Lakin onların bu cür yalançılara qarşı şiddətli, kəskin mövqeləri olmuşdur. Bu mövqe tamamilə elmi mövqe olmaqla yanaşı, Allah elçisinin ﷺ hədislərini qorumağa yönəlmiş metodlara əsaslanırdı. Bu metodların ilki isnadın tələb edilməsi idi. Belə olduğu halda kiminsə Allah elçisinin ﷺ adından yalan uydurması və bu yalanın alimlərə gizli qalması bir növ mümkünsüzləşirdi. Necə ki, İbn Sirin demişdir: "(Əvvəllər) isnad barəsində soruşmazdılar. Fitnə baş verdikdə isə (hədis alimləri) dedilər: (hədis silsiləsindəki) kişilərin adlarını bizə sadalayın. Beləcə, əhli sünnəyə baxılar, onların hədisləri götürülərdi. Bidət əhlinə

də baxılar və onların hədisləri götürülməzdi" (9). Bundan sonra hədis alimləri elə isnada əsaslanaraq bir rəvayətin qəbulu üçün - rəvayətçinin özü və rəvayət etdiyi rəvayətin özünə baxmaq aspektindən - dəqiq elmi meyarlar təyin etdilər. Beləcə, onlar yalançı rəvayətçilərin halını bəyan etdilər, onların yaydığı hədislərin hökmünü bildirdilər. Uydurma hədisləri bəyan etmək məqsədilə hədis alimlərinin yazdığı kitablar uydurma hədislər və yalançı rəvayətçilərin adları ilə doludur. Alimlər tarixdə hədis uydurmağa səbəb olan müxtəlif amillərin olduğunu bildirmişlər. Bunlardan biri də siyasi məqsədlə hədis uydurmaqdır.

Bu məqamda bir sual yaranır: Görəsən siyasi məqsədlə hədis uydurmaq məsələsi dəqiq bir iddiadır? Yəni, bu cür uydurma halları yayqın bir hal olub ciddi bir problem həddində idi? Yoxsa, nadir hallarda baş verən keçici bir hal idi? Bu suallar haqqında düşündükdə görürük ki, tarixi faktlara söykənən bəzi hallar olub, həmin halların siyasətlə əlaqəsi olsa da, bu hallar hədis alimləri tərəfindən ifşa edilmiş və bəyan edilmişdir. Araşdırmaçılar bu hallara:

1 - hansısa siyasətçinin və ya müsəlman

dövlətinin fəziləti haqqında uydurulmuş azsaylı zəif və uydurma sənədi olan rəvayətləri ,

2 - bunun kimi hansısa siyasi rəhbərə yaltaqlıq etmək üçün uydurulduğu iddia edilən sənədi mötəbər olmayan azsaylı rəvayətləri aid ediblər. Heç biri mötəbər olmayan həmin rəvayətlər, əsərlər bizə belə deməyə əsas verir ki, siyasi maraqlar üçün bu qəbildən uydurma rəvayət hallarına misal göstərilən əsərlərin heç biri mötəbər olmadığı üçün bu cür hallar nadir hallarda baş verən keçici bir hal olmuşdur. Yəni, qlobal bir problem halında deyildi. Hətta daha mühüm bir fakt da odur ki, Abbasi və Əməvilərin fəzilətini göstərmək məqsədilə uydurulduğu irəli sürülən rəvayətlərin heç birinin siyasi təsirlə yazıldığı sübut edilməmişdir.

Habelə, rəvayətlərdə siyasi izlər olması məsələsinin ciddi, qlobal bir problem kimi göstərə bilməyənlər məcbur olub bəzi təxmin və iddialara baş vuraraq bir növ bu iddia olunan amili özlərinin əleyhinə çevirmişlər. Həmçinin, bu tipli rəvayətçiləri hədis alimləri ifşa edərək onlar haqqında kitablarda bilgi vermiş və hədis alimləri

arasında o şəxslərin bir dəyəri qalmamışdır. Həmçinin, hansısa siyasi rəhbərliyi tərifləyən rəvayətləri ixtisas əhli olan alimlərin bildirməsi onu göstərir ki, elə rəvayətləri hamıdan öncə ixtisas əhli olan hədis alimləri aşkar etmişlər. Deməli, hədis alimləri bu cür uydurmalara qarşı ayıq-sayıq olmuş və bu halların fərqində olmuşlar.

Bu məqamda mühüm bir məsələyə toxunmaq yerinə düşərdi. Bu isə hansısa rəvayətçinin yalançı olması və onun adından uydurulmuş rəvayətlərin onunla bağlı olması anlamına gəlmir. Məsələn, Ğiyas ibn İbrahim adlı şəxs hədis alimlərinə görə yalançıdır (10). Lakin bu o demək deyil ki onun haqqında deyilmiş bütün rəvayətlər qəbul edilməlidir. Çünki bəzi rəvayətlər hökm vermək üzərində qurulub. Bir çox siyasi cəhətdən hədis uydurma iddiası edənlər həmin bu İbrahim adlı şəxsin xəlifə Mehdi yanında hədis uydurmasını misal çəkirlər ki, bu doğru deyil. Görünən budur ki, onun hədis alimlərinə görə yalançı hesab edilməsindən istifadə edilərək siyasi cəhətdən hədis uydurulmasını əsassız mənbələrə görə sübut etməyə çalışanlar olub.

Bu məqamda daha mühüm bir məsələyə toxunmaq yerinə düşərdi. Deməli, siyasi hakimiyyətin məsləhətinə görə konkret olaraq baş vermiş hadisələr zamanı baş vermiş yalançılıq iddiaları hansısa bir hədis alimi tərəfindən sağlam bir yolla təsdiqini tapmamışdır. Nə də hansısa valinin bunu etməsi və ya bunu əmr etməsi və ya belə bir hadisənin onun qarşısında baş verməsi öz təsdiqini tapmamışdır. Bu haqda olan bütün rəvayətlər zəif və ortaya atılmış iddialardır. Həmçinin hansısa siyasi rəhbərin fəziləti haqqında deyilmiş uydurmalar da bu qəbildəndir. Heç bir dəlil yoxdur ki, bunların uydurulmasında həmin siyasi hakimiyyətlərin rolu var. Bu sözü təsdiqləyən amillərdən biri odur ki, kitablarda gələn rəvayətlərdə - mötəbərlik dərəcəsinə nəzər yetirmədən - siyasi hakimiyyətlərin hədis uydurmaq məqsədilə hədis alimlərinə təzyiq göstərməsinə heç bir dəlil yoxdur. Bunu edənlər çox zaman öz qənaətlərinə görə, yaxud da şəhvət ya şübhənin idarə etdiyi meyillərə görə belə addımlar atmışlar.

Bunun müqabilində isə biz siyasi hakimiyyətlərə qarşı mübarizə məqsədilə ortaya

çıxmış bəzi uydurma hədislərin şahidi ola bilərik. Məsələn, Abbasilərin və ya Əməvilərin guya peyğəmbərin ﷺ dilindən pislənilməsi kimi uydurma rəvayətlərin şahidi ola bilərik. Bu kimi rəvayətlərdə siyasi amil və siyasi hədəflər açıq-aşkar ortadadır. Sırf bu cür uydurmaları istifadə etmək məqsədilə siyasi izahlara baş vurmağa çalışıb hədis elminə tənə etmək istəyənlərin peyğəmbərin ﷺ sünnəsi ilə oyun oynanıldığını dediklərini müşahidə etmək olar. Bu cür uydurmaların da hədis alimləri nəzdində bir qiymətinin olmadığını görürük. Hədis alimləri bu tipli rəvayətlərin, xəbərlərin tənqidini hədis elminə aid sübutlarla ortaya qoymuş və əsassız olduğunu bəyan etmişlər. Onlar bunu edərkən ortada siyasi amil olduğunu vurğulamamışlar. Çünki bu bir ehtimaldır. Burada uydurmanın səbəbi siyasi və başqa amillər ola bilər. Amma bu dəqiqdir ki, siyasi hakimiyyətlərin əleyhinə uydurulmuş rəvayətlər mötəbər olsaydı, bunu da ən birinci hədis alimləri bəyan edərdilər.

Bir mühüm məsələ isə bu tipli uydurma rəvayətləri edənlərin cərh və tədil (hədis) alimləri

nəzdində olan halıdır; bu tipli rəvayətlərin zəifliyini hədis elmi aspektindən hədis alimləri bəyan etmiş, sənəddə olan hansısa rəvayətçinin probleminə toxunmuşlar, hədis elmində buna "adələtur-ravi" deyilir. Bu şiddətli tənə hesab olunur. Bu da hədis alimlərinin yalan və yalanda ittiham olunmaq məsələsinə qətiyyən səhlənkar yanaşmadıqlarını göstərir. Elə bir hədis uyduran, yalan uyduran yoxdur ki, sonradan ondan hədis qəbul edilsin. Habelə, mötəbər hədis alimləri haqqında da – heç zaman – yalanın hansısa bir növünü danışmaları rəvayət olunmamışdır.

Belə olduğu halda, onlar hələ siyasi mövzuda mübarizə məqsədilə hansı yalanı uydura bilərdilər?! Deməli, ilk öncə siyasət əhlinə bu tipli yalan rəvayətlərlə düşmənçilik edənlər hədis əhlindən olmamışlar. İkincisi isə, hədis əhli də onları qəbul etməmişdir. Kimlər ki, siyasi məqsədlə hədislərin uydurulması fikrini ümumiləşdirərək bunu hədis alimlərinə də calamaq istəmiş, sonra da sabit və mötəbər hədisləri ittiham altında qoymağa cürət edirsə, o kimsədən hər rəvayətdə hədis uydurmaqla ittiham olunan

rəvayətçiləri göstərmək tələb olunacaqdır. Həmçinin, ondan siyasi hakimiyyətə qarşı bu cür uydurma rəvayətlərdən istifadə edən hədis alimlərini faktlarla sadalamaq tələb olunacaqdır. Elə isə siyasi hakimiyyətlərə qarşı uydurmanın baş verməsi o demək deyil ki, mövzunu şişirdib elmi müstəvidən kənar formada buna qiymət verilsin, yaxud da mötəbər alimlər ittiham edilsin. Əksinə, vacib olan budur ki, ittiham yalançı şəxsin özünə qarşı edilsin və başqasına keçməsin. Bu mövzu ilə bağlı deyəcəklərimiz hələlik bunlardır. Əslində mövzu həddindən artıq geniş mövzudur. Bu məqamda bu qədəri ilə kifayətlənirik. Sonda Allahın elçisi ﷺ Muhəmmədə, onun səhabələrinə və əhli beytinə Allahın salavatı və salamı olsun .

## Qeydlər və istinadlar:

1 - əl-Muhəddisunə vəs-Siyasə. Dr. Ibrahim əl-Aclən. Bax: səh. 27-42.
2 - Səhih əl-Buxari. 110. Müslim. 3.
3 - Bu terminlərdən "siqa", "saduq", "daif" və s. misal çəkmək olar. Siqa: etibarlı rəvayətçiləri ifadə edir. Saduq isə, ondan bir qədər aşağı rütbədə olan

rəvayətçiləri ifadə edir, imam Zəhəbi onları belə vəsf edirdi: "Saduq, xətası çox olmayandır, lakin ola bilsin ki xəta etsin". Daif (zəyif) isə etibarlı rəvayətçi hesab edilməyib xətalara yol verəndir. Bu onun hədisi qoruması və ədalətində olan zəiflik kimi ifadə olunur.

4 - Bu nəqli əllamə Əbdür-Rəhman əl-Muallimi İbn Əbi Hatimin "əl-Cərh vət-Tədil" kitabına yazdığı müqəddiməsində ondan nəql etmişdir (2/1).

5 - Necə ki, şərqşünas Qoldziher "Muhəmməd haqqında araşdırmalar" əsərində. (2/50) bu məsələni qabardır. Həmçinin bax. "Ərəb siyasi düşüncəsi". Muhəmməd əl-Cabiri. səh. 252.

6 - Minhəcus-Sunnə. 8/171.

7 - Vəra sözünün mənası; lüğəvi cəhətdən: özünü uzaq tutmaq, imtina etmək, haramlardan uzaq durmaq və s. mənaları ehtiva edir. Şəri cəhətdən isə: Axirətdə zərər verə biləcək şeyləri tərk etməkki, bu haramları tərk etməkdir. Yaxud da şübhələri tərk etməkdir ki, bu cür şübhəli şeyləri tərk etmək daha üstün olan bir əməli buna görə tərk etməyi gərəkli etmir) .Movsuatul-Aqidəti vəl-Ədyən val-Firaq vəl-Məzəhib əl-Muasırah. 6/3096 .

الورع sözünün izahı.
8 - Şəzəratuz-Zəhəb. 1/221; Vəfəyatul-Əayən. 2/403.(
9 - Səhih Müslimin "Müqəddimə"si.(15/1) .
10" - Cərh və Tədil". 5/57. "əl-Məcruhin". 2/200. Mizanul-Etidal. 3/338.

## Digər mənbələr:

11 - Hirasətus-Sünnə Raddu Şubuhəti va Dalələti Munkiris-Sunnə. Muhəmməd Həsən Abdul-Həmid əş-Şeyx.
12 - əs-Sunnə Məkənətuhə fit-Təşri əl-İsləmi. Dr. Mustafa əs-Sibəi.

## Qərbə köçən müsəlmanlar özlərindən beziblərmi?

**Şübhə belədir:** Bütün müsəlmanlar xristian ölkələrinə köçürlər. Niyə? Çünki qadın, insan haqları, sağlamlıq, gözəl ekonomiya, təmiz şəhərlər, gözəl yaşayış şəraitləri var. Köçkün (immiqrant) müsəlmanlar gedib elə ölkələri məhv edirlər. Hələ etdikləri cinayətləri, uşaq və qoca evliliyi, qadın zorakılığını demirəm.

**Cavab belədir:** Bu sualın qoyuluşunu olduğu kimi saxlasaydıq, kiçik bir sualda onlarla hərf səhvlərini, hər cümlənin səhv quruluşunu görüb bəziləri sualdan baş açmaya bilərdi. Amma yazılan suala xeyli düzəliş edib onu oxunulası bir hala gətirdik. Təbii ki, sualın yazılışı bu halda ikən sualın qərəzli qoyuluşu da nəzərimizdən yayınmadı .

Maraqlıdır ki, sualı qoyan şəxs müsəlmanlar Qərb ölkələrinə deyil, "xristian ölkələrinə köçürlər" deyə fikrinə başlayır. Nəzərə alsaq ki, "xristian" dediyi bəzi ölkələrdə xristianlıqdan bir

əsər əlamət qalmayıb, eyni cümlədə ikinci təzad ortaya çıxır. O da "bütün müsəlmanlar" sözüdür. Sualdakı hərf səhvləri və mübtəda, xəbər yerdəyişiklikləri və digər səhvləri düzəldərkən ümumiləşdirmə edilib "bütün müsalmanlar" sözünün yazılmasına bir müdaxilə etməyimiz doğru olmazdı. Aydındır ki, "bütün müsalmanlar" Qərb ölkələrinə getmir, nə də ora getməyi xəyal belə etmirlər. Deməli, bu yanlış fikirdir .

Sualın növbəti hissəsində deyilir: "Niyə? Çünki qadın, insan haqları, sağlamlıq, gözəl ekonomiya, təmiz şəhərlər, gözəl yaşayış şəraitləri var". Çox gözəl. Belə şəraitlər bəzi müsəlman ölkələrində də var. Artıq müsəlman ölkələri inkişafda və bu qeyd olunan cəhətlərdə belə bir-birindən fərqlənir. Elə müsəlmanların əksəriyyət təşkil etdiyi ölkələr var ki, o xalqlar birmənalı şəkildə dünyanın ən varlı xalqlarından hesab olunurlar. Məsələn, Bruney sultanlığı, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirliyi... Onlardan bir qədər sonrakı sıralarda isə Malaziya, İndoneziya və Türkiyəni (bəzi aspektlərdən) və s misal çəkmək olar. Əhalisi xristianların üstünlük təşkil etdiyi, lakin

iqtisadiyyatı və ictimai durumu bir çox müsəlman ölkələrindən daha bərbad olan ölkələr də var. Məsələn, Burundi, Demokratik Konqo cumhuriyyəti, Anqola, Malavi, Zambiya, Orta Afrika cumhuriyyəti, Latviya, Serbiya, Lesoto, Honduras, Qvatemala, Paraqvay, Boliviya, Haiti və s. kimi iqtisadiyyatı çox aşağı olan xristian ölkələrində yaşamaq üçün kimsə öz müsəlman ölkəsindən köçüb getmək barədə xəyal belə etmir, nə də öz ölkəsindən bezməyib ki, bu yerlərə getsin. Deməli, bu iddialar nisbi sözlərdir.

Təkcə Malaziyada beş elm şəhəri var. Universitetlər demirik, elm şəhərləri deyirik. Buna baxmayaraq deyirik ki, həqiqətin və dəyərin meyarı elmi-təcrübi güc və ya iqtisadi güc deyildir. Bu meyar batil və uğursuz bir meyardır. Ağıl sahibləri üçün bu həqiqət meyarı sayılmır.

Deməli, dəyər, həqiqət və ibrət varlı-pullu olmaqda, dünyəvi elmin yayılmasında və s. deyil. Əslində tarix boyu bu arqumenti iman gətirməyənlər inananlara qarşı istifadə etməyə çalışıblar. Qurani-Kərim də bu haqda bizə xəbər

verir: "Onlara açıq-aydın ayələrimiz oxunduğu zaman kafirlər möminlərə deyərlər: “Bu iki firqədən hansının məqamı daha yaxşı, məclisi daha gözəldir?" (Məryəm. 73). Göründüyü kimi qədim zamanlarda da bu cür insanlar imana çağrıldıqları zaman kimin daha çox pul, sərvət və rahatlıq sahibi olduğu haqqında sual verməyə çalışırdılar.

Elə isə varlı-pullu olmağın, maddi inkişafın həqiqət və ya batil meyarı olması arasındakı əlaqə nədir elə? Qurani-Kərimdə bizə maddi inkişafı olub Allahdan uzaq olan neçə qövmlər haqqında xəbər verilir. Uca Allah bu haqda buyurur: "Məgər onlar yer üzündə gəzib dolaşaraq özlərindən öncəkilərin aqibətini görmədilərmi? Onlar bunlardan da güclü idilər. Onlar torpağı şumlayır, yer üzünü bunlardan daha çox abadlaşdırırdılar". (ər-Rum. 9). Başqa bir ayədə isə uca Allah buyurur: "Peyğəmbərləri onlara açıq-aydın ayələr gətirdikdə, özlərindəki biliyə sevindilər". (Ğafir. 83). Aydın olur ki, keçmiş ümmətlərdən də özlərinin elmi inkişafına sevinənlər və bunu həqiqət meyarı hesab edənlər var idi.

Əslində isə inkişaf etmək nə əsl etibarilə təriflənən, nə də məzəmmət olunan bir hal deyil. Elmi inkişaf ilahi vəhyin təmizə çıxardığı nisbətdə təriflənir. Elmi inkişaf dini yaşatdığı və Allaha itaətə səslədiyi miqdarda təriflənir(1). Uca Allah Qurani-Kərimdə buyurur: "Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir". (əl-Həcc. 41).

Deməli, ilahi vəhylə təmizə çıxmayan elmi inkişaf bəşəriyyəti hər an çılğın addımlara sövq edə bilər. Necə ki, bəşər tarixində sayca baş vermiş ən böyük insan qətli ikinci dünya müharibəsində baş vermişdi. Həmin müharibədəki bütün ölənlərin sayı statistikalarda 50 milyon ilə 85 milyon arasında dəyişir. Hansı ki, bu müharibəni əsas idarə edənlər dövrün ən inkişaf etmiş ölkələri idi. Deməli, ilahi vəhyə bağlılığın itdiyi zaman bəşər övladı böyük bir dəlilik üzərində olan hansısa təhlükəli addım atmağa daim hazır vəziyyətdə olacaqdır.

Elə isə bunları bilməklə yanaşı, tarix boyu İslamın ilahi vəhylə təmizlənmiş durumda nə qədər böyük mədəniyyətləri ortaya çıxarmasına nəzər yetirməyimiz kifayətdir. İslam dini təkbaşına çoxlu mədəniyyətlər ortaya çıxardığı halda, başqa dinləri isə digər mədəniyyətlər himayə etmişdir. Tarix boyu müsəlmanların qurduğu dövlətlər, dünyəvi elmdəki nəaliyyətləri, ən qədim universitetlər, çoxsaylı kəşflər və ixtiralar, Avropa kimi bir məntəqəyə kimi gedib çıxan Əndəlüsdə (İspaniyada) qurduqları möhtəşəm mədəniyyət və daha nələr haqqında danışsaq, mövzumuz çox uzanar.

Sonra, sual verilsə ki, bəs niyə bu gün müsəlmanlar bəzi ölkələrdən inkişafda geridə qaldılar?

Cavab odur ki, müsəlmanlar onları vaxtilə izzətli edən İslama və İslam mədəniyyətinə riayət etməyi tərk etmişlər. Əsas səbəb budur. Müsəlmanlar yenə öz dinlərinə qayıtsalar, dinlərinə əməl etsələr, İslamın həqiqət çırağı yenidən müsəlmanların yoluna işıq tutacaq və

onları dünya miqyasında və bütün inkişaf perspektivləri olan sahələrdə izzətləndirəcəkdir. Bu barədə şəkkiniz olmasın.

Mühüm məsələlərdən biri də odur ki, tarix boyu bəşər övladının qurduğu sivilizasiyalar arasında qarşılıqlı ictimai, iqtisadi və siyasi dayanışma, yardımlaşma mövcud olmuşdur. Bu yardımlaşmanı müsəlmanlar da siyasi hökmranlıqlarının üstün olduğu zamanlar heç vaxt Qərb dünyasından əsirgəməmişlər. Qərblilər müsəlmanların elmi mərkəzlərində dövrün müxtəlif elmlərini öyrənmək üçün gəlirdilər. Eyni zamanda onlar müsəlmanların irəlidə olduqları sahələrlə maraqlanır və müsəlmanların müxtəlif sahələrdəki uğurlarından faydalanırdılar. Bu məsələni bilmək üçün geniş bir mütaliəyə də ehtiyac yoxdur.

Sualın son hissəsində isə belə deyilir: "Köçkün (immiqrant) müsəlmanlar gedib elə ölkələri məhv edirlər. Hələ etdikləri cinayətləri, uşaq və qoca evliliyi, qadın zorakılığını demirəm". Bu cümlələr doğrudan da savadsız bir yanaşmadır və Qərb dünyasına məftunluqdan, kortəbii vurğunluqdan,

yaxud islamofobiya təzahürlərindən başqa bir şey deyildir. Bu cümləəri "dini dözümsüzlük" də adlandırmaq olar. Bu məsələyə bir neçə aspektdən cavab vermək olar:

**Birincisi**, müsəlmanlara nisbət edilən bu cür xoşagəlməz halları araşdıran xüsusi bir araşdırmalar, statistikalar ortada yoxdur. Baş verən azsaylı xoşagəlməz halları qabartmaq isə insafdan və vicdanlı yanaşmadan sayılmır. Qərblilərin özlərinin Qərbi fəsada salması halı daha qabarıq görünür. Bunu istər ictimai pozuntular, mənəvi deqradasiya aspektindən, istər də digər aspektlərdən sübut etmək mümkündür .

**İkincisi**, Qərb sivilizasiyasını nələrin dağıdacağı haqqında xüsusi araşdırmalar və proqnozlar var. Bu proqnozlar İslamın və müsəlmanların deyil, qərblilərin özlərinin səhvlərinə köklənib. Məsələn, Britaniyalı tarixçi Arnold Toynbi (1889-1975) sivilizasiyaları geniş şəkildə araşdırmış, sivilizasiyaları əmələ gətirən və dağıdan oxşar amilləri qeyd etmiş, 21 sivilizasiya haqqında heç kəsin indiyə kimi etmədiyi geniş bir

araşdırma etmişdir. O, mədəniyyətlərin çöküşü barədə şəxsi araşdırmalarından birində Qərb dünyasını içki və narkotikin məhv edəcəyi barədə öz proqnozunu vermişdir.(2)

**Üçüncüsü,** müsəlmanların müxtəlif ictimai təbəqələrə bölündüyünü nəzərə alsaq, müsəlmanların Qərb ölkələrində daha çox cəmiyyətə faydalı fəaliyyətlər üzərində olmasını qabartmaq mümkündür.

Məlumdur ki, bu gün müsəlmanlar Qərb dünyasının ictimai həyatında çox önəmli bir yeri tuturlar. Müsəlmanların elmi uğurları nəinki Qərb dünyasında elmi-texniki inkişafa təkan verən amillərdən sayılır, hətta bu gün də müsəlmanlar Qərb dünyasının ictimai həyatında (elmi, iqtisadi, ictimai, siyasi və s. bir çox sahələrdə) çox mühüm işlər görməkdədirlər. İmmiqrant müsəlmanlar xüsusən də ikinci dünya müharibəsindən sonra Avropa iqtisadiyyatının, ictimai həyatın yenidən dirçəlməsində böyük rola malik olmuşdular. Müsəlmanların elmi irsi, müsəlman alimlərin müxtəlif elmi sahələrdə yazdıqları kitablar Qərb

dillərinə tərcümə edilmiş və onların universitetlərində tədris edilərək Qərb elminin inkişafında əsas rolu oynamışdır. Habelə müsəlmanlar Qərb dünyasında mənəvi və əxlaqi dəyərlərin yayılması və insani münasibətlərin inkişafına da böyük töhfələr vermişlər və bu gün də bu tendensiya davam edir. Tədqiqatçıların fikrincə, 2050-ci ildə Avropa əhalisinin 20 faizi müsəlman olacaq(3). İslam dəyərləri artıq Avropa əhalisinin müəyyən bir hissəsinin azad seçimidir. Lakin təəssüflər olsun ki, Qərb dünyasında İslamın parlaq gələcəyinin indidən görünməsi Qərbin siyasi dairələrini narahat edir və onlar İslama qarşı əsasən dörd aspektdən hücumlar edirlər:

1 - İslam dünyagörüşü və ənənələri haqqında təsəvvürlərin təhrif edilməsi .

2 - İslamın radikal cərəyan və qruplaşmalarla əlaqələri .

3 - İslamın Qərb cəmiyyəti üçün təhlükə olması barədə fikrin formalaşdırılması .

4 - Müsəlmanlara qarşı aqressiya və dözümsüzlüyün əsaslandırılması (4). İstər bu sualı ünvanlayan şəxsə, istər də bu məqaləni oxuyan şəxslərə Qərb dünyasındakı İslamofobiya haqqında

yazdığımız iki hissədən ibarət olan məqaləmizi oxumağı tövsiyə edirəm (5).(6). Sonda aydın olur ki, bu kimi şübhələr əsassızdır və müsəlmanlar Qərb dünyası üçün sadəcə bir rəhmətdirlər.

## İstifadə edilmiş ədəbiyyat:


1 – Bəsair". Heysəm Talat. 2/691.
2 - Müjdələr, gələcək kimindir? adlı ərəbcə məqalədən .
3" - Strateji təhlil" jurnalı. Sivilizasiyalararası münasibətlərdə miqrasiya geosiyasətinin təzahürü. Fətəli Abdullayev. səh. 196.
4 - Öncəki mənbə. səh. 187.
5 - Qərbin İslam düşmənçiliyinin təzahürü: (1-ci hissə) https://sunna.az/content?cid=633
6 - Qərbin İslam düşmənçiliyinin təzahürü: (2-ci hissə) https://sunna.az/content?cid=634

## Müharibə basqınlarında uşaq və qadınları öldürmək olarmı?

**Şübhə belədir:** belə bir hədis varmı? Əgər varsa onu necə anlamalıyıq? Yəni bu hədisə əsasən deyə bilərikmi ki, İslam dini müharibə vaxtı uşaq və qadınları öldürməyə icazə verir? Hədis belədir: "Məhəmməd ﷺ peyğəmbərə səhabələr sual verir: "Ya Rəsulullah! Biz (düşmən üzərinə) gecə basqınları edirik. Bu zaman qadınlar və uşaqlar da ölür. Nə edək?" peyğəmbər ﷺ deyir: "Onlar da onlardandır(1).

*Bu şübhənin cavabını üç aspektdən ələ ala bilərik:*

**Birinci məsələ:** İlk öncə deyək ki, şübhəni gətirənlər "Cihad kitabı" sözünü yazsalar da, babın adını yazmaqdan çəkiniblər, çünki babın adını yazsalar, şübhələri çürümüş olacaqdı. Babın adı ərəbcə belədir:

باب جواز قتل النساء والصبيان في البيات من غير تعمد.

**"Qəsdli şəkildə olmadan uşaq və qadınların**

**yatarkən öldürülməsinin icazəli olması".**

Buradan belə anlaşılır ki:

1 - Burada xüsusi bir haldan danışılır. Həmin xüsusi hal gecə vaxtı, düşmənlərin bir-birindən ayırd edilmədiyi zamandır. Kimin qadın, kimin kimin uşaq olduğu bilinməyən kütləyə basqın edilərkən qəsdli şəkildə olmadan, səhvən öldürülən zəiflər bu mənaya daxildir .

2 - Qəsdli şəkildə uşaq və qadınları öldürmək haramdır.

3 - Müşrik qadın və uşaqların qəfil ölümünə səbəb olan kimsə Peyğəmbərin "onlar da onlardandır" sözünü bir təsəlli olaraq qəbul edə bilər. Çünki onlar yaxşı bilirlər ki, əsl olan, təməl qayda uşaq və qadınların öldürülməsinin qadağan olmasıdır. Bu haqda peyğəmbərin konkret göstərişləri var. Bu hədis bilmədən, qəsdsiz şəkildə, qaranlıqda, vuruşanlarla vuruşmayanların ayırd edilmədiyi hücum zamanı, xəta ilə ölən uşaq və qadınlara görə təsəlli kimi qəbul edilə bilər. Qəsdli olaraq öldürmədən isə söhbət gedə bilməz.

**İkinci məsələ:** Çoxsaylı dəlillərə əsasən İslam

dini döyüş vaxtı yaşlı, uşaq və qadınları öldürməyi qadağan edir. Hətta müharibədə iştirak etməyən din xadimlərini belə öldürməyi qadağan edir. Bu haqda olan çoxsaylı hədislərdən dördü ilə kifayətlənəcəyik:

**Birinci hədis:** Abdullah ibn Ömərdən rəvayət olunur ki, "Peyğəmbər ﷺ Məkkənin fəthi günü bir qadının öldüyünü gördü və belə dedi: "**bu qadın vuruşanlardan deyildi**". Sonra isə qadınların və uşaqların öldürülməsini qadağan etdi"(2).

**İkinci hədis:** Ənəs ibn Malikdən rəvayət olunur ki, Peyğəmbər ﷺ (döyüşlərdən birində) dedi: "Allahın adı və peyğəmbərin ümməti olmaq üzrə yola çıxın. Nə taqətdən düşmüş qoca, nə uşaq, nə kiçik, nə də qadın öldürməyin, həddinizi aşmayın..."(3).

**Üçüncü hədis:** Əbu Davud və Müslimin Süleyman ibn Bureydənin atasından rəvayət etdikləri hədisdə peyğəmbərimiz döyüşlərdən birindən öncə ﷺ belə buyurmuşdur: "Allahın adı ilə və Allah yolunda vuruşun. Allaha küfr edənləri

öldürün. Vuruşun. Döyüş meydanından qaçmayın. Həddinizi aşmayın. Cəzədləri süngüdən keçirməyin. Körpələri öldürməyin"(4).

Bu hədisdən də anlaşılır ki, ancaq döyüş meydanında vuruşanlarla vuruşmaq olar, uşaqlara, zəiflərə döyüş meydanında belə toxunmaq olmaz.

**Dördüncü hədis:** Beyhəqi və başqalarının rəvayətində belə buyurmuşdur: "Körpələri, uşaqları, qadınları, yaşlıları öldürməyin"(5).

Bütün bu rəvayətlər bizə bunu bildirir: əsl odur ki, qadın, uşaq, zəif, yaşlı olan kimsələr müharibə zamanı öldürülə bilməzlər. Bu qaydadan kənar baş verən qəsdlə olmayan, xəta ilə baş verən hallar istisnadır.

**Üçüncüsü məsələ:** Bəzi İslam alimlərinin bu hədisə münasibəti; İbn Həcər (Allah ona rəhmət etsin) şübhədə qeyd olunan hədisdə Peyğəmbərimizin ﷺ "onlar da onlardandır" sözünü izah edərkən belə deyir: "Yəni, həmin halın hökmündə onlardandırlar. Yoxsa bu, onları qəsdli bir şəkildə qətl etməyin icazəli olması mənasına gəlmir.

Əksinə, məna odur ki, əgər (vuruşan) atalara (kişilərə) çatmağın yolu yalnız onları qadın və uşaq toplandığı yerdə ələ keçirməkdirsə, qarışıqlıqdan dolayı (qəsdli olmadan) baş verən qətl halı icazəlidir"(6).

Nəvəvi isə رحمه الله demişdir: "Bu qəsd olunur ki, zərurət olmadan, lakin qəsdli şəkildə olmasın. Öncəki hədis isə qadın və uşaqların öldürülməsinin qadağan olunması haqdadır. Yəni əgər (döyüş vaxtı) qadın və uşaqlar (kişilərdən) seçilərsə (yəni aydın bir şəkildə müşahidə olunarlarsa) onları qətl etmək olmaz"(7).

Cavabımızı uca Allahın bu ayəsi ilə yekunlaşdırırıq:
**"Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir".** (Əl-Bəqərə. 190).

***Sonda aydın olur ki,*** *bu haqda gətirilən şübhə batildir və İslam dini döyüş zamanı qadın, uşaq,*

*körpə, yaşlı zəif kim varsa, hamısının qətlini qadağan etmiş, yalnız döyüş meydanında vuruşanlarla vuruşmağı icazəli görmüşdür.*

## İstifadə edilmiş ədəbiyyat:

1 – Mənbə: Səhih Muslim, Cihad kitabı, hədis 1745; Səhih Buxari, Cihad kitabı, hədis: 3012. Əbu Davud, Sunən, Cihad kitabı. hədis: 2669.
2 – Buxari. 3015. Müslim. 1744.
3 – Sünən Əbi Davud. 2614; Beyhəqi. 18617; İbn Əbi Şeybə. 33790.
4 – Səhihi Müslim. 1731; Sünən Əbu Davud. 2613.
5 – Sünən əl-Kubra. Beyhəqi.17934.
6 –Fəthul-Bari fi Şərh Səhih əl-Buxari. 6/255.
7 –Şərhu Səhih Müslim. Nəvəvi. 12/75.

## Ruzi haqqında bir şübhəyə cavab.

***Şübhə belədir:*** *İtaət ruzini artırır, asilik ruzini aparırsa, nə üçün dindar kasıb olur?*

*Cavabımızı qısa cavab və ətraflı cavab olaraq iki hissəyə böləcəyik. Qısa cavabımız belədir:*

"Ruzi" sözünün mənası təkcə "mal-mülk, pul" deyil. Ruzinin müxtəlif növləri var: Elm, saleh nəsil, saleh həyat yoldaşı, qəlb rahatlığı, hüzur, din, gözəllik və s. Bəli, itaət ruzinin artmasının səbəblərindəndir. Lakin "ruzi itaətlə artır deyəndə" mütləq şəkildə insanın varlanması qəsd olunmur. Ola bilsin ki, itaət bəzi insanların varlanmasının da səbəbi olsun. Amma kimisinin qəlbinin hüzurunu, kimisinin saleh zürriyyətini, kimisinin elmini və s. də artıra bilər. Elmin artması insanı alim etmədiyi kimi, malın artması da nisbidir, hər malı artan da varlı sayılmır. Deməli, "itaətlə ruzi artır" deyildikdə daha geniş məna qəsd olunur, mütləq şəkildə kiminsə varlanmasından söhbət getmir. Qısa cavabımız budur.

Ətraflı və təfsilatlı cavabımıza gəldikdə isə:

**Birincisi:** Gəlin, öncə "ruzi" sözünün mənasına baxaq; Dilimizə "ruzi" sözü olaraq tərcümə olunan ərəb əsilli "rizq" sözü haqqında deyirik ki, Ərəb dilinin qrammatikasında ruzi "əta, pay, nəsib" kimi mənaları ifadə edir (1). Terminoloji mənada isə "ruzi" : Canlı varlıqların həyatının maddi və mənəvi cəhətdən təmin edən şeylərdir (2). Dində "ruzi" deyildikdə təkcə, mal-mülk və ya pul nəzərdə tutulmur. "Ruzi" deyildikdə bura sağlamlıq, gözəllik, qəlb rahatlığı, hüzur, insanların sevgisi, gözəl, saleh zürriyyət, yəni saleh bir nəsil, elm və s. kimi şeylər nəzərdə tutulur(3). Dindar üçün hələ ən üstün ruzilərdən biri də din ruzisidir, dində sabitlik ruzisi də var ki, bu hər kəsə nəsib olmur.

**İkincisi:** Ruzinin artması dedikdə, dindarın mütləq mənada kasıb və ya varlı olması kimi bir məna çıxartmaq nisbi bir məsələdir. Mövzunu bu şəkildə qoymaq obyektivlikdən uzaqdır. Kifayət qədər varlı dindarlar da var, kasıb dindarlar da var. Hətta dindarlığının nəinki ruzi qazanmasına mane

olan, əksinə ruzi qazanması üçün ən mühüm amillərdən biri olduğunu etiraf edən nə qədər dindar var. Dindar olduqdan sonra həyatı nizama düşən, dinsizlikdəki nizamsız həyatdan dindarlığın nizamlı həyatına düşüb İslamın bir faydalı həyat tərzi olduğundan dolayı həyatı bərəkətlənən nə qədər insan var. Bərəkətin mənası haqqında az sonra danışarıq. Gəlin, bir Quran ayəsi qeyd edək, görək ayədə itaətlə ruzi əlaqəsi necə ifadə edilib? Uca Allah buyurur : "وَمَنْ يَتَّقِ اللَّهَ يَجْعَلْ لَهُ مَخْرَجًا * وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ" (Kim Allahdan qorxarsa, ona çıxış yolu verər və onu ummadığı yerdən ruziləndirər). (Talaq. 2-3). Ayədəki Allah qorxusu da Allaha itaətdən olduğu üçün, diqqət yetirsək, nəticə etibarilə Allahdan qorxanın varlanacağı deyilmir, deyilir ki," ummadığı yerdən ruzilənər". Yəni həyatını davam etdirmək üçün gərəkən ruzisi təmin olunar, köməksiz qalmaz. Gəlin, nemətlərin itaətlə artması haqqında başqa bir ayə oxuyaq. Uca Allah buyurur (وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِن شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ ۖ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ): " O zaman Rəbbiniz belə bildirmişdi: “Əgər şükür etsəniz, sizə olan nemətimi artıraram, yox əgər nankorluq etsəniz, bilin ki, Mənim əzabım

şiddətlidir.” (İbrahim. 7). Ayədən göründüyü kimi, nemətlərin artması vədi ümumi vəd olub həm bu dünyanı, həm də axirəti ehtiva edir.

Bu dünyada ruzinin itaətlə artmasına: nemətlərin qalıcı olması, qorunması, nemətlərin artması və davamlı olması, dində doğru yol, doğru istiqamət üzərində olmaq və nemətlərin xeyir yollarında istifadə edilməsini misal çəkmək olar.

Axirətdə ruzinin artmasına isə: ibadətin səmərəsi olaraq mükafatın artıqlaması ilə verilməsi (çoxsaylı ayə və hədislər buna dəlalət edir), imanın şirinliyini dadmaq neməti elə bir nemətdir ki, səmərəsi, faydası axirətə qədər gedib çıxır və bəndənin axirət dərəcələrini artırır. İbadətin (itaətin) səmərəsi də axirətdə onun dərəcələrini artıracaq!

Deməli, ayədə konkret olaraq varlanmaqdan söhbət getmir. Təfsir alimləri də bunu belə başa düşməyiblər. İbn Cərir ət-Təbəri رحمه الله deyir ki: "burada "artma" deyildikdə nemətlərin artması və

əzabdan qurtuluş nəzərdə tutulur" (4). Əbdür-Rəhman əs-Sədi رحمه الله isə bu ayədə barədə deyib: "Burada" şükür etmək" deyildikdə olan nemətləri əldə saxlamaq, itirilmiş nemətləri isə ovlamaqdır(5).

**Üçüncüsü:** Uca Allah insanları müxtəlif yaradıb, varlı kasıb olmaq da bu müxtəlifliyin bir hissəsidir. Lakin, sualda qeyd olunan itaət nəticəsində ruzinin artması heç də insanın varlanması mənasında deyil. Çünki nəyinsə artması başqa məsələdir, hansı həcmdə artması və bu artımın qorunması, faydalı olması isə başqa başqa məsələdir. Ona görə də İslam dinində "bərəkət" anlayışı mühümdür. İslamda kəmiyyətə deyil, keyfiyyətə baxılır. Kiminsə malı çox olub bərəkəti olmaya bilər, lakin kiminsə malı kifayət edən qədər olub bərəkətli ola bilər. Bərəkət sözü "xeyrin sabit və davamlı olması" deməkdir .(6)

**Dördüncüsü:** Bəzən dünya malının insana çoxlu gəlməsi insanın bilmədən və ya tədricən yolunu azmasına səbəb olur. Buna İslam

terminologiyasında istidrac (7) deyilir. Bu haqda hədislərdən birində Muhəmməd Peyğəmbər ﷺ buyurur: **"Əgər sən bir bəndənin günahlara yol verdiyi halda sevdiyi şeylərin ona verildiyini görsən, bu, onun üçün yalnız bir istidrac olar".** (8). "İstidrac" sözünün terminoloji mənası haqqında bir çox alimlər danışıblar. Süfyan əs-Sövri demişdir: "Allah onlara bol-bol nemətlər verər və şükür etməyi unudarlar". İbn Cərir demişdir: "İstidracın əsli ona yaxşılıq edənin lütfünə aldanıb sonda pis duruma düşməkdir". (9) yəni, insan ona verilmiş nemətlər sayəsində tədricən yolunu azır, arxayınlaşır və həlak olur. Mövzunun sonunda bu məsələni qeyd etməyimiz yerinə düşər, hətta heç kim əlindəki mal-mülk ilə qürurlanmasın və möminlərə qarşı da bununla öyünməsin. Bununla yanaşı, varlı möminlər də var. Təəssüf ki, imansızlar mal-mülk ilə daha çox öyünürlər. Bir hədisdə Peyğəmbər ﷺ belə buyurur: "Allah mal-mülkü istədiyinə də verir, istəmədiyinə də, imanı isə yalnız istədiyinə verir"(10).

## İstifadə edilmiş ədəbiyyat:

1 - The Arabic Lexicon saytı. Ruzi (rizq) sözünün mənası باب الرزق .

2 - Lisanul-Arab. İbn Mənzur. Ruzi (rizq) sözünün mənası باب الرزق .

3 - Bax: Ərəbcə şeir : ليس الشرط أن يوكون الرزق مالا. محمد الدوغان

4 - Bax, Təbərinin təfsiri. Ibrahim 7.

5 - Bax, Əbdür-Rəhman əs-Sədi. Ibrahim. 7.

6 - ər-Təbərrük ənvauhu və əhkəmuhu. səh. 37-38.

7 - İstidrac: İnsan asilik, günahlar etdiyi halda ona nemətlər gəlməyə davam edir və o tədricən həlak yoluna yaxınlaşır. (Müəllif) .

8" - Səhih əl-Cami". Albani. 561.

9 - İbn Cəririn təfsiri. 10/600.

10 - Səhih Ədəbul-Mufrad. Albani. 209.

## "Milçək hədisi" barədə şübhəyə cavab

**Şübhə belədir**: Bir hədisdə İslam peyğəmbəri içəcəyinə milçək düşən kimsənin o milçəyi çevirib o biri qanadını da içəcəyinə batırıb çıxarmağı tövsiyə edib və deyib ki, bir qanadında şəfa, digərində isə xəstəlik var. Bunu necə başa düşək?

**Cavab belədir:** Cavabımız iki qismə bölünür. Qısa cavab və ətraflı cavab. Qısa cavabımız belədir: Bu hədis mötəbər hədisdir. Ən əsas ləfzi Səhih əl-Buxari əsərində verilib. Hədisin peyğəmbər tərəfindən sabit yolla gəlməsi bizə məlum olduqda yəqin şəkildə bilirik ki, bu hədis heç cürə nə ağla, nə də elmə zidd ola bilməz(1). Çünki hədis bəzilərinin qərəzli və yanlış bir şəkildə iddia etdiyi kimi milçəyin qanadının bütün xəstəliklərə şəfa olduğunu bildirmir. Yaxud bu hədis bəzilərinin iddia etdiyi başqa həşəratların qanadına yozulan batil mənaları özündə daşımır. O cümlədən də bu hədisin mənası milçəyin qanadını dərman kimi istifadə etmək tövsiyəsini də özündə daşımır. Hədisin mənası açıq-aydındır, deyilir ki, milçəyin bir qanadında zəhər, digərində isə

panzəhər var. Milçək içiləsi bir şeyin və ya qidanın içinə düşərsə, birinci zəhər olan qanadını salır, bunu görən kimsə onun panzəhər olan qanadını eyni yerə daxil etdikdən sonra milçəyi tullayır. Hər bir halda milçək eyni yerə düşüb və eyni yerdə qeyd edilən prossesə riayət edildikdən sonra milçək atılır. Hədisin ilk hissəsi ikinci hissəsini məntiqi olaraq təsdiqləyir. Çünki ağıl sahibi bir insan bilir ki, əgər milçəyin iki qanadından biri zəhər, digəri isə panzəhər daşıyırsa, bu iki maddə eyni yerə daxil edilməlidir. Deməli, əqli cəhətdən burada bir problem yoxdur. Qalır mövzunun elmi isbatına, elm də isbat edir ki, milçəyin bir qanadında zəhər, digərində isə panzəhər var və qarşıda bunun ətraflı izahı veriləcəkdir. Mövzunu emosional tərəflərə və ya milçəkdən iyrənmə aspektinə çəkmək doğru deyil. Çünki kimsə milçəyi qəsdən boşqabına atmır, bu hədisdə bir müsəlmanın real həyatda başına gələ biləcək normal bir duruma necə reaksiya verməsinin gərəkdiyi izah edilir.

• *Ətraflı cavabımıza gəldikdə isə cavabımız belədir:*

**Birincisi:** <u>Hədis nə dərəcədə mötəbərdir?</u> Hədisin isnadına gəldikdə bəziləri hədisi inkar eləməyə çalışıblar. Halbuki bu hədis səhihdir və çoxsaylı yollarla varid olmuşdur. Hədisin digər ləfzlərini yox. Məhz ən mötəbər qaynaqda verilmiş ləfzi oxuculara təqdim edirik: Əbu Hüreyrədən rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: "Sizdən birinin içəcəyinə milçək düşərsə, qoy onun (o biri tərəfini içəcəyinə) batırsın, sonra çıxarsın. Çünki onun bir qanadında xəstəlik var, digər qanadında isə şəfa var". (2). Hədisin müxtəlif ləfzlərində bir qanadı üstə yeməyə düşən milçəyin digər qanadını yeməyə batırdıqdan sonra onu çıxarıb "tullamaq", "atmaq", "qovmaq" kimi mənaları ifadə edən sözlər işlənib. Bu hədisə digər hədis mənbələrində də rast gəlmək mümkündür. Məsələn, Nəsai "Sünən" əsərində(3), İbn Macə "Sünən" əsərində(4), Əbu Davud "Sünən" əsərində(5), imam Əhməd "Müsnəd" əsərində(6) və başqaları mötəbər yollarla rəvayət etmişlər. Bu hədislər əsasən peyğəmbərin dörd səhabəsi tərəfindən nəql edilmişdir. Əbu Hureyrə, Əbu Səid əl-Xudri, Ənəs ibn Malik və Əli ibn Əbu Talib.(7)

Bu hədis ən çox etiraz edilən hədislərdəndir, ağılla və elmlə uyğun gəlmədiyi iddia edilir. Bu haqda çox araşdırmalar edilib, xüsusi yazılar yazılıb, iddialara cavablar verilib və bu cavab yazıları olduqca çoxdur.

**İkincisi: Hədis təcrübi elmə ziddirmi?**

Bu hədisə etiraz edənlər əsasən üç iddia irəli sürüblər:

**1** – İddia ediblər ki, guya hədisdə milçək qanadının bütün xəstəliklərə faydalı olmasına ümumi şəkildə dəlalət edən məna var. Çünki, hədisdə milçəyin qanadının şəfa olması qeyd olunub. **2** – İddia edilir ki, bu hədisdə bütün uçan həşəratların da bu vəsfə malik olmasına dəlalət edən məna var. Guya bu yalnız bildiyimiz milçəyə aid deyil. **3** – İddia edilir ki, Tibb elmi milçəyin qanadında nə bir xəstəlik, nə də bir şəfa kəşf etməmişdir.(8)

**Birinci və ikinci** iddiaya gəldikdə, burada batil iddia və qərəzli yanaşma var. Bu kimi sözləri

müsəlman alimlərindən heç kim deməmişdir. Qeyd edilən dərman (şəfa) yalnız milçəyin digər qanadında olan xəstəliyə qarşıdır və ümumi olaraq bütün əstəliklərə aid deyil. Bu məna eyni hədisin gedişatından anlaşılır. Müsəlman alimlər də bunu belə başa düşüblər(9). Peyğəmbərin ﷺ bu mövzuda olan bütün hədislərdə "milçək" sözünü işlətməsi dəlildir ki, hədisdəki məna digər həşəratlara deyil, milçəyə aiddir. Bu məna aydın və aşkardır, hədisin zahiri mənasından başqa bir şeyə dəlalət yoxdur və ümumən də müsəlman alimlər belə başa düşüblər. Əgər kimsə dərmanla dolu bir aptekə girsə, orada olan bütün dəva (və ya şəfa) vasitələrinə dəva (dərman) deyilməsi doğru hesab edilər. Bununla yanaşı hər kəs ittifaq edib ki, bu dəvaların (dərmanların) hamısı bir dərman növüdür, lakin bunlar müəyyən bir xəstəliklərə dərman olmaq üzrə çərçivəlidir.(10).

**Üçüncü** iddiaya gəldikdə isə, bu iddia nəyinsə olmadığını bilməyə o şey haqqında bir bilginin olmamasını dəlil gətirməkdir, hansı ki bu, əqli cəhətdən yanlışdır .(11)

Əllamə Müəllimi رحمه الله demişdir: "Təbiət

alimləri etiraf edirlər ki, onlar hər bir şeyi elmləri ilə əhatə edə bilmirlər. Onlar hələ də bəzi şeylər yavaş-yavaş kəşf edirlər. Əbu Riyyə və onun kimiləri onlara təbiət elmindən hələ çatmayan bir məsələni Allahın öz elçisinə ﷺ agah etməsini hansı iman ilə inkar edirlər?! Budur, şəriəti ortaya qoyan elə təbiəti yaradan və idarə edəndir! Uca Allah bilirdi ki, bəndələrindən bir çoxu yaşayış sıxıntısı içində olacaqdır! Ola bilsin ki, onlardan birinin qidası ancaq içəcəyi süd qədər olsun. Əgər onlara öyrədilsə ki, qidaya milçək düşəndə onun hamısını yerə tökmək lazımdır, bu onların malını zay etmək olar, onlara ağır gələr. Elə isə bu hədis həmin insanlara bir yardım qəbilindəndir. Hər kim ki, Allah və onun elçisini ﷺ təsdiqləmək olaraq (qidasına düşdüyü zaman) milçəyi iyrənc hesab etmək məsələsində öz nəfsinin havasına və təbiətinə müxalif olarsa, Allah ondan zərəri dəf edər. Beləcə, (qidaya) batmamış hissənin batırılması, batmış hissənin gətirdiyi zərəri aradan qaldırar. Təbiət alimləri də inanc (etiqad) gücünün böyük bir təsirinin olmasını təsdiqləyirlər. Gör indi mənşəyi Allaha və peyğəmbərə ﷺ bağlı olan bir etiqad nə qədər təsirli təsirlidir?!" (12). Buna

baxmayaraq, keçmişdə bu barədə savadsızlıq anlaşılan bir hal idi. İndi isə, elmin inkişaf etdiyi bir zamanda milçəyin bir qanadında olan mikrobların mövcudluğunu, digər qanadında isə bunun əksinin olduğunu bilmək asandır. Bu haqda çoxsaylı araşdırmalar edilmişdir.

**Üçüncüsü: Milçəklərin daşıdığı zəhər və ya bakteriyalarla bağlı elmi araşdırmalara gəldikdə isə:**

Muhəmməd peyğəmbərin ﷺ haqqında danışdığımız hədisinə fikir versək, milçəyin qanadında zəhər və panzəhərin olması ilə bağlı iki məlumat verilir; milçəyin bədənindəki zəhər, bakteriya və s. ilə bağlı mövzunu bu günün elmi müxtəlif formalarda da olsa təsdiqləyir. Bu haqda internet üzərindən də kiçik bir araşdırma etməklə sadə məlumatları əldə edə bilərsiniz. Həmçinin, bu mövzunu "milçəyin bir qanadında toksin, digərində isə antitoksin var" deyə müzakirə edə bilərsiniz. Yaxud da bunu "zəhər" və "panzəhər" ifadələri ilə edə bilərsiniz. O cümlədən də, "bakteriya" və "antibakteriya maddəsi" ifadəsini

seçə bilərsiniz və ya "bir qanadında dərd, digərində dərman vardır" deyə ifadələr seçə bilərsiniz, necə ki, bu mövzunun müzakirəsində belə ifadələrdən istifadə olunur. Hər bir halda fikir aydındır.

• Keçək bəzi araşdırmalar barədə məlumatlara, hansı ki, bu haqda məlumatların yayılmasına ehtiyac var və bəziləri bu məlumatların yayılmasında maraqlı deyil. Keçən əsrin əvvəllərində həm müsəlman, həm də qeyri-müsəlman tibb alimlərinin milçək hədisinin doğruluğuna dair verdikləri şəhadətlər və faktlar mövcuddur. Bunlardan biri İngiltərənin "Təcrübi Tibb Jurnalı"nın (1927-ci il, 1307-ci say) dərc olunan və tərcüməsi belə olan məlumatdır:

"Milçəklərə bəzi xəstəliklərin mikrob kulturası yedizdirilmiş və bir müddət sonra həmin mikrobların məhv olduğu, izlərinin itdiyi müəyyən edilmişdir. Milçəyin bədənində «bakteriofaq» adlanan toksik (zəhərli) bir maddə formalaşır. Əgər milçəkdən duzlu məhlul vasitəsilə ekstrakt (xülasə) hazırlansa, bu, xəstəlik törədən dörd növ mikrobu məhv edə bilən «bakteriofaq» ilə zəngin olar. Bəzi

qərbli həkimlər də bu barədə yazmışlar". Bununla da, bəzi səhlənkarların yalan hesab etdiyi bu hədisin, Rəsulullahın ﷺ doğruluğuna dair ən güclü elmi möcüzələrdən biri olduğu üzə çıxmışdır.(13)

• Mahmud Kamal və Məhəmməd Əbdülmunim Hüseyn adlı həkimlərin “Milçək hədisində tibbin sözü” (14) adlı, elmi mənbələrlə dəstəklənən dəyərli bir araşdırmaları var. Orada qeyd olunur ki, bəzi avropalı alimlər (1947-1950-ci illər arasında) milçəkdən dizenteriya, tif və vəba mikrobları da daxil olmaqla müxtəlif mikrobları öldürən antibiotiklər hasil etməyi bacarıblar.

• Alimlərin və tədqiqatçıların – xüsusilə tibb və xəstəliklərin müalicəsi sahəsində – bu şərəfli hədisin daşıdığı möcüzəyə işıq salan şəhadətləri və faktları hələ də ard-arda gəlməkdədir. Yaponiyanın Tokio Universitetinin professoru Xuan Alvares Bravo (Juan Alvarez Bravo) deyir: "İnsanın qəbul edə biləcəyi ən son şey xəstəxanada milçək görməkdir! Lakin tezliklə biz milçəkdən əldə edilən bir çox xəstəliklərin effektiv müalicəsinin şahidi olacağıq!(15).

Bu professorun proqnozlaşdırdığı kimi, artıq baş verdi: "Auburn" universitetinin bir qrup tədqiqatçısı milçək tüpürcəyində xroniki yaraların və dərinin çatlamasının sağalmasını sürətləndirə bilən zülal kəşf edərək patent alıblar (16).

Təxminən iki il sonra Stanford Universitetinin tədqiqatçıları milçəklərdə insanın immun sistemini gücləndirə bilən bir maddəni ilk dəfə aşkar etdiklərini elan etdilər(17).

• Milçəklərin bədənlərində antibiotikin olması elmi təcrübələrlə müəyyən edilmişdir. Bir qrup avstraliyalı tədqiqatçı (2012-ci ildə) bütün səylərini bunun üzərinə cəmləmişdir. "Makkuori" universitetinin (Macquarie University) "Bioloji Elmlər" şöbəsində bir qrup tədqiqatçı, milçəklərin çürük ət, meyvə və peyin də daxil olmaqla, hər cür çirkaba qarşı dözümlü olması nəzəriyyəsindən yola çıxaraq, milçəklərin sahib olduqları bu antibakterial xüsusiyyətləri müxtəlif inkişaf mərhələlərində üzə çıxarmaq üçün araşdırmalar aparıblar.

Melburn Mikrobiologiya Konfransı"nda öz elmi heyətinin yeni kəşfini təqdim edən xanım Coan Klark (Joanne Clarke) deyir: "Bu iş yeni antibiotiklərin tapılması üçün aparılan qlobal araşdırmaların kiçik bir hissəsidir, lakin biz daha əvvəl heç kimin baxmağı ağlına gətirmədiyi bir yerə diqqət yetirdik." Onun bəhs etdiyi bu layihə həm də doktorluq dissertasiyasının bir hissəsidir.

Xanım Klark bildirir ki, mədədə baş verən antibakterial xüsusiyyətlər milçəyin bədənində də mövcuddur və biz bu aktivliyi hər iki yerdə görə bilərik. O, həmçinin əlavə edir: "Milçəyin bədəninə fokuslanmağımızın səbəbi, onun daha asan ayrışdırıla bilən strukturda olmasıdır".(18).

• Bu mövzuda aparılmış ən güclü tədqiqatlardan biri Misirin Əzhər universitetinin "Elmlər" fakultəsinin tibbi entomologiya professoru və xəstəlik daşıyan həşəratların tədqiqi mərkəzinin direktoru, professor Dr. Mustafa İbrahim Həsənin "Milçəyin qanadlarında xəstəlik və dərman (الداء والدواء في جناحي الذباب) başlıqlı tədqiqatıdır(19).

Tədqiqat birbaşa üç növ müxtəlif milçəyin qanadları üzərində aparılmış və hədisdə deyilən həqiqəti təsdiqləmişdir.

Səudiyyə Ərəbistanının Qassim (Qasım) Universitetinin (20) "Tibbi Mikrobiologiya" Bölməsində aparılan bir təcrübənin nəticələri bunun elmi məntiqini sübut etmişdir. Araşdırmada keçən "kültürlü su" ifadəsi, suyun tərkibindəki mikroorqanizmləri (bakteriya, göbələk və s.) müəyyən etmək üçün laboratoriya şəraitində aparılan mikrobioloji analiz metoduna aiddir. Aparılan təcrübə və nəticələri belədir:

**TƏCRÜBƏ A:** Kultivasiya edilmiş (nümunə götürülən) su, steril su olan qabdan götürülmüşdür və qaba milçək düşmüşdür (Milçək suya batırılmamışdır). Kültür təcrübəsi üçün qabdan götürülən suda E. Coli tipli patogen (mikrob yaradan) bakterial çoxalma görülmüşdür.

**QAB 1**: Kultivasiya edilmiş su eyni mənbə qabından götürülmüşdür. Bu dəfə milçək suya tamamilə batırılmışdır. Qab 2-də (A təcrübəsində)

görülən bakterial çoxalmanın tamamilə yox olduğu aydın görünür. Qab 1-də çoxalan yeni bakteriya Actinomyces (Aktinomiset) kimi tanınır və faydalı antibiotiklər bundan əldə edilir. Bunun Qab 2-də (A təcrübəsində) olan bakterial çoxalmanı necə əngəllədiyi aydın şəkildə görünür(21).

**TƏCRÜBƏ B**: Təcrübə "A"-nın eynisidir, lakin bu dəfə başqa bir milçəklə aparılmışdır.

**QAB 2**: Kültürlü su nümunəsi steril su olan qabdan götürülüb və qaba milçək düşüb (milçək suya batırılmayıb). Kültür təcrübəsi üçün qabdan götürülən suda Corynebacterium [Diphtheroid (Difteriya basili) tipli Patojenik (mikrob törədən)] bakterial çoxalma müşahidə olunub.

**QAB 1**: Kültürlü su nümunəsi eyni mənbə qabından götürülüb. Bu dəfə milçək suya tamamilə batırılıb. Qab 2-də müşahidə olunan bakterial çoxalmanın tamamilə yox olduğu aydın görünür. Qab 1-də çoxalan yeni bakteriya Actinomyces (Aktinomiset) kimi tanınır və faydalı antibiotiklərin %70-dən çoxu bundan əldə edilir.

Bunun Qab 2-dəki bakterial çoxalmanın qarşısını necə aldığı aydın görünür(22).

**TƏCRÜBƏ C:** Bu, əvvəlki təcrübələrin eynisidir, lakin fərqli bir milçəklə aparılmışdır .

**QAB 2**: Kültürlü su nümunəsi steril su olan qabdan götürülmüş və qaba milçək düşmüşdür (Milçək suya batırılmamışdır). Kultur təcrübəsi üçün qabdan götürülən suda Staphylococcus sp. [(Stafilokokk Tipi) Patogen (mikrob törədən)] bakterial çoxalma müşahidə edilmişdir.

**QAB 1**: Kültürlü su nümunəsi eyni mənbə qabından götürülmüşdür. Bu dəfə milçək suya tamamilə batırılmışdır. Qab 2-də görünən bakterial çoxalmanın tamamilə yox olduğu aydın şəkildə görünür. Qab 1-də çoxalan yeni bakteriya Actinomyces (Aktinomiset) olaraq bilinir və faydalı antibiotiklər bundan əldə edilə bilər. Bunun Qab 2-də olan bakterial çoxalmanın qarşısını necə aldığı aydın şəkildə görünür.

Salmonellas (Salmonella) + proteus sp. tipli xəstəlik törədən başqa bakteriya növlərində də eyni

nəticələr alınmışdır.

Mikrobiologiyadakı ən son araşdırmalar Peyğəmbərin ﷺ XV əsr əvvəl bildirdiyi tövsiyənin tibbi izahını verməklə, sanki onu təsdiq edir (23).

• Bu tipli bəzi tədqiqatlar ərəbcə yazılmış "Milçək hədisi möcüzəsi" adlı kitabçada nəql edilir; Bu araşdırmaları nəql edib yazını çox uzatmaq istəmirik, doğrudan da bu mövzuda çoxsaylı araşdırmalar var. Qeyd edilən kitabçada araşdırmalar bütün detalları və sənədlərinin surətləri ilə verilmişdir. Həmin araşdırmalardan Misirdə yerləşən "Milli Araşdırmalar Mərkəzi مركز) " (القومي للبحوث tabeçiliyində Sara Muhəmməd Ata tərəfindən edilmişdir. Araşdırma göstərmişdir ki, ev milçəyinin sağ qanadı sol qanadından fərqli olaraq məhlula batırıldığı zaman onu dezinfeksiya edə bilir. Digər bir araşdırma isə 2021-ci ildə İndoneziyanın "Sumatra" universitetinin "Elmlər" fakultəsində xüsusi elmi araşdırma heyəti tərəfindən edilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, milçəyin bir qanadında

olan bakteriya digər qanadında olan bakteriyanı öldürür. Digər bir araşdırma isə Misir və Səudiyyə Ərəbistanının iki universiteti arasında ("Ciddə" universiteti və "Yeni Vadi" universitetinin "Biologiya kafedraları) müştərək bir elmi araşdırma olaraq 2022-ci ildə aparılmışıdır. Bu araşdırma da eyni həqiqətləri ortaya qoymuşdur. Həmçinin 2022-ci ildə İndoneziyanın "Darus-Salam" universitetində beş araşdırmaçı tərəfindən milçəklər üzərində tədqiqat aparılmış və bu tədqiqatın nəticələri dünyaca məşhur PUBMED tibbi saytında yayımlanmışdır. Tədqiqat "Muska Domestika milçəyinin sağ qanadı – içkilərin mikroblara bulaşmasından bir qoruyucu kimi" adıyla işlənmişdir. Tədqiqatçılar milçəyin sağ qanadındakı panzəhərin mövcudluğunu təsdiqləmişlər (24).

## Qeydlər və istinadlar:

1 – Əksinə bu hədis Peyğəmbərin həqiqi, Allah tərəfindən olan peyğəmbər olduğunu göstərən əzəmətli hədislərdəndir.
2 – Səhih əl-Buxari. Yaradılışın başlanması kitabı.

(4/130). No: 3320.
3 – Nəsai "Sünən". "Faru vəl-Atira" kitabı. "Milçək qabın içinə düşərsə" fəsli. (7/178). No: 4262.
4 – İbn Macə "Sünən". "Tibb" kitabı. "Milçək qabın içinə düşərsə" fəsli. (4/540). No: 3504.
5 – Əbu Davud "Sünən". "Yeməklər" kitabı. "Milçək yeməyə düşərsə" fəsli. (5/654). No: 3844.
6 – Əhməd "Müsnəd". (12/46). No: 7141 və (14/187). No: 8485 və (15/448). No: 9719.
7 – Məzin əl-Hədisinin "Tənbihul-Əlbəb li-İcəz Hədisuz-Zubəb" adlı məqaləsi.
8 – Dava Təarudus-Sünnə ən-Nəbəyiyyə məal-İlmit-Təcribi. Dr. Raşid əl-Həciri. Səh. 260.
9 – Öncəki mənbə. Səh. 260.
10 – Sünnə haqqında şübhələr. Əbdür-Rəzzaq Afifi. Səh. 52-53.
11 – Dava Təarudus-Sünnə ən-Nəbəyiyyə məal-İlmit-Təcribi. Dr. Raşid əl-Həciri. Səh. 260.
12 – Əbdür-Rəhman əl-Müəllimi əl-Yəməni. "əl-Ənvar əl-Kəşifəh". səh. 221.
13 – Bax: "əl-Mənar" jurnalı (29/372) və Əbu Şuhbənin "Sünnənin müdafiəsi və müstəşriqlərin şübhələrinə cavab" (səh. 170).

14 – Bax: Əbu Şuhbə, 'Difa’ anıs-Sunnə', s. 170 və ardı.
15 – The ointment in the fly: antibiotics, The Economist, December 3, 1994.
16 – Bax: Protein in Fly Saliva Speeds Healing of Incisions, Wounds, Auburn University, 23 Jan. 2005.
17 – Fruit Fly Insight Could Lead To New Vaccines, Stanford University, March 11, 2007. "Kəhil Elmi Möcüzələr" ensiklopediyasından götürülmüşdür.
18 – keçid: https://www.abc.net.au/science/articles/2002/10/01/689400.htm daxil olma tarixi: 12-05-2026.
19 – Verilmiş keçiddən daxil olaraq 20 səhifəlik kitabçada araşdırmanın ərəbcəsi ilə tanış ola bilərsiniz. Keçid: http://www.eajaz.org/pdf/12.pdf Daxil olma tarixi: 12-05-2026.
20 – Qasım (Qassim) universitetinin beynəlxalq aləmdə və Səudiyyə ərəbistanındakı reytinqi barədə:
"Qassim Universiteti, beynəlxalq rəqabətə vəsiqə qazanan 8 Səudiyyə universiteti arasında 2023-cü il Beynəlxalq Yaşıl Universitetlər (Greenmetric)

reytinqində Səudiyyə universitetləri arasında birinci, ərəb ölkələri arasında ikinci və dünyada 1183 universitet arasında 62-ci yeri tutaraq böyük uğur əldə edib. Keçən il 153-cü yerdə olan universitet, bu il 90-dan çox pillə irəliləyərək elmi tədqiqatlar, təhsil prosesi, infrastruktur və tələbə fəaliyyətlərində davamlılıq standartlarına cavab verib, həmçinin ağacəkmə, suyun təmizlənməsi və enerjiyə qənaət kimi ekoloji təşəbbüsləri fəallaşdırıb. Universitet bu reytinqdə son illərdə sürətlə irəliləyir: 2019-cu ildə dünyada 342-ci, 2020-ci ildə 293-cü, 2021-ci ildə 151-ci, 2022-ci ildə isə 1050 universitet arasında 153-cü yerdə olmuşdur". Mənbə:
https://www.qu.edu.sa/d_news/3403/ Qasım universitetinin rəsmi saytına istinadən. Regional Reytinqlər: QS-in 2025-ci il üçün ərəb regionu üzrə reytinqində 48-ci yerdə qərarlaşıb. U.S. News & World Report: "Ən Yaxşı Qlobal Universitetlər" siyahısında 913-cü yerdə (Səudiyyə Ərəbistanında 21-ci) göstərilir. Bu məlumatlarla yanaşı, Qasım (Qassim) universiteti dünya üzrə 601-ci pilləyə yüksələrək əvvəlki illə müqayisədə 200 pillə irəliləmişdir. (Bax: Times Higher Education (THE)

World University Rankings 2025). Qeyd: bu qeydlər müxtəlif satatistikalar üzrə dəyişə bilər.

21 – https://sorularlaislamiyet.com saytında "Sineğin bir kanadında zehir, diğer kanadında panzehir olduğuna dair hadis var mıdır; yorumu nasıldır?" adlı məqalə. Daxil olma tarixi: 12-05-2026 .

22 – Öncəki mənbə.

23 – Öncəki mənbə.

24 – Daha ətraflı şəkildə bax: "Milçək hədisi möcüzəsi" kitabçasının ərəbcəsinin pdf variantı. Keçid : https://archive.org/details/20250129_20250129_1535/page/15/mode/2up Daxil olma tarixi: 12-05-2026.

# KİTABIN İÇİNDƏKİLƏR:

Ön Söz......................................................................3
Sevdiklərin cəhənnəmə düşərkən sən cənnətdə necə kef çəkəcəksən?.........................................7
İslamda kərtənkələni öldürmək əmrinə qarşı çıxanlar!..................................................................12
Allah bütün yəhudiləri lənətləyib?.......................32
Kafirlərin yaxşı əməllərinə görə savab varmı?.......................................................................42
Təkamül nəzəriyyəsinə münasibət......................48
Nəhəng insanlar, Adəmin uca boyu, insanların kiçilməsi....................................................................61
Allah tez-tez peyğəmbər göndəribsə, deməli səhv edib?.........................................................................77
Nə üçün Allah Quranda bəzən "biz", bəzən "mən" deyə xitab edir?...............................................83
İslamdakı "Amin" sözü "Amon" tanrısının adıyla bağlıdır?......................................................................88
"Kəbənin içi boşdur, orada Allahı görmədik!" iddiası.......................................................................96
Oğlana iki, qıza bir qurban kəsmək haqqında....101
Adəm peyğəmbər olubmu?.............................105
Qadın və kişi geyiminin fərqinə aid şübhəyə

cavab.........................................................109
Minlərlə insan acından ölür axı!........................118
Kafirlərin etdiyi kəşfləri istifadə edirsiniz!........123
İslam dünyəvi elmə mane olurmu?....................130
Din yer üzündəki müharibələrin səbəbidirmi?...154
İslamda cizyə vergisi haqqında şübhəyə cavab..160
"Allah istəsəydi, onlar müşrik olmazdılar!" şübhəsi.......................................................172
"Xəlifələr Qureyşdən olmalıdır" hədisi irqçilik sayılır?.......................................................181
Quranın versiyaları haqda şübhəyə cavab..........186
Cariyəni cinsi münasibətə məcbur etmək haqda ateist şübhəsinə cavab!....................................203
Həsən, Hüseyn və cənnət yaşı barədə şübhəyə cavab!.......................................................214
Qohumla evlilik, yeni qanuna münasibət...........216
Dində nəyinsə hikməti haqqında soruşmaq olarmı?.......................................................224
Dində dini mövzuların sorğulanması qadağandırmı?............................................ 229
Dinin yenilənməsi mümkündürmü?..................237
Kim daha çox Nobel mükafatı alıb, yəhudilər, yoxsa müsəlmanlar?!....................................241
İnsan ən gözəl biçimdə yaranıbsa, niyə tələskən

yaradılıb?......................................................................258
Kasıbların və varlıların həcci.............................265
Hədis alimləri siyasi təsirlərə düşüb özlərindən hədis yazıblar?...................................................275
Qərbə köçən müsəlmanlar özlərindən beziblərmi?.........................................................306
Müharibə basqınlarında uşaq və qadınları öldürmək olarmı?..............................................317
Ruzi haqqında bir şübhəyə cavab.......................323
Milçək hədisi haqqında şübhəyə cavab..............330
Kitabın içindəkilər..........................................350

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz.

Sahibfarmanoglu@gmail.com

**Kitabın adı**: Ateistlərin Məşhur Şübhələrinə cavablar.
**Kitabın təsnifatı**: Ensiklopediya – dini təyinatlı.
**Redaktədən sonrakı tarix**: 22.05.2026.
**Kitabın səhifələrinin sayı**: 353.
**Kağız ölçüsü**: A4   21 sm × 29.7 sm.
**Müəllif**: Sahib Əsədov Fəriman oğlu.
**Kitabın cild sayı**: Dördüncü cild.
**Redaktə:** Telmar Namazov.

*Allaha necə asilik edilir?*

*İnadçı onu necə inkar edir?*

*Allaha dəlil var hər hərəkətdə,*

*Ona dəlil vardır hər sükunətdə!*

*Hər bir şeydə nişanəsi var Onun,*

*Dəlilidir Onun tək olduğunun!*

**Məşhur ərəb şairi: Ləbid İbn Rabia**